İSSN 2224-0829

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

ELMİ ƏSƏRLƏR
İCTİMAİ ELMLƏR SERİYASI

SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES

НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 2(91)
II CİLD

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2018

İQTİSADİYYAT

AĞARZA RÜSTƏMOV
Naxçıvan Dövlət Universiteti
NAZİM ABIYEV
Naxçıvan Dövlət Universiteti

UOT:332

AQRAR SAHƏDƏ REALLAŞDIRMA MEXANİZMLƏRİNİN İSTEHLAKÇI TƏLƏBLƏRİNƏ UYĞUN TRANSFORMASİYA STRATEGİYASI

Açar sözlər: *reallaşdırma əməliyyatları, satış fəaliyyəti, istehlakçı tələbi, transformasiya prosesləri, ərzaq təhlükəsizliyinin təmin edilməsi*

Key words: *realization operations, sales activity, consumer demand, transformation processes, food security*

Ключевые слова: *реализационные операции, реализационная деятельность, потреби тельский спрос, трансформационные процессы, обеспечение продоволь ственной безопастности*

Ərzaq təhlükəzisliyinin təmin olunması ümumilikdə ölkəmizin, o cümlədən regionların mühüm vəzifələri kimi müəyyənləşdirilmişdir. Müvafiq istiqamətdə kompleks yanaşma özünün çoxsaylı meyar, amil və tərkib elementləri ilə təzahür etməkdədir ki, bu da ilk növbədə aşağıdakı məsələlərin aydınlaşdırılmasını, onlar üzrə araşdırmaların aparılmasını tələb edir:

1. İstehlakçı tələbatının faktiki həcm və tərkibinin müəyyən edilməsi və onların fizioloji normalarla müqayisəsi;
2. Regional aqrar əmtəə istehsalı və reallaşdırılması, regionlararası məhsul dövriyyəsi imkanlarının öyrənilməsi, onların tələbatı faktiki ödəmə dərəcəsinin qiymətmətləndirilməsi;
3. Məhsulların istehsal və satış həcmlərinin artırılması, yeni məhsulların mənimsənilməsi üzrə işlərin icrası, cümlədən ixrac potensialının yaradılması və yüksəldilməsi sahəsində ehtiyatların aşkarlanması, bu istiqamətdə transformativ addımların atılması və s.

İfadə olunan təsnifat özündə kifayət qədər əhəmiyyət və aktuallıq kəsb edən məsələləri birləşdirməkdədir. Ortaya qoyulan düşüncə həmin bəndlərə fərdi qaydada yanaşmanı zəruriləşdirir.

Aqrar məhsullar məzmun etibarı ilə istehlakın (xüsusilə də əhali tərəfindən həyata keçirilən istifadənin) ön pillələrində yer almaqla yanaşı ilk növbədə aşağıdakı parametrlərə cavab verməlidir:

- ✓ spesifik təyinatı və istifadə qaydaları haqqında xarakterik cəhətləri ifadə etməli;
- ✓ vizual görünüşü cəlbedici olmalı;
- ✓ tibbi-sanitar tələblərə cavab verməli;
- ✓ istehlakçının maliyyə imkanlarına uyğun olmalı;
- ✓ rahat qablaşdırma və daşınma imkanları ilə seçilməli;
- ✓ geniş saxlanılma imkanlarına malik olmalı;
- ✓ istehlak prosesində çoxnövlü istifadəyə məruz qala bilməli və s.

Bəhs olunan komponentlərin hər biri təcrübədə özünü kifayət qədər əhatəli dərəcədə təsdiqləməkdədir. Onlar bir tərəfdən istehlakın dolğun ödənilməsində zəruri tələbləri sərgiləmiş olur, digər tərəfdən isə istehsalın quruluşu və həyata keçirilməsi, ənənəvi məhsulların hasilatının genişləndirilməsi, yeni məhsulların mənimsənilməsi kimi proseslərdə transformasiya üzrə zəruri addımların atılmasını əsaslandırır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm məsələ olan istehlakçı tələbatı özü-özlüyündə kifayət qədər əhatəli, şoxşaxəli məsələdir. Belə ki, geniş diapozona malik bu kateqoriya özündə yüzdən çox qida təyinatlı məhsulların istifadəsini nəzərdə tutur. Bunların sırasında birbaşa tarlalardan (və ya fermalardan) qablaşdırılmaq şərtilə istehlakçı süfrəsinə daxil olan məhsullarla yanaşı, sənaye emalına məruz qalan məhsullar da böyük növ-çeşid ifadəsində təmsil olunmaqdadır.

Digər tərəfdən, aparılan müşahidələr (o cümlədən marketinq monitorinqləri) istər ümumilikdə ölkə, istərsə də onun regionları üzrə faktiki istehlak həcmləri haqqında təsəvvür yaratmaqdadır. Belə

vəziyyətdə zəruri informasiyaların çoxsaylı və müxtəlif oriyentasiyalı mübadilə məkanlarından toplanılması bir tərəfdən istehlakın ümumi həcmi haqqında daha dəqiq təsəvvür yaratdığı halda, digər tərəfdən onun növlər və çeşidlər üzrə kəmiyyət və keyfiyyət ifadələrinə də aydınlıq gətirmiş olur.


İstehlakın məzmununa diqqət yetirdikdə iki əsas məqamı vurğulamaq lazımdır:

1. O özündə insan vücudunun tələb etdiyi vitamin, zülal və mikroelementlərin məcmusu üzərində qurulub, fizioloji ehtiyacların təzahür forması və sosial komponentdir;
2. İnsanların gəlirləri əsasında formalaşan iqtisadi komponentdir.

İstər gündəlik insan həyatı, istərsə də xüsusi təşkil edilmiş müşahidələrdən göründüyü kimi insan cəmiyyətinin üzvləri yaş, cins və digər əlamətlər nəzərə alınmaqla fərqli istehlak həcmləri və tərkibinə malikdirlər. bu element 2014-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən ərzaq məhsulları üzrə hazırlanmış normativlərdə də özünü biruzə verməkdədir. Faktiki istehlak həcmlərinin əhalinin müxtəlif yaş qrupları üzrə fərdi fizioloji tələbat ölçüləri ilə müqayisəsi tələbatın ödənilməsi üzrə vəziyyətin hansı səviyyədə olması ilə bağlı məlumat verir. Bununla yanaşı, fərdlərin, ailələrin gəlirlilik göstəriciləri də bəhs olunan məsələdə böyük rol oynayır

Digər tərəfdən, ərzaq məhsulları istehlakının araşdırma obyekti olaraq qəbul edilməsi özündə aqrar məhsullara olan tələbatın hansı amillər əsasında formalaşması və onların ödənilməsi zamanı gözlənilən şərtlər anlayışına da diqqət yetirməyi vacib edir. Bu baxımdan sxem 1-də ifadə olunmuş, iki mühüm "bloku" göstərən təsnifat bəhs olunan məsələyə daha müfəssəl baxışı təmin etməlidir.

Sxem 1. Kənd təsərrüfatı məhsullarının tələbatına təsir edən amillər



Amillərin gözlənilməsi özündə reallaşdırma proseslərində iştirak, bu proseslərdən əldə olunan maliyyə nəticələri (ümumi pul daxilolmaları, gəlir həcmi və s.) məsələlərini daha yüksək və müfəssəl formada ifadə etməyə imkan yaradır.

Bəllidir ki, istehlakçı tələbatının ödənilməsi "istehsal → məhsulların satışa çıxarılması → onların reallaşdırılması" marşrutunun keçilməsi nəticəsində mümkün olur. Sovet dövründən fərqli olaraq müasir şəraitdə haqqında bəhs etdiyimiz fəaliyyət özündə marşrutun hər bir həlqəsi üzrə birbaşa və dolayı təsirə malik amillərin öncədən araşdırılmasını, sistemli öyrənilməsini tələb edir. Lakin mövzunun adından irəli gələrək biz xüsusi diqqəti ikinci və üçüncü həlqələrə yönəltmək niyyətindəyik. Bu halda strateji əhəmiyyət kəsb edən müxtəlif işlərin icrası mümkündür.

Reallaşdırma prosesləri özü-özlüyündə mürəkkəb və çoxvariantlı, iştirakçı tərəflərin və komponentlərin sayı situasiyalardan asılı olaraq dəyişən, tətbiq olunan üsulların tətbiqi şərtlərdən asılı olaraq fərqlənən əməliyyatları əks etdirməkdədir. Bir tərəfdən əhalinin ərzaq təminatının yaxşılaşdırılması, digər tərəfdən isə emal sənayesinin xammala olan ehtiyacının ödənilməsi məhsullar üzrə mübadilə proseslərində iştirakına bir sıra xüsusiyyətlər əlavə etmiş olur. Müvafiq əlavələr sırasında əmtəələrin keyfiyyət və kəmiyyət ifadələri ilə yanaşı mübadilə məkanlarında olan vəziyyətin düzgün qiymətləndirilməsi, ona uyğun strateji və transformativ kursun müəyyən edilməsi zəruridir. Yaranmış situasiyalardan asılı olaraq transformasiya (uyğunlaşma) tədbirləri aşağıdakı istiqamətlər üzrə həyata keçirilə bilər:

1. İstehsalın genişləndirilməsi, məhsul istehsalının fasiləsizliyinin təmin edilməsi hesabına bazara nüfuz etmə;
2. Məhsuların bazara çıxışının artması dövründə "gözləmə" təyinatlı addımların atılması;
3. Məhsulların etibarlılığının yüksəldilməsi və funksionallığının genişləndirilməsi;
4. Əmtəələr haqqında istehlakçılara zəruri informasiyaların verilməsini şərtləndirən yeni strategiyaların hazırlanması;
5. Məhsulun bazarda intensiv irəlilədilməsini təmin edən transformativ addımlardan istifadə olunması;
6. Qeyri-ənənəvi satış bazarlarına çıxış imkanlarının araşdırılması;
7. Tətbiq olunan marketinq kompleksinin və konsepsiyalarının dəyişdirilməsi və real şəraitlə uzlaşdırılması;
8. Q iymətqoyma üzrə səviyyələrə yenidən baxılmasının zəruriliyin özündə əks etdirən transformasiya işlərinin icrası və s.

Məhsulların bazara çıxarılması üzrə strateji istiqamətlərin seçilməsi, onların tətbiqi zamanı hansı tərkibdə işlərin icrası haqqında müfəssəl fikir formalaşdırmaq məqsədilə bitkiçilik məhsulları üzrə nümunəvi qaydada tərtib olunan sxem 2-yə müraciət edək.

Sxemdən də göründüyü kimi, bitkiçilik məhsullarının reallaşdırma məqaləsilə mübadilə məkanlarına çıxarılmasında dörd variantın (ümumi, artım, sabitlik və böhran) nəzərdən keçirilməsi məsələyə daha ayrıntılı yanaşmanın təzahürü kimi ifadə oluna bilər.


Digər tərəfdən aparılması məqsədəuyğun olan təhlillər təkcə istehsalçı tərəfin imkanları üzərində cəmlənməməli, həmçinin istehlakçılar ordusunun ehtiyacları da diqqət mərkəzində olmalıdır. Bu zaman çoxsaylı məqamlara xüsusi fikir verilməlidir ki, onların sırasında mühüm olanlarını aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- ✓ istifadəçilərin istənilən ərzaq məhsullarını müəyyən istehlak xasusiyyətlərinin məcmusu kimi qəbul etməsi;
- ✓ həmin məhsulların əldə olunması zamanı bəhs olunan xüsusiyyətlərin diqqətə alınması və onların vaciblik, maddi imkanlar və digər amillər əsasında sıralandırılması;
- ✓ istehlakçının tələbatının daha yüksək dərəcədə təmin olunması məqsədilə əmtəələrin kəmiyyət-keyfiyyət ifadələri ilə yanaşı onların növ-çeşid tərkibinə, saxlanma müddətlərinə, kateqoriyasına və s. parametrlərə xüsusi diqqətin yetirilməsi;
- ✓ bazar tələbatının öyrənilməsi əsasında ənənəvi məhsulların istehsalının davam etdirilməsi ilə yanaşı yeni məhsulların mənimsənilməsi üzrə işlərin icrası;
- ✓ cari dövrdə məhsulların artan tələbat və istehsal əsasında mübadilə məkanlarına çıxarılmasının həcm ifadələrinin optimallaşdırılması, perspektiv dövrlər üçün kompleks planlaşdırma və proqnozlaşdırma fəaliyyətinin həyata keçirilməsi və s.

Kənd təsərrüfatı əmtəələrinin reallaşdırma proseslərinin araşdırılmasında mühüm iqtisadi vasitələrdən biri də düzgün təşkil edilmiş və vaxtlı-vaxtında icra olunan marketinq fəaliyyətidir. O, eyni zamanda toplayaraq istehsalçılara (ehtiyacı olan digər tərəflərə) təqdim etdiyi məlumatlarla transformasiya və təkmilləşdirmə prosesləri üçün də zəruri maddi zəmini formalaşdırmış olur.

Sxem 2. Bitkiçilik məhsullarının bazara yönəldilməsi və orada iştirakı üzrə fəaliyyət

strategiyasının nümunəvi təsnifləşdirilməsi



Kənd təsərrüfatı əmtəələrinin elmi əsaslar gözlənilməklə marketinq prinsiplərinin tələblərinə

uyğunlaşdırılması bir sıra məsələlərə xüsusi diqqətin ayrılmasını tələb edir ki, bu da aşağıdakıların mövcudluğu və öyrənilməsinə yol açır:

1. məhsulların kateqoriya və çeşidi;
2. mövcud məhsul markasının saxlanması;
3. çeşid vahidinin üfuqi və şaquli istiqamətlərdə genişlənmə imkanları;
4. çeşidin uyğunluğu, strateji təməlləri və planlaşdırılması;
5. məhsulların nomenklaturası, komplektliliyi;
6. məhsul çeşidinin ixtisar edilməsi, məhdudlaşdırılması və s.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi və məhsul bolluğunun yaradılmasında mühüm elementlərdən hesab olunan əmtəələrin çeşidləri üzrə planlaşdırılma fəaliyyətinin həyata keçirilməsi özündə bir sıra istiqamətləri cəmləməkdədir ki, onların sırasında da planlaşdırma aparılacaq əmtəələrin seçilməsi, ənənəvi istehsalı həyata keçirilən yaxud perspektiv dövrdə hasilatı nəzərdə tutulan məhsulların iqtisadi-texniki xarakteristikalarının və istifadə xüsusiyyətlərinin mümkün maksimal dərəcədə istehlakçı istəklərinə uyğunlaşdırılması kimi işlər öncüllük təşkil edir. Deyilənlərin nəzərə alınması şərtilə planlaşdırmada aşağıdakı maddələrin iştirakı məqsədəuyğun hesab edilməlidir:

a) istehlakçıların cari və potensial tələbatının müəyyənləşdirilməsi,

b) hasil ediləcək məhsulların istifadə üsullarının, istehlakçıların bazarın müvafiq seqmentində özünü aparması xüsusiyyətlərinin, rəqib subyektlərin məhsul çeşidinin təhlili;

c) real məhsul çeşidinin təhlili və onun məhsullarının rəqabət qabiliyyətliyinin, istehlakçıların tələbatına uyğunluğunun qiymətləndirilməsi;

ç) yeni məhsulların buraxılması və istehsalı, mənimsənilmiş məhsulların təkmilləşdirilməsi,

d) buraxılan məhsulların tətbiqinin üsul və sferaları haqqında təkliflərə baxılması;

e) istehlakçıların tələbatına uyğun olaraq yeni, təkmilləşdirilmiş məhsulların spesifikasiyalarının hazırlanması;

f) yeni və daha təkmil məhsulların satış perspektivlərinin öyrənilməsi, onların təcrübi sınaqlarının keçirilməsi,

g) məhsulların keyfiyyət, xarici görünüş, qiymət, ad, qablaşdırılma və sair cəhətlərinə dair tövsiyələrin hazırlanması;

h) məhsulun satış üzrə tövsiyələrin hazırlanması,

i) çeşid planlaşdırılmasının istehsal-satış fəaliyyəti ilə əlaqəli sürətdə qiymətləndirilməsi və s.

Kənd təsərrüfatı əmtəələrinin satış ifadələrinə yeni məhsul növ və ya çeşidləri üzrə istehsalının planlaşdırılması və faktiki icrası təsir edən amillərdən hesab olunur. İqtisadi təcrübədə mövcud olan yanaşmalardan aydın olur ki, hazırki inkişaf mərhələsində aqrar sferada aşağıdakıların tətbiqi məqsədəuyğundur:

1. məhsulun istehsalının mənimsənilməsi vaxtı;
2. məhsulun yeni tələbatı ödəməsi imkanları və dərəcəsi;
3. araşdırma, qiymətləndirmə və təhlillər zamanı daha çox meyardan istifadə edilməsi;

Deyilənlə yanaşı daha bir həqiqət üzərində fikirləri cəmləmək məqsədəuyğun olardı. Aqrar məhsulların ölkə və ya region daxilində satışını, istehlakını təmin etməklə yanaşı onların ixraca yönəldilməsi imkanlarının araşdırılması, bu istiqamətdə qiymətləndirmə və təhlil işlərinin aparılması zərurəti də ortaya çıxmaqdadır. Haliyədə ölkəmiz ixrac potensialını sürətlə genişləndirməklə beynəlxalq yük dövriyyəsinin mühüm iştirakçılarından birinə çevrilməkdədir. Ölkədən ixrac olunan məhsullar sırasında neft və neft məhsulları istisna olmaqla, aqrar əmtəələrin payı kifayət qədər yüksəkdir. Bu baxımdan transformativ addımların atılması yolu ilə optimal ixrac ölçülərinin müəyyən edilməsi, istehsal imkanlarının genişləndirilməsi və yüksəldilməsi hesabına yeni xarici bazarların tapılması da reallaşdırma proseslərinin transformasiya prosesinə məruz qalması sırasında zəruri yerlərdən birini tutmaqdadır.

Məqalədə hazırkı dövr üçün öz aktuallığı ilə seçilən aqrar sahədə reallaşdırma mexanizmlərinin istehlakçı tələblərinə uyğun transformasiya strategiyası haqqında məlumatlar əksini tapmışdır. Onun sistemli və kompleks qaydada həyata keçirilməsi istehlakçıların tələbatının daha dolğun ödənilməsi ilə yanaşı aqrar istehsalçıların istehsal-maliyyə fəaliyyətinə müsbət təsirsiz ötüşməyəcəkdir.

ƏDƏBİYYAT

1. Abbasov A.F. Ərzaq təhlükəsizliyi, Bakı, Elm və həyat, 2007, 602 s.
2. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar, konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı, AzTU-nun mətbəəsi, 2016, 301s.
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri**,** Naxçıvan, Qeyrət, 2014, 107 s.
4. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan, Əcəmi, 2017, 257s.
5. Bağırov M.S. Sahibkarlıq subyektləri və istehlakçı cəmiyyətləri: əmtəə mübadiləsi və tərəflərin mənafelərinin təmin edilməsi / "Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri" mövzusunda respublika elmi konfransının materialları (10-11dekabr). Bakı, ATU-nun nəşriyyatı, 2013. s.250-252.
6. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, Elm, 2005, 228 s.
7. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avropa, 2013. 406 s.
8. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, Elm, 2004, 504 s.
9. Попов Н.А. Основы рыночной агроэкономики и сельского предпринимательство. М: Hayka, 2001, 352 с.

ABSTRACT

Agharza Rustamov
Nazim Abiyev

MANUFACTURER OF REALIZATION MECHANISMS IN AGRICULTURE TRANSFORMATION STRATEGY RELATED TO REQUIREMENTS

The article selected the implementation of the key research object. Their study was generally based on the examples of the agricultural sector, which plays an important role in ensuring food security of our country, its separate regions, and increasing the country's export potential.

The transformation processes have played an important role in the economy of any country, and these processes are continuing in the region. Thanks to them, changes in the quantitative and qualitative characteristics of the products, their production and implementation processes, and the wide range of renewal and upgrades are made.

In the article, the implementation processes were investigated depending on two factors. The first one is related to the field. Agriculture has been selected by many factors at the expense of the traditional production area for our country, due to the pre-production cycle, product type and variety, internal characteristics of products and other factors.

On the other hand, the definition of the ability to meet consumer demand is based on the increasing consumption of the population, on the one hand, on the one hand, as well as on renewal and adaptation measures based on their evaluation, and on the increase and expansion of the processing industry's production capacities. which ultimately plays an important role in providing food security directly and indirectly.

РЕЗЮМЕ

Агарза Рустамов
Назим Абыев

ТРАНСФОРМАЦИОННАЯ СТРАТЕГИЯ РЕАЛИЗАЦИОННЫХ ПРОЦЕССОВ В СООТВЕТСТВИИ С ПОТРЕБИТЕЛЬСКИМ СПРОСОМ

В статье основным объектом исследования выбраны реализационные операции. Их изучение произведено на основе сельскохозяйственной отрасли, играющей важную роль в обеспечении продовольственной деятельности, в повышении экспортного потенциала как по

стране вцелом, так и в региональном масштабе.

Трансформационные процессы играли важную роль в экономике любой страны, этот процесс продолжается и по сей день. За их счет производятся изменения в широком дипозоне в форме обновления и усовершенствования на количественно-качественные характеристики товаров, на организацию их производственных и реализационных процессов.

В статье реализационные процессы подвергаются исследования в зависимости от двух факторов. Один из них – отраслевой фактор. Являющееся традиционной производственной отраслью сельское хозяйство наряду с этим отличается своим производственным циклом, видами и номенклатурой товаров, их внутренними характеристиками.

А также выявление возможностей погашения потребительского спроса, обращение к мероприятиям обновления и соответствия на основе их оценивания в сущности исходит с одной стороны от повышения потребления населения, с другой же – от увеличения и расширения производственных мощностей перерабатывающей промышленности, что в конечном счете играет важную роль в формировании непосредственными и различными косвенными путями организации продовольственной безопастности.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

NAZİM ƏHMƏDOV
Naxçıvan Dövlət Universiteti

UOT: 331.1

İNSAN KAPİTALININ İNKİŞAFI DÖVLƏT SİYASƏTİNİN PRİOPİTET İSTİQAMƏTİDİR

Açar sözlər: *insan kapitalı, təhsil, səhiyyə, reytinq cədvəli, sosial rifah, yol xəritəsi*
Key words: *human capital, education, health, rating table, social welfare, road map*
Ключевые слова: *человеческий капитал, образование, здравоохранение, рейтинговые таблицы, социальное благосостояние, дорожная карта*

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi müasir Azərbaycan dövlətinin qurulması və inkişaf xətti XXI əsrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, artıq XXI əsrin qlobal çağırışlarına uyğun modernləşmə, sürət və yeni keyfiyyət standartları, harmonik inkişaf, dünya iqtisadiyyatına sıx inteqrasiya və mükəmməl dövlət quruculuğu siyasətidir.

Ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyən etdiyi neft strategiyasının mühüm tərkib hissəsi olan və 1994-cü ilin 20 sentyabrında imzalanmış "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, bizə neft kapitalını insan kapitalına çevirmək lazımdır □1□. Neftdən gələn "qara qızıl", "insan kapitalı qızılına" çevirmək bu, dövlətin marağına tam uyğun gəlir. Çünki neft tükənən təbii sərvətdir, amma intellekt tükənən deyil, onun verəcəyi bəhrə gələcək inkişafa və tərəqqiyə malikdir.

Məlum olduğu kimi iqtisadçılar kapitalı üç növə ayırırlar:

1.Fiziki kapital.

2.Təbii kapital.

3.İnsan kapitalı.

Fiziki kapital – birbaşa istehsalatda istifadə olunan istehsal vasitələridir. Fiziki kapital dairəvi hərəkət edir: başlanğıc kapital – istehsalat – hazır məhsul. Təbii kapital – bioloji sahə olaraq minerallar, bitkilər və heyvanat aləmini təşkil edir. İnsan kapitalı – insanın, o cümlədən bütövlükdə cəmiyyətin çoxşaxəli tələblərinin yerinə yetirilməsi üçün bilik, bacarıq və vərdişlərin vəhdətidir.

İnsan kapitalı iqtisadi inkişaf üçün mühüm şərtlərdən biridir. İqtisadi təhlillərin ayrıca bölməsi kimi insan kapitalı nəzəriyyəsi yalnız XX əsrin 50-60-cı illərində formalaşmışdır. Bu ideyanı ilk dəfə Amerika iqtisadçısı, Nobel mükafatı laureatı Teodor Şuls irəli sürmüşdür. O, "İnsan kapitalına sərmayə" adlı məqaləsində qeyd edir ki, bilik və bacarıq kapital forması deməkdir □2□. Xüsusilə, bu məqalənin "İnsan kapitalından iqtisadi artım" adlı ikinci hissəsində o, təsdiq edir ki, insanların mənfəəti arasındakı fərq onların təhsilə və səhiyyəyə çıxışlarının fərqi ilə əlaqədardır. Cəmiyyət, əsasən qida və sığınacaqdan ötrü narahat olduğundan bu problemləri həll etmək üçün qısamüddətli sərmayələrin yatırımına üstünlük verir.

Lakin əsas ehtiyacları təmin olunmuş inkişaf etmiş cəmiyyətlərdə isə təhsilə, səhiyyəyə və miqrasiyaya uzunmüddətli sərmayə yatırımı daha rahat olur ki, bu da, təhsil və təlimin yüksəldilməsinə kömək edir, eləcə də yeni iş yeri tapmağa şərait yaradır.

O vaxtdan başlayaraq iqtisadiyyatın yüksəldilməsinin mənbəyi kimi başqa sahələrə ayrılan sərmayələrlə yanaşı, insana yatırılan sərmayələrin də vacib olduğuna daha çox diqqət ayrıldı.

Teodor Şuls, kəmiyyət etibarı ilə təhsilə yatırılan sərmayələrin iqtisadi artımını qiymətləndirərək belə nəticəyə gəlmişdir ki, XX əsr ərzində insan kapitalına yatırılan sərmayənin gəliri, fiziki kapitala qoyulan sərmayənin gəlirindən artıq olmuşdur. Honqonq, Sinqapur və cənubi Koreyanın təcrübəsi təsdiq edir ki, təhsilə yatırılan sərmayə iqtisadi inkişaf strategiyası üçün daha səmərəli hesab olunur.

Amma ötən əsrin 70-ci illərində "insan kapitalı" nəzəriyyəsi, özlərini "filtr nəzəriyyəsi" adlandıranlar tərəfindən hücuma məruz qaldı. Bu tənqidçilərdən biri məşhur iqtisadçı C.Stiqliqdir. O, hesab edir ki, daha yüksək məhsuldarlıq işçinin təhsil alması ilə deyil, onun şəxsi bacarıqları ilə bağlıdır. Sadəcə olaraq bu bacarıq onda əvvəldən mövcud olsa da, amma o, bunu indi aşkar edir. "Filtr nəzəriyyəsi" ayrıca hansısa bir fərdin diploma malik olmasının xeyirli olmasına şübhə ilə yanaşmır. Amma bütövlükdə cəmiyyət üçün bu cür bahalı "siqnal cihazı"nın (burada o nəzərdə tutulur ki, təhsil iş yerinə ərizə verənin və ya iddia edənin, işə götürən tərəfindən güman edilən intellektual imkanlara malik olması barədə "siqnal" verir) mahiyyəti təhsil sistemini səmərəsiz edir. Çünki iş bacarığı keyfiyyətlərini aşkar etmək üçün daha sadə və ucuz yoxlama üsulları məlumdur □3□. O vaxtdan təhsil nöqteyi-nəzərindən insan kapitalına yanaşma bir qədər azalmışdır və burada iki yanaşma arasında balans tərəfdarları yaranmışdır.

Amma buna baxmayaraq cəmiyyət əsas üstünlüyü təhsilin yüksəldilməsinə verir və hesab edir ki, bu kapitala nə qədər çox sərmayə qoyulsa, o qədər də iqtisadi nəticə əhəmiyyətli ola bilər.

Qeyd etmək lazımdır ki, insan kapitalının inkişafı birmənalı olaraq təhsilin keyfiyyəti ilə sıx bağlıdır. Demək olar ki, bunun üçün Azərbaycanda hər cür şərait mövcuddur. Artıq bu gün ölkədə aparılan iqtisadi islahatlar onu deməyə əsas verir ki, təhsil və səhiyyə sisteminə yeni texnologiyaların alınıb gətirilməsi və tətbiq edilməsi bu işin inkişafına əsaslı şəkildə təkan verəcəkdir.

Təkcə bir faktı göstərmək lazımdır ki, son illər Azərbaycanda bu istiqamətdə nəzərə çarpacaq dərəcədə işlər görülür. Məsələn, "Müasir dövrdə təhsilin inkişafı məqsədilə ölkə Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən dövlət proqramları həyata keçirilməkdədir. Buna misal olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin İKT ilə təmini proqramı (2005-2007-ci illər", "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət proqramı" göstərilə bilər. Bunlarla yanaşı, 2009-cu ildə ölkə prezidentinin "Azərbaycan Prezidenti yanında Elmin İnkişaf Fondu"nun yaradılması ilə bağlı sərəncamı da yuxarıda qeyd olunanların sırasına əlavə oluna bilər" □4□.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, insan kapitalının inkişafı hələ Ümummilli liderimiz Heydər Əliyevin birinci hakimiyyəti dövründə başlanmışdır. Ulu öndərimiz hələ o vaxt Azərbaycanın gələcəyini görərək minlərlə gənci xarici ölkələrin ən yaxşı universitetlərinə təhsil almağa göndərmiş və bu gün də bu proses ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prezident İlham Əliyevin 2016-cı ilin oktyabr ayında verdiyi fərmanla ölkənin iqtisadi, sosial-mədəni həyatının 11 istiqaməti üzrə strateji islahatların yol xəritəsi hazırlanmışdır.

Strateji inkişafın yol xəritəsində insan kapitalı, sosial rifah, həyat keyfiyyətinin yüksəldilməsi kimi sosial əhəmiyyətli məsələlər də öz əksini tapmışdır. Postneft dövründə dərin iqtisadi islahatların aparılması nəticəsində 2025-ci ildə Azərbaycan həyat səviyyəsi və insan inkişafı indeksinə görə yeni mərhələyə qədəm qoyacaqdır. Yaxşı həyat keyfiyyəti üçün vacib olan şərtlər təhlükəsiz ərzaq təminatı, ekoloji sağlamlıq, sosial rifah, səhiyyə və təhsil kimi insan həyatının, ömür uzunluğunun müsbət inkişafına təsir edən amillərdir. Bu amillər içərisində iki məsələni xüsusi olaraq vurğulamaq lazımdır.

İnsan kapitalının inkişafında əsas yerlərdən birini səhiyyə sisteminin inkişafı, tibbi xidmətlərin keyfiyyəti və insanların bu xidmətlərə əlçatma imkanları dayanır. Ölkəmizdə son 10 ildə səhiyyə sahəsində görülən işlər, əldə edilən uğurlar vətəndaşlarımızın sağlamlığının möhkəmlənməsi, rifahın yüksəldilməsi və orta ömr uzunluğunun artmasına imkan vermişdir. Artıq bu gün Azərbaycanda orta ömür uzunluğu kişilər arasında 72,7 yaş, qadınlar arasında isə 77,6 yaş təşkil edir ki, bu da dünya üzrə yaxşı göstərici sayılmalıdır.

Qeyd etdiyimiz kimi insan kapitalının inkişafında mühüm amillərdən biri də təhsildir. Ölkəmizdə ibtidai və orta təhsil icbaridir və tam dövlət vəsaiti hesabına həyata keçirilir. Təhsilin bütün pillələrində uğurlu islahatlar aparılır, qanunvericilik bazası genişlənir və möhkəmlənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "20074-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ilə 2007-2015-ci illər ərzində 3000-dən çox azərbaycanlı gənc dünyanın müxtəlif aparıcı universitetlərində ali təhsil almaq imkanı əldə etmişdir. Bundan əlzvə ölkəmizdə aztəminatlı ailələr

də dövlət qayğısı ilə əhatə olunmuşdur. Belə ailələrin övladları ölkədə fəaliyyət göstərən dövlət və özəl universitetlərdə dövlət vəsaiti hesabına təhsil alırlar.

Bu gün dünyada mövcud olan ölkələrin hər birinin öz modeli vardır. Azərbaycan Respublikası da XX əsrin axırlarında yeni bir iqtisadi sistemə transformasiya olunduğuna görə özünün yeni inkişaf modelini, sosial yönümlü bazar iqtisadiyyatı modelini yaratmışdır.

Beləliklə, Azərbaycan sosial dövlətdir və dövlətimizin məqsədi vətəndaşlarımız üçün maksimum həyat şəraitinin təmin edilməsidir. Sosial dövlətin əsas göstəricilərini müəyyən edən indekslərdən biri də Ümumdünya İqtisadi Forumunun hazırladığı "İnsan Kapitalı İndeksi" reytinq cədvəlidir. 2016-cı ilin nəticələrinə görə Azərbaycan bu göstəriciyə görə dünyada 64-cü yeri tutmuşdur. Ölkəmiz təhsil səviyyəsinə görə 71-ci, əlverişli sosial mühit, işçi qüvvəsi və məşğulluğa görə isə 55-ci yerdə qərarlaşmışdır. Azərbaycan beynəlxalq reytinq göstəricilərini ildən-ilə yaxınlaşdıraraq insan kapitalı inkişafına görə dünyada yüksək insan inkişafı qrupunda yer almışdır.

Ümumiyyətlə Azərbaycan universitetlərində olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ali məktəblərində də təhsil islahatları həyata keçirilir, intellekt hazırlanması davam etdirilir. Belə ki, 2016 və 2017-ci illərdə Azərbaycan Universitetləri arasında keçirilən yarışlarda Naxçıvan Dövlət Universiteti iki il dalbadal 1-ci yeri, Naxçıvan Müəllimlər İnstitutu isə 2016-cı ildə 9-cu, 2017-ci ildə isə iki pillə irəliləyərək 7-ci yerdə qərarlaşmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Sədrinin göstərişlərinə uyğun olaraq hər il onlarla naxçıvanlı gənclər xarici dövlətlərin ən yaxşı universitetlərinə təhsil almaq üçün göndərilir. Təhsilini başa vuran gənclər isə doğma yurduna qayıtdıqdan sonra yeni yaradılmış innovasiya yönümlü müəssisələrdə yüksək maaşla işlə təmin edilir.

"Azərbaycan 2020-gələcəyə baxış" İnkişaf Konsepsiyasına nəzər saldıqda məlum olur ki, gələcək üç ildə də insan kapitalına diqqətin artırılması gündəmdə duran prioritet məsələlərdən biri olacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Adiloğlu, 2007, 96 s.
2. Schultz T.W. Investment in human capital–The American Economic Review, 1961, 1(2), 1-17.
3. Stiglitz J. The theory of screening, education and the distribution of income–Cowles Foundation discussion papers, 354, Yale University,1973.
4. http:www, azarbaijan-news.az/index.php?mod=3&id=27100.

ABSTRACT

N.H Ahmadov

HUMAN CAPITAL DEVELOPMENT IS A PRIORITY DIRECTION OF THE STATE POLICY

The article deals with human capital development. It is noted that, education and health system development currently acts as an important factor in human capital development in the country. Also, looking at the rating tables that international organizations made, their extensive analysis is provided in the article.

РЕЗЮМЕ

Н.Г Ахмедов

РАЗВИТИЕ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

В статье говорится о развитии человеческого капитала. Отмечается, что сегодня развитие системы образования и здравоохранения в стране выступает как важнейший фактор в развитии человеческого капитала. Также в статье просматриваются и широко анализируются рейтинговые таблицы, подготовленные международными организациями.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

DİLSUZ QASIMOV
Naxçıvan Dövlət Universiteti
dilsuzqasimov1949@gmail.com

UOT: 332.2.021

DÖVLƏTİN AQRAR SİYASƏTİ: AQRO-ƏRZAQ ZƏNCİRİNİN İNKİŞAFINDA DÖVLƏTİN DƏSTƏYİ VƏ ÖZƏL SEKTORUN ROLU

Açar sözlər: *aqrar siyasət, aqro-ərzaq zənciri, dövlət dəstəyi, özəl sektor, məhsul istehsalı*
Key words: *agrarian policy; agro-food relations; state support; private sector; production*
Ключевые слова: аграрная политика, аграрно-продовольственная цепочка, государственная поддержка, частный сектор, производство продукции.

Aqro-ərzaq zəncirinin inkişafına özəl sektorun cəlb edilməsi ərzaq təhlükəsizliyi kontekstində çox mühüm əhəmiyyətə malikdir. Azərbaycanın aqrar siyasətinin əsas məqsədi aqro-ərzaq zəncirinin səmərəliliyinin təmin edilməsidir**.** Aqrar sektorun iqtisadiyyatın inkişafında ərzaq təhlükəsizliyinin təmin edilməsi strateji vəzifə olmaqla, bunun uğurla həyata keçirilməsi təkcə kənd təsərrüfatının yox, ümumiyyətlə aqrar-sənaye kompleksinin inkişafını tələb edir. Bu gün iqtisadi inkişafın davamlı, dayanıqlı şəkildə qurulması, təmin olunması aqrar sektorun inkişafından bilavasitə asılıdır. İqtisadiyyatın şaxələndirilməsinin, eyni zamanda qeyri-neft sektorunun inkişafının ən mühüm şərtlərindən biri kənd təsərrüfatının potensialının tam reallaşdırılmasından ibarətdir. Hazırda ölkəmizdə əhalinin yarısı kənd ərazisində yaşayır. Deməli, dövlətin aqrar siyasəti eyni zamanda ciddi sosial problemlərin həllinə yönəldilmişdir. Məşğul əhalinin 38-40 faizi kənd təsərrüfatında çalışması və aqrar siyasət həm də iş yerlərinin açılması baxımından çox mühüm əhəmiyyət kəsb edir. Yoxsulluğun azaldılmasına aqrar sahədə problemlərin həllinin mühüm təsiri vardır.

Aqrar sektora dövlət tərəfindən genişmiqyaslı dəstək proqramları həyata keçirilir. Bu dəstəyin istiqamətləri də çoxşaxəlidir. Məsələn, bölgələrdə kənd təsərrüfatı üçün infrastruktur yaradılmaqdadır. Dövlət investisiyaları bu sahəyə yönəldilir. "Aqrolizinq" ASC dövlət tərəfindən dəstəklənir. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının və müvəqqəti suvarma sistemlərinin ilkin dəyərinə 40 faiz həcmində güzəşt tətbiq edilib, aqrar sektorda çalışan sahibkarlara mineral gübrələrin satış qiymətlərinə tətbiq edilən güzəştlərin həcmi isə 50 manatdan 70 manatadək artırılıb. Sahibkarlığa Kömək Milli Fondunun kredit portfelinin 65-70 faizi kənd təsərrüfatı istehsalına və onun emalı sahələrinə yönəlmişdir. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün növ vergi ödənişlərindən azaddır. Müasir meliorasiya, irriqasiya sistemləri dövlət investisiyaları hesabına qurulur. Ümumiyyətlə, dövlət bütün istiqamətlər üzrə fermerlərə öz dəstəyini verməkdədir. Vəzifələrə gəldikdə isə birinci mühüm məsələ dövlət dəstəyinin səmərəli təşkil olunmasıdır. Bu, aqrar siyasətdə prinsipial vəzifə kimi Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuşdur və aqrar siyasəti həyata keçirən qurumlar bu məsələyə xüsusi diqqət yetirməkdədirlər. Kənd təsərrüfatı torpaqlarından səmərəli istifadə olunması, texnika parkının modernləşdirilməsi, daha müasir innovativ texnologiyaların tətbiqi gündəmdə olan məsələlərdəndir. Həm bitkiçiliyin, həm də heyvandarlığın intensiv inkişaf etdirilməsi hesabına ölkədə məhsuldarlığın artırılması və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin olunması əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir. Emal müəssisələri şəbəkəsinin genişləndirilməsinə, əkin sahəsi strukturunun təkmilləşdirilməsinə, xüsusilə də gəlirli sahələrin ixrac potensialı olan yeni dəyər yaratmaq imkanlarına malik sahələrin inkişaf etdirilməsinə xüsusi diqqət verilməkdədir. Azərbaycanda aqrar sahədə institusional islahatların istiqamətləri müəyyən edilmiş, xüsusən xaricdə logistika mərkəzlərin yaradılmasının vacibliyini əsas məsələlərdəndir. Dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi, subsidiya siyasətinə yenidən baxılması, kadr təminatı problemlərinin həll olunması, elektron kənd təsərrüfatı bu gün prioritet məsələlərdir. Elektron kənd təsərrüfatı çərçivəsində mühüm məsələlərdən

biri də fermerlərin elektron qeydiyyat sisteminin yaradılmasıdır.(2)

Kənd təsərrüfatında kooperasiyanın inkişaf etdirilməsi, qida təhlükəsizliyi, müasir dövr üçün aqrar sənaye kompleksinin inkişaf strategiyasının hazırlanması da gündəlikdə olan məsələlərdəndir. Ölkədə fermerlərə dövlət dəstəyinin səmərəli təşkil edilməsi, kənd təsərrüfatının effektivliyinin təmin olunması, sahənin məhz bazar iqtisadiyyatı prinsipləri üzərində inkişafı, bitkiçiliyin şaxələndirilməsi, kənd təsərrüfatında müqayisəli üstünlüklərin nəzərə alınması, həm aqrar siyasətdə, həm də iqtisadi siyasətdə məhsul zənciri, dəyər zənciri əsas prinsiplərdəndir. Dəyər zəncirinin inkişafı aqrobiznesin və ərzaq bazarının daha səmərəli fəaliyyətini təmin edir. Ərzaq zənciri istehsal, logistika, emal, satış, istehlak mərhələlərinə kimi bütün həlqələri əhatə edir. Bu həlqələrin bir-biri ilə əlaqələndirilməsi vacibdir.

Aqrar sahədə mövcud problemlərin həlli istiqamətində "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin Sərəncamında qeyd edildiyi kimi ərzaq zəncirinin inkişafında özəl sektorun cəlb edilməsi kənd təsərrüfatının mürəkkəb dünya iqtisadiyyatı şəraitində artım nümayiş etdirməyə davam edən azsaylı sektorlardan biridir. FAO-nun proqnozlarına əsasən 2050-ci ildə ərzağa tələbat 2006-cı illə müqayisədə 70% artacaqdır. Bu, ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsini daha da aktual edir. Bu problemin həlli ən vacib məsələlərdən biridir. Bu fakt onu göstərir ki, hazırda ərzaq təhlükəsizliyi probelminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir,qarşıda duran mühüm vəzifə isə ixrac potensialından maksimum dərəcədə faydalanmaq, milli istehsala əsaslanaraq kənd təsərrüfatı məhsulların dərin emal və ixracına nail olmaqdır. Azərbaycanda kənd təsərrüfatı istehsalının təqribən bütün həcmləri özəl sektor tərəfindən təmin edilir. Azərbaycanda aqrar sahədə istehsalın əhəmiyyətli artımı sovet dövründən fərqli olaraq, özəl sahibkarların səyləri sayəsində əldə olunur. Hazırda özəl sektor ölkədə kənd təsərrüfatı istehsalının təxminən 97 faizini təmin edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindən hesab olunur. Bu sahədə 2001-ci ildən ölkədə həyata keçirilən dövlət proqramları kənd təsərrüfatı məhsullarının istehsal həcmlərinin artmasında və əhalinin təminat səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynayıb. Bununla əlaqədar olaraq aqrar-sənaye kompleksi yeni iş yerlərinin yaradılması vasitəsi və əhalinin gəlirlərinin artırılması aləti kimi həlledici rola malikdir. Azərbaycan hökuməti kənd təsərrüfatı istehsalçılarına hər cür dəstək göstərir. Bu dəstək Sahibkarlığa Kömək Milli Fondunun xətti üzrə güzəştli kreditlərin verilməsi və kənd təsərrüfatı texnikasının güzəştli lizinqi mexanizmləri, eləcə də vergi tətilləri və digər vasitələrlə göstərilir. Ölkənin aqrar-sənaye kompleksinin gələcək inkişafının prioritetlərindən biri Azərbaycanın ixrac potensialının genişləndirilməsi üçün ölkə daxilində və xaricində iri logistik mərkəzlər yaradılmasıdır. (2)

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin strukturunda yeni qurumların yaradılması kadr hazırlığı və aqro-biznes üçün yeni proqramların inkişafına təkan verəcək. Xüsusi ilə Nazirliyin tərkibində marketinq şöbəsinin yaradılması gələcəkdə ölkədə ərzaq təsərrüfatı, kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təminatına zəmin yaradar, digər yeni şöbələrin yaradılması öz növbəsində yeni inkişaf proqramlarının həyata keçirilməsinə geniş imkanlar açacaqdır.

Azərbaycanda aqrar sektorun istehsal sahələrində özəl bölmənin rolunun artmasına və aqrobiznesin inkişaf etdirilməsinə, həyata keçirilən dövlət siyasətinin əsasını özəl sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi təşkil edir.

20 fevral 2014-cü ildə Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (ƏKTT), Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye, Kənd Təsərrüfatı Nazirliklərinin dəstəyi ilə keçirilən Aqro - ərzaq zəncirinin inkişafına özəl sektorun cəlb olunması üzrə Yüksək Səviyyəli Forumda "2020 hədəfləri: "Azərbaycanda aqro-ərzaq zəncirinin inkişafı", "QDİƏT regionunun aqro-ərzaq zəncirinin inkişafına özəl sektorun cəlb edilməsi üzrə prioritetlər və çağırışlar", "Azərbaycanda kənd təsərrüfatı və aqrosənaye sahəsinin vəziyyəti və inkişaf prioritetləri" və digər mövzularda məruzələr dinlənilmiş, "dəyirmi masa"lar təşkil olunmuş və müzakirələr aparılmışdır. Beynəlxalq forumda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (ƏKTT) ərzaq təhlükəsizliyi, qida məhsulları ilə təminat və onların istehsalı üçün birgə fəaliyyət göstərmək

niyyətində olduqlarını bildiriblər. Forum iştirakçıları qarşısında duran vəzifələrdən biri həm regional, həm də qlobal miqyasda müxtəlif strukturların fəaliyyətinin sinxronlaşdırılmasıdır. (1)

9 aprel 2018-ci ildə Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd olunub ki, kənd təsərrüfatında artım 4,2 faizdir, bu xüsusilə bitkiçilikdə yaxşı göstəricidir. Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır. Növbəti illərdə ərzaq təhlükəsizliyi məsələlərinin həlli baxımından xüsusilə taxılçılığa və heyvandarlığa daha böyük diqqət yetirməlidir. Odur ki, Prezident İlham Əliyev yekun nitqində xüsusilə qeyd edib ki, taxılçılıq, heyvandarlıq ərzaq təhlükəsizliyini təmin edən əsas sahələrdir: "Bilirəm ki, dövlətin dəstəyi ilə və özəl qurumların fəaliyyəti nəticəsində buğda əkini genişlənir, yeni əkin sahələri dövriyyəyə çıxarılır, suvarma işləri təmin edilir. Bu sahəyə çox ciddi diqqət göstərilməlidir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam təmin edə bilək. Biz indi ət, süd məhsulları ilə özümüzü təqribən 80-90 faiz səviyyəsində təmin edirik, amma buğda ilə təminat sahəsində bu rəqəm daha aşağıdır. Ona görə, növbəti illərdə bu sahəyə və eyni zamanda, quş ətinin istehsalına daha böyük diqqət yetirilməli və investisiyalar qoyulmalıdır". Prezident İlham Əliyev həmçinin yaradılmaqda olan 45 aqroparkın Azərbaycanın ixrac potensialının böyük dərəcədə artıracağına əmin olduğunu vurğulayıb: "Bu aqroparkların 28-i bitkiçilik, 17-si isə heyvandarlıq kompleksidir. Bu, həm ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət göstərəcək, eyni zamanda, ixrac imkanlarımızı genişləndirəcək. Biz mütləq yeni ixrac bazarlarına üz tutmalıyıq. İndi bu istiqamətdə işlər gedir, müxtəlif ölkələrə ixrac missiyaları ezam edilir. Daha da fəal olmalıyıq və daha ciddi nəticələr olmalıdır ki, kontraktlar imzalansın və bizim məhsulumuz növbəti, yəni, yeni bazarlara çıxa bilsin. Təbii ki, ənənəvi bazarlarda yerimizin möhkəmləndirilməsi istiqamətində addımlar atılır. Hazırda Azərbaycanda 400 hektarda, ondan da çox sahədə yeni istixana kompleksləri yaradılır. Onların bir hissəsi artıq fəaliyyətə başlayıb. Bu istixanaların əsas bazarı xarici bazarlardır. Çünki biz özümüzü tərəvəzlə artıqlaması ilə təmin edirik". Dövlət başçısı bildirib ki, kənd təsərrüfatı texnikasının alınması prosesi bundan sonra da davam etdiriləcək: "Bu il bu məqsədlər üçün 160 milyon manat nəzərdə tutulur, ən azı 5 min texnika gətirilməlidir. Keçən il 10 min texnika gətirilmişdir, amma bu proses davam etməlidir. Çünki bizim hələ köhnədən qalan texnikamız kifayət qədər çoxdur, sıradan çıxan var. Biz texnika parkımızı tam müasirləşdirməliyik".(2)

Qeyd olunmalıdır ki, dövlətin dəstəyi ilə yaradılan müəssisələr həm iş yerlərinin açılmasına xidmət edir, həm yerli istehsalı gücləndirir. Sahibkarlığın inkişafına kompleks şəkildə yanaşmaq, institusional islahatlar aparmaq və sahibkarlara maliyyə resursları, metodik tövsiyələr vermək, dövlət tərəfindən kənd təsərrüfatı texnikası almaq, subsidiyalar vermək, meliorativ tədbirlərə böyük vəsait xərcləməklə kənd təsərrüfatı üçün daha yaxşı imkanlar yaradılmalıdır. Yol infrastrukturu, digər infrastruktur-elektrik enerjisi, içməli su, qaz xətləri - görülən bütün bu işlər vətəndaşlara və eyni zamanda, sahibkarlara xidmət göstərir. Ona görə, növbəti illərdə qeyri-neft sektorunun o,cümlədən aqrar sektorun inkişafı iqtisadi siyasət istiqamətində əsas prioritet olacaqdır ki, bu istiqamətdə qəbul edilmiş qərarlar öz gözəl nəticəsini verməkdədir.

ƏDƏBİYYAT

1. Aqro-ərzaq zəncirinin inkişafında özəl sektorun rolu .- Bakıda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Biznes Şurasının (QDİƏT), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı, İqtisadiyyat və Sənaye, Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi ilə "Aqro-ərzaq zəncirinin inkişafına özəl sektorun cəlb olunması" mövzusunda forum 20 fevral 2014
2. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqi -9 aprel 2018-ci il

ABSTRACT

Dilsuz Gasimov

STATE AGRARIAN POLICY: THE STATE SUPPORT AND PRIVATE SECTOR ROLE IN THE AGRO-FOOD RELATIONS

In this article were studied the development issues of the organization of state support agrarian entrepreneurs, the development of private sector in the free-market economy, the comparatively superiority of different field of agricultural sector and agro-food relations either in agrarian and economic policy.

РЕЗЮМЕ

Дилсуз Гасымов

АГРАРНАЯ ПОЛИТИКА ГОСУДАРСТВА: ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА И РОЛЬ ЧАСТНОГО СЕКТОРА В РАЗВИТИИ АГРАРНО-ПРОДОВОЛЬСТВЕННОЙ ЦЕПОЧКИ

В статье исследованы эффективная организация государственной поддержки аграрным предпринимателям, обеспечение эффективности сельского хозяйства, развитие частного сектора исключительно на основе принципов рыночной экономики, принятие во внимание сравнительных преимуществ различных отраслей сельского хозяйства, вопросы развития аграрно-продовольственной цепочки в аграрной политике, а также в экономической политике.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07

ƏŞRƏF ƏLƏKBƏROV
Naxçıvan Dövlət Universiteti
a.ashraf@mail.ru

UOT: 332.2.021

DÖVLƏTİN SOSİAL SİYASƏTİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *bazar iqtisadiyyatı, sosial-iqtisadi inkişaf, sosial siyasət, sosial infrastruktur, regional siyasət*

Key words: *market economy, socio-economic development, social policy, social infrastructure, regional policy*

Ключевые слова*: рыночная экономика, социально-экономическое развитие, социальная политика, социальная инфраструктура, региональная политика.*

İnkişaf etmiş dünya ölkələrinin təcrübələri göstərir ki, ümumilikdə iqtisadi inkişafda və insanların birinci dərəcəli tələbatının ödənilməsində sosial infrastruktur sahələrinin rolu və əhəmiyyəti getdikcə artmaqdadır. Belə ki, cəmiyyətin ümumi tələbatının ödənilməsində – elmin təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı xüsusi strateji əhəmiyyətə malikdir. Sosial infrastruktur sahələrinin kompleks qarşılıqlı inkişafı müasir dövrdə də iqtisadi potensialın daha da möhkəmləndirilməsində əvəzsiz rola malikdir. Bu baxımdan sosial infrastruktur sahələrinin fəaliyyətinin və inkişafının tədqiq edilməsi xüsusi nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, iqtisadiyyat şaxəli inkişaf etdikcə sosial infrastruktur sahələri də geniş miqyas almış olur. Belə ki, ölkədaxili regionlarda yeni rayonların mənimsənilməsi, şəhər və qəsəbələrin salınması, bir sözlə, cəmiyyətdə mütərəqqi dəyişikliklərin baş verməsi, müvafiq sosial infrastruktur sahələrinin inkişafına səbəb olur. Deməli, sosial infrastruktur cəmiyyətə və insanlara xas olan tələbata uyğun olaraq formalaşır və daimi inkişafda olmaqla bərabər, daha da təkmilləşmiş olur. Bu qanunauyğun proseslərin ölkənin sosial-iqtisadi inkişafında rolu və əhəmiyyəti inkar edilməzdir. Ölkənin sosial-iqtisadi inkişafında praktiki olaraq sosial infrastruktur sahələrinin inkişafı mühüm yer tutur. Məhz buna görə də dövlətin sosial siyasətində bu kimi əsas vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur: insanların həyat və əmək şəraitinin getdikcə daha da yaxşılaşdırılması, ictimai münasibətlərin hər bir sahələrində sosial ədalət prinsipinə əməl edilməsi, siniflərin, sosial qrupların və təbəqələrin yaşayış tərzinin bir-birinə daha da yaxınlaşdırılması və s. Daha dolğun və yığcam şəkildə demiş olsaq "hər şey insan naminə, hər şey insan rifahı üçün" formulunda ifadə etmək olar. Müasir bazar iqtisadiyatı şəraitində bu mühüm vəzifələri ancaq maddi istehsalın intensiv və hərtərəfli inkişafı əsasında elmi-texniki tərəqqinin və bununla əlaqədar sosial infrastrukturun əsaslı şəkildə sürətləndirilməsi, hər bir əmək kollektivlərinin, bütövlükdə cəmiyyətin işinin səmərəliliyinin əsaslı surətdə yaxşılaşdırılması yolu ilə həll etmək olar. Bununla yanaşı, sosial sahələrdə, ictimai həyatımızın bütün tərəflərində istifadə edilməsi təşkil edilməlidir. Iqtisadiyyatın və sosial infrastrukturun iqtisadi səmərəliliyinin yüksəldilməsi ictimai həyatın tələbatından irəli gəlir. Sosial fəaliyyətin infrastrukturun iqtisadi əhəmiyyəti, səmərəliliyinin müəyyənləşdirilməsi xüsusi nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Belə ki, nəzəri cəhətdən sosial infrastrukturun iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsinin göstəricilər sistemi və onun hesablanma metodikası tam və dəqiq deyildir. Faktiki olaraq sosial infrastrukturun iqtisadi səmərəliliyinə iki səviyyədə – makro və mikro səviyyələrdə yanaşılması metodu məlumdur. Lakin konkret olaraq onun qiymətləndirilməsinə dair hələlik müvafiq metodika işlənməmişdir. Məlum olduğu kimi, iqtisadiyyat sahələrindən asılı olaraq müvafiq sosial infrastruktur sahələri formalaşır və inkişaf etdirilir. Məsələn, yeni rayonların mənimsənilməsində, şəhər və qəsəbələrin salınmasından asılı olaraq müxtəlif xidmət sahələri, ticarət, mədəni-məişət, mənzil-

kommunal, su, işıq, qazlaşdırma, kanalizasiya, məktəbəqədər təlim-tərbiyə ocaqları, təhsil və səhiyyə sahələri formalaşdırılaraq inkişaf etdirilir. Sovetlər birliyi dönəmində bu fikir üstünlük təşkil etmişdir ki, sosial infrastrukturun iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsinə lokal yanaşma yolu ilə tam həll etmək qeyri-mümkündür. Ona ümumi xalq təsərrüfatı, yəni makrosəviyyədə yanaşmaq lazımdır. Daha doğrusu sosial – iqtisadi inkişafın təmərküzləşmiş birgə nəticəsi kimi baxmaq olar. Sosial infrastrukturun iqtisadi səmərəliliyinə makrosəviyyədə yanaşılması tövsiyyə edilmişdir. Lakin bununla belə, ayrı-ayrı sosial infrastruktur sahələrinin iqtisadi inkişafda rolu və əhəmiyyətini birbaşa olmasa da, dolayı yolla müəyyənləşdirmək mümkündür. Məsələn, ixtisaslı əməklə qeyri-ixtisaslı əməyin müqaisəsini və s. qeyd etmək olar. Onu qeyd etmək lazımdır ki, ümumilikdə, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə ictimai həyatımızın bütün cəhətlərinə sosial infrastrukturun təsiri daha da gücləndirilməlidir. Sosial infrastruktur sahələrində keyfiyyət dəyişikliklərinə yeni münasibət aşağıdakı bir sıra mühüm səbəblərdən irəli gəlir:

- birinci, iqtisadi fəaliyyətin bütün mənafeyinə aid olan nəticələr məhz bu sahədə reallaşır, dövlətin ali məqsədləri öz təzahürünü burada tapmış olur;
- ikinci, bazar iqtisadiyyatının hər tərəfli inkişafı prosesində sosial infrastruktur sahələrinin rolu və əhəmiyyəti xeyli artmış olur. Bu iqtisadiyyatın, xüsusilə onun perspektiv inkişafında sosial istiqamətlərin daha da gücləndirilməsində sosial amillərin əhəmiyyətinin yüksəldilməsində öz əksini tapır. Məhz buna görə də, sosial infrastruktur sahələrinin inkişafına tamamilə yeni nəzərlə baxmaq, onun artmaqda olan əhəmiyyətini bütövlükdə qiymətləndirmək lazımdır;
- üçüncü, sosial infrastruktur sahələri ictimai inkişafda insan amili rolunu yüksəltməyin mühüm ehtiyat mənbələrinə, cəmiyyət üzvlərinin fəal həyat mövqeyinin məqsədyönlü formalaşdırılmasının çox böyük imkanlarına malikdir;
- dördüncü, ölkənin sosial-mədəni həyatının inkişaf etdirilməsinin vaxtı çatmış problemlərinin lazımınca qiymətləndirilmədiyi üçün hazırkı dövrdə bu sahələrə yeni münasibət bəsləməyi tələb etmiş olur və s.

Müasir şəraitdə iqtisadiyyatın səmərəliliyinin getdikcə yüksəldilməsi problemləri, sosial infrastruktur sahələrinin kompleks və intensiv inkişafını bir vəzifə olaraq qarşıya qoyur.

Keçmiş SSRI dövründə mərkəzləşdirilmiş planlaşdırma və idarəetmə sistemindən, azad bazar münasibətlərinə keçmiş Azərbaycan Respublikasında müstəqillik illərində iqtisadiyyatın əsas sahələrində dinamik inkişafa nail olmaq üçün mövcud qanunvericiliyin təkmilləşdirilməsi və əsasən, ölkə regionlarında sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsi, o cümlədən, sosial infrastruktur şəbəkəsinin genişləndirilməsi, bu sahələrin fəaliyyətinin dövlət tənzimlənməsi üçün xeyli iş görülmüşdür. Bir çox dövlət proqramlarına əsasən ölkənin regionları və inzibati rayonlarının sosial-iqtisadi inkişafına dair tədbirlər həyata keçirilməkdədir.

Aparılmış təhlillər onu göstərir ki, son on illər ərzində sosial-iqtisadi maliyyə infrastrukturlarının modernləşdirilməsi nəticəsində milli iqtisadiyyatda dayanıqlı inkişafa nail olunmuşdur. 2004-2015-ci illər ərzində ölkədə orta hesabla 10,6 faiz illik iqtisadi artım qeydə alınmışdır. ÜDM-in həcmi bu dövr ərzində 7,6 dəfə artmış, adambaşına ÜDM-in həcmində 6,5 dəfə artım müşahidə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Yol Xəritsəi" nəzərdə tutulan istiqamətlər üzrə strateji məqsəd və hədəfləri, nəzərdə tutulan tədbirlərin qiymətləndirmə və maliyyələşdirmə mexanizmlərini müəyyən edir.

Strateji Yol Xəritəsində davamlı iqtisadi inkişafa nail olmaq üçün aşağıdakı əsas strateji hədəflər təyin olunmuşdur:

- Fiskal dayanıqlığın artırılması və davamlı monetar siyasətin qəbul edilməsi;
- Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların reallaşdırılması;
- İnsan kapitalının inkişaf etdirilməsi;
- əlverişli biznes mühitinin inkişafı;

Nəzərdə tutulan 4 strateji hədəfin icrası milli iqtisadiyyatın mərkəz və regionlar üzrə sosial infrastruktur sahələrinin də inkişafına təkan verəcəkdir.

Strateji Yol Xəritəsində 2020-ci ilə kimi dair mövcud reallıqlar, 2025-ci ilə kimi olan dövr

uzunmüddətli baxış, 2015-ci ildən sonrakı dövr üçün isə hədəf baxış təsbit olunmuşdur.

Qloballaşma və müasir bazar iqtisadiyyatı şəraitində sosial infrastukturun inkişafını şərtləndirən amillərin öyrənilməsi, sosial infrastruktur müəssisələrinin istismara verilməsinin əsaslandırılması, bu proseslərin idarə edilməsi üsullarının optimallaşdırılması, yerli idarəetmə orqanlarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, ümumilikdə sosial infrastukturun sistemli və effektivli dövlət mexanizmləri vasitəsi ilə tənzimlənməsinin təkmilləşdirilməsi problemlərinin fundamental araşdırılmasının vacibliyi bu mövzunun aktuallığına dəlalət edir.

Dövlətin elmi cəhətdən əsaslandırılmış siyasətinin həyata keçirilməsi ən əsas strateji problemlərdən biri hesab edilir. Belə ki, bu siyasətin düzgün və vaxtında keyfiyyətli surətdə reallaşdırılması, faktiki olaraq, nəzərdə tutulmuş məqsəd və vəzifələrin müvəffəqiyyətlə həlli deməkdir. Dövlətin sosial siyasətinin ardıcıl, düzgün, lazımi keyfiyyətdə həlli milli xüsusiyyətlər nəzərə alınmaqla, dünya təcrübəsində məlum olan, sosial-iqtisadi vasitələrdən istifadə edilməsi məqbul hesab oluna bilər. Lakin hər bir konkret ölkədə dövlətin sosial siyasətinin reallaşdırılmasının özünə məxsus cəhətləri də vardır. Bütün bunlarla yanaşı, dünya dövlətlərində büdcənin rolu və əhəmiyyəti ciddi nəzərə alınır. Belə ki, bu problemin səmərəli həyata keçirilməsi, böyük məbləğdə vəsait tələb edir. Qeyd etmək lazımdır ki, sosial siyasətin həyata keçirilməsinin əsas bazasını dövlətin qanunları, hüquqi aktları təşkil edir. Daha doğrusu, sosial-iqtisadi inkişafın tənzimləməkdə dövlətin rolu və funksiyası daha da genişləndirilmiş olur.

Müasir bazar iqtisadiyyatı şəraitində regionlararası investisiya qoyuluşları və maliyyə resurslarının bölüşdürülməsi, dövlətin ən məsul vəzifələrindən biri hesab edilir. Regionlarda sosial infrastrukturun tənzimlənməsinə dair tədbirlər kompleksinin həyata keçirilməsi regional idarəedici strukturlar vasitəsilə həyata keçirilir. Tədqiqatlar göstərir ki, regional siyasətin həyata keçirilməsində stimullaşdırıcı vasitələrdən geniş istifadə edilir. Belə ki, zəif inkişaf etmiş regionlarda birinci növbədə istehsal sahələrinin inkişafını sürətləndirmək məqsədilə iqtisadi mexanizmlərə geniş yer verilir. Vergi dərəcəsinin aşağı salınması, güzəştli kreditləşdirmə, infrastrukturların formalaşdırılması və inkişafının əsasən dövlət büdcəsi hesabına maliyyələşdirilməsi kimi məsələlərin həllinin həyata keçirilməsi lazım gəlir. Bütün bunlarla yanaşı, regional problemlərin həlli üçün xüsusi regional Inkişaf Fondunun yaradılması da məqsədə uyğun sayıla bilər. Məsələn, Avropa İttifaqına daxil olan ölkələrin iqtisadi inkişaf proseslərinin təhlili göstərir ki, bu proseslərdə effektivli iqtisadi institutların və maliyyə fondlarının təşkili mühüm əhəmiyyət kəsb etmişdir. Hələ XX əsrin 60-cı illərindən başlayaraq, qərbi Avropada iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində, işsizliyin azaldılmasında, sosial – iqtisadi problemlərin həllinin sürətləndirilməsində regional siyasətin optimal mexanizmlərinin işlənib hazırlanmasına geniş yer verilmişdir. Hətta, Avropa İttifaqının bütün üst qurumlarında və əsas nizamlayıcı təşkilatlarında regional sosial – iqtisadi inkişafla bağlı müvafiq strukturlar, təşkilatlar, qruplar, bürolar, komissiyalar və s. yaradılmışdır. Avropa İttifaqına daxil olan ölkələrin regional siyasəti əsasən bir istiqamətə -mövcud insan potensialın və resursların maddi ictimai təkrar proseslərində səmərəli qarşılıqlı fəaliyyətinin təşkilinə yönəldilmişdir. Yəni maddi ictimai təkrar istehsal prosesinin effektivli, məhsuldar olması üçün insan kapitalından yetərincə bəhrələnmək məqsədi ilə, cəmiyyətin maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri mühitin yaradılması, sosial xidmətlərin təşkili, xüsusilə sosial infrastrukturun güclü bazasının formalaşdırılması əsas strateji vəzifələr kimi qarşıya qoyulmuşdur. Bizə görə, müasir dövrdə Avropada ictimai istehsal proseslərinin yüksək inkişaf səviyyəsi və sosial mühitin inkişafının digər ölkələrə nisbətən xeyli irəlidə olması bu qeyd edilən prinsipial regional sosial – iqtisadi siyasət mexanizmlərinin reallaşdırılması nəticəsində mümkün olmuşdur.

Praktikada dövlətin sosial siyasətini həyata keçirmək məqsədilə müvafiq, konkret iqtisadi mexanizmlər işlənilib hazırlanmalıdır. Həmin mexanizmlər dövlətin bütövlüyünü, onun müstəqilliyini, ölkə iqtisadiyyatının davamlı, dinamik inkişafını təmin etməklə bərabər, hər bir regionun xüsusiyyətlərini də özündə əks etdirməlidir. Belə mexanizmlərin işlənilib hazırlanmasında aşağıdakı əsas prinsiplərə əməl olunması məqsədəuyğun sayılır:

- mərkəzi idarəedici orqanlarla, regional idarəedici orqanlar arasında, düzgün və səmərəli hakimiyyət bölgüsünü təmin etmək;
- regionlarda sosial-iqtisadi inkişafa bərabər şərait yaratmaqla yanaşı, ictimai mənafeyə

üstünlük vermək;

- regionların əsas əlamətlərini (xüsusiyyətlərini) nəzərə almaq şərtilə, regional siyasətin reallaşdırılmasına əməl etmək;
- regional siyasətin həyata keçirilməsində tətbiq edilən iqtisadi mexanizmlərin şəffaflığının təmin olunması və s.

Dövlətin sosial siyasətinin başlıca istiqamətlərindən biri də bazar iqtisadiyyatı şəraitində əhalinin sosial-iqtisadi problemlərinin həll edilməsidir. Dünya təcrübəsi göstərir ki, bu mühüm istiqamətdə iqtisadi inkişaf transformasiyaları nəzərə alınmaqla, yeni mexanizmlərin işlənib hazırlanmasına zərurət xeyli artmışdır. Dövlətin sosial siyasətinin sürətlənməsi prosesləri son 20-30 ildə xeyli intensivləşmişdir [5]. Bir sıra ölkələrin-Almaniya, Belçika, Fransa, Ingiltərə, Isveçrə, Türkiyə və sair inkişaf etmiş dövlətlərin təcrübəsi bu sahədə faydalı hesab oluna bilər. Bu qeyd olunan ölkələrdə regionların sosial – iqtisadi inkişafının sistemli şəkildə təmin edilməsi, ilk növbədə sosial infrastrukturun güclü bazasının yaradılması, bu proseslərin tənzimlənməsinin təkmilləşdirilməsi tədbirlərinin maliyyələşdirilməsi üçün büdcə vəsaitlərindən, məqsədli federal büdcə ayırmalarından geniş formada istifadə olunur [7]. Danimarka, Fransa və Yaponiya kimi ölkələrdə regionların davamlı sosial – iqtisadi inkişafı üçün mərkəzləşdirilmiş formada, subsidiyaların ayrılması və regionlarda sosial infrastrukturun bazasının gücləndirilməsi üçün zəruri maliyyə resurslarının ayrılması dövlətin xüsusi nəzarətində saxlanılır. Avstraliya Federativ bir dövlət kimi özünün şimal ərazilərinin inkişafı üçün 1980-ci illərin əvvəlindən başlayaraq, burada toplanan vergilərin regionun sosial – iqtisadi inkişafı problemlərinə yönəldilməsi mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsi üçün yerli özünüidarəetmə strukturlarına əlavə səlahiyyətlər vermişdir. Kanada da isə bu proseslərdə regional və yerli büdcə təşkilatlarının rolu xeyli yüksəkdir. Belə ki, bu ölkədə mərkəzi səviyyədə vergi növləri müəyyənləşdirilmir və bu baxımdan yerli orqanlar vergi siyasətini özləri formalaşdırırlar. Nəticədə ölkədə sosial problemli məsələlərinə maliyyə resurslarının yönəldilməsi mexanizmlərinin müəyyənləşdirilməsi və icra olunması prosesləri xeyli effektivli alınır. Almaniyada isə, ölkənin 16 əyalətində yerli orqanlar tərəfindən büdcə sistemi formalaşdırılsa da, bu ölkədə 3-cü büdcə sistemini yerli orqanlar formalaşdırır və idarə edirlər. Bu baxımdan, ölkədə sosial infrastuktur prioritetləri, regionların sosial rifah səviyyəsi ən yüksək standartlara cavab verir.

İnsanların tələbatının ödənilməsində sosial infrastruktur sahələrinin xüsusi yeri və rolu vardır. Məsələn, ölkədə təhsil, səhiyyə, mədəni sahə xidmət sahələri cəmiyyətin elmi, mənəvi zənginliyinə əsaslı təsir göstərir. Beləliklə, sosial infrastruktur sahələrinin normal fəaliyyəti bir tərəfdən məhsuldar qüvvələrin inkişafına, digər tərəfdən isə məcmu ictimai məhsulun və milli gəlirin artırılmasına və ümumilikdə, ölkədə ictimai təkrar istehsalın genişləndirilməsinə müsbət təsir göstərən ən başlıca amil hesab edilir. Göründüyü kimi, sosial infrastruktur sahələrinin inkişafı bilavasitə əhalinin sosial tələbatının ödənilməsində əvəzsiz rola malikdir. İstər istehsal, istərsə də sosial infrastrukturları cəmiyyətin ümumi və milli sərvəti kimi də dəyərləndirmək olar. Digər tərəfdən sosial infrastrukturlar regionun və bütövlükdə ölkənin dəyərli kapitalı kimi də qiymətləndirilə bilər.

İqtisadi inkişaf proseslərində sosial infrastrukturun iqtisadi səmərəliliyinin müəyyən-ləşdirilməsində bir sıra göstəricilərdən istifadə edilir. Bunlara insanın yaşama müddəti və xəstələnməyin aşağı salınması, əhalinin elmi, mədəni inkişaf səviyyəsi, azad-sərbəst iş vaxtının uzadılması, yaşayış-mənzil sahəsinin artırılması və yaşayış şəraitinin, mənzil-kommunal xidmətin yaxşılaşdırılması, məişət xidmətinin keyfiyyətinin yüksəldilməsi, ticarət obyektlərinin və ictimai iaşə müəssisələrinin artırılması, rabitə, sərnişin daşıyan nəqliyyatın fəaliyyətinin genişləndirilməsi və yaxşılaşdırılması, əhaliyə pullu səhiyyə və digər xidmətlərin göstərilməsi aid edilir. Fikrimizcə, bu amillər və göstəricilər bütövlükdə iqtisadi inkişaf proseslərinə güclü təsir etmək üçün kifayət qədər əlavə stimullar yaradır.

Məlum olduğu kimi, iqtisadiyyat sahələrinin normal fəaliyyəti müvafiq infrastruktur sahələrinin formalaşması və inkişafı ilə əlaqədardır. Bu baxımdan, ölkədə sosial infrastruktur sahələrinin inkişafı, dövlət tərəfindən tənzimlənməsi xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatı şəraitində bu mühüm problemin tənzimlənməsi zərurətə çevrilmiş olur. Bunlarla bərabər, qeyd etmək lazımdır ki, sosial infrastrukturun tənzimlənməsinə və inkişafına iki qrup (ümumi və spesifik) amil əsas təsir göstərir. Ümumi amillərə, konkret şəraitdə, ölkənin faktiki sosial-

iqtisadi inkişaf səviyyəsi, iqtisadiyyatın mövcud strukturu, əhalinin real gəlirləri, məşğulluq səviyyəsi, təhsil, səhiyyə, mədəni məişət xidmətləri və s. daxildir. Spesifik amillərə gəldikdə, bura hər bir regionun təbii-iqlim şəraiti, milli, tarixi inkişaf xüsusiyyətləri və s. aid etmək olar. Tədqiqatlar göstərir ki, hər bir amilin ayrı-ayrılıqda rol və əhəmiyyətini azaltmamaq şərti ilə, iqtisadi amilin, daha doğrusu, gəlirlərin getdikcə artırılması xüsusi əhəmiyyətə malikdir. Dövlət, ölkədə sosial-siyasət proqramı işləyib hazırlamaqla yanaşı, onun ardıcıl olaraq, həyata keçirilməsini hər vasitə ilə təmin etməlidir. Şəxsi təsərrüfatlar tərəfindən həyata keçirilən bütün xidmət növlərinin normativ və hüquqi bazasının düzgün əməl edilməsinə nəzarət etməklə bərabər, həm də onun bazar münasibətlərinə keçid şəraitində məsuliyyətini özü daşıyır. Məhz buna görə də, iqtisadiyyatın tənzimlənməsində istifadə edilən ənənəvi-birbaşa və dolayı yolla tənzimləmə metodlarından istifadə, konkret ictimai-siyasi və sosial-iqtisadi şəraitdən asılı olaraq həyata keçirilməlidir [1]. Məhz buna görə də bazar iqtisadiyyatı şəraitində dövlətin vahid sosial-siyasətinə tam uyğun olaraq, infrastruktur sahələri, xüsusilə, təhsil və səhiyyə ancaq dövlət tərəfindən ciddi surətdə tənzimlənməlidir. Qeyri bazar strukturlarına (elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və s.) dövlət maliyyələşdirilməsi daha da gücləndirilməlidir. Elə etmək lazımdır ki, tibbi müalicə-profilaktik tədbirlər pulsuz olaraq, dövlət tərəfindən həyata keçirilsin. Bununla yanaşı, əhali və müəssisələrin ödəncləri hesabına formalaşan xüsusi sığorta fondlarının ödənilməsi nəzərdə tutulan tibbi sığortanın da geniş inkişafı təmin edilməlidir.

Sosial infrastruktur sahələrinin inkişafına, xüsusilə, onun tənzimlənməsinə aşağıdakı iki mühüm istiqamətdə yanaşmaq lazımdır: birinci, cəmiyyətin ictimai tələbatı ilə bağlı olan sosial infrastruktur sahələrinin inkişafı və tənzimlənməsi. Bu qrup infrastruktur sahələrinə təhsil səhiyyə, mədəniyyət, incəsənət, kommunal-təsərrüfatı (enerji, su təchizatı kanalizasiya və rabitə), ekologiya və s. aid etmək olar. İkinci qrupa xidmətlər infrastrukturu daxil edilir. Birinci qrupa daxil edilən infrastruktur sahələri dövlət büdcəsindən maliyyələşdirilməli və idarə edilməlidir. İkinci qrup - xidmətlər infrastrukturu isə qeyri-dövlət strukturları tərəfindən, lakin dövlət nəzarəti altında həyata keçirilə bilər. Belə ki, dövlət, həyata keçirilən xidmətlərin normativ, hüquqi bazasına, vergi ödənişlərinə nəzarət etməli və meydana çıxan yeni xidmət növləri üzrə infrastrukturun formalaşdırılmasına lazımı şərait yaratmaqla, onu tənzimləməlidir. Bazar iqtisadiyyatı şəraitində sosial infrastruktur sahələrinin inkişafı mülkiyyət formalarından asılı olmayaraq dövlətin nəzarəti altında həyata keçirilməlidir. İnkişaf etməkdə olan dünya ölkələrində infrastruktur sahələri dövlət mülkiyyətində saxlanılır və cəmiyyətdəki əhəmiyyətinə görə büdcədən maliyyələşdirilir[1]. Yeni təsərrüfatçılıq formaları şəraitində iqtisadiyyatın bazar münasibətləri prinsipləri əsasında qurulması, əhalinin həyat səviyyəsində mövcud olan fərqlərin aşkar edilməsi və getdikcə onun aradan qaldırılması sosial ədalət prinsipinin reallaşdırılmasının əsas şərtlərindəndir. Məsələn, inkişaf etmiş ənənəvi bazar iqtisadiyyatlı dünya ölkələrində səhiyyə xərclərinin 80-90 %-i dövlət büdcəsindən maliyyələşdirilir. Bir çox hallarda respublika xəstəxanalarında çarpayılar əsasən boşdur və dövlət tibb ocaqlarına müraclət edənlərinin sayı da getdikcə azalır. Belə vəziyyəti tənzimləmək məqsədi ilə ödənişli pullu səhiyyə xidmətlərinə ancaq əhalinin real gəlirlərindən asılı olaraq yanaşmaq lazımdır. Daha doğrusu, əhalinin aztəminatlı təbəqəsi üçün səhiyyə xidmətləri ancaq dövlət büdcəsi hesabına ödənilməlidir. ABŞ, Fransa, Böyük Britaniya, Yaponiya və digər ölkələrdə minimum dolanışıq həddindən aşağı gəlirləri olan əhali təbəqəsi üçün səhiyyə xidmətləri üzrə sosial infrastrukturun fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilir [6]. Bazar iqtisadiyyatı şəraitində bu təcrübədən geniş istifadə etmək lazımdır. Belə ki, təhsili və səhiyyəni beynəlxalq standartlara uyğunlaşdırarkən bu prinsipial problemlərə ciddi fikir vermək lazımdır. Əhalinin müasir iqtisadi vəziyyətinin getdikcə yaxşılaşdırılması, bir tərəfdən, sosial sahələrin maddi-texniki bazasının kadr potensialının möhkəmləndirilməsi, digər tərəfdən ciddi dövlət qayğısı tələb edir.

Bütün bunları nəzərə alaraq dövlətin sosial siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirməyə çalışmışıq:

- ilk növbədə, bazar münasibətləri şəraitində sosial infrastrukturun təkmilləşdirilməsi prioritetləri dövlət siyasətinin tərkib hissəsi kimi çıxış etdiyindən, bu sahədə müasir dövrün tələblərinə cavab verən optimal və çoxfunksiyalı sosial infrastruktur mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması;
- regionlarla, xüsusilə də, kənd yerləri ilə şəhərlər arasındakı fərqlərin nizamlanmasına imkan

verən -sosial infrastruktur şəbəkəsinin komplekslilik inkişafını təmin edən konseptual dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi və yenilənməsi;

- regionlarda sosial infrastrukturun səmərəlilik səviyyəsinin artırılması məqsədi ilə bu sistemə daxil olan obyektlərin proqnozlaşdırılması, əsaslandırılması və maliyyələşdirilməsi proseslərində dövlət orqanları ilə birlikdə, yerli idarəetmə orqanlarının, ictimai birliklərin, vətəndaş cəmiyyətlərinin qarşılıqlı konssesusunun təşkili;
- ölkədə regionların sosial-iqtisadi inkişafının müasir sosial infrastruktur sistemi yaradılması şərti ilə davamlı və sürətli inkişafının təmin edilməsi üçün bu sahədə dünya təcrübəsinin mütərəqqi nümunələrinin tətbiqi üzrə "Pilot" layihələrin hazırlanması və həyata keçirilməsi;
- sosial infrastrukturun iqtisadi inkişaf proseslərinə təsirini artırmağın və bu proseslərin qarşılıqlı fəaliyyət prinsiplərini müəyyənləşdirməyin müasir bazar iqtisadiyyatı tələblərinə cavab verən standart və normativlərin hazırlanması və təsdiq olunması;
- təhsilin və səhiyyənin ölkə vətəndaşlarının, o cümlədən, region əhalisinin həyatında, inkişafında, dünya görüşündə, sağlamlığının qorunmasına əvəzsiz xidmətlərini nəzərə alaraq strateji tədbirlər planının hazırlanması və təsdiq edilməsi;
- mədəniyyət və incəsənət sahələrinin, o cümlədən, kütləvi kitabxanaların regionlarda itirilmiş və ya zəifləmiş maddi-texniki bazasının bərpa edilməsi, müasir tələblər səviyyəsində bu sahələrdə yeni sosial infrastruktur şəbəkəsinin yaradılması tədbirlərinin reallaşdırılması;
- qloballaşma şəraitində informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafını nəzərə almaqla virtual xidmətlərin yüksək səviyyədə təşkilinə imkan verən infrastrukturun və bununla bərabər, sosial infrastruktur şəbəkəsinin yaradılmasının intensivləşdirilməsi;
- ölkədə sosial infrastrukturun vahid şəbəkəsinin obyektiv vəziyyətinin təhlilindən çıxış etməklə, bu sahədəki problemlərin həllinə imkan verən idarəetmə strukturunun, yerli idarəetmə orqanlarının səlahiyyət bölgülərinin təkmilləşdirilməsi, qanunla tənzimlənməsi v s.

ƏDƏBİYYAT

1. Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı, 2005.-656 s.
2. Mahmudov M.M., Mahmudova I.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı 2011. – 368 s.
3. Nağıyev Ə.T. və Mürşüdov R.I. Sosial müdafiənin təkmilləşdirilməsinin əsas istiqamətləri. Bakı 2002.-266 s.
4. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı 2004. -304 s.
5. Rüstəmov A.A. Respublika əhalisinin maddi rifahının yüksəldilməsinin iqtisadi problemləri, Bakı, 2003.-352 s.
6. Важенин С.Г. Финансирование социальных программ в странах запада. М., Наука, 1993. – 160 s.
7. Докальская В.К. Управление социально-экономическим развитием регионов: теория и методология. Дисс. д-ра экон. наук. Орел, 2009. 388 с
8. http://www.worldbank.org.
9. http://www.economy.gov.az.
10. http://www.oilfund.az.

ABSTRACT

Ashraf Alakbarov

THE SOCIAL POLITIC AND MAIN DIRECTIONS OF GOVERMENT

The article outlines the socio-economic development of the regions and the sustainable development of social infrastructure, which is an integral part of these processes, in the conditions of market relations and the intensification of globalization elements, and the adequate regulation and improvement of the functioning mechanisms of the social and economic development of the period.

Formerly the founder of the economic thought system in the eighteenth century, A.Smit, in

contrast to the economic monopoly in the economy, in the principal issues that the economy could give to public life, showed that the normal development of the market and the producers to take advantage of normal conditions the goverment should take on a number of functions. A. Smith noted the necessity of building buildings, facilities and organizations for the needs of general production. So, the world needs the most economical economy and the least effective functioning of its economy: first of all, privatization of essential exportable assets and, consequently, the diversification of various property and farming facilities; the competition between property forms, and the economy relations, must form the main point of the free market economy. In short, commodity-money relations should be subjected to an unsuccessful attempt of such an economy. One of the important factors in the practical implementation of these important provisions is the creation and improvement of the social infrastructure, along with the equipment, technology and other essential facilities included in the production process, and in general the formation and sustainable development of the economic cycle. Because it is impossible to achieve stable and sustainable development of society and economic processes without the right to live comfortably and benefit from social services, as well as the working people and the whole population of production processe

РЕЗЮМЕ

Ашраф Алекперов

СОЦИАЛЬНАЯ ПОЛИТИКА ГОСУДАРСТВА И ЕЁ ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ

В статье нашли отражения обеспечение длительного социально-экономического развития регионов и длительного развития социальной инфраструктуры, как составной части этих процессов в условиях рыночных отношений и интенсификации элементов глобализации в настоящий период, и в связи с этим регулирование и совершенствование механизмов действия адекватно уровню социально-экономического развития эпохи.

Ещё в XVIII веке А.Смит, считающийся строителем системы экономической мысли, защищая принцип экономической свободы, наряду с выступлением против государственной монополии, в принципиальных вопросах могущих дать экономикой в общественной жизни, показал, что для нормального развития рынка и получения производителями прибыли в нормальных условиях, государство должно взять на себя ряд функций. А.Смит отметил необходимость строительства зданий, объектов, создания организаций для нужд общего производства. Таким образом, мировая экономическая наука для рыночной экономики и его нормальной деятельности считает необходимостью хотя бы минимальное восстановление этих показателей: прежде всего приватизация основных производственных средств и на этой основе создание различных форм собственности и хозяйствования; происходящая конкуренция между формами собственности, производственные отношения должны составлять основное значение свободной рыночной экономики. Одним словом, товарно-денежные отношения, как объективный процесс рыночной экономики должны осуществляться без препятствий. В практической реализации этих важных положений, наряду с оборудованием, технологией и другими необходимыми объектами, входящими в производственный процесс и вообще, для создания экономического производственного цикла и длительного развития, одним из важных факторов является формирование и совершенствование социальной инфраструктуры. Потому что, без юридического обеспечения людей, являющихся участниками производственных процессов, и в целом всего населения , наряду с работой, комфортным житьём и социальными услугами невозможно достичь стабильного и длительного развития общества и экономических процессов.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

TEYMUR ABBASOV
Naxçıvan Dövlət Universiteti
teymurabbasov56@mail.ru

UOT:332

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MÖVCUD OLAN BAZAR MÜNASİBƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *bazar münasibətləri, iqtisadi islahatlar, iqtisadi potensial, xüsusiyyətlər, vəzifələr, mülkiyyət, təsərrüfat formaları*

Key words: *market relations, economic reforms, economic potential, features, positions, property, agrarian forms*

Ключевые слова: *рыночные отношения, экономические реформы, экономический потенциал, особенности, задачи, собственность, хозяйственные формы.*

Bazar münasibətləri təkamül nəticəsində mərhələ-mərhələ inkişaf etdirilən, dərinləşən, əhatə dairəsinə və sosial-iqtisadi nəticələrinə görə qiymətləndirilməklə təşkilatı quruluş kimi formalaşan və perspektivdə səmərəli məzmun və forma kəsb edən prosesdir.

Bazar münasibətlərinin ilkin şəraiti olan mülkiyyət və təsərrüfat formalarının müxtəlifliyinə şərait yaratmaq fərdi maraqlar və ictimai maraqların tarazlı kontekstində tənzimlənən və iqtisadi inkişafa təkan verən mexanizmlər əsasında yaradılır və dəyişilir. Bu dəyişmələr ərazi, sahə və funksional inkişaf meyllərinə uyğun olaraq kompleks ərazi maraqlarının daha üstün təmin olunması və regionun iqtisadi potensialının təkrar istehsalının daha səmərəli forma və strukturunun təmin edilməsi yolu ilə baş verir. Region bazar münasibətləri, həmin regionun iqtisadi quruluşu, əhalisinin tələbatı və imkanları, həmçinin regionda bazar münasibətlərinin ilkin şəraiti ilə xüsusiyyətlər kəsb edir.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasının coğrafi-iqtisadi şəraiti, təbii resursları və islahatların gedişi xüsusiyyətləri, onun blokada şəraiti, respublikanın bütün regionları ilə əlaqəsinin kəsilməsi, çoxlu problemlər və xüsusiyyətlər yaradır ki, bu da islahatların gedişində, onun konkret üsulunda öz forma və məzmununu tapır.

Naxçıvan Muxtar Respublikasının iqtisadi quruluşu kənd təsərrüfatının aparıcı olması, sənayenin ancaq yerli tələbatı ödəmək üçün ixtisaslaşması, nəqliyyat və dəhliz kimi istifadə olunması və əhalisinin təbii artımına görə yüksək ranqda olan muxtariyyat statuslu özünün idarəetmə orqanı ilə fərqlənən tarixi və qədim diyardır. Naxçıvanda dövlətçilik ənənəsi onun vergi vermək ənənəsi, həmçinin kollektiv təsərrüfatçılıq kimi inkişaf dinamikası Azərbaycan Respublikasınınümumi cəhətləri tərkibində inkişaf etdiyi kimi müəyyən xüsusiyyətlərə və dinamiki qanunauyğunluqlara uyğun inkişaf edib.

Naxçıvanda vergi mədəniyyəti, xüsusi mülkiyyət şəraitində sahibkarlıq, torpaqların icariyyə forması, muzdlu əmək haqqı sistemi, müəyyən tələb və təklif qanunları planlı təsərrüfatdan əvvəl XVIII-XIX əsirlərdə formalaşıb.

1991-ci ildə iqtisadi cəhətdən tam blokada şəraitində yaşaması, onun ərzaq təminatının və əhalinin məskunlaşmasını təmin etmək üçün yeni konseptual yanaşma və islahatlar hazırlanması zəruriyyəti meydana çıxır.

Bu konsepsiya daxili resursları istehsal dövriyyəsinə cəlb etməklə, İran İslam Respublikası və Türkiyə Cumhuriyyəti ilə iqtisadi əlaqələri, gömrük rejimini təkmilləşdirmək və müəyyən güzəştlər sistemi tətbiq etməklə əhalinin ərzaq tələbatını ödəmək miras qalmış əmlakın qoruyub saxlanması və yeni islahatlar proqramı hazırlamaq prinsiplərinə əsaslanır.

1991-ci ildən kolxoz və sovxozların ləğvi proqramı, onların əmlakının bölgüsü və ədalət prinsipinə uyğun olaraq miras qalmış Milli sərvətin əhali arasında bölgüsünü təşkil etməklə

onların istifadəsinə stimul yaratmaqla daha ciddi artım tempinə malik olmaq məqsədləri əsas götürüldü. Naxçıvanda bazar münasibətləri Azərbaycandan tez başlamaqla daha radikal və daha məqsədyönlü prioritetlər əsasında aparılıb. Özəlləşdirmə proqramı kənd təsərrüfatında heyvandarlığın satılması və yaxud əhaliyə borclarına görə verilməsi və onun istifadəçinin sərəncamına düşmək üçün cəhdlər və mexanizmlər istifadə olunub.

Blokada şəraiti nəqliyyat əlaqələrinin pozulmasına, xammal mənbəyi gətirilən məhsullardan asılı olan elektronika, alminium qab zavodunun və quşçuluq üçün yem idxalının, şüşə məmulatı və yanacaq daşımasının dayandırılması respublikada iqtisadiyyatın tam dağıdılmasına və rifahın kəskin aşağı düşməsinə səbəb olmuşdur. Belə vəziyyətdən çıxmaq məhz Naxçıvanda H.Əliyevin və onun yaratdığı işçi qrupunun hazırladığı yerli istehsal proqramı əsasında mümkün olmuş və Naxçıvan Muxtar Respublikasının sonrakı inkişaf dinamikasını və əsas bazar iqtisadiyyatının spesifiki xüsusiyyətlərini yaradır.

Region spesifikası ilə sahə strukturu arasında tarazlı inkişaf dinamikası qarlışıqlı əlaqə və dövlət himayəsi, xarici potensialın cəlb edilməsi və daxili resurslardan istifadə etmək metodikası və konkret qərar qəbulları bu bölgədə bazar keçid transformasiyasının əsas istiqamətlərini hazırladı.

Naxçıvanda aqrar sənaye kompleksinin inkişafı çox ciddi maliyyə qıtlığı, bazar məhdudluğu və resurs çatışmamazlığı, əhalinin rifahının aşağı səviyyəsi amilləri şəraitində baş verir. Ona görə də özəlləşdirmənin və islahatların sosial-iqtisadi nəticələri ilə təzahür edir.

Naxçıvan Muxtar Respublikasında coğrafi-iqtisadi şərait, onun beynəlxalq səviyyəli problemlərini həll etmək üçün əlverişli şərait yaradır. Belə ki, respublikadan Türkiyyə ərazisi ilə Avropa ölkələri və İran İslam Respublikası ilə ticarət iqisadi əlaqələr üzrə müştərək sahibkarlıq üçün imknalar mövcuddur. Naxçıvan Muxtar Respublikasının Azərbaycan ərazisindən ayrı düşməsi onun ərazisində bəzi resursların idxalına problemlər yaradır. Daha çox enerji və istilik tələbatı həm əhali, həm də hüquqi şəxslər üçün minimal səviyyədə ödənilir. Ona görə sahibkarlıq fəaliyyəti üçün lazım olan xərclər başqa regionlara nisbətən miqdarca çox olur. Həmçinin sahibkarlığın strukturunda enerji tutumlu və sosial məqsədlər üçün obyektlərin malyyə çətinlikləri meydana çıxır.

Bununla yanaşı bazar iqtisadiyyatının inkişafı üçün sahibkarlıq mühiti, fərdi təşəbbüskarlıq, xarici investisiyanın cəlb edilməsi və regiondaxili tələbatın öz istehsalı hesabına ödənilməsi meylləri nəzəri və praktiki əhəmiyyət kəsb edir və Naxçıvanda sosial məqsədlər üçün daha xarakterik rol oynayır. Naxçıvanda kənd təsərrüfatı və emal müəssisələrinin özəlləşdirməsi proqramı hər bir sərvətin təkrar istehsal quruluşunu və onun sonrakı istifadəsi məqsədini nəzərə almaqla hüquqi baza kimi əsaslandırılmışdır. Mal-qaranın satılıb, kolxoz və sovxozların borclarının ödənilməsinə, bəzi avadanlıqların və mexanikanın istifadə edən şəxslərə ucuz qiymətdə yaxud, sonradan ödənilməsi şərti ilə verilməsinə və bəzi müəssisələrin səhmdar cəmiyyət yolu və hərrac yolu ilə satılmasına yönəldilmişdir.

Özəlləşdirmənin istehsalın inkişafına stimul yaradan və bazarda əmtəə, xidmət və iş qüvvəsi təklifinə uyğun tələbatı ödəmək qabiliyyətini artırmaq əsas rol oynayır. Özəlləşdirmənin ilkin mərhələsi, rentabelsiz təsərrüfatın ləğvi və kolxoz və sovxozların əmlakının özəlləşdirməsi prosesini əhatə edir. Bu məqsədlə özəlləşdirilən əmlakın qiymətləndirilməsi, monitorinqi və uyğun olaraq özəlləşdirmə subyektlərinin siyahısı, onun əmlak payı, səhmlər və səhmlərin satışı mərhələsi təşkil edir.

Kəndin sosial-iqtisadi inkişafı məqsədi ilə kəndin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsi əsas rol oynayır. Torpağın özəlləşdirilməsi Naxçıvan Muxtar Respublikasında hər təsərrüfat üzrə və ərazi bölümləri üzrə torpaq fondunu, onun istifadəsinə stimul yaratmaq amilini və həmçinin torpağın differensiyasını nəzərə alaraq aparılır.

Torpağın bölgüsü aqrar sektorda islahatların ilkin bazası olsa da, ondan istifadənin digər sahələrinin özəlləşdirilməsi hələ də davam edir və kənd təsərrüfatına xidmətin peşəkarların istifadəsinə düşməməsi, torpaqların istifadəsi üçün əsas kapitalın kəndlidə olmaması, uzun müddət ondan istifadənin ləngiməsinə səbəb olmuşdur.

Torpaq üzərində dövlət, xüsusi və bələdiyyə mülkiyyəti formaları, emal sənyaesi üzərində xüsusi mülkiyyət və səhmdar cəmiyyətin formaları, müştərək müəssisələr üzərində xarici

şirkətlərin mülkiyyəti və müştərək müəssisə formaları iqtisadi inkişafın ərazi xüsusiyyətləri idi.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı həm yerli tələbatı, həm də ixrac üçün istehsal edilir. Yerli tələbat üçün meyvə, tərəvəz və taxıl istehsalı ənənəvi sahələr olub, əhalinin fərdi təsərrüfatında əsas istehsal məhsulu kimi öz ailə tələbatını ödəmək və bazara çıxarmaq üçün istehsal olunur. Taxıl istehsalı, həm xüsusi torpaqda, həm də icariyyə götürülmüş bələdiyyə torpaqlarında becərilir. Meyvə istehsalı ixracat üçün yararlı olmaqla, həm də emal üçün istehsal olunur. Quru meyvə, qoz, şəkər çuğunduru, tərəvəz və şəftəli, alça istehsalı xarici ölkələr üçün istehsal olunur.

Özəlləşdirmə prosesi başlayandan 01 yanvar 2007-ci il tarixədək dövlət əmlakının özəlləşdirilməsindən 2429,0 min manatı dövlət büdcəsinə daxil edilmişdir. 2006-cı ilin yanvar-dekabr ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən 150,6 min manat vəsait əldə edilmiş və bunun da 122,5 min manatı dövlət büdcəsinə mədaxil olunmuşdur.

Bazar münasibətlərinin formalaşması su ehtiyatlarından istifadənin, onun üzərində mülkiyyət münasibətlərinin yeni prizmadan qurulması və təsərrüfat əlaqələrinin aparıcı həlqəsi kimi ümumi inkişafa stimul yaradılması kompleksindən baxılmalıdır. Müasir şəraitdə sudan istifadənin pullu əsaslarla qoyulması bazar tipli inkişafda ümumi meyllər baxımından düzgündür. Ancaq pulun ödənilməsi mənbələri kimi maliyyə rolunu oynayan subyektin necə seçilməsi subyektlərlə, sifarişçi və istehlakçı təşkilatlar arasında əlaqələri və qarşılıqlı ödəmələrin təşkili və idarə edilməsi tam region xüsusiyyətləri kəsb edir. Dövlət mülkiyyətində olan suvarma şəbəkəsinin istifadəsinin maliyyə mənbəi dövlət büdcəsi və yerli büdcələr hesabına və əhalinin ödəmələri hesabına baş verir.

Bazar iqtisadiyyatı şəraitində özəlləşdirmə nəticəsində sudan istifadənin pulu əsaslarla istifadəsi daha səmərəli təsərrüfatçılıq forması kimi zəruriləşir. Suyun ərazilərlə istifadəsi, əlavə xərclərlə bağlıdırsa, onun ödənilməsi ayrı-ayrı mülkiyyətçilər, hüquqi və fiziki şəxslər tərəfindən ödənilir. Suvarma sisteminin dövlət mülkiyyətində olması, su ehtiyatlarının artırılması üçün kapital qoyuluşu və həmçinin onun düzgün bölgüsü və istifadəsinə şərait yaradır. Bununla yanaşı ayrı-ayrı fərdi təsərrüfatın tələbatlarını ödəmək üçün istehlakla bağlı ayrı-ayrı hüquqi şəxslər formalaşa bilər. Həmin hüquqi şəxslər əlavə kapital qoymaqla, suvarma ambarları tikmək, nasosların alınması və tətbiqi ilə bağlı tədbirlər keçirməklə bazar qiymətlərinə uyğun suvarma və içməli su üçün təsərrüfatçılıqla məşğul ola bilər. Naxçıvanda su təminatının yaxşılaşdırılması üçün beynəlxalq kreditlər və bələdiyyə, dövlət büdcəsindən ayırmalar yolu ilə su ilə təminat səviyyəsini yaxşılaşdırmaq vacibliyi meydana çıxır.

Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı, onun kənd təsərrüfatı sektorunun və əhalinin ənənəvi məşğuliyyəti xüsusiyyətlərini nəzərə alaraq bazar iqtisadiyyatının formalaşması və təşəkkülü meyilləri, qanunauyğunluqları meydana çıxır. Bazar münasibətlərini formalaşdırmaq üçün islahatların keçirilməsi, onun bazar tipli modellərinə uyğun təhlili və Naxçıvanda resurslar və imkanları nəzərə almaqla reallaşır. İlkin növbədə azad təşəbbüskarlıq mühiti və nəqliyyat formaları və həmçinin liberal iqtisadi şərait yaradılmalıdır.

Naxçıvanda iqtisadi islahatlar və yeni bazar münasibətləri yaratmaq üçün əsas vəzifələr aşağıdakılardır:

- Naxçıvan Muxtar Respublikasında iqisadi münasibətləri təmin edən və onun ərazisində səmərəli təsərrüfat fəaliyyəti həyata keçirən mühiti inkişaf etdirmək;
- Naxçıvan Muxtar Respublikasında tarazlı inkişaf meyllərini təmin edən, ekoloji tarazlığı, sosial inkişafı və məskunlaşma proseslərini tənzimləyən dinamik inkişafı təmin etmək;
- əhalinin rifahı, onun gəlirləri və təhsil, səhiyyə səviyyəsini yüksəldən tədbirlərin həyata keçirilməsi.

Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar torpaqların mülkiyyət formaları üzrə paylanması və kənd təsərrüfatı altında olan əmlak və pul vəsaitinin istifadəsi yolları ilə seçilir.

İlkin mərhələdə təbii iqtisadi potensialı hər subyektin resursları tədqiq etdirilib, düzgün varislik prinsipi əsasında monitorinq edilib, onlardan istifadənin yolları işlənib hazırlanmışdır. Kənd təsərrüfatı, emal sənayesi, sosial infrastruktura və müştərək müəssisə və ticarət formaları işlənib hazırlanıb. İslahatlar üçün proqram sənədi olaraq ayrı-ayrı məhsullar üzrə istehsal həcmi, onun marketinq strukturu, keyfiyyəti və istehsal xərclərinin son həddi olaraq səmərəli təşkilati quruluş üçün tövsiyyələr hazırlanmışdır. Özəlləşdirmə proqramı, özəlləşdirilən ayrı-ayrı obyektlərin ardıcıllığı,

forması və bölgüsündə norma və normativlər elmi əsaslarla işlənib hazırlanır. Aqrar sektorun özəlləşdirməsi Naxçıvan Muxtar Respublikası üçün daha prioritet istiqamət hesab olunur. Bu prioritetliyin zəruri cəhətləri blokada şəraitində yaşayan respublikanın əhalisinin ərzaq tələbatı ilə təmin etmək, Naxçıvanın qorunub saxlanılması, onun kənd təsərrüfatı potensialının qarşısını almaq məqsədi olmuşdur.

Naxçıvanda aqrar sektorun transformasiyası, onun əsas xüsusiyyətlərini, coğrafi-iqlim şəraitini və əhalinin torpaqla bağlı olmasını nəzərə almaqla aparılıb. Naxçıvanda əhalinin istehlak davranışı, onun resurslarının xüsusiyyətləri və Naxçıvanın perspektiv, dayanıqlı inkişaf meyllərini təmin etmək əhalisinin məskunlaşmasını qorumaq üçün istifadə olunan əsas istiqamətlər seçilib əsaslandırılıb.

Naxçıvan Muxtar Respublikasında bazarın prioritet istiqamətləri kimi əsas istehlak tələbatı və iş yerlərinə olan tələbat istiqamətləridir. Hər iki istiqamət bir-birindən asılıdır. İstehlak tələbatına yönəldilən səy, sahibkarlığa və fərdi təsərrüfatdan olan gəlirlərin artırlmasına, dövriyyədə əmtəə və pul dövriyyəsinin həcminə təsir edir. Əhali daha çox məşğulluqla təmin olunur, son nəticədə regionun tarazlı inkişaf strategiyası öz reallaşma mexanizmini tapır. İkinci istiqamətdə yeni iş yerlərinə olan tələbat yerli istehlak üçün əhalinin alıcılıq qabiliyyətinə və həyat səviyyəsinə təsir edir. Yeni iş yerlərinin açılması daha çox yerli resursların istifadəsi və ixracat yönlü məhsulların istehsalına yönəlir. Sahibkarlığın inkişafı üçün Naxçıvan Muxtar Respublikasında toxuculuq, xalçaçılıq, palaz, keyfiyyətli yataq ləvazimatı üçün kapital qoyuluşu səmərəli istiqamət rolunu oynayır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, onun əhalisinin həyat səviyyəsi, alıcılıq qabiliyyəti istehlak davranışı aqrar bazarın kompleks inkişafının əsas istiqamətlərini müəyyən edir. Son illərdə əhalinin həyat səviyyəsinin dinamikasında artım meylləri olsa da, bəzi məhsulların istehlakı respublikada orta göstəricilərinə və normalara nisbətən geri qalır. Adam başına düşən pul gəlirləri, alıcılıq qabiliyyətini həm kəmiyyət, həm də struktur baxımından ödəmir.

Respublika daxili iqtisadi regionlarda ərzaq təminatı yerli resursların səmərəli istifadəsi, yeni iş yerlərinin açılması yolu ilə əhali tələbatına uyğun istehlak xarakterli məhsullar və ixrac üçün istehsalı artırmaq yolu ilə baş verməlidir. Naxçıvan Muxtar Respublikasında əhalinin istehlak seqmentləri üzrə bölgüsü, onun istehsal seqmentlərini yaratmağı tələb edir. İstehsalın bütövlükdə yerli tələbatın marketinq strukturuna uyğun transformasiyası, həmçinin restruktizasiya tədbirlərinin həyata keçirilməsi tədbirləri və sahibkarlığın inkişafı ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasında təsərrüfatçılıq xüsusiyyəti olaraq fərdi təsərrüfat, icariyyə və həmçinin kollektiv təsərrüfat forması olan payı bəlli təsərrüfat formaları tarixən özünün sosial-iqtisadi nəticələri ilə fərqlənmiş və müsbət nəticələr vermişdir. Torpaq, su resurslarının məhdudluğu, blokada şəraitinin olması, daxili istehsalın idxal yolu ilə gətirilən maddi resurslara tələbatını ödəməklə real çətinliklər yaratmışdır. Ona görə də yerli resurslara əsaslanan texnoloji proseslərin inkişafı və yerli tələbatı ödəyən son məhsul istehsalı Naxçıvanda istehsalın struktur çevrilməsi üçün əsas istiqamət olaraq nəzərdə tutulur.

Yerli tələbat əhalinin demoqrafik tərkibi ilə və miqrasiya problemlərinin həlli yolları ilə mümkün olur. Yerli tələbatın ödənilməsində idxal ilə daxili istehsal arasında üstünlük verilməsi, təbii ki, istehsalın texnoloji quruluşu və onun səmərəli təşkilindən xeyli asılıdır. Bu gün Naxçıvanda yerli resursların istifadəsindən əldə edilən son məhsulun istehsalı xərcləri, həmin məhsulların yaxud onları əvəz edən məhsulların gətirilməsi üçün zəruri olan məhsulların qiymətindən yuxarı olması, daxili sahibkarlığın inkişafında müəyyən çətinliklər yaradır. Ona görə də sərhədyanı region kimi daxili istehsalın və gətirilən məhsulun arasında nisbətlərin tənzimlənilməsində istehlakçı hüquqları və onların maddi vəziyyətinin yaxşılaşdırılması problemlərinin həlli prinsipləri və konkret yolları meydana çıxır. Naxçıvanda bazar münasibətlərinin sonrakı inkişafı Naxçıvan Muxtar Respublikasının resurs potensialının perspektiv inkişaf istiqamətləri və onların təkrar istehsal strukturu ilə ölçülməlidir. Naxçıvanda əmək resurslarının iş yerlərinə nisbətən artıq olması və bu nisbətlərin dəyişməsində yeni iş yerlərinin açılması zəruriyyəti ön planda durur. Bunun həlli üçün investisiyanın təşviqi, yeni investorların daha çox iş yerlərinin açılmasına stimul yaradılması tədbirləri əsas götürülür. Yeni

iş yerlərinin açılması üçün dövlət büdcəsinin, neft fondundan və digər maliyyə mənbələrindən Naxçıvan Muxtar Respublikasının təbii resurslarının istifadəsinə ayrılan vəsaitlərin daha çox investisiya istiqamətlərində istifadəsi əsas rol oynayır. Belə ki, Naxçıvan duz mədəninin, Naxçıvan mineral sularının istifadəsi üçün, əlavə vəsait qoyulması üçün həmin məhsulların ixracat potensialının artırılması prioritet istiqamət olaraq qəbul edilir.

Naxçıvan Muxtar Respublikasında təbii sərvətlər və onlardan istifadə üçün bazar tutumunu artırmaq ancaq daxili bazarı deyil, həmçinin xarici bazarları birləşdirməlidir. Naxçıvanın coğrafi mövqeyi olan sərhədyanı ticarət formaları, azad iqtisadi zonalar və müştərək əmək bazarı, maliyyə bazarı və həmçinin əmtəə və xidmət bazarları müştərək istehsal və istehlak üçün bərabər şərtlərlə genişlənməlidir. Azad rəqabət mühitini üçün Naxçıvan Muxtar Respublikasında ilkin kapitalın formalaşması və istehsalçıların resurs təminatında kredit resurslarının istifadəsində dövlətin himayəçilik siyasəti baş verməlidir. Naxçıvanın ərazi cəhətdən blokada şəraiti, onun əhalisinin nəqliyyat və təsərrüfat əlaqələrinin kəsilməsi bu regionun istehsal və mübadilə, həmçinin istehlak mühiti şəraitində yeni imkanlar axtarmağa sövq edir. Belə ki, yerli resursların xarici investorlara uzunmüddətli istifadəyə verilməsi, müştərək müəssisələrin subsidiya vasitəsi ilə iqtisadi inkişafın yüksəldilsəsi prosesi həll olunur. Naxçıvan iqtisadi münasibətləri onun ərazisində formalaşan resurs potensialının təsərrüfat formaları üzrə təşkili və idarə edilməsində menecment və sahibkarlıq mühitinin, gömrük rejiminin yaxşılaşdırılması və güzəştli kreditlərin verilməsi vacib xüsusiyyətlərdir. Naxçıvanın dağ rayonlarının inkişafı üçün sahibkarların sağlamlaşdırılması məqsədi ilə kredit, vergi və əmək haqqı sistemində müəyyən əlavə ödəmələr vacibdir.

Əhalinin məskunlaşması məqsədi ilə infrastrukturun inkişafı və ərazidə bir sıra ümumi respublika əhəmiyyətli müəssisə və təşkilatların yerləşdirilməsi, təchizat müəssisələrində enerji, qaz və nəqliyyat problemlərinin həllinin İran İslam Respublikası və Türkiyə Cumhuriyyəti ilə razılaşmada həll edilməsi nəzərdə tutulmalıdır.

Əhalinin sosial təminatı onun bazar strukturunda əmtəə və xidmət bazarının formalaşması və idxal, ixracın tənzimlənilməsi, ərazi proqramları yolu ilə regionun kompleks inkişafı üçün lazım olan maliyyə, texniki yardım və satış tədbirləri həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Abasov İ.D. Azərbaycanın kənd təsərrüfatı. Bakı, Elm və təhsil, 2010, 592s.
2. Abbasov T.A.Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, s.185.
3. Abbasov T.A. Naxçıvan MR-da aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri
4. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 205 s..
5. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, 2000, s.114.
6. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı, Elm, 2002, 465 s.
7. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı. /İqtisadiyyat və audit, 2002, №2, 33-34 s.
8. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri./ İqtisadiyyat və aydit jurnalı 2003, №10, 24-25 s.
9. Verdiyev Ə.Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı, Şirvannəşr, 2000, 256 s.
10. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, Adiloğlu 2002, 231 s.

ABSTRACT

Teymur Abbasov

FEATURES OF MARKET RELATIONS EXISTING IN

THE NAKHEHIVAN AUTONOMOUS REPUBLIC

The article dealds with the formation of market relations and its features. In Nakhchivan the main positions are analyzed and determined to establish economic reforms and new market relations. It is noted that the further development of market relations should be measured by the perspective development trends of resource potential and their structure of reproduction in Autonomous Republic.

РЕЗЮМЕ

Теймур Аббасов

ОСОБЕННОСТИ РЫНОЧНЫХ ОТНОШЕНИЙ ИМЕЮЩИХСЯ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье говорится о формировании рыночных отношений и их особенностей в автономной республике. Анализируются и определяются основные задачи для экономических реформ и создания новых рыночных отношений в Нахчыване. Отмечается, что последующие рыночные отношения в автономной республике должны измеряться перспективными направлениями развития ресурсного потенциала и их структурой перепроизводства.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

MEHDİ BAĞIROV
Naxçıvan Dövlət Universiteti

UOT: 336

İQTİSADİ SAHƏLƏRDƏ TƏTBİQ OLUNAN BİZNES-SƏNƏDLƏŞMƏLƏRİN XÜSUSİYYƏTLƏRİ VƏ TƏŞKİLİ İMKANLARI

Açar sözlər: *iqtisadiyyat, iqtisadi sahələr, biznes sənədləşmələri, sənədləşmə xüsusiyyətləri, biznes sənədləşmələrinin şərtləri, sənədləşmə üsulları*

Key words: *economy, economic, business-documentation, business-documentation features, terms and conditions of business-documentation, businessdocumentation techniques*

Ключевые слова: *экономика, отрасли экономики, особенности бизнес-документирования, условия бизнес-документирования, формы бизнес-доку ментирования.*

İnsan cəmiyyəti yaranışından qarşılıqlı təmas və ünsiyyət əlaqələri daim irəliləmiş, təkmilləşmiş və fəaliyyət sferalarında siraət etmişdir. "Sovet" dönəminin bitməsi və bazar iqtisadi sisteminə keçid bir çox idarəetmə funksiyalarının ləğvi və çoxsaylı istiqamətlərdə tənzimləmə fəaliyyətinin bərqərar olması və genişlənməsi ilə nəticələndi. Ölkənin haliyədə mövcud olan iqtisadi mənzərəsi işgüzar mühitin xeyli hissəsinin qeyri-dövlət sektorunun əlində cəmləndiyini ifadə etməkdədir (məsələn, 2017-ci ilin nəticələrinə görə Naxçıvan Muxtar Respublikasında özəl bölmənin payı 88% təşkil etmişdir). Göstərilən fakt öz növbəsində təşkilati, idarəetmə, texniki, texnoloji və digər aspektlərdə əsaslı dəyişikliklərə yol açmış, bu istiqamətlərin daha mütərəqqi elementlərlə təchiz olunmasını şərtləndirmişdir.

Ölkə iqtisadiyyatının zamanla çoxsahəli yenilənmə və transformasiya proseslərinə məruz qalması, istehsal əlaqələrinin genişlənməsi, qarşılıqlı münasibətlərdə çoxşaxəliyin təmin olunması, şifahi razılaşmalarla yanaşı rəsmiyyətə salınan yazılı, müxtəlif tərəfli (birtərəfli, ikitərəfli və çoxtərəfli) işgüzar formada tərtib olunmuş sənədlərin mövcudluğu zərurətini ortaya çıxardır.

"Sənədləşmə" terminin mahiyyətinə baxdıqda, iqtisadi müstəvidə təsərrüfat əməliy-yatlarının sənədlər vasitəsilə rəsmiyyətə salınması mənası başa düşülür.

Sənədləşmə məzmun etibarı ilə hər hansı araşdırma obyektinin aşağıda sadalanan obyektlərlə qarşılıqlı münasibətlərinin təzahürü kimi çıxış edir.

1. Müxtəlif dövlət orqanları ilə göstəriləcək iş və xidmətlər qarşılığında yaranan öhdəliklər üzrə;
2. Əmtəə, mal, iş və xidmətlər üzrə iki obyekt arasında yaranan öhdəliklər və icra olunacaq vəzifələr üzrə;
3. Xammal hazır məhsul və göstəriləcək xidmətlər üzrə üç və daha çox tərəfin iştirakını nəzərdə tutan öhdəlik və vəzifələrin yaranması;
4. "Dövlət – fərd", "müəssisə – fərd" müstəvilərində qarşılıqlı öhdəlik və vəzifələrin yaranması və s. [3; 88]

Birinci bənd ilk növbədə dövlət rüsumlarının, cərimələrin, aliment və digər məbləğlər üzrə icraatın, müxtəlif xidmətlərə görə ödənişlərin həyata keçirilməsi zamanı tətbiq olunur. Bu halda adətən ibtidai sənədlərin istifadəsinə müraciət olunur (ödəniş qəbzləri və s.) və sadələşdirilmiş yazışmaların tətbiqi mümkün olur. İkinci və üçüncü bəndlər üzrə iştirakçılar adətən "istehsalçı – istehlakçı" müstəvisinə aidiyyatı ilə seçilir. Birada iştirakçı tərəflərin sayında fərqlərin mövcudluğu biznes sənədləşmələrin fərdi yaxud bir neçə ünvan üzrə aparılması halları fərqləndirilməlidir. Sonuncu bənddə biznes sənədləşmə tərəflərindən birinin hər hansı fərdə verilməsi onun xüsusiyyətlərini şərtləndirir.

Sənədləşmənin obyekti kimi subyektlərin və ya fərdlərin tam fəaliyyəti və ya onların bəlli istiqamətləri çıxış edə bilər. Bu halda aşağıdakı məsələlərin mütləq nəzərə alınması və onlara riayət

olunması zəruridir.

- ✓ Azərbaycan Respublikasının Qanunları, fərman, sərəncam, və bu bəndə aidiyyatı ilə seçilən digər hüquqi-normativ sənədlər;
- ✓ təsərrüfat subyektlərinin nizamnamələri, onların fəaliyyətində mühüm nizamla-yıcı sənəd kimi qəbul edilən əsasnamələr;
- ✓ Təktərəfli və çoxtərəfli şəkildə bağlanan müqavilələr;
- ✓ Digər normativ sənədlər (icra imkanları daxilində).

Təməlinin sənədləşmədə, kargüzarlıq fəaliyyətinin metod və prinsiplərindən götürən biznes yazışmalar məzmun etibarı ilə müstəqil "blokla" ifadə olunmaqdadır.

Biznes sənədləşmələrinin təcrübi tətbiqi zamanı çoxsaylı prinsip, metod və modellər əsas götürülə bilər ki, bu zaman aşağıdakı təməllər qorunmalıdır;

1. Sistemlilik;
2. Tənzimlənmə meyyarlarına uyğunluq;
3. İqtisadi cəhətdən əsaslanma;
4. Sosial effektin gözlənilməsi;
5. Anlaşıqlılıq;
6. Səliqəlilik;
7. Zaman və məkan ifadəsinin mövcudluğu;
8. Çeviklilik;
9. Real şəraitlə uyğunlaşma;
10. Şəffaflıq;
11. Tərtib olunma zamanı müxtəliflik imkanlarının mövcudluğu;
12. Sənədlərin tamlığı və dolğunluğu və s. [1; 35]

Biznes sənədləşmələrdə sistemlilik sənədlərin xüsusiyyətlərində irəli gəlir və onların qarşısında qoyulan tələbləri ödəməlidir. Bu zaman bir başa sənədlərlə yanaşı köməkçi sənədlərin tətbiqi də istisna deyil. Məsələn müəssisə ilə işçisi arasında ezamiyəyə göndərilmə ilə bağlı bağlanan müqavilədə ezamiyyənin məqsədi onun müddəti ezamiyyənin göndərilmə yeri göstərilməklə yanaşı avans hesabatının tərtibinə ehtiyac duyulur. Bununla yanaşı (əgər ezamiyyə fəqli şəhərdə və ya fərqli ölkədə baş tutacaqsa) gediş-gəliş, qalma, qidalanma və ezamiyyə üçün nəzərdə tutulan digər xərclərin ödənməsini təsdiq edən sənədlərin əlavə olunmasıda zəruridir.

Tənzimlənmə meyyarlarına uyğunluq parametri baş tutacaq (və ya həyata keçirilməsi nəzərdə tutulan) biznes sənədləşmələr (və ya yazışmalar) hüquqi-normativ sənədlərə uyğunluğu ifadə etməlidir. Bu uyğunluq birtərəfdən ümumi təyinatlı qanunvericilik normalarına, digər tərəfdən işgüzar mühit və sənədləşmə tələblərinə uyğunlaşdırılmalıdır. Biznes sənədləşmələrin aparılması xüsusiyyətlərindən də asılı olaraq da onların təsnifləşdirilməsi mümkündür. Bu zamanda maliyyə, idarəetmə, mühasibat uçotu, texniki və digər parametrlərin əsasında aparılan sosial-psixoloji məsələləri özündə ehtiva edən sənədləşmələr fərqləndirilir.

Aparılan iqtisadi təmayüllü sənədləşmələrdə əsaslandırma və hesablama əsasında təqdim olunan işlərin mütləqliyi qorunmalıdır. Belə ki, biznes sənədləşmələr iqtisadi müstəvidə konkret kəmiyyət və keyfiyyət ifadələrinə istinadla seçilməli, sənədlərdə dəyər ifadələri dəqiq göstərilməlidir. İqtisadi cəhətdən əsaslandırma təməli eyni zamanda hər hansı tikinti kənd təsərrüfatı və digər sahələr üzrə yerinə yetiriləcək işlərdə də özünü əyani sürətdə təcəssüm etdirməlidir.

Biznes sənədləşmələrin həyata keçirilməsində sosial effektin gözlənilməsi mühüm şərtlərdən biri kimi çıxış edir. Belə ki, bir müqavilədə insan işçi amilinin nəzərə alınması və ondan irəli gələn dəqiqləşdirilmələrin aparılması zəruridir. Digər tərəfdən, biznes sənədləşmələrin obyektini təşkil edən bir çox yazışmalarda çoxsaylı sosial layihələrin icrasının nəzərdə tutulması da istisna deyil.

Biznes sənədləşmələrdə gözlənilməli olan prinsiplərdən biri də anlaşıqlıqdır. Belə ki, tərtib olunan hər bir sənəd (təyinatdan asılı olmayaraq) onun qarşısında qoyulan tələblərə cavab verilməli, ifadə olunan göstəricilər konkretləşdirilməli, öz aydınlığı ilə seçilməli, iki və daha çox mənalı situasiyaların yaranmasına imkan tanımamalıdır. Anlaşıqlılıq ifadəsi eyni zamanda iştirakçı tərəflərin hüquq və vəzifələrindən dəqiq müəyyən etməli və heç bir çaşqınlığa yol açmamalıdır.

Biznes sənədləşmələrdə riayət olunmalı məqamlardan biri də tərtibatın səliqəli şəkildə aparılmasıdır. Belə ki, əks təqdirdə bir çox mübahisəli məqamlar və anlaşılmazlıqlar ortaya çıxa, qeyri-dəqiq vəziyyətlər yarana bilər. Məsələn, heç bir düzəlişə icazə verilməyən sənədlər sırasında bank çekləri öncül yerlərdən birini tutur. Bu sənədlərdə səliqəsiz (səhv) yazılışların mövcudluğuna icazə verilmir. Bu halda səhv yazılmış çekin üzərində "ləğv olunur" kəliməsi yazılır və ləğv olunmuş çeklər qovluğuna qoyulur.

Biznes sənədləşmələrdə "zaman" və "məkan" ifadəsinin gözlənilməsi mühüm şərtlərdən biridir. Belə ki, biznes sənədləşmələrin obyektini təşkil edən fəaliyyət (mal mübadiləsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və s.) özünün zaman çərçivələri ilə seçilməli və məkan aidiyyatını bildirməlidir. Hər hansı bir işin icrası onun xüsusiyyətləri nəzərə alınmaq şərtilə yuxarıda bəhs olunan iki parametrin mövcudluğu şəraitində mümkündür.

Biznes sənədləşmələrdə riayyət olunmalı prinsiplərdən biri də çeviklilikdir. Bu prinsipin sənədlərdə bir çox halların və variantların gözlənilməsi şərtləndirir. Belə ki, tərəflərin tələblərindən asılı olaraq biznes sənədləşmələrdə bu və ya digər amilin üstün (prioritet) göstərilməsi yazışmanın məzmununu, onun yönünü və üslubunu dəyişə bilər.

Biznes sənədləşmələrin spesifik cəhətlərindən hesab olunan "real şəraitlə uyğunluq təşkiletmə" öz növbəsində aşağıdakı elementlərin mövcudluğu ilə şərtlənir:

a) Sənədləşməni aparan subyektlərin sahə aidiyyatı;
b) onların maddi (əsas və dövriyyə fondları, pul vəsaitləri və s.) və qeyri-maddi (əmtəə nişanları, lisenziyalar və s.) imkanları;
c) real işləri icra vəziyyətinin tamlıq səviyyəsi;
d) mövsümi faktorlarının nəzərə alınması;
e) torpaq resurslarından istifadə imkanları;
f) yer quruluşu, coğrafi və digər amillərin nəzərə alınması və s. [6; 28]

Biznes sənədləşmələrdə nəzərə alınmalı mühüm cəhətlərdən birini də şəffaflıq təşkil edir. Bu element adətən "üstün tərəf – asılı tərəf" münasibətləri zamanı yaranma, formalaşma imkanlarına malikdir. Onun real şərait əsas təzahür yerləri bəzi dövlət icra orqanları və digər səlahiyyətli orqanlarla qarşılıqlı əlaqələrin mövcudluğu hallarına təsadüf edə bilər. "Belə" halların aradan qaldırılması məqsədilə biznes sənədləşmələrin distant (elektron) formasına üstünlüyün verilməsi hazırda respublika, həmçinin muxtar respublika rəhbərliklərinin həyata keçirdiyi iqtisadi, idarəetmə-təşkilati siyasətin tərkib hissələrindəndir.

Biznes sənədləşmələrdə tərtibatın müxtəlif üsullarının tətbiqinin mümkünlüyü mühüm əhəmiyyət kəsb edir. Bu sırada təsərrüfat subyektlərinin ilk növbədə ödənişlər aparılması zamanı hesablaşmalarının icrası müxtəlifliyi, yaxud çoxsaylı (eynişəhərli, müxtəlif şəhərli, ölkədənkənar və s.) köçürmələrin edilməsi nümunə olaraq göstərilə bilər. Bəhs olunan əməliyyatların məqsədi pul vəsaitlərinin bir ünvandan digər ünvana çatdırılmasıdır. Həmin əməliyyatların həyata keçirilməsi ödəniş tapşırıqları, ödəmə tələbnamələri, akkreditiv və digər hesablaşma sənədləri vasitəsilə həyata keçirilə bilər ki, bu da biznes sənədləşmələrin xarakterinə də aydınlıq gətirmiş olacaqdır.

Biznes sənədləşmələrin aparılması zamanı sənədlərin tamlıq və dolğunluq səviyyəsinin gözlənilməsi mühüm əhəmiyyətə malikdir. Belə ki, məsələn, istənilən sənəd forması o zaman hüquqi formaya uyğunluğunu təmin etmiş olur ki, onda məcburi və əlavə rekvizitlərin mövcudluğu təmin edilmiş olsun. Bu sırada sənədləşməni aparan subyektlərin tam adı, onların tam poçt ünvanı, (əgər varsa) onların tabe olduqları nazirlik, baş idarə, trest və digər ali instansiya orqanının adı, yazışmanın tarixi, onu aparan məsul şəxsin (və ya şəxslərin) adı, atasının adı və soyadının göstərilməsi, müəssisənin əsas möhürü ilə təsdiqlənmə (ehtiyac olan sənədlərdə) öz əksini tapmalıdır. Digər tərəfdən, sənədləşmə öz obyekti haqqında istər kəmiyyət, istərsə də keyfiyyət parametrləri baxımından dolğun informasiyanı əks etdirməlidir. [5; 34]

Yuxarıda bəhs olunan şərait və situasiyalardan da göründüyü kimi, iqtisadi sahəyə aidiyyatı ilə seçilən biznes sənədləşmələri özünün çoxsaylı üsul, forma, üslub və xarakterləri ilə seçilməkdədir. Real vəziyyətin dəqiq qiymətləndirilməsi və müvafiq, tələbləri daha yüksək səviyyədə qarşılayacaq biznes sənədləşmələri formasının müəyyənləşdirilməsi qarşıya qoyulan məqsədlərə müfəssələ şəkildə nail olunmaqda mühüm vasitə rolunu oynayacaqdır.

ƏDƏBİYYAT

1 1. Musayev E.K. “Kargüzarlığın təşkili”, Bakı, Qanun, 2003, 175 s.
2 2. Bağırov M.S. “Peşəkar terminologiya”. Mühasibat uçotu üzrə çoxcildlik, I cild. Naxçıvan. 2012, 249 s.
3 3. Bağırov M.S. “Mühasibat uçotu nəzəriyyəsi”. Mühasibat uçotu üzrə çoxcildlik, II cild. Naxçıvan, İdeya, 2012, 252 s.
4 4. Bağırov M.S. “Maliyyə hesabatları” (monoqrafiya). Naxçıvan: 2012, 118s.
5 5. Bağırov M.S. “Pul vəsaitləri: mahiyyəti və mühasibat uçotunun təşkili” (monoqrafiya). Naxçıvan 2012. 128 s.
6 6. Cəfərov A.M. Mühasibat uçotu. Bakı, Qanun, 2011, 503 səh.
7 7. Milli mühasibat uçotu standartları. Bakı, Qanun, 2008.
8 8. Малькова Т.Н. Теория и практика международного бухгалтерского счета. Санкт-Петербург, Бизнес-преса. 2001, 326с.
9 9. Роснова О.В. Международные стандарты бухгалтерского учета и финансовой отчетности. Москва, Аристей, 2003, 155с.
1 10. Терехова В.А. Международные и национальные стандарты учета и финансовой отчетности. Москва, ЮНИТИ, 2003, 267с.
1 11. Хохонова Н.Н. Международные стандарты финансовой отчетности. Ростов-на-Дону, 2002, 205с.

ABSTRACT

M**ekhdi Bagirov**

THE ORGANIZATION APPLIED TO THE ECONOMIC CHARACTERISTICS AND CAPABILITIES OF THE BUSINESS-DOCUMENTATION

The article as the object of basic research, applied economic essence of business documentation, their characteristics and capabilities of the organization selected. The issue of ensuring a systematic approach being followed by the specification of the parameters of the content in the field of business correspondence.

Comprehensive study of the principles of business documentation, styles and met-hods of topical issues relating to the implementation of various economic situations, the nature and the characteristics of the individual attention they need for correspondence occurs.

Here are the changes taking place in business documentation related to the research being discussed, highlighting the issues facing the effects.

Approaches to the conduct of the business economy, including important methods of accounting principles and the rules of the documentation is considered as one of the basic points.

During the execution of the subject is used for the development of business documentation that was detailed information about the specific principles, it also helps to be more lucid expression of the study. Meanwhile, systematic, compliance with regulatory standards, economic basis, the expected social effect, the expression of time and space availability, compliance and other principles were considered real conditions, they were considered in accordance with the situations that arise.

РЕЗЮМЕ

Мехти Багиров

ОСОБЕННОСТИ И ВОЗМОЖНОСТИ ОРГАНИЗАЦИИ БИЗНЕС-ДОКУМЕНТИРОВАНИЙ, ПРИМЕНЯЕМЫХ В ЭКОНОМИЧЕСКИХ ОТРАСЛЯХ

В статье основным объектом исследования выбраны сущность, специфика и организационные возможности бизнес-документирований, применяемых в экономических отраслях. Обеспечение ситемного подхода к теме сопровождается уточнениями сущностных параметров в сфере деловых переписок.

Масштабное изучение деловых переписок актуализирует проблемы приме-нение их принципов, форм и методов применения по различным экономическим ситуациям. В это время не исключено соприкосновение с необходимостью индиви-дуального внимания на характер и особенности документирований.

В работе повествуется о взамосвязанном исследовании экономических преоб-разований и бизнес-документирований, освещаются проблемы, сопровождающиеся взаимными влияниями.

При проведении деловых переписок являющееся одним из основных методов бухгалтерского учета документирование, его принципы и правила оцениваются как один из базовых организационных точек.

В процессе разработки темы довольно широко повествуется о специфичных принципах, используемых при бизнес-документированиях, что делает исследование более понятливым. В этом порядке рассматрены такие принципы как, системность, соответствие условиям регулирования, обоснованность в экономическом отношении, учитывание социального эффекта, понятливость, безощибочное выра-жение, сушествование возможностей разлиности при подготовке документов, временных и местностных компонентов,возможность соответствия к реалиям, уровень полности документов, прозрачность, оперативность, а также форми-рующие различные экономические ситуации с их соблюдением.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

HƏVVA ADIGÖZƏLOVA
Naxçıvan Dövlət Universiteti
eva.alieva.2012@mail.ru
MƏFTUN ABBASOV
Naxçıvan Dövlət Universiteti

UOT: 332.6

İNVESTİSİYA FƏALİYYƏTİNİN ARTIRILMASI VƏ İXRACATIN STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Açar sözlər: *investisiya, idxal, ixracat, stimullaşdırma, aqrar sahə, kənd təsərrüfatı, dünya ölkələri və s.*

Key words: *investment, import, export, stimulation, agrarian sector, agriculture, world countries, etc.*

Ключевые слова: *инвестиция, импорт, экспорт, стимулирование, аграрная отрасль, сельское хозяйство, страны мира и т.д.*

1. Aqrar sahə məhsullarının ixracının stimullaşdırılması

Nəzərə alsaq ki, Azərbaycan Respublikası aqrar sahənin inkişafı üçün geniş imkanlara malikdir və qonşu ölkələrdə bu sahənin məhsulları üçün çox böyük ehtiyac vardır. Bu baxımdan onda ixrac yönümlü aqrar və aqrar-emal sahələrinin məhsullarının istehsalı zəruriliyi aydın olar.

Vaxtilə ölkədə yetişdirilən pambıq, ipək, zəfəran və bir çox digər kənd təsərrüfatı məhsulları qədim karvan yolları ilə dünyanın bir çox qərb və şərq ölkələrinə ixrac edilirdi. XIX yüzillikdə kənd təsərrüfatının bir çox sahələri özünün natural xarakterini itirmiş, ticarət əmtəə səciyyəsi daşımağa başlamışdır. Azərbaycan bütün Qafqazın ən iri taxılçılıq, pambıqçılıq, ipəkçilik, tütünçülük və heyvandarlıq mərkəzinə çevrilmişdir. Məhz, neftdən asılılığın azaldılmasının aktual olduğu indiki məqamda, aqrar məhsulların ixracının stimullaşdırılması zəruridir, qaçılmazdır.

Müasir qloballaşma şəraitində də ölkəmizin xarici iqtisadi əlaqələrinin inkişaf qanunauyğunluqlarının öyrənilməsi, qarşıya çıxan problemlərin həlli yollarının araşdırılması, xarici bazarlara, qlobal iqtisadi məkana inteqrasiyanın sürətləndirilməsi zərurətini yaradır. Bu da ondan irəli gəlir ki, dünya ölkələri arasında iqtisadi münasibətlər özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya iqtisadiyyatının formalaşması, dünya bazarının təşəkkülü, eyni zamanda qlobal problemlərin kəskinləşməsi və onların həllinin yalnız ümumbəşəri səviyyədə mümkünlüyü beynəlxalq iqtisadi münasibətlərin bir sistem halında bərqərar olmasına gətirib çıxarmışdır. Dünya bazarında qiymətlərin dinamikası, ayrı-ayrı ölkələrin ixrac potensialında və idxal tələbatında baş verən dəyişikliklər, dünya iqtisadiyyatında struktur dəyişiklikləri, beynəlxalq inhisarların fəaliyyəti hər bir ölkənin mənafeyinə bu və ya digər dərəcədə təsir edir, onun sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Başqa sözlə desək, ölkələrarası qarşılıqlı asılılığın güclənməsi beynəlxalq iqtisadi münasibətlərin rolunu və əhəmiyyətini getdikcə artırır.

İnvestisiya fəaliyyəti və ixracat siyasətinə aid olan bütün problemlər kompleks şəkildə ətraflı öyrənilməlidir. İstehsal texnologiyasının xüsusiyyətləri və istehlak xassələri nəzərə alınmaqla ixracat məhsullarının çeşidinin optimallaşdırılması; həyat səviyyəsi nəzərə alınmaqla ixracat məhsulunun, onun ayrı-ayrı növlərinin yeniləşdirilməsi; ixracat proqramında yeni və köhnə məhsulların, satış zamanı yeni mənimsənilmiş bazarların müqayisəsi və yeniləşmə səviyyəsi bazara yeni məhsullarla çıxmaq üçün vaxtın seçilməsi və mövcud, lakin bazara yerini itirməkdə olan məhsulların ixracat proqramının çıxarılması və s. qeyd olunmalıdır ki, bu məsələlər də xarici bazarlar, onların tələbləri və rəqiblərin hərəkətləri nəzərə alınmaqla həll olunmalıdır.

Müşahidələr göstərir ki, ölkəmizdə bazar münasibətləri inkişaf etdikcə, radikal iqtisadi islahatların milli iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə getdikcə dərinləşməsi

prosesi sürətləndikcə, ölkədə istehsal olunan məhsulların, o cümlədən ərzaq və qida məhsullarının ixracat potensialı da artır. Məlum olduğu kimi, xarici bazarlara çıxarılan kənd təsərrüfatı məhsulları rəqabət qabiliyyətli olmalı, bazar tələblərini ödəməlidir. Buna görə də "daxili və xarici bazarın tələbləri əsasında kənd təsərrüfatı məhsulların istehsalının artırılması istiqamətində bölmənin strukturunun təşkilatı-idarəolunmasının yeniliklərə uyğun qurulması" (1.) zəruri hesab edilir.

Əks halda həmin məhsullar rəqabətə davam gətirməyəcək, istehlakçılar tərəfindən alınmayacaq və nəticədə həmin məhsullar öz dəyərindən aşağı qiymətə satılaraq, rentabelsiz olacaqlar.


Nəzərə almaq lazımdır ki, ixrac olunan məhsulların hazırlanması zamanı bu tələblərin dəyişə biləcəyini, həmçinin onun hüquqi, servis, reklam və marketinq məsələləri də normal halda olsun. Yalnız belə məhsullar, ixracat potensialının artırılması və onun iqtisadi səmərəliliyinin yüksəldilməsini təmin edə bilər.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafın dövlət proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkə prezidenti cənab İlham Əliyev ölkə iqtisadiyyatına qoyulan investisiyalar haqqında demişdir:

"On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu, onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il ən azı ona bərabər həcmdə sərmayə yatırılacaq.

On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Əlbəttə ki, bu artımın ümumi iqtisadi inkişafımızla sıx əlaqəsi var. Əlbəttə ki, əhali artımı hər bir ölkə üçün önəmli amildir. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki artan əhali, eyni zamanda, bizdən buna adekvat iqtisadi inkişaf tələb edir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar." (2).


Şəkil 4. Kənd təsərrüfatı və ərzaq məhsullarının idxal dinamikası *(milyon ABŞ dolları ilə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şəkil 10. Kənd təsərrüfatı və ərzaq məhsullarının

ixracı, *(milyon ABŞ dolları ilə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Cədvəl 8. 2001–2015-ci illərdə Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ixracı *(min ABŞ dolları ilə)*

Məhsul	2001	2005	2010	2011	2012	2013	2014	2015	2015/ 2005
Meyvə	11982	146432	112484	152965	207986	173508	192165	220247	150,4
Tərəvəz	856	26224	42345	78307	55969	77264	98919	91681	3,5 d.
Meyvə-tərəvəz emal məhsulları	2123	16773	21518	21366	18694	21965	17143	10857	64,7
Heyvan və bitki mənşəli yağlar	2957	68418	188255	173757	221766	227884	190335	153335	2,2 d.
Şəkər və şəkər məh-sulları	0	91	146452	199185	214911	243840	221379	212207	233,2d
Şokolad məhsulları	0	398	3157	7924	11942	16268	11868	7648	19,2 d.
Çay	3142	14097	32957	32211	37223	43906	30804	18959	134,5
Spirtli və spirtsiz içkilər	3403	9401	15142	15727	21041	30947	31875	25829	2,7 d.
Pambıq	15122	43974	15892	20612	22302	30230	14324	19308	43,9
Gön-dəri	1566	2134	11664	10774	13932	16978	23868	12128	5,7 d.
Tütün	11834	5395	5894	9307	7913	10757	12415	7431	137,8
Digər	19457	40375	27098	28676	37183	34999	36171	23000	57,0
Cəmi	72442,0	373712	622858	750811	870862	928546	881266	802634	2,2 d.

Mənbə: Dövlət Statistika Komitəsi

Müasir şəraitdə ölkəmizdə aqrar sahənin dünya iqtisadi birliyinə səmərəli inteqrasiyası – kənd təsərrüfatında yüksək məhsuldar texnologiyaların tətbiqinin sürətləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin beynəlxalq tələblərə uyğunlaşdırıl-ması ilə yanaşı kənd təsərrüfatı məhsullarının ixracında və xarici bazarlara çıxışında əlverişli şərait yaradılması, mövcud potensialdan səmərəli, effektli istifadə əsasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Müşahidələr göstərir ki, iqtisadiyyatın qloballaşması şəraitində aqrar sahənin ixrac potensialının formalaşdırılması və inkişafına xarici iqtisadi əlaqələr mühüm təsir göstərir. Qloballaşma prosesinin tələblərinə uyğunlaşmaq və milli ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində hər bir ölkənin mənafelərinin həyata keçirilməsi, aqrar sahənin xarici iqtisadi əlaqələr mexanizmində liberallaşdırma və himayədarlığı təmin edən vasitələrin səmərəli əlaqələndirilməsi zəruridir.

Respublikamızda aqrar sahədə həyata keçirilən əsaslı struktur dəyişikliklərinin gedişində ixrac yönümlü aqrar bölmələrin formalaşması, təşəkkülü və bununla əlaqədar həmin bölmələrə təsirli dövlət

yardımının həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən isə, keçid dövrünün ilk mərhələlərində aqrar iqtisadiyyatda baş verən dərin böhran prosesləri və büdcə problemləri ilə əlaqədar olaraq, bu sahədə zəruri səviyyədə subsidiyalaşdırma prosesi həyata keçirilməmişdir. Digər tərəfdən, Dünya Ticarət Təşkilatına (DTT) ölkəmizin üzvlüyə qəbulu ilə bağlı, aqrar ixraca subsidiyaların məhdudlaşdırıması ilə bağlı qoyulan tələblər məqbul hesab oluna bilməz.

Fikrimizcə, kənd təsərrüfatı məhsullarının xarici bazarlarda rəqabət qabiliy-yətliliyinin təmin olunmasına və aqrar sahədə ölkənin ixrac imkanlarının artırılmasına zəruri stimullar təmin etmək məqsədini nəzərə almaqla, ölkəmizin bu beynəlxalq quruma üzvlüyü ilə bağlı aparılan danışıqlarda əsas diqqət – Azərbaycanın DTT-yə qəbul edildikdən sonra, aqrar ixracın müstəqil, sərbəst subsidiyalaşdırılması üçün tətbiq edilə biləcək vəsaitin maksimum həcminin və əsas məhsul növlərinin subsidiyalaş-dırılan ixrac həcmlərinin yuxarı həddinin razılaşdırılmasına yönəldilməlidir.

Ümumiyyətlə, müstəqillik qazandıqdan sonra respublikamızda aqrar ixracın həcminin illər üzrə dinamikasında kəskin qeyri-stabillik müşahidə olunmuşdur. İllər üzrə qalxıb enmələrlə müşaiyət edilən ümumi azalma halı özünü biruzə vermişdir. Belə durum, aqrar ixracın həcminin formalaşması və inkişafına təmir edən amillərin aşağıdakı xüsusiyyətləri ilə də sıx bağlıdır:

- birincisi, keçid dövründə böhrandan sonrakı artım meylləri aqrar iqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə müxtəlif dövrlərdə başlanmışdır. İxrac yönümlü aqrar istehsal bölmələrinin bir qismində enmə meyli uzunmüddətli xarakter almışdır;

- ikincisi, aqrar ixrac sahəsində həyata keçirilən siyasət – xarici bazarlara çıxarılan kənd təsərrüfatı və ərzaq məhsullarının həcminin aşağı düşməsi meylinin və onun ümumi dinamikasında qeyri-stabilliyin saxlanılmasını şərtləndirmişdir. Hazırda isə həyata keçirilən ixrac siyasəti aqrar sahəyə xüsusi maneələr yaratmayaraq, onun bu sahədə yenidən qeyri-stabillik getenatoruna çevrilməyəcəyini təmin edir;

- üçüncüsü, ötən müddətdə kənd təsərrüfatı məhsullarının dünya bazar konyukturası üçün qiymətlərin nisbətən geniş dalğalanması səciyyəvi olub. Bu baxımdan qiymət dalğalanmalarının ayrı-ayrı məhsullar üzrə aqrar ixraca təsirində çevik dəyişikliklərin baş verməsi, həmin məhsullar üzrə dünya bazar konyukturasının cari və proqnozlaşdırılan vəziyyətlərinin daim diqqətdə saxlanılması zəruriliyini irəli sürür;

- dördüncüsü, ölkədə siyasi və makroiqtisadi sabitliyin təmin edilməsi, xarici ticarətin liberallaşdırılması və ixrac-gömrük rüsumlarının tətbiqinin dayandırılması aqrar ixracatın genişləndirilməsi üçün əlverişli şərait yaratmışdır. Lakin bu yönlü tədbirlər, ölkədə həyata keçirilən, bazar islahatlarının dərinləşməsinə müvafiq olaraq özünün davamını tapmaması, ixracın inkişafına bazar təsərrüfatçılığı sisteminin tələblərinə uyğun kömək mexanizmini formalaşdırmamışdır.

Fikrimizcə, ölkəmizdə aqrar ixrac potensialının artırılmasının əsas yollarından biri – kənd təsərrüfatının ixrac yönümlü sahələrinin prioritet inkişafına yönəldilən fəal struktur siyasətinin həyata keçirilməsidir. Həmin siyasət çərçivəsində hər bir ixrac yönümlü istiqamətdə inkişaf səviyyəsinin konkret xüsusiyyətlərini nəzərə almaqla yanaşılması məqsədəuyğundur. Bununla yanaşı, dövlət siyasəti səviyyəsində nəzərə alınması zəruri olan əsas məsələlər aşağıdakılardan ibarət ola bilər:

a) aqrar ixrac yönümlü bölmələrin, intensiv amillərin rolunun yüksəldilməsi əsasında ardıcıl artım strategiyasının həyata keçirilməsi təmin edilməlidir;

b) qeyd olunan strategiyasının həyata keçirilməsi məqsədilə, kənd təsərrüfatının ixrac yönümlü istiqamətlərinin inkişafına dövlət yardımının genişləndirilməsi zəruridir. Aktiv struktur siyasəti çərçivəsində, həmin tədbirlər sırasında aqrar istehsalçıların, intensiv texnologiyaların tətbiqi üçün vacib olan istehsal vasitələrini əldə etmələrinə yeni, daha məhsuldar toxum və əkin materiallarının alınması və onların yetişdirilməsinə maddi və maliyyə dəstəyinin göstərilməsi əsas yer tutmalıdır;

c) məhsul istehsalının artırılması üçün onların zəruri iqtisadi materiallarının təmin edilməsi, ümumilikdə isə xammal istehsalçılarının mənafelərinin qorunması məqsədilə, tədarük və emal funksiyalarını yerinə yetirən təsərrüfat subyektləri ilə qarşılıqlı əlaqələrdə antiinhisar nəzarəti və rəqabətin tənzimlənməsi tədbirlərinin tətbiq edilməsi zəruridir;

d) ixrac yönümlü kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının müxtəlif mərhələləri arasında vertikal, şaquli inteqrasiya əlaqələrinin inkişafının stimullaşdırılması və müvafiq dünya təcrübəsi nəzərə alınmaqla, həmin prosesin iqtisadi və təşkilati mexanizmlərinin ardıcıl surətdə

təkmilləşdirilməsi məqsədəuyğundur.

İqtisad elmləri doktoru Sadıq Salahovun qeyd etdiyi kimi (II, 4, səh.470), «iqtisadiyyatda liberal xarici ticarətin hüquqi əsasları, aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- strateji əhəmiyyətli məhsullar, o cümlədən kənd təsərrüfatı məhsullarının bütün hüquqi şəxslər tərəfindən ixrac olunmasına icazə verilməlidir;

- bu cür məhsulların sərbəst dönərli valyutaya minimum satış həcmləri müəyyənləşdirilməlidir;

- strateji əhəmiyyətli məhsullara daxili tələbatı müəyyənləşdirmək vacib bir məsələyə çevrilməlidir;

- həmin məhsulların satışından respublikaya valyutanın daxil olması üçün tədbirlər nəzərdə tutulmalıdır (bu məqsədlə normativlər müəyyənləşdirilməsinə və məhsulun haqqını ödəmədən onun satışına icazə verilməməlidir);

- gömrük-vergi rüsumları sadələşdirilməlidir və s;».

Yuxarıda göstərilən fərmanların həyata keçirilməsini gerçəkləşdirmək məqsədilə, Azərbaycan hökuməti də 15.11.1995-ci il tarixdə «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» qərar qəbul etmişdir. Bu qərara uyğun olaraq, lisenziyalar və kvotaların tətbiqindən yaranan süni maneələr aradan qaldırılmış, xarici iqtisadi əlaqələr üçün daha əlverişli şərait yaradılmışdır. Belə ki, qərara əsasən 1995-ci ilin noyabr ayından etibarən Nazirlər Kabineti və müvafiq dövlət orqanlarının razılığı ilə ixrac və idxal olunan ərzaq məhsullarının siyahısı təsdiq edilir, xarici ticarət və iqtisadi əlaqələrə nəzarət üzrə dövlət komissiyasının səlahiyyətləri məhdudlaşdırılaraq, idxal və ixracın sənədləşdirilməsi sadələşdirilir.

Müəssisənin ixrac potensialı, ixracat yönümlü məhsulların istehsalı müəyyən istiqamətdə işlərin görülməsini və məhsul nomenklaturasının kommersiya nöqteyi-nəzərdən səmərəli təşkilini və idarə olunmasını təmin edəcək fəaliyyət prinsipləri nəzərdə tutulmalıdır. Rəqabət qabiliyyətli məhsul çeşidini müəyyənləşdirərkən və bununla bağlı digər məsələləri həll edərkən müəssisə rəhbərliyi ixracat məhsullarını, resurslarını xarici bazarların tələblərinə uyğunlaşdırılmalıdır. Bu, yüksək rentabelli məhsulların ixracatının dinamik artımını təmin edən investisiya proqramını işləyib hazırlamağa və həyata keçirməyə imkanı genişləndirər.

İnvestisiya proqramının hazırlanması və həyata keçirilməsi, ən azı aşağıdakı şərtlərin gözlənilməsini tələb edir:

- investisiya fəaliyyətinin strategiyası;

- xarici bazara və onun tələblərinə yaxşı bələd olma;

- cari dövrdə və perspektivdə öz resurs imkanları haqqında informasiya bankının yaradılması.

İxracat yönümlü investisiya proqramını işləyib hazırlayarkən, aşağıda göstərilən amillərin də nəzərə alınmasını zəruri hesab etmək olar:

- təklif olunan və ixrac ediləcək kənd tsərrüfatı məhsulları alıcıların artan tələbinin ödənilməsinə yönəldilməlidir;

- ixrac olunan məhsullar üzrə xidmət servisi düzgün təşkil edilməlidir;

- bu məhsulların patent qaydalarına və əmtəə nişanlarına cavab verməlidir;

- ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsal etmək üçün, investisiya qoyuluşu probleminə strateъi nöqteyi-nəzərdən yanaşılmalıdır və s.

Bununla yanaşı, qəbul olunan qərarlarda taktiki marağın nəzərə alındığı və eyni zamanda onların marketinq xidmətində son məqsədə çatmanın bütün parametrləri öz əksini tapmalıdır. Fikrimizcə, marketinqin ixracat potensialı strategiyası aşağıdakıları əks etdirməlidir:

- digər rəqiblərə üstün gələrək, yaxın illərdə liderliyi saxlayan və bazarda digər məhsullardan fərqlənən məhsul istehsalını təşkil etmək;

- bazarın hər seqmenti üçün müxtəlif məhsullar və marketinq proqramları hazırlamaq;

- keyfiyyətli məhsullarla yeni-yeni bazarların fəth edilməsi və s.

Eyni zamanda, aqrar sahədə aşağıdan yuxarıya müxtəlif təsərrüfat qurumlarının xarici şirkət və qurumlarla xarici investisiyalı birgə müəssisələrin ilkin məlumatları əsasında, makrosəviyyədə ixracat potensialının strategiyası hazırlanarkən bazar iqtisadiyyatının tələbləri – makroiqtisadi sabitlik, maliyyə-kredit, işçi qüvvəsi, elmi-texniki potensial, yerli xammal, material-təbii resursların mövcudluğu və s. hallar nəzərə alınmalıdır. Bütün səviyyələrdə, ixracat yönümlü kənd təsərrüfatı, ərzaq

və qida məhsullarının istehsalına istiqamətləndirilmiş aşağıdakı stimullaşdırıcı vasitələrdən:

- xarici investisiyaların ölkə iqtisadiyyatın aqrar sektoruna cəlb olunmasının, xarici sərmayədarların özləri ilə yeni texnika, mükəmməl texnologiya və ən başlıcası, yeni təsərrüfatçılıq metod və üsullarını gətirməsi üçün xarici investisiyalı bircə müəssisələrin yaradılması, formalaşması və fəaliyyət göstərmələrinə dövlət səviyyəsində qayğı göstərilməsi;

- aqrar sahənin inkişaf etdirilməsində ixracat potensialını artırmaq, ixracat yönümlü kənd təsərrüfatı məhsullarının istehsalında vergi, gömrük və kredit güzəştləri vasitəsilə istehsalın stimullaşdırılması;

- ixracat üçün ərzaq və qida məhsullarının istehsalına yönəldilən investisiyaların səmərəli sığorta mexanizmlərinin yaradılması və s.

Təcrübə göstərir ki, aqrar ixracat potensialının genişləndirilməsinə birbaşa maddi və mənəvi kömək, xarici bazarlara yiyələnməyin ən çox istifadə olunan yoludur. Amma bu cür siyasət mütləq əks tədbirlərə səbəb olur və xarici ticarətdə ümumi sabitliyin pozulmasına gətirib çıxarır. Bu baxımdan, beynəlxalq saziş və sənədlərdə ölkələr ixrac maliyyə yardımlarını azaltmağa və böyük zərər gətirən yardımların verilməsi məsələlərini müzakirə etməyə çağırırlar.

Xarici ölkələrdə aqrar ixracatçılara yardımın ən geniş və mütəmadi yayılmış forması, sərfəli şərtlərlə kredit vermə formasıdır. ABŞ-da və Yaponiyada bui şlə idxal-ixrac bankları, Fransada isə xüsusi ticarət bankı, Almaniyada «Ansfurxkredit» (AKA) bankı məşğul olur.

ABŞ-da xarici alıcılara və ya ticarət vasitəçilərinə investisiyaları və uzunmüddətli xidmətləri əldə etmək üçün, 5 min ABŞ dollarından az olmamaq şərti il əvə 5 ildən 10 ilə kimi olan müddətə uzunmüddətli kreditlər verilir. Bu zaman faizin stavkası, yaxud dərəcəsi, kreditin verilmə müddətindən və ixracatçı ölkənin inkişaf səviyyəsindən asılıdır. ABŞ-ın idxal-ixrac bankı bu işi sığorta şirkətləri ilə birləşərək, ixrac kreditlərinin sığortası Asossiasiyası ilə birgə həyata keçirirlər. Onlar müştərək şəkildə, bütün ölkədə istehsal olunmuş ixrac kənd təsərrüfatı və ərzaq məhsulları üçün verilən kreditləri sığorta edirlər. Bu bankın uzunmüddətli kreditləri kommersiya və siyasi risklərdən 100% məbləğində sığorta etməyə səlahiyyəti çatır. Ortamüddətli kredit kənd təsərrüfatı məhsulunun qiymətinin 90%-ə qədəri sığorta oluna bilər. Bu zaman isə, sığorta olunan məbləğin riski 100% həcmində ödənilir.

Digər inkişaf etmiş ölkələrdə buna oxşar proseslər həyata keçirilir. Məsələn, Yaponiyanın idxal-ixrac bankları kreditləri kommersiya bankları ilə birgə, həm tədarükçülərə, həm də alıcılara verir. Fransa bankı isə ən vacib ixrac əməliyyatlarını aparmaq üçün həm ixrac sazişlərini, həm də ixrac edilən kənd təsərrüfatı məhsullarını kreditləşdirir. Italiyada ortamüddətli ixracat kreditlərini orta müddətli kənd təsərrüfat kreditləri üzrə Fondun büdcə vəsaitlərindən verilir. Sığorta və şəxsi maliyyə qurumlarının verdiyi ixracat kreditlərinin zəmanəti də, ixracata göstərilən vacib və ənənəvi dövlət yardımı vasitəsidir.

Bunlarla yanaşı, xaricdə həm dövlət, həm də özəl qurumlar tərəfindən ixracatçılara informasiya – məsləhət xidmətmətlərinin göstərilməsi də geniş yayılıb. Məsələn, ABŞ-da bu sahə üzrə məsləhət xidmətləri ilə Ticarət Nazirliyi nəzdində olan Beynəlxalq Ticarət İdarəsinin Xidmət bölmələri məşğul olur. Dövlət qurumları bu məhsulların xarici bazarlara çıxarılması üçün, həmin məhsullar üzrə sərgi-yarmarkalar keçirir, ticarət servis mərkəzləri yaradırlar. Ümumiyyətlə, investisiya-ixracat siyasətinin qurulmasının dünya təcrübəsi, xaricdə bu sahəyə böyük diqqət verildiyini bir daha sübut edir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə də bu istiqamətdə (xüsusən də aqrokonsaltinq və məsləhət xidmətləri sahəsində) müəyyən işlər görülsə də, bu tədbirlər hələ də yetərincə deyildir. Ümumiyyətlə, kənd təsərrüfatı məhsullarının ixrac edilməsi sosial iqtisadi baxımdan hər bir ölkə üçün əhəmiyyətlidir. İxrac məhsullarının istehsalı, ölkədə istehsal və xidmət infrastrukturunun təkmilləşdirilməsinə, yəni iş yerlərinin açılmasına və sahələrin tarazlı inkişafına təkan verir. Araşdırmalar göstərir ki, ölkəmiz uzun müddət pambıq mahlıcı, şərab, konserv məhsulları, təzə meyvə-giləmeyvə, tərəvəz, üzüm və digər kənd təsərrüfatı məhsullarının ixracatçısı kimi tanınmışdır. Lakin müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatı və ərzaq məhsullarının idxal-ixrac strukturu xeyli dəyişmişdir.

ƏDƏBİYYAT

1. Alıyev İ.H. Aqrar sahənin inkişafına dair ümumiləşdirilmiş təklif və tövsiyələr (makroiqtisadi səviyyədə), Bakı, 2008

2. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunana konfrans, Xalq qəzeti, 2018.

ABSTRACT

Yeva Adygozalova
Maftun ABBASOV

IMPROVEMENT OF INVESTMENT ACTIVITY AND STIMULATION OF EXHIBITION

In the article, the author studied the essence and content of investment in this process by focusing on stimulating issues of export potential. The author commented on the theoretical and practical aspects of the issue in a timely manner and gave effective ideas on the proper management of the process and expressed its opinion in a concrete way.

РЕЗЮМЕ

Ева Адыгезалова
Мафтун Аббасов

ВОПРОСЫ РАСШИРЕНИЯ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ И СТИМУЛИРОВАНИЯ ЭКСПОРТА

В статье автор, уделяя внимание вопросам стимулирования экспортного потенциала, исследовал сущность и содержание инвестиционных вкладов в этом процессе. Автор обьяснил теоретические и практические особенности в соответствии с реальностями нынешнего периода и, выдвинув свои мысли, относительно правильного управления этим процессом, показал конкретные предложения и результаты.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ABBASAĞA BABAYEV
İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

UOT:330.3

İNNOVASİYA BİZNESİNİN MAHİYYƏTİ VƏ ONUNLA ƏLAQƏLİ ELMİ YANAŞMALAR

Açar sözlər: *innovasiya, innovasiya biznesi, innovasiyanın mahiyyəti, innovasiya alətləri*
Key words: *innovations, innovative business, essence of innovations,innovative tools*
Ключевые слова: *инновации, инновационный бизнес, сущность инноваций, инновационные инструменты.*

İnnovasiya və innovasiya biznesi haqqında müxtəlif fikir və mövqelərə ayrı-ayrı xarici ölkələrin və Azərbaycanın iqtisadi ədəbiyyatlarında rast gəlinir. İqtisadi ədəbiyyatlarda innovasiya termini XIX əsrin ikinci yarısında əks olunmağa başlamışdır. XX əsrin əvvələrində isə artıq innovasiya və innovasiya biznesinə dair əsərlər meydana gəldi. Bu məsələyə dair müxtəlif ölkə alimlərinin müxtəlif dövrlərdə yaratmış olduqları əsərlərdə, tədqiqat materiallarında, hətta ayrı-ayrı dövlətlərin rəsmi sənədlərində rast gəlinən mövqelər mövcuddur. Həmin mövqe və fikirlərə əsaslansaq demək olar ki, innovasiya latın dilindəki "innovato" sözündən olub yenilənmə və yax-şılaşma deməkdir [1; s.96]

İqtisadi ədəbiyyatlarla tanışlıq göstərir ki, "iqtisadi innovasiya" termini ilk dəfə avstraliyalı iqtisadçı Yozef Şumpeter tərəfindən 1934-cü ildə yazılmış "İqtisadi inkişafın nəzəriyyəsi" əsərində istifadə olunmuş və onun mahiyyəti açılmışdır. İqtisadi innovasiya fəaliyyəti dedikdə yeni və ya əvvəlkinə nisbətən təkmilləşdirilmiş məhsulun yaradılması, iş və xidmətlərin görülməsi və göstərilməsi, texnoloji prosesin təşkil edilməsi, eyni zamanda ictimai münasibətlərin müxtəlif sahələrində təşkilatı-texniki, həmçinin maliyyə-iqtisadi və digər yeni hallar başa düşülür.

Mahiyyət etibarilə bu eyni zamanda fəaliyyət üçün yeni ideyaların yaradılması və uğurlu surətdə tətbiq edilməsi vasitəsilə müəssisənin iqtisadi və sosial potensialının artırılması üçün yeni meyllərin, üsulların məqsədyönlü dəyişikliyinin reallaşdırılmasıdır. Paralel olaraq innovasiyanı mövcud uyğunsuzluqların aradan qaldırılması yolları kimi, yeni məhsul və proseslərə olan tələbatın ödənilməsi vasitəsi kimi, iqtisadiyyatın ayrıca bir sahəsində və ya bütövlükdə bazarda baş verən dəyişikliklərin, yenilənmənin əsası kimi, cəmiyyətdəki demoqrafik dəyişikliklərin və yeni bilik və texnologiyaların tətbiqi və nəticəsi kimi də təsəvvür etmək olar. Belə yanaşmanın əsası ondan ibarətdir ki, innovasiya yeni ixtisaslar və yeni ixtisas səviyyələri, yeni yaradıcı və işgüzar təfəkkür, həmçinin digər yenilikləri tətbiq etmək üçün motivasiya tələb edir [3; s.314]

Müxtəlif iqtisadi ədəbiyyatlarda əks etdirilən bu fikir və yanaşmalar innovasiyanın və innovasiya biznesinin məzmunu əks etdirir. Qeyd olunanlarla yanaşı ayrı-ayrı ədəbiyyatlarda innovasiyaya yanaşmalarda müxtəlif mövqelərə rast gəlinir. Məsələn, rus alimi Y.P.Morozov yazırdı ki, innovasiya dedikdə, yeniliklərdən istifadə etməklə yeni məhsulların, istehsal, maliyyə, kommersiya və s. xarakterli sosial-iqtisadi və təşkilati-texniki qərarlar şəklində əvvəlkinə nəzərən daha mənfəətli, daha səmərəli nəticələrin əldə edilməsi nəzərdə tutulur. Şumpeter belə hesab edirdi ki, innovasiya sahibkarlıq ruhu ilə motivləşdirilmiş istehsal amillərinin yeni üsullarla elmi-təşkilatı kombinasiyasıdır. B.Tviss innovasiyaya ixtiranın və ya ideyanın yeni iqtisadi məzmun aldığı proses kimi baxırdı. M.Xuçek innovasiyaya nə isə yeni bir şeyin, yeniliyin, islahatın tətbiqi prosesi kimi qiymət verirdi. F.Nikson innovasiyanı yeni tələbata uyğun olaraq bazarda yeni təkmilləşdirilmiş istehsal proseslərinin və avadanlıqlarının meydana gəlməsinə səbəb olan texniki, istehsal və kommersiya tədbirlərinin toplusu kimi qiymətləndirirdi. A.İ.Priqojin innovasiyaya yeniliklər, texnika və texnologiyanın inkişafı, onların yaranması, mənimsənilməsi və digər obyektlərə diffuziyasının idarə edilməsi prosesi kimi baxırdı. B.Sonto yazırdı ki, innovasiya elə bir ictimai-texniki və iqtisadi

yenilikdir ki, onun vasitəsilə ideya və ixtiralardan öz xüsusiyyətlərinə görə daha yaxşı məlumatlar və texnologiya yaradılması mümkün olur. [2; s.305]

Bunlarla yanaşı, digər mənbələrdə innovasiyanı yeni məmulat növlərinin, texnologiyaların, yeni təşkilat formalarının tətbiqinin və s. işlənib hazırlanmasına, yaradılmasına yönəldilmiş yaradıcılıq fəaliyyəti kimi qiymətləndirirlər. Beynəlxalq təşkilatların tələblərinə uyğun olaraq innovasiya - bazara daxil olaraq həmin həmin məkandakı təcrübi fəaliyyətdə istifadə olunan yeni və yaxud təkmilləşdirilmiş proses və ya sosial xidmətlərə yeni yanaşma, yeni və yaxud mütərəq-qiləşdirilmiş məhsul şəklini alan fəaliyyətin son nəticəsi kimi qiymətləndirilir.

İnnovasiyanın mahiyyətinin dərk edilməsinə yanaşmaların təhlil edilməsi vasitəsilə bir nəticəyə gəlmək olar ki, innovasiyanın özünə məxsus xüsusiyyəti yeniliklərdən, dəyişikliklərdən, yeni səviyyəli səmərənin əldə edilməsindən ibarətdir. Qeyd edilənlərin nəticəsində *innovasiya* və *innovasiya biznesi* aşağıdakı kimi qiymətləndirilməlidir:

✓ *İnnovasiya* - yüksək səmərəliliyə malik yeniliyin tətbiq edilməsi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya prosesinin nəticəsi olaraq yeni, təkmilləşdirilmiş, əvvəlinə nisbətən daha təkmil və mütərəqqi məhsul, iş, xidmət, texnoloji proses, təşkilati, texniki, maliyyə, iqtisadi və sair hallar nəzərdə tutulur;

✓ *innovasiya biznesi* - iqtisadi subyektin inkişafının və rəqabət qabiliyyətliliyinin təmin etmək üçün ideyaların, elmi biliklərin texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. [4, s.121]

Müasir dövrdə innovasiya sahibkarlığı yeni idarəetmə düşüncəsi ilə, səmərəli təsərrüfatçılıq haqqında ənənəvi təsəvvürləri aşılamaqla və böyük bazar orientasiyası ilə bağlıdır. Məhz yeniləşdirmə bacarığı hesabına dünyanın ən yaxşı şirkətləri uğura nail olurlar və "öz sahələrinin digər şirkətlərinə əziyyət verən böhranlara üstün gələrək hər dəfə güclü olurlar".


Yeniliyin yaradılması prosesi daima bərpa olunandır və qeyri-sabit xüsusiyyətlərə malik bazara istiqamətlənir. Bu hər şeydən əvvəl, yeni elmi ideyaların və perspektivli məhsulların işlənib hazırlanması axtarışının daima dəstəklənməsini və ikincisi isə inteqrasiya əlaqələrini saxlamaqla idarəetmə səlahiyyətlərinin maksimal qeyri-mərkəzləşdirilməsinin səmərəli, çevik şəkildə idarə edilməsini özündə ifadə edir.

Bu gün menecmentin nəzəriyyəçiləri və praktikləri belə qənaətə gəlirlər ki, bazarda yeni məhsulların çeşidinin və sayının çoxaldılması, həmçinin onların artırılması üçün onların həyat tsiklinin uzadılması ilə əlaqədar olaraq firmada novator ideyaların yüksək sıxlığı vacibdir. İdarəetmənin innovasiya üsulubunun tərəfdarları hesab edirlər ki, yaxşı yenilikçilik mühitinin yaradılması üçün həlledici rola malik firmaların müxtəlif bölmələrində qabaqcıl təcrübənin həvəsləndirilməsi, təşəbbüskarlara onların ideyalarının reallaşdırılması imkanlarının yaradılması zəruridir. Bununla yanaşı qeyd etmək lazımdır ki, innovasiyaların yayılması elə bir prosesdir ki, onun forması və sürəti kommunikasiya kanallarının güclü olmasından, informasiyanın təsərrüfat subyektləri tərəfindən qavranılması xüsusiyyətlərindən və sairdən asılıdır. İnnovasiyanın nüfuz etməsi ilə yeniliyin kommunikasiya kanalları ilə müəyyən zaman çərçivəsində sosial sistemin üzvləri arasında ötürülməsi prosesidir. Ötürülmənin və diffuziyanın (nüfuzetmənin) vəzifəsi isə informasiya menecmenti kimi hər hansı bir elm sahəsi hüdudlarından kənarda nəzərdən keçirilə bilər.

İnnovasiya daha yüksək elmi-texniki səviyyə ilə, yəni əvvəlki illərlə müqayisədə məhsul və xidmətlərin yeni istehlakçı keyfiyyətlərilə səciyyələnir. "İnnovasiya" anlayışı həm istehsalatda, həm də təşkilati, maliyyə, elmi-texniki, tədris və s. sahələrdə yeniliklərə aid edilir. İnnovasiya anlayışı "yeni texnika" anlayışından daha genişdir, çünki sonuncu yalnız istehsalatda istifadə olunan əmək alətləri yeni materiallar, reagentlər və digər mexanizm və alətlərə aiddir. [5; s.116]

İnnovasiya biznesinin mahiyyətini dərindən öyrənmək üçün onunla bağlı olan vacib elementləri nəzərdən keçirmək lazımdır. Bunun üçün ilk növbədə aşağıdakı sxemə nəzər yetirək. (sxem 1).

Sxem 1.



Mənbə: [5; 128]

İnvestisiya biznesinin tərkib elementlərin mahiyyətinin və ifadə edəcəyi xassələrin fərdi qaydada nəzərdən keçirilməsi də məqsədəuyğun hesab edilməlidir. Bu baxımdan aşağıdakı ardıcıllıq üzrə elemenrlərə diqqət yetirək:

✓ *Birləşdirici (kompleks) innovasiya* – dünya təcrübəsində əvvəllər qazanılmış və yoxlanılmış nailiyyətlərin (bilik, texnologiya, sistem, avadanlıq və s.) optimal toplusunun (kompleksinin) istifadəsi hesabına əldə edilmiş innovasiyadır. Birləşdirici innovasiya istehsal fəaliyyətinə daha səmərəli vəsait qoyuluşunu təmin edir;

✓ *İnnovasiya prosesi* - elmi biliklərin, elmi ideyaların, kəşflər və ixtiraların innovasiyaya, yeniliklərə çevrilməsinin bütün dövrünü əhatə edən prosesdir. İnnovasiya prosesinin əsasında innovasiyaların yaranması üçün vacib olan yeni elmi biliklərin əldə edilməsi və nisbətən ümumi qanunauyğunluqların aşkar edilməsinə yönəldilmiş fundamental tədqiqatlardan başlayan yeniliklərin yaranması və öyrənilməsi prosesi durur. İnnovasiya prosesi elmi proseslərin innovasiya yaradılarkən istifadə olunmağa yararlı nəticələrin alınmasına istiqamətlənmiş müxtəlif mərhələlərinin toplusundan ibarət ola bilər;

✓ *İnnovasiyalar bazarı* - iqtisadi cəhətdən azad layihəçilərlə innovasiya istehlakçıları arasındakı mübadilə sahəsidir. O, bazar innovasiya mübadiləsi realizə edən strukturlar, həmçinin dövlət və regionun müəyyən güzəştli şərtlər və stimullar şəklində dəstəyi sayəsində işləyir. İnnovasiyalar bazarına aşağıdakılar daxildir:

1. intellektual mülkiyyət qaydaları üzrə tədavül edən elmi, elmi-texniki, texniki və texnoloji yeniliklər;
2. müəllif hüquqları, qaydaları üzrə tədavül edən yeni elmi-texniki informasiyalar;
3. yeni elmi-texniki və texnoloji xidmətlər və s.

✓ *İnnovasiya dövrü* - yeni tələbatın müəyyən edilməsi və ideyanın (konsepsiya) yaranmasından onun praktiki hayata keçməsinə, tətbiq olunmasına və vahid təsərrüfat subyekti və ya möhkəm təsərrüfat əlaqələri ilə birləşən təşkilatlar məcmusu sərhədlərində bazarda satış və innovasiya infrastrukturunu daim yeniləşdirən innovasiya məhsulunun ardıcıl yaradılmasının dövrü təkrarlanan prosesidir;

✓ *İnnovasiyanın həyat dövrü* - kommersiyallaşma anına qədər və ya xərcini ödəyənə qədər gözlənilən müddət. Texnoloji yeni və ya təkmilləşdirilmiş məhsul növlərinin texnologiyalarının satış göstəricilərinə məhsulun həyat dövrü birbaşa təsir edir. Adətən onlar innovasiyaya daha çox rast gəlinən qısa həyat dövrü olan məhsullar qruplarından yuxarıda olurlar. Ancaq bu növ innovasiyalar həmişə daha mühüm və ya texnoloji cəhətdən qabaqcıl olurlar;

✓ *Bazis innovasiya* - əsasında fundamental elmi nailiyyətlərin durduğu növbəti nəsil üçün

innovasiya məhsulu məsələn sistemlər, maşınlar, texnologiyalar, avadanlıqlar və sair yaratmağa imkan verən kəşflərə yeni üsulların tətbiqi əsasında realizə oluna bilər. Yeni elmi kəşflərin, yaxud ixtiraların realizə olunması elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin tam dövrünün yerinə yetirilməsi üçün böyuk həcmdə inkişaf etmiş bazanın olmasını tələb edir;

✓ *Yaxşılaşdırıcı innovasiya* - məhsul, iş və xidmət bazarının xüsusiyyətlərinin yaxşılaşdırılması məqsədilə sifariş edilmiş elmi, layihə-texnoloji, yaxud təşkilati işlərin nəticələrinin istifadəsini nəzərdə tutan innovasiyadır. İnnovasiyaların bu növü mövcud tələbatların inkişafı və daha tam təmin olunmasına, satılmış malların, göstərilmiş iş və xidmətlərin yeni üsullarının realizə edilməsinə kömək edir;

✓ *İntellektual əmək bazarı* - elm və innovasiya fəaliyyəti sahəsində məşğul olan insanlar tərəfindən yaradılan tələb və təklifin meydana gəldiyi sahədir. Burada subyektlər kimi, bir tərəfdən elmi və innovasiya fəaliyyəti ilə məşğul olan, daimi və müvəqqəti iş və ya iş sifarişi axtaran təşkilat və insanlar, digər tərəfdən isə iş təklif edən təşkilat və insanlar çıxış edirlər. İntellektual əmək bazarının infrastrukturu bazar və subyektlərin (təşkilatlar, kollektivlər, alimlər) informasiya təminatına, elmi və innovasiya fəaliyyəti sahələri üçün elmi kadr və menecer hazırlığına və yenidən hazırlanmasına, onların sertifikatlaşmasına, alim və mütəxəssislərin səmərəli məşğulluğunun təminatına kömək edir;

✓ *İnvestisiyalar* – yeni əmtəə istehsalı və xidmət təşkilinə kapital qoyuluşudur;

✓ *İnnovasiya siyasəti* – dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. İnnovasiya fəaliyyətinin statusuna, prinsiplərinə, məqsədlərinə və vəzifələrinin üstünlüklərinə, ehtiyatları mexanizminə və nəticələrinə münasibətdə dövlətin bazis göstərişlərinin regional və bələdiyyə səviyyəsində birbaşa və dolayısı ilə yerinə yetirilməsinin tənzimlənməsi üzrə fəaliyyət növüdür;

✓ *İnnovasiya-investisiya prosesi* - innovasiya fəaliyyətinin variantlarından biridir. Onun vasitəsilə innovasiyaların həyata keçirilməsi və innovasiya fəaliyyətinə investisiyaların qoyulması məsələlərinparalel, qarşılıqlı əlaqəli surətdə həll edilir;

✓ *İnnovasiya-investisiya infrastrukturu* - innovasiya fəaliyyətinin fəallaşması məsələlərinin (incinirinq və investisiya səfərbərliyi də daxil olmaqla) həllini təmin edən qarşılıqlı təsirə malik təşkilati və idarəedici bəndlərin şəbəkə sistemidir;

✓ *İnnovasiya proqramı* - dövlətlərarası, regionlararası, regional innovasiya proqramı bazar maraqlarını özündə əks etdirən əsaslanan icraçıların məqsədləri üzrə və həyata keçirilmə müddətinə görə uyğunlaşdırılmış, innovasiya məhsulunun hazırlanmasını, yaradılmasını və səmərəli mənimsənilməsini təmin edən tədbirlər kompleksidir;

✓ *İnnovasiya təklifi* - innovasiya layihəsinin onun tətbiqindən alınacaq mənfəət səmərəsini qeyd etməklə təklif edilməsidir;

✓ *İnnovasiya fondu* – qaytarılma və daimilik asasında vəsaitləri təqdim etmək yolu ilə innovasiya layihələri və proqramlarının maliyyələşməsini təmin edən qeyri-ticari təşkilatdır;

✓ *İnnovasiya layihələri* - verilmiş zaman dövründə mənfəətin və ya digər faydalı səmərənin alınması məqsədi ilə yeni növ məhsulun və ya texnologiyanın yaradılması, istehsalı və reallaşdırılmasının başlanmasını təmin edən tədbirlər sistemidir;

✓ *Transfer* - innovasiya layihəsinin, öyrənilmiş texnologiyaların başqa predmet və ya coğrafi sahəyə ötürülməsi yolu ilə təmin edilən innovasiya texnologiyalarının bir növüdür;

✓ *İnjinirinq* - innovasiya dövrünün bütün mərhələlərini əhatə edən kompleks innovasiya texnologiyasıdır. Bu mərhələlər aşağıdakılardır:

1. texniki-iqtisadi və ekoloji əsaslandırma və biznes-planlaşdırma;
2. eskiz, texniki və işçi layihələndirmə; istehsalatın texnoloji hazırlığı;
3. yaradılan sistemin avadanlıq, texnologiya və proqramlarla kompleks təchizatı;
4. kadr hazırlığı;
5. marketinq;
6. layihədən əvvəlki tədqiqat;
7. kadr müşayiəti;
8. yaradılan sistemin buraxılış-sazlama işləri, sertifikatlaşdırılması;
9. sistemin tam həcmdə sifarişçiyə təhvili;

10. sifarişçidə sistemin müəllif müşayiəti və servis xidməti.

✓ *Treninq* - innovasiyalara xidmət üçün innovasiyanın və ya kiçik innovasiya firmasının kadr hazırlığı mərhələsini təmin edən innovasiya texnologiyalarının bir növüdür;

✓ *Konsaltinq* - innovasiya fəaliyyətinin strategiyası və biznes planlaşdırılmasının seçim mərhələsini təmin edən innovasiya texnologiyalarının bir növüdür;

✓ *Məhsulun həyat dövrü*– məhsulun yenisi ilə əvəz olunması anına qədər olan istehsal dövrüdür, başqa sözlə, yeni və ya əhəmiyyətli dərəcədə yeniləşmiş məhsulun istehsalına qədər olan dövr. Həyat dövrü tam illərlə ölçülür. Məsələn; əgər məhsul 1il 6ay ərzində istehsal olunurdusa, onda 2 il həyat dövrü göstərilir, əgər məhsul 8 və ya 10 ay istehsal olunurdusa, onda 1 il göstərilir. Məhsul dəyişdirilmədiyi halda onun istehsala başlandığı andan hesabat dövrünə qədər olan dövr göstərilir.[2; s.89]

✓ *Dövlət innovasiya siyasəti* – dövlət hakimiyyəti orqanları tərəfindən əsas proqram və layihələrin dəstəklənməsinin əsas innovasiya strategiyasının və mexanizminin müəyyən edilmiş məqsədlərdir. Dövlət innovasiya siyasəti-innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi, inkişafı və stimullaşdırılmasının təkmilləşdirilməsinə, dövlətin sosial-iqtisadi siyasətinin formalaşmasına istiqamətləndirilmiş dövlət siyasətinin bir hissəsidir. Təkmilləşdirilmiş xidmətlərinin istehsalı və ya ötürülməsi ilə bağlı istehsalın təşkilinin dəyişdirilməsini əhatə edir. [4; s.206]

Bu siyasət yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş xidmətlərin, üsulların tətbiqi, yeni texnologiyalardan və ya mövcud texnologiyaların yeni kombinasiyaları və ya yeni biliklərin asasında hayata keçə bilər. Bu halda texnologiyalar yeni və ya təkmilləşdirilmiş maşın, avadanlıq, proqram vasitələri ilə ifadə edilə bilər. Yeni biliklər isə xüsusi ixtisas və vərdişlərin tətqiqi, əldə edilməsi və ya istifadə edilməsidir.

Yuxarıda bildirilənləri ümumiləşdirərək qeyd etmək olar ki, *innovasiya fəaliyyəti* - insan kollektivinin yeni elmi biliklər, ideyalar, kəşflər və ixtiralar, həmçinin mövcud və sınanmış elmi texnologiya, sistem və avadanlıqların istifadəsi və tətbiqi asasında innovasiyaların tam həcmdə reallaşdırılmasına yönəldilmiş sistemli fəaliyyət növüdür.

İnnovasiya fəaliyyəti, həmçinin innovasiya məhsulu şəklində realizə edilməsi üçün nəticələrin mülki-hüquqi dövriyyəyə cəlb edilməsi məqsədi ilə axtarış (kəşfiyyat), fundamental (tələb olunan hissəsi) və tətbiqi tədqiqatların, layihə təcrübi-konstruktor işlərinin, marketinq işinin yeniləşdirilməsini nəzərdə tutan fəaliyyət növüdür. Bu vahid dövlət və özəl sektor sərhədlərində vahid elmi-texnoloji, təşkilati, maliyyə, investisiya, istehsalat və marketinqin kompleks prosesidir. Bu proses vasitəsi ilə ideya və texnologiyalar texnoloji innovasiya məhsuluna (xidmətinə) və kommersiya əhəmiyyətinə malik proseslərə əsaslı təsir edir.

ƏDƏBİYYAT

1. Медгенский В.Г. Инновационный менеджмент. Москва, 2004, 365с.
2. Евдокитова Т.Г., Махавикова Г.А., Ефитова Н.Ф., Инновационный менеджмент, Санкт-Петербург: 2005, 425с.
3. Швандар В.А., Горфинкел В.А. Основы инновации, Москва, 2005, 525с.
4. Atakişiyev M, Süleymanov Q. İnnovasiya menecmenti, Bakı, 2004, 395s.
5. Dinçer Ö. Startejik yönetim və işletme politikası, İstanbul, 2004, 246 s.

ABSTRACT

Abbasaga Babayev

THE ESSENCE OF INNOVATIVE BUSINESS AND ITS SCIENTIFIC APPROACHES

The article explains the essence of innovation, the essence of innovative business, and justifies their role in economic development. Innovative business is seen as a category and revised periods of its inclusion in economic literature is explained by its need. Scientific approaches to innovation and innovative business were considered. For this, views and ideas have been studied by many scholars

from different countries on this issue. Based on their approach, the essence of innovation and innovative business is reflected. Various parameters and basic elements of innovations are explained.

The article has also outlines the positive trends that can create innovative ideas for increasing the economic and social potential of the enterprise. At the same time, the evaluation of innovation as a means of eliminating discrepancies in the activities of economic agents is justified.

The novel is based on the ideas and positions of individual scientists on new types of products and technologies. application of new forms of organization, etc., as creative activity aimed at development. At the present stage of economic development, innovative entrepreneurship is justified by the idea of a new leadership, an organic dependence on productive business ideas and its dependence on market orientation.

In the economic literature on understanding the essence of innovation, he came to the conclusion that innovation is a feature of innovations, change, application of progressive methods and achievement of high finansial productivity.

РЕЗЮМЕ

Аббасага Бабаев

СУЩНОСТЬ ИННОВАЦИОННОГО БИЗНЕСА И НАУЧНЫЕ ПОДХОДЫ К НЕМУ

В статье объясняется суть инноваций, сущность инновационного бизнеса, обоснована их роль в экономическом развитии. Инновационный бизнес рассматривается в качестве категории и пересмотрены периоды ее включения в экономическую литературу, объясняется ее необходимость. Были рассмотрены научные подходы к инновации и инновационному бизнесу. Для этого изучены взгляды и идеи много учены из разных стран по этой проблеме. На основе их подхода отражается сущность инноваций и инновационного бизнеса. Объясняются различные параметры и основные элементы инноваций.

В статье также изложены позитивные тенденции, которые могут создать инновационные идеи для повышения экономического и социального потенциала предприятия. В то же время оценка инноваций как средства устранения расхождений в деятельности экономических агентов оправдана.

Автор основываясь на идеи и позиции отдельных ученых оценивает инвестиции как творческую деятельность, направленную на разработку и создание новых информационных видов и технологий, применение новых организационных форм и т. д.

На современном этапе экономического развития инновационного предпринимательства обосновывается и оправдывается его органическая связь с новыми идеями руководствования, с эффективными хозяйственными представлениями и их зависимость от рыночной ориентации.

Посредством анализа подходов, встречающихся в экономической литературе для познания сущности инноваций, можно прийти к такому выводу, что основными особенностями инвестиций выступают возможности их новшества и преобразования, примененния прогрессивных способов и достижение высокой эффективности.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MƏFTUN ABBASOV
Naxçıvan Dövlət Universiteti

UOT:338

AQRAR SAHƏNİN İXRACYÖNÜMLÜLÜYÜNÜN ARTIRILMASI İSTİQAMƏTLƏRİ HAQQINDA

Açar sözlər: *idxal, ixrac, dünya bazarı, investisiya qoyuluşları, sığorta, infrastruktur, bazar və s.*
Key words: *import, export, world market, investment, insurance, infrastructure, market, etc.*
Ключевые слова: *импорт, экспорт, мировой рынок, инвестиционные вклады, страхование, инфраструктура, рынок и т.д.*

Ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsində aqrar sahə mühüm rol oynayır. Belə ki, bu sahə ərzaq təhlükəsizliyinin təmin olunmasının mənbəyi olub daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Belə ki, ölkənin dayanıqlı iqtisadi inkişafının bu sahə ilə əlaqəsi qaçılmazdır.

Təsadüfi deyildir ki, hər bir dövlət özünün iqtisadi və siyasi təhlükəsizliyi baxımından bu sahənin inkişafına xüsusi diqqət ayırır. Çünki eyni zamanda bu sahənin daim təkmilləşdirilməsi üçün burada ixracyönümlü istehsalın inkişafı üçün istehsalda yeni texnologiyaların və innovasiyaların, idarəetmə və marketinq metodlarının tətbiq edilməsini və mənimsənilməsini zəruri edir və aktuallıq kəsb edir.

Aqrar sahənin bazar mexanizminin təkmilləşdirilməsinə dair

Tədqiqatlar göstərir ki, aqrar sahədə bazar münasibətlərinə əsaslanan ərazi və sahə idarəetmə strukturunun tam formalaşmaması, iqtisadi subyektlərin tədiyyə qabiliyyətinin aşağı olması, daxili bazarın qorunmasındakı çətinliklər əksər hallarda kənd təsərrüfatı müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin zərərlə başa çatmasına gətirib çıxarmışdır. Məhz belə bir şəraitdə aqrar istehsalın və bazarın özünütənzimlənmə imkanlarının müasir reallıqlara adekvat olmaması, yerli əmtəə istehsalçılarının stimullaşdırılmasında çoxsaylı infrastruktur, maliyyə-kredit, sığorta, bank və s. problemlərin mövcudluğu, bazarda tələb və təklifin səviyyəsində tarazlığın pozulması halları hələ də qalmaqdadır.

Müasir bazar münasibətləri şəraitində sürətlə inkişaf edən halların biri də sığortadır.

Kənd təsərrüfatında olan istehsalın sığortalanması işinin aparılması və təşkili zamanı hər zonanın öz təbii iqlim xüsüsiyyətlərinin nəzərə alınması vacibdir. Aqrar sahədə çalışan insanların əməklərinin nəticəsi təbii iqlim şəraitindən, torpaqda və canlı aləmdə müəyyən xəstəliklərin yaranmasından çox asılı olduğuna görə, sığorta sisteminin fəaliyyətinin böyük əhəmiyyəti vardır. Belə ki, kənd təsərrüfatında sığorta sisteminin işinə təbii hadisələrdən ən effektiv iqtisadi müdafiə metodu kimi baxmaq olar.

Respublikamızda sığorta işinin ildən-ilə inkişaf etməsinə baxmayaraq aqrar sahədə onun inkişafı lazımi səviyyədə deyil. Hazırda ölkəmizin iqtisadi vəziyyətini, eyni zamanda respublikanın regionlarında kənd təsərrüfatı istehsalının riskli və ekstremal şəraitində getdiyini nəzərə alsaq demək olar ki, kənd əməkçiləri öz əmlaklarını və məhsullarını hələlik lazımi ölçüdə sığorta edə bilmirlər. Aydındır ki, kənd əməkçiələrində məhsullarını sığortalamağa maraq var. Lakin onlar sığortalanmağa o halda razıdırlar ki, gəlir imkan versin ki, sığorta məbləğini ödəyə bilsinlər. Onlar sığorta şirkətlərinə riskləri və məbləğləri böyük olduğuna, həmçinin sığorta şirkətləri tərəfindən sığorta üzrə ümidverici təkliflər görmədiklərinə görə, sığorta şirkətlərinə və maliyyə qurumlarına az inanırlar.

Kənd təsərrüfatında sığorta işi – kənd təsərrüfatının idarə olunmasında bu və ya digər növ kənd təsərrüfatı fəaliyyəti üçün yerin düzgün seçilməsi ilə bağlı olan çatışmazlıqları kompensasiya edə bilməz. Sığorta o vaxt müvəffəqiyyətli ola bilər ki, əgər mükafat – bu isə istehsal xərclərinin komponentlərindən biridir, o kənd təsərrüfatı istehsalında rentabelliyə mənfi təsir etməsin. Belə demək olar ki, sığorta texniki tərəqqi sahəsində səyləri dəstəkləyir, lakin o texniki tərəqqini həyata keçirmək üçün vacib olan investisiyaları əvəz etmir. Eyni zamanda məhsulun sığortalanması müdafiə və sabitliyin alətidir.

Ümumiyyətlə, dövlət məhsulun sığortalanmasında mütləq iştirak etməlidir və bu iştirakın mütləq dəqiq hüquqi bazası olmalıdır. Xüsüsi qanun olması daha vacibdir. Dövlət həmçinin faktura və inzibatı xərclərin əvəzinin verilməsində iştirak etməlidir. Dövlət sığorta şirkətlərinə tutaq ki, vergi imtiyazları ilə ehtiyat fondları yaratmağa imkan verməlidir.

Tədqiqat göstərir ki, bazar iqtisadiyyatının formalaşdırılması və inkişafının birinci mərhələsində infrastruktur bazar iqtisadiyyatının mühüm təsir vasitəsinə çevrilməmişdir. Aqrar bölmənin infrastrukturu bazar iqtisadiyyatının bugünkü tələblərindən və bir çox xarici ölkələrin bu sahədə inkişaf səviyyəsindən geri qalır. Təcrübələr göstərir ki, ölkədə kənd təsərrüfatı istehsalının və bununla bağlı olan ixracın formalaşdırılaraq inkişaf etdirilməsi və səmərəli fəaliyyətinə nail olunması digər problemlərin həlli ilə yanaşı istehsal, emal, ixrac infrastrukturların formalaşdırılmasından biləvasitə asılıdır. Tədqiqatlar göstərir ki, aqrar bölmədə infrastruktur formalaşdırmadan nəzərdə tutulmuş iqtisadi səmərəyə, artırma, itkilərin minimuma endirilməsinə, emalla istehsal sahələri arasında səmərəli əlaqələrin yaradılmasına və son nəticələrin yüksəldilməsinə nail olmaq mümkün deyildir.

Tədqiqat göstərir ki, infrastruktur maddi istehsalın səmərəli təşkilində, məhsul istehsalının artırılmasında. İtkilərin qarşısının alınmasında, keyfiyyətin təmin edilməsində, sahibkarların normal fəaliyyət göstərməsində, istehsalçı və istehlakçı arasında əmtəə dövriyyəsinin sürətləndirilməsində, iqtisadi səmərəliliyinin yüksəldilməsində həlledici rol oynayır. Aqrar sahədə infrastruktur blokuna bütün nəqliyyat sahələri, rabitə, maddi-texniki təchizat, topdan və pərakəndə satış bazarları, istehsal edilən məhsulların saxlanılması üçün anbarlar, bütün növ soyuducular, tara təsərrüfatları, su və su enerjisi təchizatı, meliorasiya və irriqasiya tikililəri, elmi informasiya, aqrokimyəvi, bitki mühafizəsi, zoo baytarlıq, texniki informasiya və digər xidmətlər və s. daxildir.

Araşdırmalar göstərir ki, infrastruktur blokunun formalaşdırılması sahəsində zəif tədbirlər sistemi respublikada hər il 30-35%-ə qədər məhsul itkisi ilə nəticələnir. Məhsulların yığılması, anbarlara və ya bazarlara göndərilməsi üçün tələb olunan taraların olmaması, ixtisaslaşmış nəqliyyat vasitələrinin çatışmazlığı, məhsulların saxlanılması üçün anbarların olmaması məhsulların müəyyən hissələrinin keyfiyyət səviyyəsinin aşağı düşməsinə və əmtəəlik görünüşünün itirilməsinə səbəb olur. Digər tərəfdən soyuducuların lazımi həcmdə olmaması ilə əlaqədar olaraq tez xarab olan məhsulların vaxtında istehlakçılara çatdırılmaması məhsul itkisi ilə nəticələnir. Soyuducularla təchiz olunmuş ixtisaslaşdırılmış nəqliyyat vasitələrinin olmaması, tez xarab olan meyvə-tərəvəz, süd məhsullarının ilkin emalı və soyudulması üçün tələb olunan soyuducuların və ilkin emal sexlərinin olmaması respublikada külli miqdarda kənd təsərrüfatı məhsullar itkilərinə səbəb olur.

Qeyd etmək lazımdır ki, infrastruktur blokunun mühüm əhəmiyyəti kəsb edən bölmələrindən biri məhsulların saxlanılması üçün anbarlardır. Hazırda aqrar sahədə mövcud olan anbarlar lazımi avadanlıqlarla təchiz olunmamış, primitiv layihələr əsasında inşa olunmuş binalarda yerləşdirilir. Mövcud olan anbarlar nə soyuducularla, nə də ki, qışda istiliklə, qızdırıcılarla təmin edilmədiyinə görə çoxlu miqdarda məhsul itkisinin yaranmasına səbəb olur. Digər tərəfdən anbarlarda məhsulların boşaldılması, doldurulması, növlərə ayrılması ancaq canlı əl əməyinə əsaslanır.

Bütün bunlar bir tərəfdən canlı əməyə tələbatın artırılmasına səbəb olursa, digər tərəfdən məhsulun maya dəyərinin yüksəldilməsinə və əmtəəlik məhsullarının əmtəəlik görünüşünə olduqca mənfi təsir edir. Bu da nəticədə bazarda əmtəəlik məhsulların aşağı qiymətə satılmasına və istehsalşılara külli məbləğdə zərər gətirir. Hazırda respublikanın aqrar bölməsində məhsulların bazarlara, ölkədən xaricə daşınması, istehsal yerindən anbarlara daşınma üçün taraların olmaması və primitiv olaraq ağacdan hazırlanmış taralardan istifadə olunması məhsulların zədələnərək sıradan çıxmasına, məhsulların əmtəəlik görünüşünün itirilərək rəqabət qabiliyyətinə malik olmayıb aşağı qiymətə satılmasına səbəb olur.

Qarşıda duran əsas vəzifələrdən biri kənd təsərrüfatı və ixracın stimullaşdırmasına əhəmiyyətli təsir göstərən digər infrastrukturların yaradılmasıdır. Ölkədə kənd infrastrukturunun yaradılması həm də gənclərin kəndlərdə yaşayıb yaratmaları baxımından qiymətləndirilməlidir. Ona görə də kəndin sosial infrastrukturunun inkişafına xüsusi diqqət verilməsini zəruri hesab edirik.

Aqrar sahənin infrastruktur məsələləri

Qeyd etmək lazımdır ki, istehsal və sosial infrastrukturla yanaşı bazar infrastrukturunun formalaşması istehsalın və ixracın artırılmasında zəruri məsələlərdən biridir. Bu hər şeydən əvvəl iqtisadiyyatın tərkib hissəsi kimi ölkəmizdə bazar iqtisadiyyatının formalaşdırılması və sahibkarlığın inkişafı baxımından zəruridir. Məlumdur ki, bazar infrastrukturu əmtəə və xidmətlər bazarının tərkib

hissəsi kimi əmtəə birjaları, yarmarkalar, firmalar, marketinq, maliyyə, kredit, əmək, kapital, qiymətli kağızlar bazarı və digər təşkilatları əhatə edir. Bazar infrastrukturuna işçi qüvvəsi bazarı, xidmətlər bazarı, istehsal vasitələri bazarı, texnologiyalar bazarı, investisiya bazarı, lizinq bazarı, reklam bazarı və s. daxil edilir. Hazırda bazar infrastrukturunun qarşılıqlı əlaqələri sənaye sahəsində geniş tədqiq olunmuşdur. Lakin bu infrastrukturun aqrar bölmədə tədqiqinə kifayət qədər diqqət verilmir. Çünki, bazar infrastrukturu ölkənin iqtisadi sahələrində eyni dərəcədə inkişaf etməmiş və aqrar sahədə bu infrastrukturların fəaliyyəti əslində yaranma mərhələsindədir vətədricən formalaşır. Aqrar sahədə birja ticarəti, əmtəə alqı-satqısı üzrə razılaşmalar, auksionlar keçirilməsi, müqavilələr bağlanması istehlak və ərzaq malları, taxıl, pambıq, meyvə, tütün, yun, emal sənayesi məhsulları (konyak, şərab, çay, şirə və s.) üzrə aparılmışdır. Qeyd etmək lazımdır ki, aqrar bazarın ucuz və keyfiyyətsiz məhsullardan qorunması və ərzaq təhlükəsizliyini təmin etmək üçün ölkədə əmtəə və xammal ehtiyatlar üzrə idxalın strukturuna yenidən baxılmışdır. Bu baxımdan yeni istehsalı stimullaşdırmaq üçün idxal olunan texnoloji avadanlıqlar və xammal gömrük rüsumlarından azad olunmuşdur. Bazar infrastrukturlarından olan lizinq bazarı artıq aqrar bölmədə formalaşır. Lizinq yolu ilə kənd təsərrüfatı texnikası və gübrələrin alınması, sahibkarlara icarəyə verilməsi buna misal ola bilər.

Kənd təsərrüfatında mühüm infrastrukturlardan biri informasiya bazarıdır. Bu xüsusi bazarda əmtəə kimi spesifik məhsul olan informasiya çıxış edir. İnformasiya məhsulu işgüzar, elmi, mədəni və kommersiya informasiyaları kimi formalaşmışdır. Aqrar bölmədə investisiya, sığorta və maliyyə bazarı formalaşmağa başlamışdır və bu infrastrukturlar bazar iqtisadiyyatı inkişaf etdikcə formalaşır. Bazar infrastrukturunda kredit bazarı mühüm yer tutur, kreditlərin strukturunda isə qısamüddətli kreditlərin xüsusi çəkisi 90-95% təşkil edir. Bu kənd təsərrüfatı məhsulları istehsalçılarını stimullaşdırmır. Ona görə də, kənd təsərrüfatında istehsalın stimullaşdırılması üçün aşağı faizə uzunmüddətli kreditlərin verilməsinə yenidən baxmaq məqsədə uyğun olardı.

Göstərilən bazar infrastrukturlarının yaradılması və inkişafı aqrar sahə məhsullarının artırılmasına, istehsalçıların ixraca daha çox məhsul göndərmələrinə stimul yaradır. Bu infrastruktur xidməti sisteminin yaradılması rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının emalı vəxarici bazarlara çıxarılmasında böyük əhəmiyyət kəsb edir. Burada İxraca Yardım Fondunun (İYX) yaradılması və istehsalçılara xarici bazarlarda məhsul satışına dövlət tərəfindən yardım göstərilməsi mühüm rol oynaya bilər. Bununla əlaqədar, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" İxraca Yardım Fondunun yaradılması nəzərdə tutulmuşdur.

Beləliklə, kənd təsərrüfatı və emal məhsullar istehsalını artırmaq, ixracın həcmini daha da çoxaltmaq üçün əsas şərtlərdən biri ölkədə aqrar infrastrukturun yaxşılaşdırılması, sahibkarlar üçün əlverişli şərait yaradılmasıdır.

Ümumiyyətlə, iqtisadi münasibətlərin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı ölkədə həyata keçirilən iqtisadi islahatların uzun müddətli xarakter daşıyan elementlərdən daha fəal istifadəni qarşıya qoyur. Bu elementlərdən ən əhəmiyyətlisi dövlətin apardığı elmi-texniki yeniləşməyə əsaslanan aqrar siyasətdir. İslahatlarda bazar münasibətlərinin qanunauyğunluqlarına tabe edilən və onunla üzvi şəkildə tamamlanan mütərəqqi texnologiya dəyişikliklərini tənzimləyən və stimullaşdıran mexanizm iqtisadiyyatın dövlət idarəçiliyinin mühüm tərkib hissəsinə çevrilməlidir.

Ölkə iqtisadiyyatının aqrar sahəsində əmtəə istehsalının artırılması, keyfiyyətinin yüksəldilərək rəqabət qabiliyyətinin təmin edilməsində mühüm şərtlərdən biri olan aqrotexniki, emal texnologiyalarının dünya standartları səviyyəsinə çatdırılmasının təmin edilməsidir. Onun üçün qarşıda duran əsas vəzifələrdən biri mövcud olan əsas fondların strukturunun yeni əsaslarla, müasir tələbata uyğun formalaşdırılması tələb olunur.

Aqrar sahədə fəaliyyət göstərən stimullaşdırma mexanizmləri məhsul istehsalının, emalının,ixracının artırılmasına lazımi stimul yaratmır. Xüsusən, yeni mülkiyyət və təsərrüfat formalarının yaradılmasına baxmayaraq stimullaşdırma mexanizmi bazar iqtisadiyyatı tələblərinə cavab vermir. Ölkədə aqrar sahənin inkişaf etdirilərək səmərəli fəaliyyət mexanizminin yaradılması üçün hər şeydən əvvəl stimullaşdırma mexanizminin təkmilləşdirilərək bazar münasibətləri tələbləri əsasında yenidən təşkil edilməlidir.

Ölkədə ixracın stimullaşdırılması üçün aşağıdakı məsələlər həll edilməlidir: emal yönümlüixrac sahələrinin inkişafının stimullaşdırılması, güzəştli və səmərəli kreditləşmə mexanizminin tətbiqi, ixracatda dövlət qarantı ilə kreditin verilməsi, kredit faizinin bir hissəsinin dövlət tərəfindən ödənilməsi, istehsalçıların güzəştli yolla maddi vasitələrlə təmin edilməsində dövlət köməkliyinin göstərilməsi.

Aqrar sahənin inkişafına güzəştli kreditlər və subsidiyalar verilməsi mexanizmi işlənib hazırlanmalı və tətbiq edilməlidir. İxrac yönümlü məhsulların istehsalı üçün sifarişlər, tələb olunan qisamüddətli kreditlər rüblər üzrə deyil, illik tələbata görə verilməli, uzun və qısamüddətli kreditlərə görə ödənilən faizlər tərəflərin razılığı ilə müəyyənləşdirilməli, həmçinin kreditlərin ödənilməsində manatın alıcılıq qabiliyyətində baş verən dəyişiklik hər iki tərəfdən – bank və istehsalçı tərəfindən eyni məsuliyyətlə nəzərə alınması iqtisadi cəhətdən əhəmiyyətli olardı.

Qeyd olunanlardan göründüyü kimi, ölkəmizdə aqrar istehsalın və ixracın artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- aqrar sahədə məhsul istehsalı və emalının israc potensiallarının artırılması üçün məhsulların rəqabətliliyinin yüksəldilməsi;
- regionlarda rəqabət qabiliyyətinin yüksəldilməsi üçün istehsal potensiallarından səmərəli istifadə olunmasının yeni mexanizmlərinin, xüsusən stimullaşdırmanın ön plana çəkilməsini;
- bu sahədə mövcud olan elmi-texniki yeniliklərin və mütərəqqi texnologiyaların istehsala tətbiq edilməsini;
- məhsulların keyfiyyətinin yüksəldilməsi üçün seleksiya işlərinin yenidən qurulmasını, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsini, yeni toxum sortlarının və cins mal-qaranın yetişdirilməsi işlərinin təşkilini;
- aqrar sahədə xidmət işlərinin xüsusilə marketinq, informasiya, reklam, aqroservis, aqrolizinq, elmi tədqiqat, qabaqcılların iş təcrübələrinin öyrənilməsi xidmətlərinin inkişafının ön plana çəkilməsini;
- aqrar sahədə beynəlxalq ticarət əlaqələrinin yaradılması və gələcək inkişaf istiqamətlərini nəzərə alaraq respublika kənd təsərrüfatında istehsalı zərərlə başa gələn və yaxud minimal rentabelli istehsal sahələrinin istehsal dövriyyəsindən çıxarılaraq onun daha gəlirli və xarici ticarət əlaqələrinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edən sahələrlə əvəz edilməsini. Belə ki, bu ərazilərdə taxıl, kartof, tərəvəz, bəzi əkmə yem bitkiləri zərərlə başa gələrək torpaqların eroziyaya uğramasına səbəb olur. Həmin sahələrin respublika iqtisadiyyatı və xarici ticarət əlaqələrinin inkişafında mühüm əhəmiyyət kəsb edən fındıq, qoz və digər nadir meyvə sahələri və dərman bitkiləri ilə əvəz edilməsini;
- torpaq, su resurslarından səmərəli və qənaətlə istifadə olunaraq aqrar bölmə istehsalının artırılması üçün kənd təsərrüfatına yararlı torpaq sahələrinin başqa məqsədlər üçün istifadə olunmasının qarşısının alınması, torpaqların bütün növ eroziyaya uğraması, şoranlaşmaya məruz qalmasının qarşısının alınması üçün bu sahədə dünya təcrübələrindən və texnologiyalarından hərtərəfli istifadə olunmasını, bitkilərin suvarma texnologiyalarının səmərələşdirilərək yağış yağdırma metoduna keşirilməsi, suya qənaət edən və şoranlaşmaya şərait yaratmayan texnologiyaların tətbiq edilməsi, ətraf mühitin sağlamlaşdırılması istiqmətində tədbirlər sisteminin tətbiq edilməsi kimi problemlərin həll edilməsini və s.;
- aqrar sahənin səmərəli fəaliyyəti bu sahənin mühüm bloklarından biri olan infrastruktur blokunun bazar iqtisadiyyatı tələbləri əsasında yenidən qurulmasıdır. Hazırda infrastruktur blokunun zəif inkişaf etməsi, strukturu keyfiyyət normativindən əsaslı səviyyədə az olması, məhsulların saxlanılması, emal olunması, vaxtında satılmasına əngəllər törədir, nəticədə məhsul itkisinə, məhsulların keyfiyyətinə, vaxtında istehlakçılara çatdırılmasına mənfi təsir göstərir.

Aqrar sahə istehsalının stimullaşdırılması

Tədqiqat zamanı aydın olmuşdur ki, dünyada sürətlə cərəyan edən qloballaşma və inteqarsiya prosesləri bütün sahələrdə qlobal mühitə uyğunlaşmağı tələb edir. Belə ki, artıq xarici bazara çıxış, beynəlxalq rəqabət mübarizəsində iştirak dinamik və davamlı inkişafın zəruri şərtinə çevrilmişdir. Bu baxımdan, aqrar sektorun da dinamik inkişafı xarici bazarlara çıxış, qlobal iqtisadi məkana inteqrasiya səviyyəsindən çox asılıdır. Ona görə də müvafiq istiqamətdə araşdırmaların aparılması, müəyyən təklif və tövsiyələrin işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir.

Nəzərə alsaq ki, Azərbaycan Respublikası aqrar sahənin inkişafı üçün geniş imkanlara malikdir və qonşu ölkələrdə bu məhsullar üçün çox böyük ehtiyac vardır, onda ixrac yönümlü aqrar və aqrar-sənaye məhsullarının istehsalı zəruriliyi aydın olar.

Ölkədə yetişdirilən pambıq, ipək, zəfəran və bir çox digər kənd təsərrüfatı məhsulları qədim karvan yolları ilə dünyanın bir çox qərb və şərq ölkələrinə ixrac edilirdi. XIX yüzillikdə kənd təsərrüfatının bir çox sahələri özünün natural xarakterini itirmiş, ticarət əmtəə səciyyəsi daşımağa başlamışdır. Azərbaycan bütün Qafqazın ən iri taxılçılıq, pambıqçılıq, ipəkçilik, tütünçülük və heyvandarlıq mərkəzinə çevrilmişdir. Məhz, neftdən asılılığın azaldılmasının aktual olduğu indiki

məqamda, aqrar məhsulların ixracının stimullaşdırılması zəruridir.

Müasir qloballaşma şəraitində də ölkəmizin xarici iqtisadi əlaqələrinin inkişaf qanunauyğunluqlarının öyrənilməsi, qarşıya çıxan problemlərin həlli yollarının araşdırılması, xarici bazarlara, qlobal iqtisadi məkana inteqrasiyanın sürətləndirilməsi zərurətini yaradır. Bu da ondan irəli gəlir ki, dünya ölkələri arasında iqtisadi münasibətlər özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya iqtisadiyyatının formalaşması, dünya bazarının təşəkkülü, eyni zamanda qlobal problemlərin kəskinləşməsi və onların həllinin yalnız ümumbəşəri səviyyədə mümkünlüyü beynəlxalq iqtisadi münasibətlərin bir sistem halında bərqərar olmasına gətirib çıxarmışdır. Dünya bazarında qiymətlərin dinamikası, ayrı-ayrı ölkələrin ixrac potensialında və idxal tələbatında baş verən dəyişikliklər, dünya iqtisadiyyatında struktur dəyişiklikləri, beynəlxalq inhisarların fəaliyyəti hər bir ölkənin mənafeyinə bu və ya digər dərəcədə təsir edir, onun sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Başqa sözlə desək, ölkələrarası qarşılıqlı asılılığın güclənməsi beynəlxalq iqtisadi münasibətlərin rolunu və əhəmiyyətini getdikcə artırır.

ƏDƏBİYYAT

1. Rüstəmov A.A.. Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avropa-2013, 406 səh.
2. Məmmədov C.C.. Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı, Əbilov, Zeynalov və oğulları 2004, 503 s.
3. Bağırov M.S. Aqrar sahənin inkişafı və marketinq prinsiplərindən istifadə (monoqrafiya). Naxçıvan, Qeyrət, 2014.102 s.
4. Abbasov T.A.Naxçıvan MR-də aqrar bazar : konseptual əsaslar və inkişaf istiqamətləri.Bakı: AzTU –nun mətbəəsi, 2015,301 s.

ABSTRACT

Maftun Abbasov

ABOUT DIRECTIONS OF INCREASE OF EXPORT ORIENTATION OF THE AGRARIAN SECTOR

The article analyzes export-oriented measures and economic processes in the development of the agrarian sector, which is an important area of our economy, in the context of the country's integration into the world economy, and explored issues such as infrastructure, insurance, logistics, food security and land use.

РЕЗЮМЕ

Мафтун Аббасов

О НАПРАВЛЕНИЯХ РАСШИРЕНИЯ ЭКСПОРТНОЙ ОРИЕНТАЦИИ АГРАРНОЙ ОТРАСЛИ

В статье рассматриваются вопросы интеграции страны в мировую экономику, проводится анализ экономических процессов и экспортных мероприятий аграрной отрасли, которая является важной отраслью нашей экономики, а также исследуются такие вопросы, как инфраструктура, страхование, материально-техническая база, продовольственная безопасность и пользование землей.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

.

GÜLARƏ RƏHİMOVA
Naxçıvan Dövlət Universiteti
isayevagularaali@mail.ru
ELŞƏN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

UOT:519

EKONOMETRİK PROQNOZLAŞDIRMADA PROQNOZ KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Açar sözlər: *ekonometrik proqnozlaşdırma, nöqtəvi interval, proqnoz keyfiyyəti, etibarlı interval, əsaslı qiymətləndirmə*

Key words: *econometric forecasting, dot interval, qualities of the forecast, confidential interval, well-founded assessment*

Ключевые слова: *эконометрические прогнозирование, точечный интервал, качества прогноза, доверительный интервал, состоятельная оценка.*

Ekonometrik proqnozlaşdırma iqtisadi nəzəriyyə və statistikanın prinsiplərinə əsaslanır: proqnoz göstəricilərinin hesablanması proqnoz faktorlarının keyfiyyəti kimi çıxış edən bir və ya bir neçə iqtisadi dəyişənin statistik qiymətləndirmə əmsallarının əsasında həyata keçirilir; o, proqnoz göstəricilərinə təsir edən bəzi dəyişənlərin eyni zamanda dəyişməsinə baxmağa imkan verir.

Daha geniş yayılmış proqnozlaşdırma metodları aşağıdakılardır:

- Yalnız zaman faktorundan asılı, bəzi gəlir və xərc qrupları arasındakı asılılığı ifadə edən dəyişmələrin sabit tempindən (inkişafın dəyişməz tempinin trendi) və ya sabit mütləq dəyişmələrdən alınan (xətti zaman trendi) *trend metodu.* Bu metodun çatışmazlığı, onda, iqtisadi, demoqrafik və digər faktorların nəzərə alınmamasıdır.

- *Ekspert qiymətləndirmə metodu məlum sorğu üzrə* mütəxəssis – ekspertlərin qiymətləndirməsinin riyazi emalı və ümumiləşdirilməsini həyata keçirir. Bu metodun effektivliyi professionallıq və ekspertin kompetentliyindən asılıdır. Belə proqnozlaşdırma kifayət qədər dəqiq ola bilər. Lakin ekspert qiymətləndirmələr subyektiv xarakter daşıyır, ekspertin "hissetmə"qabiliyyətindən asılıdır və heç də həmişə rasional izaha tabe olmur [1].

Proqnozları şərti olaraq:

- müddətə görə: qısa-müddətli, orta müddətli, uzun müddətli və çox uzun müddətli ;

-masştaba görə: xüsusi, yerli, regional, sahə, ölkə, meqalayihələr-dünya (qlobal);

-müəllif və cavabdehlik hüquqlarına görə şəxsi, müəssisə (təşkilat) səviyyəsində, dövlət orqanları səviyyəsində ;

-nöqtəvi (zaman faktorunun qiymətinə uyğun alınmış modeldə trendin tənliyi) və interval proqnozlara (nöqtəvi proqnoz əsasında qurulur) ayrılır. İnamlı interval elə intervala deyilir ki, ona nəzərən və əvvəlcədən müəyyən ehtimalla hökm etmək olar ki, o proqnozlaşdırılan göstəricilərin hansı qiymətlərindən təşkil olunacaqdır.

Proqnoz keyfiyyətinin qiymətləndirilməsinin əsas metodları.

Proqnozun orta xətası, çoxsaylı proqnozların aparılmasında faktiki qiymətlərin hesablanmış qiymətlərdən orta hesabla nə qədər fərqləndiyini göstərir. Proqnoz keyfiyyətinin qiymətləndirilməsi üçün xətaların aşağıdakı növlərini fərqləndirirlər.

- ME (Mean Error) – orta səhv;
- MAE-(Mean Absolute Error) – orta mütləq xəta;
- MPE-(Mean Percentage Error) – orta faiz xətası;
- MSE-(Mean Squared Error) – orta kvadratik xəta;
- MAPE-(Mean Absolute Persentage Error)- orta mütləq faiz xətası .

Proqnoz keyfiyyətinin qiymətləndirilməsi üçün daha geniş yayılmış metod orta mütləq faiz xətası (MAPE) hesab olunur. O, proqnozlaşdırılan intervalda orta hesabi xətanı əks etdirir [2].

Proqnozun mütləq xətası, faktiki (y_i) qiymətləri və proqnoz qiymətləri (y_i^*) arasındakı fərqlə müəyyən edilə bilər:

$$B_{pr}=y_i-y_i^* \qquad (1)$$

Xətanın orta mütləq qiyməti:

$$\overline{\Delta}_{pr}=\frac{\sum_{i=1}^{n}\left|y_i-y_i^*\right|}{n} \qquad (2)$$

Proqnozun orta kvadratik xətası aşağıdakı düsturla hesablanır:

$$\sigma_i=\sqrt{\frac{\sum_{i=1}^{n}(y_i-y_i^*)^2}{n}} \qquad (3)$$

Proqnozun mütləq xətası, göstəricilərin faktiki qiymətlərinə uyğun olaraq, faizlə aşağıdakı kimi ifadə oluna bilər:

$$\varepsilon_{pr}=\frac{y_i-y_i^*}{y_i}100\ . \qquad (4)$$

Orta nisbi xəta (approksimasiya xətası) belə hesablanır:

$$\bar{\varepsilon}_{pr}=\frac{\sum_{i=1}^{n}\frac{\left|y_i-y_i^*\right|100}{y_i}}{n}\ . \qquad (5)$$

Proqnozlaşdırmadan alınır ki, keçmişə (verilənlərə) əsasən qurulmuş inkişaf tendensiyası gələcək dövr üçün genişlənə bilər. Gələcəyə əsasən aparılan ekstrepolyasiya *perspektiv*, keçmişə əsasən aparılan ekstrepolyasiya *retrospektiv* adlanır.

Ekstrepolyasiya metodu ilə proqnozlaşdırma fərziyyələr əsasında formalaşır:

a) Tədqiq olunan hadisənin inkişafı bütünlükdə hamar əyri ilə təsvir olunur;

b) Keçmişdə və hazırda hadisənin inkişafının ümumi tendensiyası gələcəkdə ciddi dəyişikliklərin olacağını göstərmir;

c) Təsadüfliyin nəzərə alınması, qanunauyğun inkişafdan olan meylin ehtimalını qiymətləndirməyə imkan verir.

Proqnozun etibarlılığı və dəqiqliyi bu fərziyyələrin həqiqətə nə qədər yaxın olmasından və keçmişdəki qanunauyğunluğun nə dərəcədə aşkara çıxarılmasından asılıdır. Qurulmuş model əsasında nöqtəvi və interval proqnoza güvənmək olar [6].

Nöqtəvi proqnoz

Zaman sırası modelləri üçün nöqtəvi proqnoz, modeldə (trend tənliyi) zaman faktorunun uyğun qiymətlərinin biri-birini əvəz etməsi ilə alınır (başqa sözlə, $t=n+1, n+2,...,n+k$, harada ki, k qabaqlamalar dövrüdür.)

Faktiki verilənlərin və ekstrepolyasiya yolu ilə alınmış proqnozlaşdırılan nöqtəvi qiymətlərin bütünlüklə üst-üstə düşməsi ehtimalı olduqca azdır [3].

Uyğun meyllərin meydana çıxması növbəti prinsiplərlə izah edilir:

- Proqnozlaşdırma üçün seçilmiş əyri tendensiyanın təsviri üçün yeganə mümkün əyri hesab edilmir. Belə əyrini elə seçmək olar ki, o daha dəqiqliklə nəticəni əks etdirsin;

- Proqnoz məhdud sayda ilkin verilənlərin əsasında həyata keçirilir. Bundan başqa, hər bir ilkin səviyyə həm də təsadüfi komponentə malikdir. Buna görə də ekstrepolyasiyanın həyata keçirildiyi əyri də özündə təsadüfi komponenti saxlayacaqdır;

- Tendensiya zaman sırasının orta səviyyəsinin hərəkətini xarakterizə etdiyindən, ayrı-ayrı müşahidələr ondan meyl edə bilərlər. Əgər belə meyllər keçmişdə müşahidə edilibsə, onda onlar gələcəkdə də müşahidə ediləcəklər.

İnterval proqnozlar nöqtəvi proqnozlar əsasında qurulduğundan intervalın eni modelin keyfiyyətindən (başqa sözlə, faktiki qiymətlərə onun yaxınlıq dərəcəsi), müşahidələrin sayı, proqnozlaşdırma üfüqü, istifadəçi tərəfindən seçilmiş ehtimallıq səviyyəsindən və digər faktorlardan asılıdır.

Proqnozun inamlı intervalının qurulması zamanı U(k) kəmiyyəti hesablanmalıdır. Xətti modeldə U(k)-nın ifadəsi belədir:

$$U(k) = S_e t_a \sqrt{1 + \frac{1}{n} + \frac{(n+k-\bar{t})^2}{\sum_{i=1}^{n}(t-\bar{t})^2}} \qquad (6)$$

harada ki, S_e – standart səhvdir (trend xəttindən orta kvadratik meyl); *n-p* sərbəstlik dərəcələrinin sayıdır ($y=a_0+a_1t$ xətti modeli üçün p=n).

T_a verilmiş əhəmiyyətlilik səviyyəsində Styudentin t-statistikasının cədvəl qiyməti və müşahidələrin sayıdır. (t_a-nın cədvəl qiymətini excel-də СТЬЮДРАСПОБР funksiyasının köməyi ilə də almaq olar.

Proqnozun inamlı intervalının sərhədləri belə olacaq:

$$Y_{proq(n+k)} + U(k) - yuxarı\ sərhəd;$$
$$Y_{proq(n+k)} - U(k) - aşağı\ sərhəd.$$

Əgər seçilmiş model adekvatdırsa, onda seçilmiş istifadəçi ehtimalı ilə hökm etmək olar ki, mürəkkəbləşən inkişaf qanunauyğunluğun saxlandığı halda, proqnozlaşdırılan kəmiyyət yuxarı və aşağı sərhədlərdən təşkil olunmuş intervala düşür. Proqnoz qiymətləri alındıqdan sonra onların mükəmməlliyinə və digər üsullarla alınmış qiymətlərlə ziddiyyət təşkil etmədiyinə əmin olmaq lazımdır.

Qısa müddətli proqnozlaşdırmada, adətən, tədqiq olunan göstəricinin müşahidə dövrünün sonundakı dinamikası çox əhəmiyyətlidir, bütün əvvəlki proqnozlaşdırma dövrü üçün orta mürəkkəbləşən inkişaf tendensiyası çox da əhəmiyyətli deyil. İqtisadi proseslərin inkişafında dinamiklik xüsusiyyəti ətalətlilik xüsusiyyətini addımbaşı üstələyir. Ona görə də verilənlərin informasiya birqiymətliliyini öyrənən adaptiv metodlar daha effektiv hesab olunur [4].

Adaptiv metodların məqsədi öz-özünə korrektə olunan iqtisadi-riyazi modellərin qurulmasıdır, beləki, bu modellər şərtin zamana görə dəyişməsini əks etdirməyə və verilmiş sıranın növbəti hədlərinin kifayət qədər dəqiq qiymətlərini verməyə xas olan xüsusiyyətlərə malikdirlər.

Proqnozlaşdırmanın mühüm mərhələsi proqnozun verifikasiyası, başqa sözlə, onların dəqiqliyi və əsaslığının qiymətləndirilməsi hesab olunur. Verifikasiya mərhələsində proqnozun keyfiyyətinin qiymətləndirilməsinə imkan verən meyarlar, üsullar və prosedurlar toplusundan (emprik yolla alınmayan) istifadə edirlər.

Məntiqə görə onların yoxlanılması belə aparılır:

- Düz verifikasiya – icra edilmiş proqnozun, proqnozçunun faktına əsasən istifadə edilən, ondan əla olan ixtiyari digər alternativ proqnozlıaşdırma metodları ilə təsdiqləndiyini tələb edir.
- Vasitəli proqnozlaşdırma verifikasiyası –verilən obyektə aid olan ixtiyari digər informasiya mənbələrindən alınan proqnoz informasiyasının təsdiqini güman edir.
- Zidd (invers) verifikasiya – proqnozlaşdırmanın retrospektiv dövründə metodun və ya modelin proqnoz yararlığının yoxlanmasını həyata keçirir.
- Ekspert verifikasiyası– proqnozlaşdırmanın nəticəsinin, ekspertin bu predmet sahəsində ən səlahiyyətlisinin fikriylə müqayisəsinə əsaslanır.

Daha çox proqnozun retrospektiv, başqa sözlə, keçmiş zaman üçün proqnoz qiymət-lərinin qiymətləndirilməsi geniş yayılmışdır. Bunun üçün ilkin informasiya iki hissəyə bölünür, onlardan biri daha əvvəlki verilənləri, digəri isə daha sonrakı verilənləri əhatə edir. Birinci qrup verilənlərin (retrospeksiya) köməyilə proqnoz modelinin parametrləri qiymətləndirilir. İkinci qrup verilənlərlə isə proqonozlaşdırılan göstəricilərin faktiki qiymətlərinə baxılır. Alınmış məlum dərəcəli retrospektiv, proqnoz xətası tətbiq edilən proqnozlaşdırma metodikasının dəqiqliyini xarakterizə edir [5].

Proqnoz keyfiyyətinin analizi üçün istifadə edilən bütün göstəriciləri 3 qrupa bölmək olar: mütləq, müqayisə edilən və keyfiyyətli.

Proqnoz keyfiyyəti analizinin mütləq göstəricisinə, proqnozlaşdırılan obyektin ölçü

vahidlərilə və ya faizlərlə, proqnoz xətası dəyişənini kəmiyyətcə müəyyən etməyə imkan verən göstəricilər aiddir.

Proqnozun orta səhvi bir qayda olaraq, müxtəlif təbiətli obyektlərin proqnozlaşdırılmasında proqnozların dəqiqliyinin müqayisəsində istifadə edilir.

Proqnoz dəqiqliyinin müqayisə edilən göstəriciləri müəyyən növlü etalon proqnozun baxılan proqnozla xətalarının müqayisəsinə əsaslanır. Bu cür göstəricilərdən biri:

$$k = \sqrt{\frac{\sum_{i=1}^{n}(p_i - y_i)^2}{\sum_{i=1}^{n}(p_i^* - y_i)^2}} \qquad (7)$$

harada ki, p_i^* –etalon proqnozun proqnoz qiymətinin kəmiyyəticə ifadəsidir.

Proqnoz dəqiqliyinin keyfiyyət göstəricisi proqnoz xətası növlərinin analizini aparmağa, onları tərkib hissələrinə ayırmağa imkan verir. Xüsusilə, belə analiz dövrü olaraq dəyişən dəyişənlər üçün vacibdir, bu yalnız ümumi inkişaf istiqamətini proqnozlaşdırmaq deyil, eyni zamanda dövrün təkrarlanan nöqtələrinin proqnozlaşdırılmasında zəruri hesab olunur.

Belə analiz metodlarından biri "proqnoz realizasiyası" diaqramı hesab olunur. Metodun mahiyyəti nöqtəvi proqnozun koordinatlarla qurulmasından ibarətdir, belə ki, bir oxda dəyişənin real qiymətləri, digərində isə proqnozlaşdırılan qiymətlər əks olunur [6].

Diaqramdan istifadə müxtəlif proqnozların keyfiyyətini dolğun qiymətləndirməyə, əmsalları hesablamağa, nöqtələrdə proqnozlaşdırmanın keyfiyyətini analiz etməyə, daha çox səciyyəvi xətaları (lazımı qədər qiymətləndirilməmək və ya şişirdilməklə qiymətləndirilən) ayırmağa imkan verir [7].

Ancaq, trend sıranın yeganə tərkib hissəsi deyil. Hesabatın yüksəlişi fonunda qalıqları sürətləndirilmiş artım dövrlərinə, ləngidilmiş dövrlərə, bəzən də satış (biznes proseslərdə) həcminin enməsinə ayırmaq olar. Hesab edilir ki, trend dövrü komponentlərin və qeyri-müntəzəm (daimi olmayan) komponentlərin varlığı hesabına mürəkkəbləşir. Daha çox müxtəsər (kiçik addımlı – kvartal və ya aylıq verilənlər) sıraların analizində, ildən ilə bu və ya digər dayanıqlılıqla təkrar olunan, trenddən kiçik dövrlü meyllərə rast gəlinir; bu dövrlər meyldə mövsümi komponentlərin varlığını izah edir [8].

Dövrü komponent trenddən 2-10 illik dövrün meylini anladır; adətən, bu komponent dövr boyu dəyişə bilər və öz intensivliyi və dövrdə aktivliyi, yaxşı korrelyasiya etməsi ilə seçilir. Lakin iş aktivliyinin yüksəlişində qalığın qiyməti düzgün trenddən yuxarıda qalır, enmə və durğunluq dövründə isə trenddən gözləniləndən də hiss olunacaq dərəcədə aşağı düşür.

Mövsümi komponent, məhz dövr daxili aktivliyin dəyişməsi ilə bağlı qısadövrlü enib qalxmaları, böyük və ya kiçik fiksə olunmuş zaman anlarının təkrarlanmasını müəyyən edir.

Bütünlükdə alınmış verilənləri xarakterizə etsək, söyləyə bilərik ki, diaqram-qrafik (məsələn, satış həcmi) göstərilən dövr ərzində hesabat tendensiyasını ifadə edir və bu ümumi tendensiyanı (yüksəlişə və ya enməyə doğru hərəkət) *trend* adlandırırlar [9].

Daimi olmayan (qeyri-müntəzəm) komponent, trendlər dövrü və mövsumi komponentlə müəyyən olunan, qalıqların (izlərin) manevrindən meylə səbəb olur. Onlara təsadüfi kəmiyyət kimi də baxmaq olar və ona görə də, o, proqnozlaşdırılmayan kəmiyyətdir. Statistikanın terminlərində onu müşahidə səhvi də hesab etmək olar və analoji olaraq, onu statiskada ölçmənin təsadüfi səhvi kimi emal etmək olar. Bu kəmiyyəti xarici aləmdəki təsadüfi təsirlərlə də əlaqələndirirlər. Məsələn, tufan, daşqın, üsyan, siyasi proseslərin təsiri və s. [10].

Zaman sıralarının klassik multiplikativ modelində postulat kimi qəbul edilir ki, zaman sırasının ixtiyari nöqtəsində izlərin müşahidə qiymətləri 3 faktorun – trend, dövrü olmayan və daimi komponentin hasilindən ibarətdir (qısa addımlı müşahidələrdə dördüncü faktor da –mövsumi komponent - əlavə olunur) və sıranın ixtiyari qiyməti aşağıdakı kimi ifadə oluna bilər:

$Y_i = T_i * C_i * S_i + \dot{I}_i,$

harada ki, Y_i – qalıqların (izlərin) qiymətləri, $T_i, C_i, S_i, \dot{I}_i$ – uyğun olaraq trendin, dövrü, mövsümi və daimi olmayan komponentin sıranın ixtiyari nöqtəsindəki qiymətləridir. Aşağıdakı cədvəldə klassik modelin komponentlərinin müqayisəsi verilmişdir:

Kompo-nent	Klassifi-kasiya	Təyinatı	Təsir səbəbləri	Davamlılıq
Trend	Sistematik	Ümumi dayanıqlı uzun müddətli tendensiya	Texnologiyadakı əhalinin sayındakı, rifah halında, dəyərlər sistemindəki dəyişikliklər	Bir neçə il
Dövrü	Sistematik	4 fazadan: pik, reses-siya,depressiya, yük-səlişdən keçən qalxma və enmələrin təkrar-lanması	İqtisadiyyata təsir edən çoxsaylı faktor kombina-siyalarının qarşılıqlı təsiri	İntensivliyi dəyişməklə, adətən, 2-10 il
Mövsümi	Sistematik	İldən ilə, hər bir 12 ay dövründəki kifayət qədər müntəzəm döv-rü fluktasiya (enib-qalxma)	Hava şəraiti, sosial adət-lər, dini tradisiyalar	12 ay ərzində kvartal və ay-lıq müşahidə
Daimi olmayan	Təsadüfi	Xəta ilə bağlı baxılan əsas enib qalxmalar (sistematik effektlər kimi öyrənilmiş)	Öncəgörmə kimi olmayan təsadüfi verilənlərin verifikasiyası	Adətən qısa davamlılıq və təkrar olunmayan

Zaman sıraları ilə verilənlərin analizində əvvəlcə trendi gücləndirən və ya zəiflədən ümumi uzunmüddətli tendensiyanın təyini üçün zamana görə qalıqdan asılı qrafik qurulur. Əgər verilənlər güclü ossilə edilirsə (ossiloqram – müvazinətlər sisteminə görə ehtirazlar əmələ gətirən sistem) və ümumi trend sezilmirsə (anlanmırsa), zaman sırasının hamarlanması tələb edilə bilər, bunun yerinə yetirilməsindən sonra trend adətən aydınlaşır. Daha sonra zaman sırasının təsviri üçün, (sıranın verilənləri zaman oxunda yerləşir) reqressiya metodlarının birindən istifadə edilir və alınmış reqression təsvir proqnozlaşdırma məqsədilə istifadə olunur [11].

Ekonometrik proqnozlaşdırmada zaman sıralarının hamarlanması metodundan da geniş istifadə olunur. Sıraların hamarlanmasının əsas məqsədi prosesin trend komponentlərinin seçilib ayrılmasından ibarətdir. Çox və ya az səviyyədə zaman sırasının hamarlanması zamanı qalığın daimi olmayan tərkibinin təsiri hamarlanır, beləki, hamarlanmış sıra faktiki olaraq trendin (klassik model çərçivəsində) və prosesin dövrü tərkib elementlərinin superpozisiyası hesab olunur. Bu sonrakı tədqiqatları asanlaşdırmaq üçün vacibdir [12]. Adətən, sürüşkən orta və ya eksponensial hamarlama metodlarından (Braun metodu) istifadə olunur; hər iki metod hamarlama parametrinin seçilməsinə nəzərən müəyyən qədər subyektivdir, lakin parametrlərin korrekt seçimində həm də tədqiqatçının intuisiyası və bacarığı özünü biruzə verir [13].

ƏDƏBİYYAT

1. Математика для экономистов: от арифметики до эконометрики : учеб.-справ. Пособие для бакалавров / Н. Ш. Кремер, Б. А. Путко, И. М. Тришин, М. Н. Фридман ; под ред. Н. Ш. Кремера. – 3-е изд., перераб. И доп. – М. : Юрайт, 2012 . – 685 с.
2. Тихомиров, Н. Методы эконометрики и многомерного статистического анализа / Н. Тихомиров. – М.: Экономика**,** 2017**.** 989 с..
3. Артамонов, Н. В. Введение в эконометрику / Н.В. Артамонов.- М.: МЦНМО, 2015 204 с.
4. Артамонов, Н. В. Введение в эконометрику / Н.В. Артамонов- М.: МЦНМО, 2016 224 с.
5. Афанасьев, В. Н. Эконометрика / В.Н. Афанасьев, М.М. Юзбашев, Т.И. Гуляева. – М.: Финансы и статистика, 2017. – 256 с .
6. Берндт, Эрнст Практика эконометрики. Классика и современность / Эрнст Берндт. – М.: Юнити-Дана**,** 2016. – 848 с.

7. Вербик, Марно Путеводитель по современной эконометрике / Марно Вербик. – М.: Научная книга, 2016. – 616 с.
8. Гладилин, А. В. Практикум по эконометрике / А.В. Гладилин, А.Н. Герасимов, Е.И. Громов. – М.: Феникс, 2016. – 336 с.
9. Дайитбегов, Д. М. Компьютерные технологии анализа данных в эконометрике / Д.М. Дайитбегов. – Москва: ИЛ, 2015. – 592 с.
10. Колемаев, В. А. Эконометрика / В.А. Колемаев. – М.: ИНФРА-М, 2016. – 160 с.
11. Кочетыгов, А. А. Основы эконометрики / А.А. Кочетыгов, Л.А. Толоконников. – М.: Издательский центр «МарТ», 2015. – 352 с.
13. Математика для экономистов. От Арифметики до Эконометрики / Н.Ш. Кремер и др. – М.: Юрайт, 2017. – 688 с.

ABSTRACT

Gulara Rahimova
Elshan Mammadov

ESTIMATION OF QUALITY OF THE FORECAST IN ECONOMETRIC FORECASTING

The concept “quality of the forecast” in the broadest sense represents unity of expected parameters of validity, reliability, accuracy, typification of errors of the forecast and also identification of sources of errors of the forecast. Narrow interpretation of this term means a certain measure of sustainable development of an object according to the trajectories determined by the forecast and is most often described by measures of fixing of accuracy of forecasting, i.e. directly forecast errors. We will notice also that estimation of quality of the forecast can carry both aprioristic (preliminary), and a posteriori (actual, empirical) character. According to the last gradation in relation to econometric models distinguish so-called characteristics of quality of information suitability of model and its predictive suitability.

РЕЗЮМЕ

Гюлара Рагимова
Эльшан Мамедов

ОЦЕНИВАНИЕ КАЧЕСТВА ПРОГНОЗА В ЭКОНОМЕТРИЧЕСКОМ ПРОГНОЗИРОВАНИЕ

Понятие «качество прогноза» в широком смысле слова представляет собой единство прогнозных параметров обоснованности, достоверности, точности, типизации ошибок прогноза, а также выявление источников ошибок прогноза. Узкое толкование этого термина подразумевает некую меру устойчивого развития объекта в соответствии с траекториями, определяемыми прогнозом и чаще всего описывается мерами фиксации точности прогнозирования, т.е. непосредственно ошибками прогноза. Заметим также, что оценивание качества прогноза может носить как априорный (предварительный), так и апостериорный (фактический, эмпирический) характер. В соответствии с последней градацией применительно к эконометрическим моделям различают так называемые характеристики качества информационной пригодности модели и ее прогностической пригодности.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MƏDİNƏ ALLAHVERDİYEVA
Naxçıvan Dövlət Universiteti
q_fil@hotmail.com

UOT:330

QADIN SAHİBKARLIĞININ İNKİŞAFINDA YENİ MEYİLLƏR: PROBLEMLƏR, TƏŞƏBBÜSLƏR VƏ UĞURLAR

Açar sözlər: *Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, konfrans, konvensiya, Avropa Yenidənqurma və İnkişaf Bankı, sahibkar qadın, məşğulluq, biznes*

Keywords: *Conference, convention, European Bank for Reconstruction and Development, entrepreneur, employment, business, Nakhchivan Autonomous Republic of Azerbaijan Republic*

Ключевые слова: *Конференция, конвенция, Европейский Банк Реконструкции и Развития, предприниматель, занятость, бизнес, Нахчыванская Автономная Республика Азербайджанская Республика*

Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq səhifəsi məhz onun adı ilə bağlı olmuşdur. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişdir. Ötən əsrdə qadın hüquqlarının qazanılması və qorunması yolunda misilsiz uğurlar əldə etmiş Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır.

Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli fərmanın icrası ilə əlaqədar olaraq aparılan uğurlu işlər belə statistik nəticəyə gəlməyə əsas verir ki, respublikada qadınların təhsil, məşğulluq, sahibkarlıq fəaliyyəti, rəhbər vəzifələrdə təmsil olunma səviyyəsi əvvəlki illərə nisbətən getdikcə yüksələn xətt üzrə inkişaf edir. Zaman keçdikcə, bütün dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də qadının rolu daha da artır, o, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir.

1994-cü ildən başlayaraq ölkə sosial iqtisadi istiqamətdə stabillik və inkişafa doğru getməyə başlayır. Qadınların IV Ümumdunya Konfransına (Pekin, 1995) hazırlıq işləri aparılmış, 1995-ci ilin iyununda Azərbaycan Respublikası tərəfindən "Qadınlara Qarşı Ayrı-Seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"rati fikasiya edilmişdir. 1995-ci ilin sentyabr ayında Pekində keçirilən IVÜmum Dünya Qadınlar Konfransında Azərbaycan qadınlarının iştirakından sonra ölkədə qadın problemlərinə maraq daha da artmışdır. 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı dərc olundu. Bu sərəncamda dövlət strukturları tərəfindən daha yüksək diqqət tələb edən öncül sahələr müəyyən olunmuşdur . Eyni zamanda ölkə Prezidentinin Fərmanı ilə Qadın Problemləriüzrə Dövlət Komitəsi yaradılmışdır. Qadınların cəmiyyətdə fəal iştirakını təmin edən mühüm istiqamətlərdən biri də onların iqtisadi sahədə qərar qəbul etmənin yüksək pillələrində təmsil olunmasıdır. Təəssüf ki, qadınların bu sahədə qeyri-bərabər təmsil olunması onların bilavasitə iqtisadi qərarların qəbul edilməsi prosesində iştirakını məhdudlaşdırır.

Qadınların məşğulluq imkanlarının artırılması, biznesə başlamaqvə inkişaf etdirmək üçün onlara müvafiq mənbə və bacarıqların verilməsi sahəsində hökumət, donorlar, həm yerli, həm də beynəlxalq Qeyri-Hökumət Təşkilatları (QHT) tərəfindən bir çox tədbirlər həyata keçirilmişdir. Bununla belə, hələ də ölkədə qadınların produktiv resurslardan, xüsusilə, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsini məhdudlaşdıran sosial-qtisadi maneələr qalmaqdadır. Bundan başqa, cəmiyyətdə üstünlük təşkil edən mövcud stereotiplər də ümumilikdə, qadınları bizneslə məşğul olmaqdan çəkindirir.

Ölkədə qadın sahibkarlığın inkişafını təmin edəcək düzgün proqramların və Strategiyanın

müəyyənləşdirilməsi qadın sahibkarlığı ilə bağlı məsələləri təhlil edilməsi və aydınlaşdırılmasını tələb edir. Qadın sahibkarların hansı problemləri var? Onlar maliyyə və biznes inkişaf xidmətlərindən eyni səviyyədə istifadə edə bilirlərmi? Qadın sahibkarlar üçün idarəçiliyin daha çox hansı növü tipikdir? Qadın sahibkarlar həyat yoldaşı və ya ailənin başqa üzvləri tərəfindən dəstəklənirlərmi?

Yuxarıda qeyd edilənlərlə yanaşı Azərbaycanda sahibkar qadınların üzləşdiyi əsas çətinlikləri aşağıdakı kimi təsvir etmək olar

-Bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübənin olmaması;

- Ermənistanın hərbi təcavüzünün nəticələri;

- İş axtarana və məşğulluğun təmin edilməsinin qeyri-fəal üsulları;

-Qadının ailədən və həyat yoldaşından ənənəvi asılılığı;

-Peşə hazırlığı və yenidən hazırlıq keçən qadınların sayının az olması

Qadınların ümumiyyətlə ölkənin iqtisadihəyatında və xüsusilə kiçik sahibkarlıqda iştirakını məhdudlaşdıran amillərdən biri ölkədə aparılan iqtisadi islahatlardan kənarda qalmasıdır.

Qadınları özəl bizneslə məşğul olmaqdan çəkindirən səbəblər kimi aşağıdakıları göstərmək olar:

-qadınların mülkiyyət sahibliyinin aşağı olması;

- ilkin kapitalın olmaması;

- müəssisənin qeydiyyatı üzrə kifayət qədər məlumatın olmaması;

- maliyyə bazarının tapılmasında çətinliklər;

-zəruri bilik və bacarıqların olmaması.

Göstərilən səbəblərlə yanaşı, sosialiq-tisadi maneələr də qadınların produktiv resurslardan (kredit və maliyyə), müvafiq bazar, biznes imkanlarını və yüksək texnologiyalardan istifadə etməsini çətinləşdirir.

Qadınların ailədə ənənəvi rolu, uşaqların tərbiyəsi və qayğısı ilə bağlı məsuliyyətin qadının üzərinə qoyulması və özünəinamın aşağı olması kimi cəmiyyətdəki mövcud stereotiplər də qadınların biznesdə məşğul olma imkanlarını azaldır.

Lakin bütün bu problemlərə baxmayaraq hal-hazırda ölkəmizdə qadın sahibkarlığı sürətlə irəliləyir və inkişaf edir. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) tərəfdaş maliyyə təşkilatları vasitəsilə qadınlar tərəfindən idarə edilən kiçik və orta sahibkarlıq fəaliyyətlərinə borc vermək məqsədilə regiona yönəldilən kredit xətləri üçün 50 milyon avrodan artıq vəsait ayırılıb. Buna tərəfdaş banklara risklərin yüngülləşdirilməsi üçün maliyyə vəsaitlərinin və texniki yardımın, eləcə də qadın sahibkarlara biznes tövsiyələrinin, təlim və mentorluq dəstəyinin təmin edilməsi üçün 9 milyon avro məbləğində donor fondu də əlavə olunur., 2015-ci ildə start verilən proqrama bu günə qədər regionda 500-dən artıq qadın sahibkar cəlb edilib.

Son 15 ildə ölkəmizdə qadın sahibkarların sayı xeyli artıb. Qadın sahibkarlar nəinki mərkəzi şəhərlərdə, hətta regionlarda da var. Xüsusi müəssisələri, xalça fabrikləri olan, kənd təsərrüfatı ilə məşğul olan, digər hansısa sahibkarlıq fəaliyyəti sərbəst fəaliyyət göstərən qadınlarımız çoxdur.

Ölkə başçısı sahibkarlarla görüş keçirəndə həmişə qadın sahibkarları da dəvət edir, onlara söz verir, problemləri ilə maraqlanır. Qadın sahibkarlar ölkəmizdə çoxalmaqdadır. Azərbaycanda sahibkarlıqla məşğul olan fərdi sahibkarların 80,3 faizini kişilər, 19,7 faizini isə qadınlar təşkil edir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 29,1 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq"da 22,5 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,6 faizini təşkil edir. Ölkədə fəaliyyət göstərən qadın sahibkarların təşəbbüsü, İqtisadiyyat Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi ilə Azərbaycan Sahibkar Qadınlar Assosiasiyası təsis olunub.

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" Azərbaycanda qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün daha əlverişli mühit yaradıb.

Qanunvericilikdə sahibkarlıq fəaliyyəti sahəsində qadınlar üçün hər hansı məhdudiyyət nəzərdə tutulmur, eyni zamanda, qadınlara münasibətdə xüsusi güzəşt və imtiyazlar da müəyyənləşdirilmir. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatından tutmuş lisenziya və icazələrin verilməsi, vergi öhdəlikləri, yoxlamaların aparılması, pozulmuş hüquqların bərpası və s. Kimi məsələlərədək heç bir cins fərqi və üstünlüyü müəyyənləşdirilmədən sahibkarlıq subyektləri öz

hüquqlarını həyata keçirməkdə bərabər imkanlara malikdirlər.

Yol xəritəsində 2017-ci ildə qadın sahibkarlar üçün kreditləşmə, vergiqoyma və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanmış nəzərdən keçirilmişdir. Bu mexanizmlər Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Mexanizmlər hazırlanan zaman, xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olmuşdur. Kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilmiş və müvafiq tədbirlər görülmüşdür.

Bundan başqa, 2017-2020-ci illərdə qadın sahibkarlara informasiya dəstəyi vermək üçün qadınların sahibkarlıqla bağlı zəruri olan məlumatlara əlçatanlığının təmin olunması məqsədilə müxtəlif tədbirlər həyata keçiriləcək. Kiçik və orta sahibkarlıq agentliyinin nəzdindəki məlumat portalında bununla bağlı xüsusi bölmə yaradılacaq və əlaqəli məlumatlar burada öz əksini tapacaq.

Həmçinin, qadın sahibkarlığına dəstək məqsədilə xüsusi qadın biznes inkubatorlarının yaradılması nəzərdən keçiriləcək. İnkubatorların yaradılması və inkişafı qadınların sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması baxımından əhəmiyyətli olacaq, qadın sahibkarlığı sahəsinə investisiyaların cəlb olunması və maliyyələşmə üçün əlavə imkanlar yaradacaq.

Həmin illərdə qadın sahibkarlığının inkişafına töhfə vermək üçün qadın sahibkarlar assosiasiyalarının və peşə təşkilatlarının yaradılması təşviq ediləcək. Bu qurumların fəaliyyət sahəsinə qadınlar üçün sahib karlıq mühitinin yaxşılaşdırılması məsələləri ilə bağlı hökumətlə konstruktiv dialoq aparmaq, qadınların imkanlarını məhdudlaşdıran gender stereotiplərini aradan qaldırmaq üzrə addımlar, qadın sahibkarların bilik və bacarıqlarının artırılması istiqamətində geniş məlumatlandır ma kampaniyalarının təşkili daxil ola bilər. Bu prioritetin icrası nəticəsində ölkədə qadınların sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranacaq, kiçik və orta sahibkarlar arasında qadınların sayı daha da artacaq. Bu fəaliyyətlər həmçinin məşğulluq göstəricilərində də qadınların payının artmasına müsbət təsir göstərəcək.

Qeyd edək ki, ölkə üzrə iqtisadi fəal əhalinin ümumi sayında (4915,3 min nəfər) qadınların sayı 2404,5 min nəfər olub. Qadınların təmsilçilik göstə riciləri məşğul əhalinin sayında (4671,6 min nəfər) da aşağı səviyyədədir – belə ki, məşğul kişilərin sayı 2408,2 min, məşğul qadınların sayı isə 2263,4 min nəfər təşkil edib. Təbii ki, bu göstərici işsizliyə də öz təsirini göstərir – 243,7 min nəfər işsizin 141,1 min nəfərini qadınlar təşkil edib. Rəsmi statistikaya əsasən, onlardan yalnız 11,1 min nəfəri işsiz statusu alıb.

İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin 58,8 faizi kişilər, 41,2 faizi isə qadınlar olub. Qadınlar daha çox təhsil, səhiyyə və incəsənət sahələrində təmsil olunurlar. Təhsil sahəsində çalışanların 71,4 faizini, səhiyyə və sosial xidmətlər sahəsində çalışanların 76,6 faizini, istirahət, əyləncə və incəsənət sahəsində çalışanların 63,6 faizini qadınlar təşkil edib. 2017-ci ildə 164 sahibkar qadına 5,4 milyon manatdan çox kredit verilib.Azərbaycanda sahibkar qadınların sayı artır və açıqlanan statistik rəqəmlərə əsasən, hazırda ölkədə 143 mindən çox sahibkar qadın var.

Sevindirici haldır ki, artıq Azərbaycanda da sahibkar qadınlar formalaşır. Əksər xanımlarımız biznesdə daha çox uğur qazanmağa meyllidirlər. Qadınların da fiziki baxımdan fəal olduğunu nəzərə alsaq, onların boyük uğurlar qazana biləcəyini ehtimal edirik. Qadın sahibkarlığının inkişafı yoxsulluğun azalmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edəcək.

ƏDƏBİYYAT

1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu
2. S.X. Aslanov “Sahibkarlıq hüququ”
3. V.M. Niftullayev“Sahibkarlığın əsaslan”
4. Azərbaycanda qadın sahibkarlığın inkişafı milli hesabat
5. Sahibkar qadınlara kiçik biznes fəaliyyəti üçün məlumat kitabı
6. N.Filiyeva “ Sahibkar qadınlara yardım”
7. Qadın sahibkarlığının inkişafı: problemlər və perspektivlər” mövzusunda beynəlxalq konfrans maerialları

ABSTRACT

Madina Allakhverdieva

NEW TRENDS IN THE DEVELOPMENT OF WOMEN ENTREPRENEURSHIP: CHALLENGES, INITIATIVES AND SUCCESSES

The Azerbaijani government has strengthened its incentive measures to attract women to entrepreneurial activity in order to increase employment and social activity in the country, as well as to maximize the capacity of the able-bodied people.

Economic investigations in leading countries have revealed that the growing economic motivation of women and their broad representation in CSOs are crucial in terms of socio-economic development and employment.

Women's entrepreneurial activity has become one of the topical issues not only in Azerbaijan, but also in other countries. The experience of advanced countries shows that women entrepreneurship development contributes to poverty reduction and economic and social empowerment of women. When the income of women decreases, the opposite process takes place. From here, the UN views the expansion of women entrepreneurship as 2030 as an important catalyst for the solution of the problem of poverty, inequality removal, progress towards global universal education, and the provision of quality health care to everyone.

Considering this important aspect of women's entrepreneurship, the Government of Azerbaijan viewed women entrepreneurship as a separate issue when preparing a Strategic Roadmap for the production of consumer goods at the level of small and medium entrepreneurship. According to the Strategic Roadmap, additional opportunities will be created to ensure greater participation of women in SMEs.

РЕЗЮМЕ

Мадина Аллахвердиева

НОВЫЕ ТЕНДЕНЦИИ В РАЗВИТИИ ЖЕНСКОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА: ПРОБЛЕМЫ, ИНИЦИАТИВЫ И УСПЕХИ

Правительство Азербайджана активизировало свои меры стимулирования для привлечения женщин к предпринимательской деятельности в целях повышения занятости и социальной активности в стране, а также для максимально эффективного использования трудоспособного населения.

Экономические исследования в ведущих странах показали, что растущая экономическая мотивация женщин и их широкое представительство в ОГО имеют решающее значение с точки зрения социально-экономического развития и занятости.

Женская предпринимательская деятельность стала одним из актуальных вопросов не только в Азербайджане, но и в других странах. Опыт развитых стран показывает, что развитие женского предпринимательства способствует сокращению масштабов нищеты и расширению экономических и социальных прав женщин. Когда доход женщин уменьшается, происходит противоположный процесс. Отсюда ООН рассматривает расширение предпринимательства среди женщин как 2030 года как важный катализатор для решения проблемы нищеты, устранения неравенства, прогресса в направлении глобального всеобщего образования и обеспечения качественного медицинского обслуживания для всех.

Учитывая этот важный аспект женского предпринимательства, правительство Азербайджана рассматривало женское предпринимательство как отдельный вопрос при подготовке Стратегической дорожной карты для производства потребительских товаров на уровне малого и среднего предпринимательства. Согласно Стратегической дорожной карте, будут созданы дополнительные возможности для обеспечения более широкого участия женщин в МСП.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

BULQEYİS NOVRUZOVA
Naxçıvan Dövlət Universiteti
bulqeyis@yahoo.com

UOT: 339.7

MALİYYƏ ŞƏFFAFLIĞININ TƏMİN EDİLMƏSİ DAYANIQLI İQTİSADİ İNKİŞAFIN ƏSAS AMİLİDİR

Açar sözlər: *beynəlxalq maliyyə, beynəlxalq hesablaşmalar, beynəlxalq ödəmələr, xarici-ticarət sövdələşmələri, valyuta münasibətləri, bank köçürməsi*

Key words: *international finance, international settlements, international payments, boreign-trade transactions, cyrrency relations, bank transfer*

Ключевые слова: *международные финансы, международные расчеты, международные платежи, внешнеторговые контракты, валютные отношения, банковский перевод.*

Beynəlxalq təcrübə yüksək şəffaflığa malik olan maliyyə sisteminin qeyri-şəffaf maliyyə sistemindən daha səmərəli olduğunu və iqtisadiyyatın idarə olunmasında optimal qərarların qəbul edilməsinin təkcə dövlətin deyil, eyni zamanda, sahibkarların və əhalinin mənafelərinin qorunmasına real zəmin yaratdığını göstərir. Şəffaflığın artırılması və səmərəli nəzarət sisteminin yaradılması hər bir ölkədə dayanıqlı sosial-iqtisadi inkişafın təminatının vacib ünsürlərindən biri hesab olunur. Şəffaflığın olmaması bir tərəfdən korrupsiyanın yayılmasına zəmin yaradır, digər tərəfdən isə iqtisadi sərbəstliyin məhdudlaşmasına səbəb olur.

Ölkəmizdə dövlət başçısı tərəfindən şəffaflığın artırılmasının vacibliyini dəfələrlə qeyd edilmiş, dövlət quruculuğu və iqtisadi siyasətində şəffaflıq probleminin prioritet istiqamətlərdən biri olduğu qeyd edilmişdir

Son illərdə respublikamızda maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini, nəzarət mexanizminin təkmilləşdirilməsini və bütövlükdə maliyyə intizamının möhkəmləndirilməsini nəzərdə tutan dövlət əhəmiyyətli bir sıra sənədlər qəbul olunmuşdur. Bu sənədlərdə ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ayrılan vəsaitin sərf olunması ilə bağlı şəffaflığın qorunması, müəssisələrdə maliyyə intizamının möhkəmləndirilməsi və bu sahələrdə mövcud olan nöqsanların aradan qaldırılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdu.

Hazırda Azərbaycanda idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amili ilə səciyyələnən iqtisadi inkişaf modeli tətbiq olunmaqdadır. Məhz bu modelin reallaşması sayəsində Azərbaycan iqtisadiyyatı böyük bir inkişaf səviyyəsinə çatmış, dünyada kifayət qədər etibarlı ölkə və tərəfdaş kimi tanınmış və onun dünya iqtisadi sisteminə inteqrasiyası güclənmişdir.

İnkişaf etmiş ölkələrdə şəffaflıq (transparency) və hesabatlıq (accountability) dövlət idarəetməsinin mühüm və ayrılmaz alətləri hesab olunur. Əgər şəffaflıq nəzərdə tutulmuş vaxtlarda məlumatların hazırlanıb açıqlanmasını və lazımi ünvanlara təqdim edilməsini nəzərdə tutursa, hesabatlıq daha geniş mahiyyət daşıyır. Belə ki, hesabatlıq həm dövlət orqanlarının fəaliyyətində şəffaflığı, həm də bu orqanların dövlətin strateji planlarının, siyasətinin və ölkədə həyata keçirilən digər işlərin reallaşdırılmasında iştiraklarını və məsuliyyətlərini özündə ehtiva edir. Hesabatlığı xarakterizə edən mühüm komponentlərdən biri də dövlət qərarlarının qəbul edilməsi prosesində ictimaiyyətin iştirakının təmin edilməsidir.

Müasir dövrdə ümumi nəzarətin ən önəmli formalarından biri olan maliyyə nəzarətinin əhəmiyyəti daha da artır və onun daim təkmilləşdirilməsi bir zərurətə çevrilir. Məhz mükəmməl maliyyə nəzarətinin mövcudluğu nəticəsində aşağıdakı funksiyaların reallaşmasına nail olmaq olar:

- informasiya funksiyası, bu, idarəetmədə optimal qərarların qəbul edilməsi və normal fəaliyyətin təmin olunması üçün informasiya bazasının formalaşmasına imkan verir;
- profilaktik funksiya, bu, mövcud nöqsan və çatışmazlıqların aşkar olunaraq aradan qaldırılmasına və gələcəkdə təkrar olunmamasına zəmin yaradır;
- səfərbəredici funksiya, bu, təsərrüfat subyektləri tərəfindən bütün ehtiyat və vəsaitlərin səmərəli və məqsədyönlü istifadəsinin təmin edilməsi üçün şərait yaradır;

- tərbiyəvi funksiya, bu, məsul şəxslər qarşısında qanunvericiliyə ciddi əməl edilməsi və öz öhdəliklərinin dəqiq yerinə yetirilməsi barədə tələblər qoyur.

Ölkəmizdə maliyyə şəffaflığı probleminin həllinə nail olmaq üçün maliyyə nəzarəti sahəsində qanunvericilik təkmilləşdirililməli, yoxlamalar birləşdirilməklə nəzarətedici orqanların sayı azaldılmalı, onlar arasında informasiya mübadiləsi güçləndirilməli, maliyyə nəzarətinin aktual problemləri ilə bağlı seminarlar keçirilməlidir. Bu məsələlərdə ictimaiyyətin və dövlətin marağını artırmaq məqsədilə yoxlamaların nəticələrinə dair informasiyalar dərc etdirilməli və yayılmalı, nəzarət və maliyyə hesabatları beynəlxalq standartlara uyğunlaşdırılmalı, peşə təhsili məsələlərinə dair informasiya-analitik xarakterli materiallar hazırlanmalı və yayılmalı, bütün iri qurumlarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməsinə ciddi nəzarət edilməsi üçün daxili audit təşkil edilməli, beynəlxalq tələblərə cavab verən peşəkar auditorlar və maliyyə nəzarətçiləri hazırlanmalı və s. bu kimi tədbirlər həyata keçirilməlidir.

Maliyyə nəzarətinin nəticəliliyinin, obyektivliyinin, şəffaflığının və aşkarlığının, həmçinin, iqtisadi inkişafa və təhlükəsizliyə təminatının reallaşması üçün maliyyə nəzarətinin hüdudları, forma və metodları, nəzarət qurumlarının hüquqi statusu müəyyən edilməli, maliyyə nəzarəti orqanları ilə digər dövlət idarəetmə orqanlarının əlaqələri təkmilləşdirilməli, maliyyə nəzarəti sahəsində maraqların toqquşmasının qarşısı alınmalı və nəzarət qurumlarının fəaliyyətinin iqtisadi mexanizmlərinin səmərəliliyi daim artırılmalıdır.

Bunlarla yanaşı, dövlət və qeyri-dövlət nəzarət formaları arasında qarşılıqlı əlaqə və dəqiq səlahiyyət bölgüsünün olması bütövlükdə nəzarət sisteminin səmərəliliyinin və şəffaflığının artırılmasına imkan verər. Nəzarətin bu iki forması arasında təkmil qarşılıqlı əlaqələr yaranmış inkişaf etmiş ölkələrdə dövlət nəzarəti qeyri-dövlət nəzarət formasının potensialından geniş istifadə olunur və qeyri-dövlət nəzarəti dövlət maliyyə nəzarətinin ayrı-ayrı funksiyalarının həyata keçirilməsinə cəlb edilir.

Qeyri-dövlət nəzarət formalarından biri olan ictimai nəzarət ölkə Konstitusiyasına görə xalq hakimiyyəti prinsipinin həyata keçirilməsinin vacib şərti kimi siyasi-hüquqi sistem çərçivəsində vətəndaşlarla dövlət arasında meydana çıxan problemləri qanunla müəyyən edilmiş qarşılıqlı təsir və qarşılıqlı məsuliyyət prinsipi əsasında həll etməlidir, Bu işdə vətəndaş cəmiyyəti də fəal iştirak etməli, dövlət orqanları isə belə iştirakın mexanizmini hazırlamaqla bu və ya digər qərarın qəbulunu əsaslandırmalıdırlar.

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatı qarşısında duran ən mühüm məsələlərdən biri iqtisadi subyektlərdə şəffaflığın təmin olunmasıdır. Bu isə öz növbəsində hesabatlığın vəziyyəti ilə bağlıdır. Buna görə də təsərrüfat subyektlərində hesabatların hazırlanması, qanunvericiliklə müəyyən olunmuş müvafiq orqana təqdim edilməsi, baxılması və zəruri hallarda ictimaiyyətə aşkarlanması, müstəqil auditin aparılması, tam, dəqiq, dolğun və etibarlı informasiyanın maraqlı tərəflərə, o cümlədən investorlara çatdırılması istiqamətində beynəlxalq təcrübədən yararlanmaq lazımdır.

Maliyyə resurslarından istifadənin yaxşılaşdırılmasının ən mühüm istiqamətlərindən biri kimi səmərəlilik auditinin genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Fikrimizcə, səmərəlilik auditi ilə ilk növbədə böyük investisiyaların qoyulduğu sahələr əhatə olunmalıdır və onların nəticələri müvafiq qurumlarda dövlət xərclərinin səmərəliliyinin yüksəldilməsinə xidmət etməlidir. Qeyd edək ki, auditdən yayınma korrupsiyaya şərait yaradan halların, çirkli pulların yuyulması və digər neqativ halların yaranmasına gətirib çıxara bilər.

Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir.

ƏDƏBİYYAT

1. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 28 iyul 2007-ci il, №2292
2. Vüqar Gülməmmədov, Maliyyə şəffaflığının və xərclərin səmərəliliyinin artırılması günün tələbidir, Respublika qəzeti, 09 dekabr 2016
3. Vahid Novruzov, Maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, 22 oktyabr 2015 /*www.azerbaijan-news.az/index.php?mod=3&id=81275*

4. Vahid Novruzov, Şəffaflığın təmin edilməsində auditin rolu, Azərbaycan qəzeti, 6 mart 2011
5. З.М.Дзокаева, И.В.Саванова Проблемы обеспечения прозрачности российской экономики. Система финансовой безопасности Российской Федерации: концептуальные подходы и решения, журнал «Евразийский союз ученых» №5-1(14), 2015, стр.59-61
6. С.М.Толкачев, Р.Н.Галямов, О.С.Торопченко Обеспечение открытости и прозрачности бюджета в системе государственных финансов Российской Федерации, журнал «Инновационная экономика и общество» №3(17), 2017, стр.65-71
7. Х. Ван Грюнинг, М. Коэн Принципы подготовки и представления финансовой отчетности, 2005

ABSTRACT

Bulqeyis Novruzova

PROVIDING OF FINANCIAL TRANSPARENCY IS A MAIN FACTOR OF SUSTAINABLE ECONOMIC DEVELOPMENT

In modern conditions, one of the most significant tasks of the Azerbaijan economy is to ensure transparency in economic agents. The increase of transparency and establishment of an effective control system is one of important elements of sustainable socio-economic development in each country. According to the international practice, transparency and accountability is considered as an essential and integral instruments of state governance in developed countries as well.

In modern times, the importance of financial control which is one of the most important forms of total control is increasing and its continuous improvement becomes necessary. The existion of interconnection and distribution of power between state and non-state control forms can cause the increase of efficiency and transparency in overall control system.

In the article, the functions will be carried out in a management system and socio-economic life as a result of the existion of perfect financial control are highlighted and a number of suggestions for the improvement of the use of financial resources and realization of objectivity, transparency and publicity of financial control are proposed.

РЕЗЮМЕ

Булгейис Новрузова

ОБЕСПЕЧЕНИЕ ФИНАНСОВОЙ ПРОЗРАЧНОСТИ ЯВЛЯЕТСЯ ОСНОВНЫМ ФАКТОРОМ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

В современных условиях одним из самых важных вопросов стоявщих перед экономикой Азербайджана, является обеспечение прозрачности в экономических субъектах. Повышение прозрачности и создание эффективной системы контроля в каждой стране считается одним из важных елементов обеспечения устойчивого социально-экономического развития. Согласно международной практике и в развитых странах, прозрачности и отчетности считаются важным и неотъемлемым инструментом государственного управления.

На данный момент растет значение финансового контроля, являющего одним из форм общего контроля и становится необходимостью его постоянное усовершенствование. Наличие взаимосвязи и распределения полномочий между государственными и негосударственными формами контроля обеспечивает повышению прозрачности и эффективности системы контроля в целом.

В статье комментируется функции, которые реализуются в системе управления и социально-экономической жизни страны, при наличии совершенного финансового контроля и выдвинуты ряд предложений для улучшения использования финансовых ресурсов и для реализации открытности, объективности, прозрачности и результативности финансового контроля в целом.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

HƏSƏN ABBASOV
Naxçıvan Dövlət Universiteti

UOT:330

KƏND TƏSƏRRÜFATININ İQTİSADİ VASİTƏLƏRLƏ TƏNZİMLƏNMƏSİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ, ONUN ÖLKƏDAXİLİ İSTİFADƏSİNİN PLANLAŞDIRILMASI VƏ PROQNOZLAŞDIRILMASI

Açar sözlər: *kənd təsərrüfatı, tənzimləmə, tənzimləmənin iqtisadi vasitələri, tənzimləmənin beynəlxalq təcrübəsi, tənzimləmənin planlaşdırılması, tənzimləmənin proqnozlaşdırılması*

Key words: *agriculture, regulation, regulation of economic means, international practice of regulation, regulation of regulation, regulation of forecasting*

Ключевые слова: *сельское хозяйство, регулирование, экономические средства регулирования, международная практика регулирования, планирование регулирования, прогнозирование регулирования.*

Muxtar respublikada aqrar sahə üzrə tənzimləmə fəaliyyətinin yerli şərait nəzərə alınmaqla həyata keçirilməsi, onun səviyyə və digər parametrlərinin qiymətləndirilməsi ilə yanaşı müvafiq istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi və ondan ölkə daxilində istifadənin mümkünlüyü də öz aktuallığını qorumaqdadır. Beynəlxalq təcrübədə istər təşkilatlar çərçivəsində, istərsə də fərdi qaydada ayrı-ayrı ölkələr miqyasında müxtəlif xarakterli tənzimləyici işlərin həyata keçirilməsi yer almaqdadır. Bu istiqamətdə ilk sistemli yanaşma Ümumdünya Ticarət Təşkilatının 1994-cü ildə Uruqvayda keçirilən toplantısında təmin edilmişdir. Həmin yığıncaqda qərara alınmışdır ki, aqrar sektorun dövlət tənzimlənməsinin metod və formalarının hazırlanmasına start verilsin. Bu proses əsas etibarı ilə liberallaşma prosesləri ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində, biri-digərinə mane olmamaqla həyata keçirilməli və əsasən 3 razılaşma sənədinin: Kənd Təsərrüfatı Üzrə Razılaşmanın, Sanitariya və Fitosanitariya Standartları Haqda Razılaşmanın və Ticarətdə Texniki Maneələr Haqda Razılaşmanın müddəalarına cavab verməlidir.

Kənd təsərrüfatı üzrə hazırlanmış beynəlxalq razılaşmada öncül məqamlardan biri kimi iştirakçı ölkələrin daxili bazarlarına qarşılıqlı girişinin genişləndirilməsi hesab olunur. Məsələnin belə prinsip əsasında qoyuluşunun ölkəmizə tətbiqi hazırki mərhələdə bir çox ölkələrlə müqayisədə kifayət qədər güclərə malik olmayan, böyük ağırlığı daxili tələbatı ödənilməsinə yönəldən aqrar sektorumuzun zəifləməsi ilə nəticələnə bilər. Belə fikir xüsusilə də kifayət qədər əsas fondlarla, xammal bazasına malik, geniş infrastruktur imkanları ilə seçilən inkişaf etmiş ölkələrin respublikamızın aqrar bazarlarına girişi zamanı daxili məhsulların qiymət və keyfiyyət problemləri ilə rastlaşacağından xəbər verir. Bu sahədə gözlənilməli olan növbəti prinsip kimi kənd təsərrüfatına daxili dəstəyin azaldılması göstərilir. Haliyədə respublika səviyyəsində mərkəzləşdirilmiş qaydada, həmçinin muxtar respublika səviyyəsində aqrar sektorun yüksəlişi məqsədilə bir çox yardımların həyata keçirilməsi geniş vüsət almışdır. Beynəlxalq təcrübənin müddəaları aqrar sahəyə yardım səviyyələrinin ("sarı zənbil" tədbirləri çərçivəsində) inkişaf etmiş ölkələr üçün 5% həcmində, inkişaf etməkdə olan ölkələr üçün 10% həcmində müəyyənləşdirilməsini nəzərdə tutur. Halbuki, onun real səviyyəsi kiçik həcmli təsərrüfatların üstünlük təşkil etdiyi muxtar respublikada bəzi fəaliyyət istiqamətlərində 27-30% arasında tərəddüd edir.

Beynəlxalq tələb və prinsiplər sırasında ixrac subsidiyalarının azaldılması və ixracın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi özünəməxsusluğu ilə fərqlənir. Bu prinsip bir sıra ölkələrdə (Türkiyədə, İranda və s.) aqrar sektorun inkişafının əsas təşviqedici amillərində biri rolunda çıxış etməkdədir. Məhsulun dəyərinin 5-15%-i arasında istehsalçıya ödənilən məbləğlər əgər bir tərəfdən ölkə və ya istehsalçı regionun sahibkarlarının maddi həvəsləndirilməsinə, onların maliyyə vəziy-

yətinin yaxşılaşmasına şərait yaradırsa, digər tərəfdən həmin ölkələrin beynəlxalq arenada ixracatçimiçini formalaşdırmağa şərait yaradır. Beynəlxalq praktikanın ətraflı araşdırılması tənzimləmə tədbirlərində ölkənin real vəziyyətindən, aqrar sektorun inkişaf səviyyəsindən və digər şərtlərdən asılı olaraq "sarı zənbil", "yaşıl zənbil" və ya "mavi zənbil" tədbirlərinin tətbiqi mümkünlüyünü şərtləndirir. Qeyd etmək yerinə düşər ki, "mavi zənbil" və "yaşıl zənbil" tədbirlərindən fərqli olaraq "sarı zənbil" tədbirləri dövlətin himayəçilik siyasətində ədalətli rəqabət və xarici ticarət mühitlərinə özünün bir sıra mənfi təsirləri ilə seçilməkdədir. Tərkib etibarı ilə aşağıdakı qruplardan ibarət olan və bir sıra ölkələr tərəfindən müraciət olunmuş (İslandiya, Norveç, İsveçrə, Yaponiya və s.) "sarı zənbil" tədbirləri özündə aqrar sektora yönəlik həyata keçirilən dövlət yardım siyasətinin forması kimi təzahür edir və məzmunca istehlakçılardan daxil olan vəsaitlərin yenidən bölüşdürülməsinə əsaslanır:


1. Damazlıq heyvandarlıq, elit toxumçuluq və qarışıq yem istiqamətlərində dotasiyaların, bitkiçilik və heyvandarlıq məhsulları üzrə dövlət yardımlarının verilməsi;
2. Torpaq, su, enerji və digər resurs növləri ilə, onların sistemli şəkildə istifadəsi (məs., meliorasiya sisteminin yaradılması və ya təmiri) ilə bağlı çəkilən xərclərə dotasiya;
3. Bitkilərin kimyəvi mühafizəsi və mineral gübrələrin əldə olunması sahəsində xərclərin (tam və ya bir hissəsinin) ödənilməsi;
4. Lizinq xərclərinin bir hissəsinin dövlət tərəfindən ödənilməsi;
5. Aqroməhsulların alış və bazar qiymətləri arasındakı fərqlərə görə, sahibkalara bazar qiymətlərində aşağı qiymətə məhsulların verilməsinə, xidmətlərin göstərilməsinə görə dotasiyalar;
6. Dövlət vəsaitləri hesabına kəndli sahibkarlara güzəştli kreditlərin verilməsi, onların borc həcmlərinə və şərtlərinə yenidən baxılması;
7. Kənd təsərrüfatı məhsullarının daşınması sahəsində güzəştlərin tətbiqi;
8. İstehsal təyinatlı əsaslı vəsait qoyuluşlarında xərclərin bir hissəsinin dövlət tərəfindən üstlənməsi və s.

Bu tədbirlər növü subsidiyalaşmanı məhdudlaşdırmağı, onların "minimal kriteriyalar" əsasında həyata keçirilməsini nəzərdə tutur. Bəhs olunan məsələdə "dəstəyin aqreqat ölçüsü" göstəricisi əsasında qiymətləndirmə prosesi təşkil olunur. O, əsas etibarı ilə, fərdi qaydada hesablamalara məruz qalır və dəqiqləşdirmələrin aparılması əsasında hər hansı kənd təsərrüfatı məhsuluna edilən subsidiyadan məcmu şəklində xəbər verir. Nəzərə çatdırılmalıdır ki, dəstəyin aqreqat ölçüsü üzrə hesablanmış subsidiyaların həcmi yekun etibarı ilə onların aid olduğu başlanğıc dövrünün nəticəsini üstələməlidir. Bu dövr kimi inkişaf etmiş ölkələr üçün 1996-1998-ci illər götürülməlidir, onların nəticələri üzrə aparılan nisbi müqayisə nəticə etibarı ilə 1-dən (yəni, bazis kəmiyyəti: hər hansı sonrakı ilin subsidiya həcmi ≥ 1) çox olmamalıdır və aqrar istehsalda subyektlərin öz gücü hesabına inkişafını ifadə etməlidir. Onu da qeyd edək ki, "sarı zənbil"in tətbiqi zamanı bir sıra fəaliyyət istiqamətləri üzrə qoyulan qadağalar vardır ki, onlar inkişaf etməkdə olan ölkələrlə bağlı tətbiq edilmir. Bu sırada kənd təsərrüfatına xidmət edəcək yol və digər infrastrukturların edilən investisiya qoyuluşarı, aqrar istehsalın quruluşunun yenilən-məsinə (diversifikasiyasına) yönələn proqramların maliyyələşdirilməsi, gəliri aşağı və istehsal imkanları məhdud olan subyektlər üzrə kənd təsərrüfatı vasitələrinə verilən subsidiyalar və s. öncül yerləri tutmaqdadır. Təcrübə göstərir ki, "sarı zənbil" tədbirlərindən 1995-1997-ci illərdə Avropa İttifaqı ölkələrində (daxili yardımın strukturunda 54%), 1995-1998-ci illərdə İslandiyada (82%), Norveçdə (48%), İsveçrədə (55%), Yaponiyada (53%), Cənubi Koreyada (26%), Çexoslovakiyada (21%) uğurla istifadə olunmuşdur.

Beynəlxalq praktikada istifadə olunan tənzimləyici tədbirlər sırasında "yaşıl zənbil" tədbirləri özünəməxsusluğu ilə fərqlənir. Qeyd olunduğu kimi, bu tədbirlər qrupu istehsal prosesinin nəticəsini ifadə edən qiymətlərə heç bir təsir göstərmir, onları nəzərə almaqla işlənən Dövlət Proqramlarında bu tədbirlərin maliyyələşdirilməsi ölkə və ya regional büdcələrin (ödənilən vergilərin) hesabına mümkün olur. Onların həyata keçirildiyi nümunəvi istiqamətlər tərkibi aşağıdakı qrupları əhatə edir (sxem 1). Sxemdən də göründüyü kimi, beynəlxalq arenada həyata keçirilən "yaşıl zənbil" tədbirləri özünün rəngarəngliyi və spesifikliyi ilə seçilir. Aqrar sahədə daxili yardım strukturunun ifadə edilməsində faktiki kəmiyyətlərin incələnməsi bu istiqamətdə müxtəlif ölkələrin pay nisbətlərinin geniş amplituda üzrə həyata keçirilməsinə şahidlik edir. Bu sahədə ən böyük pay istifadəçisi kimi Yeni Zellandiya çıxış edir. Belə ki, həmin ölkə 1995-1998-ci ildə həyata keçirdiyi tənzimləyici tədbirlər sırasın-da

100%-lik payı məhs "yaşıl zənbil" tədbirlərinə yönəltmişdir. Bununla belə Polşa (1995-1997-ci illərdə 89%), Avstraliya (1995-1997-ci illərdə 88%), ABŞ (1995-1998-ci illərdə 84%), Çexoslovakiya (1995-1998-ci illərdə 75%), Cənubi Koreya (1995-1997-ci illərdə 67%), Meksika (1995-ci ildə 60%) kimi ölkələr bu tədbirlərə özlərinin yardım proqramlarında üstünlük vermişlər. Müvafiq tədbirlər proqramında dövlət yardımlarının həcmlərinin "dəstəyin aqreqat ölçüsü" vasitəsilə hesablanmasına baxmayaraq, onların illər üzrə mütəmadi azaldılmasına ehtiyac qalmır. Daha yüksək tələblərlə seçilən "mavi zənbil" tədbirlərinin tətbiqi proqramları adətən inkişaf etmiş ölkələrdə mümkün olmuşdur. Nəzərdən keçirilən 15 ölkə içərisində bu tədbirlər ən az müraciət olunanlar sırasındadır. Cəmi 4 ölkə (ölkələr qrupu) müxtəlif zaman kəsiklərində "mavi zənbil" tədbirlərindən yararlanmışdır: Norveç 1995-1997-ci illərdə, daxili yardımın ümumi həcmində 34%-lik pay nisbətində; Avropa İttifaqı 1995-1997-ci illərdə, daxili yardımın ümumi həcmində 23%-lik pay nisbətində; ABŞ 1995-1998-ci illərdə, daxili yardımın ümumi həcmində 4%-lik pay nisbətində; İslandiya 1995-1998-ci illərdə, daxili yardımın ümumi həcmində 2%-lik pay nisbətində.

Sxem 1. "Yaşıl zənbil" tədbirlərinin həyata keçirilməsi istiqamətləri



Kəskin qadağanedici normalara malik bu tədbirlər qrupunda birbaşa istehsal və reallaşdırma ilə bağlı dövlət yardımını məhdudlaşdıran bir çox maddənin olmasına baxmayaraq, ÜTT-nin Kənd Təsərrüfatı üzrə Sazişinin Maddə 6.5-inə uyğun olaraq bir sıra istisnalar da nəzərdə tutulmuşdur ki, onların sırasında aşağıdakılar göstərilə bilər:

1. öncədən müəyyən olunmuş əkin sahələri və məhsuldarlıq ifadələrinə görə birbaşa ödənişlərin edilməsinə qadağanın qoyulmaması;

2. istehsal həcminin baza səviyyəsinin 85%-dən aşağı olması halında birbaşa, müstəqim qaydada ödənişlərin edilməsinin mümkünlüyü;

3. mal-qara sayında öncədən müəyyən edilən say sərhəddinin keçilməməsi halında dövlət yardımı formasında birbaşa ödənişlərinin edilməsi və s.

Onu da demək yerinə düşər ki, "mavi zənbil" tədbirlərinin əsas məqsədlərindən biri kimi təklifin tələbi üstələməsi halında aqrar məhsulların qiymətlərinin enməsinin qarşısını almaqdan ibarətdir və "istehsalçı qiymətlərinə" üstünlüyün verilməsi siyasətinin bir hissəsidir.

Yuxarıda nəzərdən keçirilən, beynəlxaq təcrübədə istifadə olunan tədbirlərin araşdırılması onu göstərir ki, haliyədə də bir çox ölkələr (ABŞ və digərləri) "sarı zənbil" tədbirlərinin yuxarı hədd səviyyələrinin (5% və 10%) yüksəldilməsi və ya tamamilə aradan qaldırılması yönündə işlər görməkdədirlər. Təhlillər göstərir ki, müasir dövrdə dünyada mövcud olan iqtisadi problemlər aqrar sahədən də kənar keçməmiş, onun dirçəlişi və yeni inkişaf fazalarına mane olmaqdadır. Danılmazdır ki, "yaşıl zənbil" tədbirləri inkişaf etməkdə olan ölkələr üçün özünün qaneedici təsirlərini tam ifadə edə bilmir. Belə olduqda, "sarı zənbil" tədbirlərinin "minimal" həcmlərindən istifadənin əsaslandırılmasına ehtiyac yaranır. Vəziyyətin qeyd olunan məcrada davamının qarşısının alınması məqsədilə inkişaf etmiş ölkələrin təcrübəsindən və UNCTAD tərəfindən hazırlanmış metodiki göstərişlərdən istifadə olunması çıxış yollarından biri kimi qiymətləndirilməlidir. Həmin metodiki göstəriş və tövsiyyələr mövcud olmuş təcrübi məlumatların əsasında hazırlanmış və ÜTT-nin tələbləri ilə uyğunlaşdırılmışdır. Beynəlxalq arenada (xüsusilə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri əhatə edən ölkələri əhatə edən) mövcud olan ümumi tənzimləmə qayda, prinsip və metodları ilə yanaşı ayrı-ayrı ölkələrin timsalında istifadə olunan təcrübələrin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ilk növbədə bir sıra inkişaf etmiş ölkələrin təcrübələrinə müraciət etmək məqsədəuyğun olardı. Onu da qeyd etmək yerinə düşər ki, beynəlxalq təcrübədə aparılan tənzimləmə siyasətində əsasən iki yolun müddəalarına müraciət olunmuşdur:

1. tədricən həyata keçirilməsi ilə seçilən yol - təkamül yolunda birinci addım kimi aqrar sahədə islahatların aparılması çıxış edir. O, uzun illərdən bəri mövcud omuş istehsal-satış adət-ənənələrinin bərpasına, müvafiq sahənin mərhələlər üzrə inkişafına təkan verir.

2. "şok-terapiyası" əsasında aparılan tənzimləmə siyasəti. Onun seçilməsi məcburi variant kimi qiymətləndirir, məhsul qıtlığının, maliyyə çatışmazlıqlarının kiçik zaman kəsiklərində aradan qaldırılması məqsədlərinə xidmət edir.

Müxtəlif zənbillərin tətbiqi özünü nəticə etibarı ilə istehsal olunmuş və reallaşdırılmış məhsul həcmində ifadə etməlidir. Bu zaman tənzimləmə baxımında görüləcək işlər sırasında bazar çatışmazlıqlarının qiymətləndirilməsi və həyata keçiriləcək iqtisadi siyasətin səmərəliliyi ön plana çıxır. Birinci məsələ ilə bağlı kiçik sayda satıcıların (inhisarçılıq) və ya alıcıların (monopsoniya) hallarının qiymətləndirilməsi məsələsi öz aktuallığını qorumaqdadır. Bu halda xammalın, və ya hazır məhsulun qiyməti beynəlxalq qiymətlərlə müqayisədə aşağı olur ki, bu da son nəticədə dolayı subsidiyadan xəbər verir. Digər tərəfdən, bazar çatışmazlıqları sırasında informasiya sistemlərinin və ictimai xidmətlərin (yol təsərrüfatının zəif inkişafı, sosial obyektlərin azlığı və s.) vəziyyətinin qənaətbəxş olmaması da göstərilə bilər. Müraciət olunan çatışmazlıq istiqamətləri ilə yanaşı beynəlxalq təcrübədə daxili bazarın qorunması, daxildəki hasilatçılar üçün vergilərin azaldılması, onlara xammal, material, qiymət və digər subsidiyaların verilməsi, minimal qiymətlərin təyin edilməsi də çatışmazlıqlar sırasında qiymətləndirilir. Həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi beynəlxalq təcrübədə ilk növbədə daxili qiymətlərin beynəlxalq paritet qiymətlərə yaxınlaşma dərəcəsi ilə müəyyən olunur. Səmərəli siyasət vasitəsilə ölkələrin hökümətlərinin tənzimləmədə yarana biləcək mənfi meyllərin qarşısını nə dərəcədə alması ölçülür. Bu zaman Siyasət Təhlili Matrisindən istifadə etməklə hesablanan göstəricilər əsasında iqtisadi siyasətin aqrar sahəyə hansı aspektlərdə təsir etdiyi müəyyənləşə bilər. Bu zaman:

- ✓ daxili bazarın qorunmasını ifadə edən ilkin Nominal Müdafiə Əmsalı (Nominal Protection Coefficient, NPC_I – satıla bilən istehsal vasitələrinin sosial qiymətlərlə dəyərinin satıla bilən istehsal vasitələrinin faktiki qiymətlərlə dəyərinə olan nisbətindən ibarətdir),
- ✓ son məhsul üçün Nominal Müdafiə Əmsalından (NPC_O – son məhsulun faktiki qiymətlərlə dəyərinin son məhsulun sosial qiymətlərlə dəyərinə olan nisbətindən ibarətdir),

✓ Səmərəli Müdafiə Əmsalından (Effective Protection Coefficient, EPC) və digər əmsallardan istifadə oluna bilər.

Bu göstəricilər sırasında özünün əhəmiyyəti ilə seçilənlərdən biri də rəqabətqabiliyyətlilikdir. Bu istiqamətdə ifadə edilmiş çoxsaylı fikir və düşüncələrə də lazımi diqqəti göstərmək şərtilə ilk növbədə M.Potter tərəfindən 1993-cü ildə irəli sürülən, özünün sistemliliyi, əhatəliliyi və kompleksliliyi ilə seçilən konsepsiyaya müraciət etməyimiz daha məqsədəuyğun olardı. Mikro, makro və mezo səviyyədə rəqabətqabiliyyətliliyin tədqiqi ifadə edilən bu konsepsiya on ölkə timsalında sınaqdan keçirilmiş, yüzdən artıq sahə və yarımsahəni araşdırma obyekti kimi nəzərdən keçirmişdir. Tədqiqatın ilk nəticəsi istənilən ölkədə yaradılan fəaliyyət mühitini ön plana çəkir və istehsal amilləri, daxili bazardakı tələbin xarakteri, aqrar subyektlərin qarşılıqlı əlaqədə fəaliyyət göstərən sahə və subyektlərin inkişafı, ölkədə idarəetmə və rəqabətin təkamül səviyyəsi, ölkənin həyata keçirdiyi iqtisadi siyasətin spesifikası kimi maddələrin tələblərinə hansı səviyyədə əməl olunmasında asılılığı ifadə edir. Rəqabətqabiliyyətliliyin determinatlarının (Porterin "rombunun") yer aldığı bu konsepsiyada əsas üstünlüyün ilk növbədə ölkədə yaradılan işgüzar mühitə və daxili bazarda rəqabətin xarakterinə verilməsi daha yüksək nəticələrin əldə olunması baxımından anlaşılandır.

Müraciət etdiyimiz ölkələr sırasında öncül yerləri ABŞ, Rusiya, Macarıstan, Kanada, Meksika və Polşa tutur. Onlar yerli imkanları, aqrar sektorun inkişaf səviyyəsini, onun maliyyə təminatını və digər aparıcı şərtləri nəzərə almaqla özünəməxsus tənzimləmə siyasət həyata keçirməkdədirlər.

Dünya aparıcı "nəhənglərindən" olan ABŞ özünün aqrar sektorunda dövlətin dəsək sisteminin bir çox istiqamətlərini bibaşa və ya dolayısı ilə qorumaqdadır. Əsas məqsədin aqrar sektorun davam inkişafı olan bu ölkədə işlənilən tarazlıyıcı mexanizmlər üzrə vahid startegiyanın hazırlanması, bu təməl üzərində müxtəlif təyinata malik qanunların işlənilməsi aqrar sferada daha yüksək işgüzar mühitin formalaşmasını sövq edir. Hazırlanmış federal və ştat qanunlarının bir tərəfdən makrosəviyyədə (təminatın yaxşılaşdırılması, dövlət satınalmalarının təşkili və s.) işlərin görülməsinə icazə verməsi, digər tərəfdən mikrosəviyyədə öz ifadəsin tapan göstəricilərin (istehsal həcminin artırılması, məhsuldarlığın yüksəlməsi və s.) müsbət dinamika üzrə irəliləməsinə şərait yaradır. Bu qanunlar, proqramlar və tənzimləyici normalar sırasında "ABŞ-da aqrar istehsalçıların maliyyə təminatı və onun yüksəldilməsi haqqında" Dövlət Proqramı (1999), "Fyuçers əməliyyatları haqqında" Federal Qanun (2012), "ABŞ-da heyvandarlığın inkişafı üzrə" Dövlət Proqramı (2003), "Kənd təsərrüfatı istehsalçıları üzrə hesablaşma əməliyyatlarının təkmilləşdirilməsi" Federal Qanunu (2003), "Kənd təsərrüfatı məhsullarının dövlət satınalmalarının həyata keçirilməsi üzrə" Qaydalar (2011), "İstehsalların məhsuldarlıq göstəricilərinin hesablanması metodologiyasının təkmilləşdirilməsi üzrə" Metodiki Tövsiyyələr (2008) və digər hüquqi-normativ aktlar, təklif və tövsiyyə xarakterli sənədlər nümunə olaraq göstərilə bilər.

Onların tətbiqi, digər izahatverici və təşkilati addımların atılması bu ölkədə "sarı zənbil" tədbirlər səviyyəsini icazə verilən 5%-lik həddən 12%-lik həddə qaldırmışdır ("əlverişli olmayan region", "əlverişli olmayan struktur" və digər oxşar maddələri əsas gətirməklə). Digər tərəfdən, dövlət səviyyəsində səmərəli mikromaliyyələşdirmənin təşkili aqrar istehsalçıların tələbatlarının ödənilməsində, onların istehsal imkanlarının və nəticələrinin yüksəldilməsində mühüm rol oynamışdır. Əsas fondlar istehsalçılarına "kreditlə satış sistemnin" tətbiqinə icazə verilməsi (1958) və bu şəbəkənin ölkənin aparıcı şirkətləri tərəfindən onun demək olar ki, bütün ştatlarında qurulması aqrar istehsalçıların işini bir az da asanlaşdırır.

Macarıstanda istifadə olunan tənzimləyici addımlar əsas etibarı ilə "üfuqi" istiqamətdə inkişaf etmişdir. Belə ki, "minimal kriteriya" nəzərə alınmaqla görülən işlər daxili yardım quruluşunda 61% təşkil etmişdir. Bu ölkədə aqrar sahəni də əhatə edən "Orta və kiçik sahibkarlıq subyektlərinə dövlət təstəyi " Proqramı (1995) özündə hər bir fəaliyyət subyektinə aidiyyatı ilə seçilən zəruri tələbləri əks etdirir ki, bəhs olunan məsələlər də dövlətin bəhs olunan istiqamətdə startegiyasının müəyyənləşməsinin əsasını təşkil etmişdir. Bununla yanaşı, aqrar sahənin vahid sistemi təşkil etdiyi ölkə iqtisadiyyatı sahəsində qəbul olunan qanunlar tənzimləmənin tələblərə uyğun səviyyəyə qaldırılmasına, onun liberal iqtisadi təməllərə mane olmamasına şərait yaratmışdır. Nəticə etibarı ilə aqrar sahə son üç ildə orta hesabla 5,8%-lik nəticə ilə irəliləmişdir.

Aqrar istehsalı əsasən kiçik sahibkarlıq subyektləri üzərində qurulan (subyektlərin ümumi

həcmində 78,2%) Rusiyada tənzimləyici addımlar sırasında istər ümumilikdə kənd təsərrüfatı, istərsə də onun ayrı-ayrı sahələri üzrə qəbul olunan xüsusi Dövlət Proqramlarının, özünün birbaşa və dolayı aidiyyatı ilə seçilən digər səviyyəli hüquqi-normativ aktlarının rolu öz əhəmiyyətliliyi uzun illərdən bəri qorumaqdadır. Müvafiq Proqramlar sırasında "Kiçik sahibkarlığa yardım" Dövlət Proqramları (Государственная Программа «Помощи малому предпринимательству»" – 2001, 2013), "Kənd təsərrüfatının inkişafı üzrə" Dövlət Proqramı (Государственная Программа «По развитию сельского хозяйства» - 2005) və digər sahədaxili istiqamətləri əhatə edən, tənzimləmə xarakterinə malik proqramlar və digər hüquqi-normaitv sənədlər göstərilə bilər. Ölkədə aqrar sahənin təkamül yolu ilə (tədricən) inkişafına üstünlük verilmişdir. Bu baxımdan kəskin tənzimləyici addımlara yol verilməmək şərtilə dövlət tərəfində kənd təsərrüfat sahəsi ilə əlaqəli monitorinqlərin aparılması, toplanan məlumatların ümumiləşdirilməsi və bu əsasda tənzimləmə isiiqamətləri və addımlarının seçilməsi praktikasından istifadə olunmaqdadır.

Rusiyada tətbiq olunan dövlət dəstəri həcmləri taxılçılıqda 21,4%-dən heyvandarlığın bəzi istiqamətlərindəki 31,6%-dək tərəddüd edir. Bu ölkə özünün tənzimləmə siyasətində beynəlxalq arenada mövcud olan, demək olar ki, heç bir məhdudlaşdırıcı aktın kəmiyyətlərinə məhəl qoymayaraq, real ehtiyacların qiymətləndirilməsi və onların optial qaydada aradan qaldırılması tədbirlərini icra etməkdədir. Deyilənlər Rusiyada son beş ildə aqrar istehsal səviyyəsinin ayrı-ayrı istiqamətlər üzrə 4,7%- 23,1% arasında artımına səbəb olmuşdur.

Dünya ölkələri sırasında aqrar sahə istehsalında (xüsusilə də taxılçılıqda) liderlərdən hesab olunan Kanada özünün "sarı zənbil" tədbirləri çərçivəsində dövlət dəstəyinə meylli olmadığı ilə seçilir (19%). Bu ölkənin tənzimləyici siyasətində üstünlük "yaşıl zənbil" tədbirlərinə (51%) və "minimum kriteriyaya" uyğun tədbirlərə (30%) verilmişdir. Müvafiq mənzərə aqrar sahibkarlara minimal (zəruri) istehsal şərtlərinin və bir çox qeyri-istehsal imkanlarının (infrastruktur, marketinq və s.) yaradılması əsasında sahibkarlığın inkişafına yol açır. Yəni, sahibkarların yüksək həcmli dövlət dəstəyinə arxayın olmaması, öz imkanları, işgüzarlığı əsasında iqtisadi cəhətdən güclənməsi ölkənin tənzimləmə siyasətində seçilən prioritetlərdən hesab olunur. Zəruri qanunvericilik bazasının mütəmadi təkmilləşdirilməsi, aqrar fəaliyyətin ayrı-ayrı istiqamətlərini (xüsusilə taxılçılıq və maldarlıq üzrə) əhatə edən proqramların qəbulu bu işlərə öz müsbət təsirini göstərməkdədir.

Aqrar sahədə özünəməxsus inkişaf yolunu seçmiş və bizim üçün də xüsusi maraq kəsb edən ölkələrdən biri də Meksika hesab olunur. Bu ölkədə müxtəlif zənbilləri əhatə edən tədbirlərlə yanaşı, inkişaf etmiş ölkələr üçün nəzərdə tutulan xüsusi proqramlardan da (dövlət dəstəyinin ümumi strukturunda 24%-lik payla) məharətlə istifadə edilmişdir. İqtisadiyyatı nisbi zəif artım templərinə malik bu ölkə xüsusi proqramlar çərçivəsində dövlət yardımı formasında aqrar sahənin bir sıra istiqamətlərində (meyvəçilik, xirda buynuzlu heyvandarlıq, quşçuluq və s.) təməlli işlərin həyata keçirilməsinə nail olmuşdur. Bu ölkədə "yazıl zənbil" tədbirlərinin ardıcıllığı da (ümumi dəstək həcmində 60%-lik payla) onun aqrar sektorunun 1996-2006-cı illərdə 8%-lik artımına şərait yaratmışdır. İstehsal olunmuş məhsulların son istehlakçılara birbaşa və ya dolayısı ilə çatdırılması işlərində müəyyən sistemin formalaşdırılması (elektron ticarət, qapıda təslimat, son istehlakçıya çatdırılma və s.) aqrar istehsalçıların maddi maraqlarının artırılması ilə yekunlaşmış, onların istehsallarının genişlənməsinə imkan vermişdir.

Ümumi iqtisadi sisteminə, o cümlədən aqrar sektoruna xüsusi tənzimləmə sistemini – "şok terapiyasını" tətbiq edən Polşanın təcrübəsi də xüsusi marağa səbəb olmaqdadır. Keçən əsrin 90-cı illərinin birinci yarısında kifayət qədər iqtisadi çətinliklərlə üzləşən bu ölkə çıxış yolunu təkamül formalı inkişafı kənarlaşdırmaqla, daha qısa dövrdə çatışmazlıq və mərhumiyyətləri arxada qoymaqda gördü. Keçmiş Sovet "düşərgəsinin" dağılması, yeni sistem və əlaqələrin formalaşması belə vəziyyətin formalaşmasında həlledici rola malik idi. Vəziyyətin belə məcrada dəyişməsi Polşada 1995-1997-ci ildə qəti addımların atılmasına sövq etdi. Bu ölkə özünün sonrakı inkişafında cəmi 11%-lik həcmdə "sarı zənbil" tədbirlərindən istifadəyə qərar verdi. Cəmi tədbirlərin 89%-lik həcmi isə "yaşıl tədbirlərin" öhdəsinə buraxıldı. Bu ölkədə öncül addımlar kimi, istisadiyyatın liberallaşması əsasında sahibkarlığa tanınan azad fəaliyyət hüququnun tanınması, istehsal proseslərinin təşkilinə metodiki və metodoloji cəhətdən yardımların göstərilməsi, hasil edilmiş məhsulların satışının təşkili,

infrastruktur istiqamətləri üzrə sistemli tənzimlətici və təşkilati addımların atılması, gəlirlərin sığortalanması proqramlarının hazırlanması, müxtəlif investisiya tutumlu və digər proqramların hazırlanması olmuşdur. Nəticə etibarı ilə Polşa qəbul edilmiş kursdan cəmi 3 il keçməsinə baxmayaraq artıq bir çox fəaliyyət sahələrində "Sovet dönəminin" göstəricilərini üstələyəcək səviyyədə istehsala malik idi. Həmin illərlə müqayisədə haliyədə bu ölkə aqrar sahənin ayrı-ayrı sahələrində 3,1 dəfədən 29,6 dəfəyədək olan artımları nümayiş etdirməkdədir.

Beynəlxalq təcrübə üzrə sadalanan istər ümumi, istərsə də ayrı-ayrı ölkələrin timsallarındakı məlumatlar aqrar sahənin tənzimlənməsində bir tərəfdən makrosəviyyədə, digər tərəfdən isə mikroəhəmiyyətli addımların spesifkliyi ilə maraq doğurur. Düşünürük ki, nəzərdən keçirdiyimiz ölkələr sırasında Macarıstanın, Kanadanın, Meksikanın və Rusiyanın təcrübələrinə müraciət olunması daha məqsədəuyğundur. Belə ki, bəhs olunan ölkələrin aqrar sferasının inkişaf meyli və şəraiti ölkəmizlə müəyyən oxşarlıqlara malikdir. Sahəvi tənzimləmədə təkamül yolunu seçən respublikamızda belə beynəlxalq təcrübələr nəzərə alınmaqla müvafiq addımların atılması daha yaxşı, məhsuldar nəticələrlə özünü təzahür edə bilər.

ƏDƏBİYYAT

1 1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29.12.2012
2. 2. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan, Əcəmi, 2016, 344s.
3. 3. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
4. 4. Ölkənin əsas makroiqtisadi göstəriciləri. AR Maliyyə Nazirliyi http://www.maliyye.gov.az./node 940
5. 5. Sərdarov T.Ə. Azərbaycan Respublikasında regionların sosial infrastrukturunun tənzimlənməsi problemləri: monoqrafiya. Bakı: Elm, 2010, 311s.
6. 6. Statistik nəşrlər və onların elektron versiyası. http://www.stat.gov.az/ menu/6/ statistical_yearbooks
7 7. Бабашкина А.М. Вопросы регулирования аграрной сферы. М: ЮНИТИ, 2008, 537с.
8. 8. Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629с.
9. 9. Кругмен П.Р., Обстфельд М.М. Международная экономика. 4-ое издание. М.: ЮНИТИ, 2014, 769с.
1. 10. Малыш М.Н. Государственное регулирование экономики. СПб: Hayka, 2010, 499с.

ABSTRACT

Hasan Abbasov

İNTERNATIONAL EXPERIENCE OF AGRICULTURAL REGULATION OF ECONOMIC INSTRUMENTS PLANNING AND FORECASTING OF ITS INTRA - COUNTRY USE

The article provides a systematic approach to the agricultural sector, Whish plays an important role in the good supply of the country, the continuous fuctioning of the processing industry. Mean while, Regulatory arrangements keep their importance.

The regulatory activity of the agrarian sector throughout the country combines numerous sources one of which is the application of progressive steps based on international experience.

Referring to the examples of Norway, USA, Canada, Poland and other countries related to the subjest matter.

The application of various "baskets" is crucial in regulating measures that have been established in international practice. These baskets, eachrepresenting different "modules" are embodied by their specific content and application of yellow green and blue

The matter is based on a number of leading economic factors and equipments. The goods' production, its quality dimensions, competitiveness, and other similar elements play an important role in its planning and predicting processes for the next stages.

By studying international practice, it have to be met with real-life conditions in the country as a whole, including in different regions. This will allow, first of all, to identify the extent to which the countries of the studying countries are able to cope with the outcomes accomplished in this area.

РЕЗЮМЕ

Гасан Аббасов

МЕЖДУНАРОДНАЯ ПРАКТИКА РЕГУЛИРОВАНИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА ЭКОНОМИЧЕСКИМИ СРЕДСТВАМИ, ПЛАНИРОВАНИЕ И ПРОГНОЗИРОВАНИЕ ЕГО ВНУТРИГОСУДАРСТВЕННОГО ИСПОЛЬЗОВАНИЯ

В статье обеспечено системное отношение к сельскому хозяйству, играющему важную роль как в погашении потребностей, так и в организации бесперерывной деятельности перерабатывающих отраслей. В этом ряду регулировочные мероприятия сохраняют свою значимость.

Проводимая в аграрной отрасли страны регулировочная деятельность воплощает в себе совокупность многочмсленных источников, среди которых одним из важных является применение усовершенствованных «шагов», основанных на мировой практике. В статье в связи с изучением соответствующей темы рассмотрены информационные источники таких стран как США, Мексика, Канада, Норвегия, Польша и другие.

В числе наиболее используемых регулировочных мероприятий применение различных «корзин» обладает большой значимостью. Являющиеся различными «модулями» виды этих корзин подразделяются на желтый, зеленый и голубой, они также отличаются своеобразной сущностью и условиями применения.

В статье широко повествуется о некоторых ведуших экономических факторах и средствах. Основанность исследования на таких элементах как производство продукции, его качественные характеристики, конкурентоспособность и др. Играют важную роль в процессах планирования и прогнозирования на следующих стадиях.

Также отмечается необходимость сопоставления между полученными информациями между изучением международной практики регулирования и условиями их реального применения как в общегосударственном, так и региональном масштабах. Это в первую очередь наряду с изучением практики различных стран, с их полученными результатами позволит уточнить их соответствие потребностям применения их в нашей стране.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

BƏHRİYYƏ ABBASOVA
Naxçıvan Dövlət Universiteti

UOT:339.9

QLOBAL İQTİSADİ PROBLEMLƏR VƏ QLOBAL MALİYYƏ BÖHRANI

Açar sözlər: *qlobal iqtisadi problemlər, ekologiya, ərzaq təhlükəsizliyi, Dünya Bankı, qlobal maliyyə böhranı, Beynəlxalq Valyuta Fondu, kredit, investisiya*

Key words: *global economical problems, ecology, the security of the food. World Bank, International Exchance Ford, credit, investigation*

Ключевые слова: *глобальные экономические проблемы, экология, продовольственная безопасность, Мировой Банк, глобальный финансовый кризис, Международный Валютный Фонд, кредит, инвестиция*

Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir.

Qlobal iqtisadi problemlər bu və ya digər mənada daha geniş miqyasa malik olduğu və qrup dövlətləri, regionları, eləcə də bütün dünyanı əhatə etdiyi üçün bu problemlərin həlli bütün beynəlxalq aləmi maraqlandırır. Bu mənada həmin problemlərin həllində beynəlxalq ictimai-iqtisadi münasibətlərin səviyyəsi böyük rol oynamışdır. Qlobal problemlər bütün bəşəriyyətin, ölkələrin, xalqların mənafeyinə toxunur, səviyyələşməni məhv etmək təhlükəsini doğurur. Hazırki dövrdə qlobal problemlərin bir neçə fərziyyələri mövcuddur. Bunlardan ikisi əsasdır:

1. Bədbin fərziyəyə əsasən qlobal ərzaq ehtiyyatı problemi və ekoloji problemlər XXI əsrin ortalarında baş verə bilər.
2. Nikbin fərziyəyə əsasən isə insan cəmiyyətinin sülh və elmi-texniki şəraitində artıq əhali sıxlığından yaranan ehtiyyat və ətraf mühitin çirklənməsi problemləri və.s. insanların məhvinə səbəb ola bilməz. [1]

Qlobal problemlər, həqiqətən də, ümumplanetar, dünyəvi mahiyyət kəsb etməklə, yer üzərindəki bütün insanların həyat fəaliyyətinə toxunur. İctimai elmlər özləri də ümumləşən planetar proseslərin möhkəm təsiri altında gedir. Qlobal problemlər əgər onların həlli tapılmasa, bəşəriyyəti çox qorxudur, hətta həyatın və sivilizasiyanın məhvinə səbəb ola bilər.[4]

Əsas qlobal problemlərə aşağıdakılar aiddir:

Müharibə və sülh problemi; ekoloji, demokrafik, enerji, xammal, ərzaq, dünya okeanının ehtiyyatlarının istifadəsi və kosmik məkanın kəşfi problemləri. Qlobal problemlərin müasir təsnifatı 1980-cı illərdə təşəkkül tapmışdır. Qlobal problemlər bir-biri ilə qarşılıqlı təsirdədir, məsələn, enerji və xammal problemləri ekoloji problemlə, ekoloji problem demoqrafik problemlə, demokratik isə ərzaq problemi ilə sıx əlaqədədir. İlk əvvəl qlobal problemlərin meydana çıxması kapitalizmin ziddiyyətlərinin nəticəsi kimi qiymətləndirilirdi. İndi bu proseslər sivilizasiya yanaşmasından izah edilir. Hal-hazırda tədqiqatçılar arasındakı ən ümumi problemləri qeyd edirlər:

-siyasi və sosial-iqtisadi problemlər (nüvə müharibəsinin qarşısının alınması, dünya birliyinin davamlı inkişafı problemi);

-təbii-iqtisadi inkişafla bağlı olan problemlər (ekoloji, enerji, xammal, ərzaq, dünya okeanı problemlər);

-sosial problemlər (demoqrafik, millətlərarası, mədəni, səhiyyə problemləri);

-insanların kütləvi məhvinə gətirib çıxaran qarışıq problemlər (hərbi regional münaqişələr, cinayətkarlıq, texnoloji qəzalar, təbii fəlakətlər);

-elmi problemlər (kosmik məkanın kəşfi, müxtəlif sahələrdə uzunmüddətli proqnozlaşdırma problemləri).

Beləliklə əsas qlobal problemlərin təsnifləşdirilməsində müəyyən irəliləyişlər müşahidə olunur. Bəzi müəlliflər belə hesab edirlər ki, qlobal problemlərin arasında birinci yerdə əvvəllər də olduğu kimi, nüvə müharibəsinin qarşısının alınması durur. Digərləri birinciliyə ekoloji problemə, üçüncüləri isə demoqrafik ərzaq və ya bəzi ölkələrin geridəqalma probleminin aradan qaldırılmasına verirlər. Görünür, bu problemlərin hər birini prioritet problem adlandırmaq olar, çünki qlobal problemlər sağ qalıb-qalmaması məsələsinə toxunur. Onlar müxtəlif amillərin, və ilk növbədə təsərrüfat həyatının beynəlmiləşməsi proseslərinin nəticəsi olmuşdur.

Ən mühüm qlobal iqtisadi problemlərdən biri ərzaq problemidir. Ərzaq təhlükəsizliyi problemi fərdi səviyyədə səmərəli həll oluna bilməz. Müasir dövrdə ərzaq məhsullarının keyfiyyəti, ekoloji təhlükəsizliyə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Müasir texnologiyanın geniş miqyaslı tətbiqi, kütləvi informasiya vasitələrinin inhisarlaşması, yüksək gəlir əldə etmək cəhdi, ilk növbədə, insanların təhlükəsizliyi, sağlamlığı deyil, məhz kapitalın maraqlarını əks etdirir, bu maraqlardan doğan tələblər cavab verir.[2]

Bəşəriyyətin qarşısında duran ən kəskin qlobal problemlərdən biri müharibə və sülh problemidir. Dövlətlər arasında meharibələr min illər boyu davam etmişdir. Dünyada baş verən müharibələrin tarixi, məhv olmuş insanlar, dağılmış kənd və şəhərlər, cəmiyyətə dəymiş iqtisadi ziyan bunların statistikası hamıya məlumdur.

Hazırda Ermənistanın Azərbaycana qarşı apardığı müharibə təcavüzkar xarakter daşıyır, özgə torpaqlarını ələ keçirmək, yeraltı və yerüstü sərvətlərini mənimsəməyə xidmət edir.

Müharibə bəşəriyyətin əsas qlobal problemi kimi, qalmaqdadır ki, onların da əsasını dövlətlərin arasındakı münaqişələr təşkil edir.

Ekoloji problem də mühüm qlobal problemlərdən biridir. Təbiətlə insan arasında gərginliyin artmasına təzahür edən ekoloji böhran məhsildar qüvvələrin və istehsal münasibətlərinin imkişafının biosferanın resurs bioloji imkanlarına uyğun gəlməsi, insanın təbiətə təsirinin güclənməsi və təbiətin ictimai inkişafa təsirinin genişlənməsi ilə səciyyələnir.

Qeyd edək ki, XXI əsrin əvvəllərindən başlayaraq dünya iqtisadiyyatında qlobal maliyyə böhranı baş vermişdir. Qlobal maliyyə böhranı maliyyə iqtisadi böhranında olan yoxsul ölkələr istisna olmaqla təcrübi olaraq dünyanın bütün ölkələrinə toxunmuş və daha da toxunacaqdır. Qlobal maliyyə böhranı daşınmaz əmlak və ərzağın qiymətinin artması, həm kommersiya, həm də dövlət təşkilatlarında iş yerlərinin ixtisarı, sabitliyin olmaması və gələcəyə inamın itməsi ilə meydana çıxır.

2015-ci ilin əvvəlində beynəlxalq iqtisadi təşkilatların çoxu, o cümlədən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı qlobal iqtisadi prosesləri araşdırmaları əsasında belə qərarara gəldilər ki, qlobal iqtisadi böhran daha da dərinləşəcək. Ekspertlərin proqnozuna görə, yeni iqtisadi böhranın 2015-ci ilin yazından başlanması gözlənilirdi. Əslində, dünyada iqtisadi sabitliyi pozan bir çox problemlər toplanmışdır. Bu problemlərə çoxsaylı etnik münaqişələri, Ukrayna münaqişəsini, Suriya və İraq hakimiyyət bölüşdürülməsi kimi geosiyasi məsələləri aid etmək olar. Bu amillər bütövlükdə dünya iqtisadiyyatına təsir göstərən amillərdir.[5]

Bundan başqa dünya ölkələrində, onların qeyri-bərabər inkişafına təsir göstərən birbaşa amillər də vardır. Bu amillərə fond bazarında kiçik köpüklərin əsassız şəkildə şişirdilməsini, enerji sektorunda artan böhranı, bir çox ölkələrdə əhalinin kütləvi yoxsullaşmasını aid etmək olar. Bu dünya ölkələrinin əksəriyyətinə aiddir. İstehsalın azalması öz ardınca infilyasiya gətirir. Bu zəncirvari reaksiya 2015-ci ildə qlobal iqtisadi böhranı şərtləndirdi. 2015-ci ildə dünya iqtisadiyyatında qeyri-sabitlik Çinin iqtisadi artım sürətinin geriləməsi və fond birjalarındakı tələtümlərə, xammal məhsullarına, o cümlədən neft və neft məhsullarının qiymətlərinin enməsi ilə yadda qaldı. 2015-ci ilin ötən dövründə BVF növbəti dəfə iqtisadi artım proqnozunu aşağı saldı. BVF-nun məlumatına görə 2015-ci ildə dünya ölkələri üzrə iqtisadi artım tempi 3,3% olmuşdur. 2016-cı ildə isə 3.8 % olacağı proqnozlaşdırılır. BVF-nun 2016-cı il üçün qlobal ÜDM-in artım tempi 3,8% proqnozlaşdırsa da bu göstərici inkişaf etmiş ölkələrdə inkişaf etməkdə olan ölkələrə nisbətən aşağı olacağı gözlənilir. Avrozonada iqtisadi artım 1,7%, MDB ölkələri üzrə 0,3% Çin üçün isə 6,3% proqnozlaşdırılır. Qlobal iqtisadi böhrandan çıxa bilmir. Neft qiymətlərinin kəskin aşağı düşməsi, xüsusilə büdcəsi ondan asılı olan inkişaf etməkdə olan ölkələrə mənfi təsir edib. Bu ölkələr sırasında Qazaxıstan, Rusiya, Azərbaycan və digər ölkələr vardır. [9]

Ümumiyyətlə, qlobal maliyyə böhranının dərinləşməsi milli səviyyədə iqtisadi tənzimləmələrin səmərəsini azaltmış və dövlətlərüstü tənzimləmə orqanlarının yaradılması zərurətini doğurmuşdur. Qlobal maliyyə böhranının təsirlərini minimallaşdırmaq üçün beynəlxalq maliyyə-kredit təşkilatlarının rolu çoxdur. Beynəlxalq maliyyə-iqtisadi təşkilatları tərəfindən həyata keçirilən çoxtərəfli tənzimləmələrin inkişafı istiqamətləri həmin məsələlərdə iştirak edən dövlətlərin konkret maraqlarından, milli dövlətlərin həyata keçirdiyi siyasətdən asılıdır. [6]

Kifayət qədər kapitala malik olan Dünya Bankı qrupu qloballaşmanın inkişafı və maliyyə böhranının dünya qarşısında qoyduğu qlobal məsələlərin həllində aparıcı rol oynamağa qadirdir. Bu təşkilat öz fəaliyyətini qlobal miqyasda, dövlət və özəl sektorla əməkdaşlıq ilə zəruri bilik və təcrübəyə malik dövlət və sektorlarda, orta və aşağı gəlir səviyyəli ölkələrlə həyata keçirir. O inkişaf sahəsində aparıcı beynəlxalq təcrübə məsələləri üzrə daima təkmilləşən informasiyaya malikdir; onun sərəncamında risk və bank fəaliyyətinin idarə edilməsi sahələrində dünya təcrübəli mütəxəssislər, eləcə də, əlavə maliyyə resurslarının cəlb edilməsi üzrə imkanlar vardır. Ehtimal ki, DB qrupunun postböhran dövründə rolu dörd əsas amillə müəyyən olunur:

Birinci müəyyənedici amil inkişaf prosesinin ənənəvi və innovasiya maliyyələşdirilməsidir. DB-nun müştəriləri maraqlıdır ki, böhran başa çatan zaman bu təşkilat kifayət qədər kapitala malik olsun və qlobal iqtisadiyyatın inkişafına, yoxsulluq səviyyəsinin azaldılmasına imkan verən miqyasda maliyyələşdirməni təmin etməyə qabil olsun. [7]

Ikinci müəyyənedici amil-məlumatların genişləndirilməsidir. DB qrupu inkişaf sahəsində qabaqcıl beynəlxalq təcrübə məsələləri üzrə geniş informasiya bazasına, layihə və proqramların həyata keçirilməsi təcrübəsinə, tədqiqat fəaliyyəti ilə təhmi aparılmasına, eləcə də həm fövlət və həm də özəl sektorda resurslara təsir etmək imkanlarına malikdir.

Üçüncü müəyyənedici amil-qlobal ictimai nemətlərin müdafiəsi, yəni iqlim dəyişikliyi və inveksiya xəstəlikləri ilə mübarizə kimi ən mühüm qlobal problemlərin həllidir.

Dördüncü amil-gələcək böhranlardır. Bu gün onların nə vaxt baş verəcəyini qabaqcadan demək çətindir, ancaq bilirik ki, onlar baş verəcəkdir.

Qlobal iqtisadiyyatda baş verən dəyişikliklər nəzərə alınmaqla dünyaya dinamik, çevik məhsul təşkilatlar lazımdır. DB qrupu bundan sonra da öz regitimliyini möhkəmləndirmək, fəaliyyətinin səmərəliliyini və nəticəliliyini yüksəltmək, hesabatlı olmaq, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Valyuta Fondu və digər çoxtərəfli inkişaf bankları, inkişaf sahəsində daha çox çəkidə rol oynayan donorlar, vətəndaş cəmiyyətləri və fondlarla əməkdaşlığı davam etdirmək və dərinləşdirmək niyyətindədir.

ƏDƏBİYYAT

1. Əhmədov M.A. “Qloballaşma və milli iqtisadiyyatın formalaşması” Bakı, Azərnəşr, 2003. səh.520
2. Xəlilov T.A., Zeynalov M.Ə. “Qlobal ekoloji problemlər” Bakı, MBM 2013. səh 212.
3. Qafarov Ş.S. “Müasir iqtisadi sistem və qloballaşma” Bakı, SBŞ 2005.,səh 632.
4. Vəliyev D.Ə. “Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası” Bakı, Adiloğlu, 2008, səh 428
5. Məmmədov M.Q. “Beynəlxalq iqtisadi təşkilatlar” Bakı, CBC, 2008,səh 246
6. Borodilina L.P., Kudryaşova İ.A. “Beynəlxalq iqtisadi təşkilatlar” rus dilindən tərcümə. Bakı İqtisad Universiteti, 2008, səh 213.
7. Kərimov C.Ə “Beynəlxalq iqtisadi təşkilatlar” Bakı Nurlan 2008.,səh 213
8. Sumqayıt Dövlət Universiteti, Elmi əsərlər №2, 2017.,cild 13.,səh 96
9. www.economy.gov.az

ABSTRACT

Bahriyya Abbasova

GLOBAL ECONOMIC PROBLEMS AND GLOBAL FINANCIAL CRISIS

Global economical problems are one of the article thought the people and the daily life. The solution of global economical problems deal with the agriculture life of the society and the ways of life activity of the people. The global economical problems of civilization require the preserving the

environment the using of the natural resources and security of the foods.

Global financial problems of now days, created reasons and problems for disappearing these are taught in this article. For disappearing the global financial economical the role of the international financial credit organization is creatived. In the direction of the disappearing this all word country can use the advices of the global financial economical problems.

The increasing of the international financial credit organization at the same time the increasing of their number are one of the phenomenon of the international development.

РЕЗЮМЕ

Бахрия Аббасова

ГЛОБАЛЬНЫЕ ЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ И ГЛОБАЛЬНЫЙ ФИНАНСОВЫЙ КРИЗИС

Глобальные экономические проблемы-это проблемы, которые предпологают существование, развитие людей их кажднодневную жизнь. Решение глобальных экономических проблем изучает пути улучшения хозяйственной жизни общества и жизнедеятельности людей. Глобальные экономические проблемы цивилизации требуют разработки комплекса мероприятий по защите окружающей среды, правильному и эффективному использованию и восстановлению природных ресурсов, а также обеспечения продовольственной безопасности.

В статье изучены глобальные финансовые кризисы современного периода, причины, побуждающие их и проблемы, возникающие при их устранении. Исследована роль международных финансово-кредитных организаций в устранении глобальных финансово-экономических кризисов. Рекомендации международных финансово-кредитных организаций в направлении устранения глобальных финансово-экономических кризисов могут использовать все страны мира.

Эффективное использование международными финансовыми кредитными организациями своих ресурсов для борьбы с отрицательными результатами регулирования и глобализации мировых кризисных ситуаций должно быть конечной целью этих реформ. Повышение в ощутимой степени активности международных финансово-кредитных организаций, в то же время увеличение в значительной степени их общего количества является одним из привлекающих внимание феноменов современного международного развития.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

SAMİDDİN QASIMOV
Sumqayıt Dövlət Universiteti

UOT:334.75

EV TƏSƏRRÜFATLARININ TƏSNİFLƏŞDİRİLMƏSİNİN SPESİFİK CƏHƏTLƏRİ

Açar sözlər: *iqtisadiyyat, təsərrüfatçılıq subyektləri, ev təsərrüfatları, ev təsərrüfatlarının quruluşu, ev təsərrüfatlarının təsnifləşdirilməsi*

Key words: *economy, subjects of economics, households, structure of households, classification of households*

Ключевые слова: *экономика, субъекты хозяйствования, домашние хозяйства, структура домашних хозяйств, группирование домашних хозяйств*

Azərbaycan Respublikası iqtisadiyyatının tarixi inkişafı, müasir vəziyyəti və perspektiv dövrlər üçün mərhələli şəkildə yaradılan imkanları bu sahədə aparılan siyasətin bariz nümunəsidir. Mütəmadi iqtisadi, hüquqi, təşkilati və digər yenilənmələr kənd təsərrüfatında daha təkmil quruluşların yaranmasına, onların idarəetmə sistemlərinin transfornasiyasına gətirib çıxarır.

Təşkilatlanma forması baxımından iqtisadi təcrübəyə diqqət yetirdikdə, kifayət qədər geniş tərkibə malik quruluşlarla rastlaşmaq mümkündür ki, onlardan biri də ev təsərrüfatlarıdır. Ev təsərrüfatlarının mahiyyətinin və spesifik cəhətlərinin açıqlanması mövcud reallıqlarla yanaşı onun ifadə etdiyi və elmi müstəvidə müxtəlif alimlərin düşüncələrində təsbit olunan məqamları kənarda qalmamalı, fərqli nəzəri cərəyanların baxışları da diqqətə alınmalıdır. Bu baxımdan neoklassiklərin fikirlərində rast gəlinən "ev təsərrüfatları ancaq bir insanın şəxsiyyətilə eyniləşdirilməlidir" müddəası özünəməxsus xüsusiyyətlərlə fərqlənməkdədir. C.K.Helbreyt müvafiq məsələ ilə bağlı yazır: "Ev təsərrüfatının fərqli tələbata, istəklərə malik bir neçə insandan - ərdən, xanımdan, övladlardan, bəzi hallarda isə müxtəlif qohumlardan ibarət olmasına baxmayaraq, bütün neoklassik nəzəriyyə onu fərdin (təsərrüfat başçısının) şəxsiyyəti ilə eyniləşdirməkdədir. Məhz o, xərclərin müxtəlif növlərinə uyğun olaraq əldə olunmuş gəlirlərin bölüşdürülməsini həyata keçirir, onların nisbi bərabərliyinə nəzarət edir. Bu isə tələbatın ödənilməsinin optimal səviyyəsi, yəni istehlakın neoklassik tarazlığı kimi qəbul olunmaqdadır". Amerikan iqtisadçıları B.Q. Lipsiy və P.O. Stayniq qeyd edirlər ki, "tələbat nəzəriyyəsində ailə təsərrüfatını fundamental vahid kimi nəzərdən keçirərək bildirilməlidir ki, müvafiq "quruluşun" ancaq qərarları qəbul edən əsas "vahid" olaraq öyrənilməsi halında ailə münaqişələrinə və uşaqların taleyi üzərində valideyn nəzarətinə aidiyyatı ilə seçilən bir çox maraqlı məsələlər nəzərdən yayınır. Belə ki, ev təsərrüfatları haqda bəhs edən iqtisadçılar əksər hallarda ancaq onların bir qrup şəxs tərəfindən təşkil olunan və icra prosesinə yönələn istehsal-iqtisadi, təşkilatlanma tərəfləri haqqında olan fikirlər üzərində mülahizələrini ifadə edirlər". Digər amerikan alimi D.C.Qerçoni qeyd edir ki, "ailə təsərüfatlarının idarə edilməsi prosesinin müəyyən məqamlarında üzvlər fərdi qaydada, digər üzvlərin fikirlərini nəzərə almadan fəaliyyət göstərirlər ki, bu da daxilən sabit hal kimi qiymətləndirilə bilməz. Təsərrüfatların əksər hissəsi isə üzvləri üçün nəyin mümkün, nəyin isə qadağan olunduğunu müəyyən edən qaydalardan ibarət mürəkkəb sistemlərini hazırlayırlar". Həmin fikri inkişaf etdirən rus alimi V.V.Radayev ifadə edir ki, "adətən iqtisadçı vəziyyətdən ənənəvi çıxış yolu tapır, o bütöv "vahid" kimi çıxış edən ev təsərrüfatını qərarları qəbul edən fərdlə eyniləşdirir. Bununla da ev təsərrüfatının mürəkkəb daxili quruluşu nəzərdən keçirilməkdən kənarlaşdırılır. Bununla belə həmin quruluşda çoxsaylı mürəkkəb problemlər kölgədə qalır ki, onlardan biri də ev təsərrüfatında cinslər arasındakı qarşılıqlı əlaqələrin reallıqları ilə əlaqədardır.

İqtisadi baxımdan ev təsərrüfatlarının yaranması bir sıra məsrəflərin qarşısını almış və ev təsərrüfatının büdcə səmərəliliyini artırmışdır.


Formalaşmasının ilkin mərhələlərindən fərqli olaraq zamanla texnoloji inkişaf, bazar və milli

iqtisadiyyatların təkamülü ev təsərrüfatlarının funksiyalarına məhdudiyyətlər gətirərək, əksər hallarda onları ailənin daxili tələbatlarının ödənilməsi səviyyəsinə endirir, həmin subyektlərdə qadının rolunun minimallaşmasına gətirib çıxarır. M.Andersonun fikrincə, "Bu halda qadın əmtəələrin düşünülmüş əldə olunmasına, onların hazırlanmasına və tərkibinə, ev və digər əmlakın qorunmasına xüsusi diqqət ayırmağa başlayır. O, yaxşı ev sahibinə, daha geniş mənada isə yaxşı ev idarə edəninə çevrilir. Sosial həyat onların bəhs olunan funksiyalarının nümayişində dahiliyinə böyük həcmdə təsir göstərmiş və həmin vəziyyət haliyədə də davam etməkdədir. F. Beçxofer "Cəmiyyətin inkişafı və təsərrüfatların təkamül tarixi" adlı öz elmi əsərində qeyd edir: "Gender mövqelərinin fərqi digər yönlərlə müqayisədə özünü ev təsərrüfatlarındakı vəzifə bölgüsündə daha əyani biruzə verməkdədir. Burada qadınların çiyinlərinə düşən yük daha böyükdür. Biloloji səbəblər ucbatındn qadınlar uşaqlara baxma və onunla əlaqədar öhdəliklərin icrasına daha çox cəlb olunmuşlar ki, bu da onların ailəyə faydalılıq, sağlamlığın qorunması, təhsil səviyyəsinin və işgüzarlığın artırılması və digər əlaqəli parametrlər üzrə "insan kapitalına" qoyuluşlarının səviyyəsinə təsirinin müsbət yöndə artması ilə, onun mümkün maksimallaşması ilə müşayiət olunmaqdadır. Bəhs olunan məsələlər bioloji fərqlərin iqtisadi hərəkətlərlə gücləndirilməsi vəhdətinə dəlalət edir."

Alimlərin ifadə edilən fikirləri və günümüzün reallıqları adı çəkilən təsərrüfatçılıq forması haqqında düşüncələrimizi vahid məcmuda ümumiləşdirməyə və müvafiq nəticələr çıxarmağa imkan verir. İlk növbədə ifadə etmək lazımdır ki, ev təsərrüfatı anlayışı özündə aşağıdakı mühüm parametrləri birləşdirir: 1. təsərrüfatçılıq vahididir; 2. bir və ya daha çox şəxsdən ibarət ola bilər; 3. vahid büdcəyə və yaşayış yerinə malikdir; 4. iqtisadiyyatı resurslarla təmin edir, onlara görə alınan pul vəsaitləri hesabına özü və üzvlərin maddi tələbatını ödəyəcək nemət və xidmətlər əldə etmiş olur.

Bu anlayış özündə bütün istehlakçıları, muzdlu işçiləri, böyük və kiçik həcmlərdə kapitala, torpaq sahələrinə, istehsal vasitələrinə malik sahibkarları, ictimai istehsalda məşğul olan və olmayan şəxsləri vahid məcmuda birləşdirə bilər. Çünki, ev təsərrüfatı özündə ev şəraitində insanlar tərəfindən istifadə olunan əmlakı, pul vəsaitlərini, əmək alətlərini məcmu şəklində ifadə etməklə yanaşı, fərdlərin, ailələrin yaşayış yerləri üzrə baş verən iqtisadi prosesləri əhatə edir. Vurğulamaq yerinə düşər ki, iqtisadi ədəbiyyatlarda ev təsərrüfatları ilə bağlı yanaşmada onların fəaliyyətinin müxtəlif yönlərinə aydınlıq gətirən bir sıra metodoloji üsullardan istifadə olunmaqdadır. Qeyd etmək yerinə düşər ki, iqtisadi vahid kimi ev təsərrüfatı özündə bir və ya bir neçə nəfərdən ibarət məcmunu ifadə etməkdədir. Yəni, onun tərkibi yuxarıda göstərdiyimiz fərqli saylarla müəyyənləşə bilər. Digər tərəfdən, ev təsərrüfatının xarakterizə edilməsində aşağıdakı sxemdə nümunəvi formada sadalanan mühüm keyfiyyət xüsusiyyətləri də öz əksini tapmaqdadır. (sxem 1)

Sxem 1. Ev təsərrüfatlarının xarakterizə edilməsinin keyfiyyət xüsusiyyətləri



Sxem 1 vasitəsilə sadalanan xarakteristikalar ev (ailə) təsərrüfatları haqqında "təməl görünüş"

ifadələrini ortaya qoymaqda, onların yerinə yetirməli olduqları funksional hərəkətlər haqqında düşüncə formalaşdırmaqdadır. Məhz bu elementlər əsasında həmin iqtisadi vahidlərin növbəti tədqiqat pillələrində araşdırmalara cəlb olunacaq cəhətlərinə aydınlıq gətirilir, onların tənzimlənməsi sahəsində atılacaq sonrakı addımlar müəyyənləşdirilir. İlk növbədə qeyd olunmalıdır ki, ev təsərrüfatları adətən ailə bağları ilə seçilən məcmunu ifadə etdiyi üçün, onun çalışmaqda, yeni məhsul yaratmaqda olan üzvləri özünün əmək vərdişlərini nəsildən-nəsilə ötürmək, onları daha yaxşı, müasir dövrün tələbləri ilə uyğunlaşan şəkildə özündən sonrakı davamçılara aşılamaq xüsusiyyəti ilə seçilməkdədir. Bu isə istehsal və təkrar istehsal proseslərində ən vacib amil olan "hasilatçı insanın" öz üzərində işləməklə, özünü daim təkmilləşdirməklə əmək vərdişləri səviyyəsinin kəmiyyət və keyfiyyət ifadələrində yeni dəyər qazandırması, digər tərəfdən isə onları öz övladlarına və ailənin digər üzvlərinə mənimsətməsi yolu ilə mümkündür.

Ev təsərrüfatları adətən, üzvlərinin birgə yaşamaları və öz məişətlərini birgə qurmaları ilə seçilməkdədirlər. Nəzərə alsaq ki, insan iqtisadi "varlıq" olmazdan əvvəl sosial "varlıq" kimi özünü ifadə etməkdədir, onların normal yaşayış, məişət şəraitinin yaradılmasına can atması labüd proses kimi ortaya çıxır. Belə halda onların birgə yaşaması və məişətlərini formalaşdırması sosial ehtiyacların mövcudluğundan irəli gəlir, onların tərkib və səviyyə elementləri haqqında xəbər vermiş olur. Sosial ehtiyacların araşdırılması burada təsir amillərinin qruplaşdırılmasına və onların təsir dərəcələrinin müxtəlif konfiqurasiyalar halında hansı ifadələrlə xarakterizə olunmaları haqqında fikir yaratmaqdadır. Araşdırmaların həyata keçirilməsində bəhs olunan istiqamətdə əsasən iki amilin mövcudluğuna diqqət yetirilir:

1. Ev təsərrüfatının daxili şəraiti və tələbatı əsasında yaranan sosial ehtiyaclar;
2. Təsərrüfatdankənar amillərin təsiri nəticəsində formalaşan sosial ehtiyaclar.

Sosial ehtiyacların tədqiqat müstəvisinə gətirilməsi və "sosial ehtiyaclar – onların qarşılanması üzrə iqtisadi imkanlar" kontekstində nəzərdən keçirilməsi daim artmaqda, öz keyfiyyət və kəmiyyət parametrlərini yüksəltməkdə olan birinci komponentin qarşılanması məqsədilə iqtisadi imkanların artırılması sahəsində məqsədyönlü fəaliyyət üzrə sistemli icra işlərini aktuallaşdırır, perspektiv dövrlərdə ikinci komponent üzrə artım templərinin daha üstün olması zərurətini sərgiləyir. Yaranan şərait üzvlərin təsərrüfatı birgə aparmalarını, öhdələrinə düşən işləri layiqincə yerinə yetirmələrini, qarşılıqlı kömək, yardım kimi işlərdə öz fəallıqlarını göstərmələrini tələb edir. Fəaliyyət zamanı "irəliyə doğru" atılan hər bir addım təsərrüfat sahibi olan ailənin, onu təşkil edən fərdlərin hər birinin istər sosial, istərsə də iqtisadi həyatında özünün müsbət nəticələrini təcəssüm edəcəkdir.

Ev təsərrüfatını təmsil edən hadisə və proseslər təkcə sosial qrupa aidiyyatı ilə seçilmir. Burada eyni zamanda iqtisadi hadisə və proseslər böyük xüsusi çəki ilə fərqlənməkdədir ki, bu da həmin subyekti formalaşdıran fərd və ailələrin fəaliyyəti haqqında xəbər vermiş olur. İqtisadi hadisə və proseslərin xarakterizə edilməsi fərd və ailələr üçün müxtəlif mənalar daşımaqdadır. Onlar: 1. məşğulluğu ifadə edən fəaliyyətdən xəbər verir; 2. əmək bilik və vərdişlərinin artırılmasında yeni "üfüqlər" açır; 3. təsərrüfatın mübadilə məkanlarında aktiv iştirakçı sifətilə təmsil olunmasına şərait yaradır; 4. maliyyə qaynağı rolunda çıxış edir; 5. təchizat və tədarük proseslərinin baş verməsini, infrastruktur elementlərinin yaradılmasını zəruri edir; 6. istehlakçı cəmiyyəti ilə geniş əlaqələrin yaranmasında mühüm rol oynayır; 7. fərdlərin və ailələrin yaşam tərzinə, onların məişətinin qurulmasına təsir göstərir; 8. istehsal proseslərinin təşkilində, yeni məhsul növlərinin mənimsənilməsində öz sözünü demiş olur və s. Göründüyü kimi, iqtisadi hadisə və proseslər ailə təsərrüfatlarının həyat tərzində, onun sosial mühitinin formalaşmasında mühüm rol oynayır. Fərdi təsərrüfatçılıq subyektləri olmaqla, onlar eyni zamanda bəhs olunan sahədəki fəaliyyətini müvafiq iqtisadi resursların mövcudluğu üzərində qurmaqdadırlar.

İstənilən təsərrüfatçılıq subyekti kimi, ev təsərrüfatları da öz fəaliyyətini çoxsaylı və müxtəlifnövlü iqtisadi resuslar əsasında, onların aktiv istifadə dövriyyəsinə cəlb edilməsi yolu ilə təşkil etməlidirlər. B baxımdan ilk yeri torpaq resursları tutur. Ev təsərrüfatlarının malik olduğu torpaq resurslarına: aparılmış torpaq islahatları nəticəsində verilmiş sahələr; sonradan alqı-satqı yolu ilə təsərrüfat tərəfindən əldə edilmiş sahələr; yerli bələdiyyələrdən icarə və s. yolla onlara verilmiş sahələr; eyni ərazidə yaşayan fərd və ya ailələrdən yardarlıq və digər formalarda istehsalı həyata keçirmək məqsədilə əldə olunmuş torpaqlar və s. aid edilə bilər. Bu zaman həmin sahələrin istifadəsi onların

təbii yer quruluşu, onların yerləşdiryi ərazilərin iqlim şəraiti, keyfiyyəti və digər parametrləri nəzərə alınmalıdır. Bəhs olunan məsələlərin diqqətdə saxlanılması ev təsərrüfatları tərəfindən istehsalın təşkili və idarə edilməsində özünün müsbət təsirini göstərəcəkdir. Torpaq resursları ilə yanaşı ev təsərrüfatları üçün öz fəaliyyətini qarşılayacaq həcmdə pul vəsaitlərinə, texniki imkanlara, işçi qüvvəsinə və digər resurs növlərinə malikolma mühüm məsələlərdən hesab olunur. Sadalanan resursların adı çəkilən subyektlərin fəaliyyətinin təşkili və həyata keçirilməsində özünəməxsus rol oynaması danılmazdır. Belə ki, maliyyə resurslarındakı çatışmazlıq əsasən aşağıdakı iki haldan biri ilə rastlaşılmasına gətirib çıxaracaqdır: 1. maliyyə resursları ilə təminolunmada çatışmayan hissənin yaranması; 2. ev təsərrüfatlarının maliyyə resurslarının çatışmayan hissəsi üzrə dövlət dəstəyinin göstərilməsi.

Ev təsərrüfatlarının fəaliyyətinin həyata keçirilməsində istehlak bazarlarında müstəqil qərarların qəbul edilməsi kimi funksiya mühüm rol oynamaqdadır. Fikrimizcə, bəhs olunan məsələnin iki aspektdə araşdırılması zəruridir: a) mübadilə məkanlarında istehsal olunmuş əmtəəlik məhsulla bağlı bütün qərarların müstəqil şəkildə verilməsi; b) öz istehlakının mühüm komponentləri olan xammal, ehtiyat hissələri, texniki vasitələrin əldə olunması üzrə sərbəst şəkildə qərarların qəbulu. Birinci bənd özü-özlüyündə bir istehsal fazasının başa çatmasından və növbəti üzrə yeni mərhələyə keçiddən xəbər verir. Aydındır ki, müasir dünyada olduğu kimi, ölkəmizdə də bazar münasibətlərinin iştirakçıları daha çox qazanc əldə etmək uğrunda mübarizə aparırlar. Nəticə etibarı ilə onlar bir tərəfdən ətraf mühitə (istehlakçı mühitinə) uyğunlaşmalı, digər tərəfdən bu istiqamətdə rastlaşdıqları problem və çətinliklərdən çıxış yolları tapmalıdırlar. Araşdırmalar göstərir ki, qeyd olunan sahədə maksimal mümkün nəticələrin əldə olunması bir çox amildən asılıdır. Bu baxımdan bazarlar və digər mübadilə məkanlarında məhsula olan tələbat üzrə daimi monitorinqlərin aparılması, özünün təbii-iqlim və yer quruluşu şəraitinin, əsas fondlar, materiallar və digər komponentlər üzrə imkanlarının obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb etməkdədir. Sadalananlar öz istehsalının təşkili ilə bağlı qərar qəbul etmək vəzifəsini də ev təsərrüfatının öhdəsinə qoymaqdadır. Məhz bu əsasda təsərrüfat subyektinin ixtisaslaşma istiqaməti müəyyənləşdirilməli, onun məhsullarının növ-çeşid etibarı ilə hansı arealı əhatə etməsinə aydınlıq gətirilməli, onun mərhələliyi və digər xüsusiyyətləri haqqında düşüncələr sistemləşdirilməlidir.

İstehsalın müəyyən edilməsi onun idarə edilməsinə təsirsiz ötüşmür. Burada həm istehsalın xüsusiyyətləri ilə birbaşa əlaqəli olan, istərsə də ümumilikdə təsərrüfatın idarə edilməsi ilə əlaqədar atılan yenilikçi, təkmilləşdirici və transformativ addımları nəzərə almaq zəruridir. Məsələn, yeni istehsalların mənimsənilməsi yeni mərhələlərin tətbiqini, fərqli ixtisaslı peşəkarlardan istifadəni, maliyyə resurslarından istifadənin dəyişməsini, uyğun texniki vasitələrin əldə olunmasını və digər şərtlərin tətbiqini tələb edə bilər ki, bu faktorlar da öz növbəsində idarəetmənin təşkili və həyata keçirilməsində dəyişikliklərin baş verməsinə birbaşa və ya dolayı yolla təsir etmək imkanına malikdir. Həmçinin, ölkədə aparılan, günü-gündən təsərrüfatçılıq sistemində yenilənmələrə səbəb olan islahatlar da idarəetmə sisteminin daha mütərəqqi təməllər üzrə formalaşmasında öz sözünü demiş olacaqdır. Bəhs olunan məsələ "idarəetmə - tənzimləmə" müstəvisində nisbətlərin tərəflərdən hər hansı birinin xüsusi çəkisinin artması ilə müşayiət olunacaqdır.


Ev təsərrüfatlarının icra etdiyi funksiyalar içərisində özünün tələbatlarının ödənilməsi yolunda mövcud addımların atılması əhəmiyyəti ilə seçilməkdədir. Belə ki, ev təsərrüfatı məhsulların istehsalı və reallaşdırılması, işlərin görülməsi, xidmətlərin göstərilməsi kimi fəaliyyətlə məşğul olduğu üçün iqtisadi vahid hesab olunmaqdadır. Bu isə bəhs olunan istiqamətlər üzrə istehsal və digər iqtisadi ehtiyacların ödənilməsi problemini sərgiləmiş olur. Digər tərəfdən, ev təsərrüfatı ailələrin özünü ifadə forması kimi qəbul edilməkdədir ki, bu da sosial xarakterli ehtiyacların mövcudluğuna diqqəti çəkir. Yaranmış situasiya sistemli yanaşmanı tələb etməklə yanaşı ehtiyac qrupları arasında optimal nisbətlərin qorunması zərurətindən də xəbər verməkdədir.

Ümumiyyətlə, ev təsərrüfatları bazarla bağlı özündə iqtisadi baxımdan fərqlənən əsasən iki mühüm xarakterik cəhəti cəmləməkdədir: bazarın və deməli, həmin məkanda yaranan münasibətlərin mühüm subyektlərindən olması; özündə istehsalın təşkili və bazarda iştirak vasitəsilə ümumilikdə iqtisadi vəziyyətə təsiretmə imkanının mövcudluğu.

Verilmiş maddələrdən bazarın aktual mövqeyə malik olması bir daha təsdiqlənir. Bazarda mütəmadi iştirakın təmin edilməsi bir çox məsələlərin həllində mühüm rol oynayır. Belə ki, ilk növbədə istehsalçı haqqında sistemli məlumatın bazarın digər iştirakçılarda olması təmin edilir. Bu məlumatlar sırasında ev təsərrüfatının "rekvizitləri" xüsusi əhəmiyyət kəsb edir ki, bu da məhsulların istehsalı və satışı zamanı ona müraciətlərin sayına təsir etmiş olur. Digər tərəfdən, birgə reallaşdırma, barter qaydasında bölgü, elektron ticarət, satış əməliyyatlarında "məhsulların istehlakçının qapısında təhvil verilməsi" qaydasının tətbiqi və digər spesifik iqtisadi əməliyyatlar zamanı da təsərrüfatların imkanlarının qiymətləndirilməsi də ona qarşı olan münasibətin formalaşmasına təsirini göstərməkdədir. Ümumiyyətlə, bazar anlayışı özündə çoxsaylı həqiqətləri birləşdirməkdədir ki, onlardan mühüm olanlarını aşağıdakı kimi ifadə etmək mümkündür: bazar – istehsalçının təklifi ilə istehlakçının tələbinin qarşılaşdığı məkandır; əmtəələrin kəmiyyət və keyfiyyəti haqqında fikirlərin dəqiqləşdirildiyi müstəvidir; geniş əhatəyə malik vasitəçilik funksiyalarının icrası meydanıdır; müxtəlif məhsulların "əl dəyişdirməsi" ilə məşğul olanların universal və ya ixtisaslaşmış ərazilərdə toplanmasıdır; marketinq üsulları vasitəsilə məhsul növlərinə olan tələbatın həqiqi səviyyəsinin müəyyən olunması yeridir və s. Bazar ifadəsi ilə bağlı verilmiş açıqlamalar ev təsərrüfatlarının hansı mühüm kriteriyalar üzrə işlərini mübadilə məkanlarında təşkil etməsi ilə bağlı fikirləri formalaşdırmaqdadır.

İqtisadi sahədə aparılan araşdırmalar təcrübəsində tədqiqatın məzmunu, onun tərkibi ilə yanaşı mühüm istiqamətlərdən biri də təsnifləşdirmə proseslərinin təşkili və həyata keçirilməsidir. Adətən təsnifləşdirmənin aparılmasında çoxsaylı əlamətlərin iştirakı mümkün ola bilər, lakin onlardan mühüm olanları əsasında seçimin aparılması qanunauyğundur. Tədqiqatda iqtisadi təsərrüfatçılıq vahidi kimi çıxış edən ev təsərrüfatlarının nümunəvi qaydada birnövlü qruplarda birləşdirilməsində aşağıdakı əlamətlərin mövculuğuna diqqət çəkilir (sxem 2).

Sxem 2. Ev təsərrüfatlarının təsnifləşdirmə əlamətləri



Sxem 2-dən də göründüyü kimi, ev təsərrüfatlarının qruplaşdırılmasında özünün məzmun rəngarəngliyi ilə seçilən çoxsaylı əlamətlərdən istifadə olunmaqdadır. Həmin əlamətlər sırasında ilk yeri ərazi-regional aidiyyatını ifadə edən əlamət tutur. Onun əsas xüsusiyyəti – haqqında bəhs olunan subyektlərin ölkənin hansı inzibati ərazisinə, iqtisadi regionuna, təbii-iqlim zonasına aidiyyatını bildirməkdən, onun müvafiq istiqamətdə olan xarakteristikalarını ümumiləşdirməkdən ibarətdir. Sirr deyil ki, Naxçıvan MR ərazi və təbii-iqlim parametrləri baxımından kifayət qədər böyük ampletudalarla fərqlənməkdədir. Bu isə ev təsərrüfatlarının quruluşuna və ixtisaslaşmasına, onların fəaliyyətinin təşkili və həyata keçirilməsinə öz təsirini göstərməkdədir. Ev təsərrüfatlarının yerləşməsi əlamətinin başlanğıc nöqtəsi kimi seçilməsi bu sferaya aid bütün digər əlamətlərin məhz bunun əsasında formalaşmasından xəbər verir. Məsələnin araşdırılması ev təsərrüfatının şəhər və ya kənddə yerləşməsinə də diqqəti çəkməkdədir. Bəhs olunan məqam növbəti tədqiqat və təcrübi əhəmiyyətə malik təsnifləşdirmələrə yol açmaqla yanaşı məşğulluq, istehsal, xidmət və sonrakı reallaşdırma proseslərinin təmərküzləşməsi kimi problemlərin araşdırılmasında özünəməxsus əhəmiyyət daşımaqdadır. Məskunlaşma xarakteri də sözü gedən məsələdə əsas tədqiqat istiqamətlərindən hesab olunmalıdır. Belə ki, ev təsərrüfatlarının məskunlaşma mərkəzləri kimi rayon mərkəzləri və iri sənaye şəhərləri, orta və kiçik həcmli şəhər tipli vahidlər, kəndlər və digər ərazi vahidləri götürülə bilər.

Təsnifatdakı ikinci yeri demoqrafiya əlaməti tutur. Ümumiyyətlə, "demoqrafiya" anlayışı

özündə ölkənin, regionun və daha kiçik ölçülərə malik məskunlaşma yerləri üzrə əhalinin çoxsaylı sosial və iqtisadi cəhətlərinə aydınlıq məqsədini güdür. Ev təsərrüfatları ilə bağlı araşdırmaların aparılmasında həmin təsərrüfatlardakı ailə üzvlərinin sayı dəqiqləşdirilməklə yanaşı onların ailəli və ailəsizlərdən ibarət olması, yaş-cins xarakteristikaları, sağlamlıq elementi nəzərə alınmaqla onların faydalı əməklə məşğul olma imkanları və digər göstəricilər haqqında məlumatlar əldə olunur.

Ev təsərrüfatlarının təsnifləşdirmə əlamətləri sırasında əmlak əlaməti özünün spesifikliyi ilə fərqlənməkdədir. O, müvafiq təsərrüfat vahidlərinin malik olduğu əmlak haqda ümumilikdə (dəyər ifadəsində), onun ayrı-ayrı növləri üzrə (natura və dəyər ölçülərində) təsəvvür yaratmaqla mükəlləfdir. Bu göstəricilər sırasında yaşayış sahəsinin xarakteri, mövcud və istifadəsi mümkün olan otaqların sayı, avtonəqliyyat vasitələrinə, torpaq sahələrinə və digər əmlaka malikolma ifadə olunmaqdadır. Ev təsərrüfatlarına iqtisadi subyekt kimi baxılması onun əmlakının tərkibində istehsal və qeyri-istehsal əmlakını da özünün aparıcı tərkib komponentləri əsasında fərqləndirmək zərurətini yaradır.

Ev təsərrüfatlarını xarakterizə edən əlamətlərdən birini də gəlirlilik əlaməti təşkil edir. Ümumiyyətlə, gəlir ifadəsi özündə təsərrüfat vahidinə müxtəlif mənbələr hesabına pul və ya əmlak şəklində daxilolmalar haqqında təsəvvür yaratmaqdadır. Bu əlamətin əhəmiyyəti eyni zamanda onunla izah olunur ki, istənilən təsərrüfat vahidi haqqında məlumatların ümumiləşdirilməsi və yekunlaşdırılmasında, onlar haqqında müfəssəl məlumatların ortaya çıxarılmasında gəlirlərin mənbəyi və həcmlərinin, onların sərfolunma istiqamətlərinin dəqiqləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusi gəlirlər olmaqla, onlar sərf olunmuş əmək sərfi və əmək ödənişi hesabına, təsərrüfat sahibinin pul vəsaitləri və gəlirləri hesabına, faizlər və dividentlər hesabına, səhmdar cəmiyyətlərdə iştirak, əmlak kirayəsi, torpaq icarəsi və digər istiqamətlər hesabına formalaşmaqdadır. Ev təsərrüfatlarının gəlirlərinin nümunəvi təsnifləşdirmədə əsasən 4 qrup üzrə bölgüsünün aparılmasını müşahidə etmək mümkündür: ilkin gəlirlər, mülkiyyətdən gəlirlər, cari transfertlər və sair daxilolmalar. İstənilən ev təsərrüfatının formalaşan gəlirlərinin istifadəsinə gəldikdə isə burada aşağıdakı istiqamətlər üstünlük təşkil edir: vergi və digər məcburi ödənişlərin edilməsi; şəxsi sosial ehtiyacların ödənilməsi; istehsalın təkrarlanması və genişləndirilməsi, yeni texnika və texnologiyaların alınması və mənimsənilməsi istiqamətində xərcləmələr; yığıma, şəxsi əmanətlərin formalaşdırılmasına vəsaitlərin yönəldilməsi və s.

Yuxarıda bəhs olunan istiqamətlərdən hər biri kifayət qədər əhəmiyyətliliyi ilə seçilməkdədir, zərurət yarandıqda isə fərdi tədqiqat obyektləri kimi çıxış edərək daha ayrıntılı araşdırmaya məruz qala bilər. İqtisadi əlamət sxem 2-də verilmiş təsnifatın mühüm tərkib elementlərindən biri olmaqla yanaşı özündə aşağıda göstərilən istiqamətlərin məcmusunu ifadə etməkdədir: əhalinin məşğulluğu, onun dərəcə ifadələri və perspektivləri; iqtisadi sferaya aid edilmə; istehsal sahəsini təmsiletmə; təsərrüfatçılıq "vahidinin" növü, onda təmərküzləşmiş fəaliyyət sahələri və yarımnövləri; məşğulluq prosesi üzrə işçilərin icra etdiyi vəzifələr və s.

İqtisadi əlamətin əhatə etdiyi məsələlərin vahid qruplaşmaya məruz qalması istər ölkə, istərsə də ayrı-ayrı regionlar (o cümlədən Naxçıvan MR) üzrə öz aktuallığını qorumaqdadır. Belə ki, ölkədə qəbul olunan və əsas məqsədi (yaxud məqsədlərindən biri) məşğulluq səviyyəsinin yüksəldilməsi olan hüquqi-normativ aktlar, iqtisadi sahələrin istehsal potensiallarının yüksəldilməsi, onların çeşid-həcm göstəricilərinin əhatə dairəsinin genişləndirilməsi kimi problemlər məhz iqtisadi əlamətin toxunduğu aspektlərin əhəmiyyətini bir daha gözlər önünə sərmiş olur.

İqtisadi əlamətin əhatə etdiyi dairəyə nəzər yetirdikdə, regionumuzla bağlı konkret fikirləri də ifadə etmək mümkündür. Son 5 ilin statistik məlumatlarına əsasən Naxçıvan MR-də mövcud olan ev təsərrüfatlarının illik orta hesabla 95%-ə qədər olan hissəsi aqrar sahə üzrə ixtisaslaşmışdır. Digər hissə isə müxtəlif xidmətlərin (avtomobillərin, elektrik cihazlarının təmiri, mebel əşyalarının yığılması və s.) göstərilməsi və sənətkarlığın ayrı-ayrı istiqamətlərinin (kulinariya, dülgərlik, dəmir üzərində döymə və s.) payına düşür.

İqtisadi əlamətin məqsəd və vəzifələrini tamamlayan əlamətlərdən biri də əmək potensialı əlamətidir. Məhz onun əsasında məşğulluq məsələləri üzrə düzgün məlumatların əldə olunması baş verir. Bu əlamət əmək qabiliyyətli əhali, iqtisadi fəal əhali kimi kateqoriyalara aydınlıq gətirməklə yanaşı, onun ailə təsərrüfatları üzrə hissəsini də dəqiqləşdirmiş olur ki, burada da işləyənlərin peşəkar hazırlığı, onların təhsil səviyyəsi və digər bu kimi göstəricilər araşdırma və müzakirə mövzularına

çevrilir. Müvafiq əlamət ev təsərrüfatları üzrə kənardan müxtəlif səbəb və əsaslarla (ixtisaslı aqronomlar, baytarlar, iqtisadçı-menecerlər, marketoloqlar, fəhlələr və s.) cəlb olunmuş işçi potensialı (əgər varsa) haqqında da təsəvvür yaratmaqla mükəlləfdir. Ev təsərrüfatlarının məzmunca bir-başa qeyri-iqtisadi təsnifat əlamətləri sırasına daxil edilən maddələrdən biri də həmin təsərrüfatçılıq subyektlərinin sosial statusunu özündə əks etdirən əlamətlər qrupudur. Bu əlamətin özünü ifadəetmə və inkişaf dərəcəsi ailə başçısının və ya ən yüksək gəlirə malik ailə üzvünün pul vəsaitləri əsasında müəyyən olunur. Ev təsərrüfatlarının sosial statusu əlaməti özündə həmin təsərrüfatı təşkil edən ailənin sosial ehtiyaclarının ödənilməsi dərəcəsi, onların bəhs olunan istiqamətdə cəmiyyətdə tutduğu yer haqqında məlumatları birləşdirir.

ƏDƏBİYYAT

1 1. Ailə kəndli təsərrüfatı haqqında, Azərb, Respublikası Qanunu, 14.06.2005, Bakı, Qanun, 2011, 8s.
2 2. Алагаджиева З.М. Семья как субъект общественной жизнедеятельности. – М: Статистика, 2006, 380с.
3 3. Видяпин В.И., Добрынин А.И., Журавлева Г.П., Тарасевич Л.С.. Экономическая теория, Учебник, М.: ИНФРА-М, 2002. 714 с.
4 4. Войтов А.Г., Экономика. Общий курс. Учебник. 8-е изд. Мн.:Москва, 2011. 669с.
5 5. Гребнев Л.С., Нуреев Р.М. Экономика, Курс основ, Учебник, М.: Вита-Пресс, 2010. 552с.
6 6. Плотницкий М.И., Лобкович Э.И., Муталимов М.Г. Курс экономической теории, Учебник. Мн.: Интерпрессервис, 2013. 496 с.
7 7. Попов А.Н. Семья с позиций экономической науки. – М.: МГУ, 2005, 814с.
8 8. Чепурин М.Н., Киселева Е.А. Курс экономической теории. Учебник. 4-е изд. Киров (Россия): АСА, 2012. 828с.

ABSTRACT

Samiddin Gasimov

SPECIFIK FEATURES OF HOUSEHOLD CLASSIFICATION

The article describes the new organizational forms in the agrarian field as a result of the reconstruction, transformation and improvement activities carried out in the Republic of Azerbaijan after independence. Households are selected as the main research object.

In addition to clarifying the essence of households in the work. It was addressed to the opinions of various scholars. The main focus of the article is on classifications on households. Research subjects have been provided with information on the specialization of the farms in the field `Ds and activities, the number of employed persons, gender, occupation and other components, total income, their orientations and sources, as well as the components of each direction.

The article also deal with the establishment of household works. It also covers issues related to the selection of the economic member – entrepreneur, organization of work in the subject, and making optimal decisions.

It has also been used in schemes such as visualization tools for raising the subject, making it more comprehensive.

РЕЗЮМЕ

Самиддин Касумов

ОСОБЕННЫЕ ЧЕРТЫ ГРУППИРОВАНИЯ ДОМАШНИХ ХОЗЯЙСТВ

В статье повествуется о о создании новых организационных форм в сельском хозяйстве путем новообразования, трансформирования и усовершенствования после завоевания Азербайджанской Республикой независимости. Основным объектом исследования были

выбраны домашние хозяйства.

В работе наряду с раскрытием сущности домашних хозяйств было обращено внимание на мысли различных ученых в этом направлении. Было отмечено, что домашние хозяйства в основном формируются на базе семей и большой объем их удельного веса сосредотачивается в сельском хозяйстве.

Основное внимание по теме направлено на проводимые группирования по домашним хозяйствам. При изучении исследуемых субъектов дана информация об отрасли и профилизации деятельности, о численности занятости населения, об их роде, специализации и других элементах, общем объеме прибыли, его напрвлениях и источниках, а также их внутренних составляющих.

В статье также широко повествовано о построении дел в домашних хозяйствах. В нем просвечены такие задачи, как выбор предпринимателя-члена хозяйства, об организации им дел в пределах субъекта, принятие оптимальных решений и т.д.

В исследовании темы были использованы в качестве наглядных пособий схемы, что дает вожможность создания более общирного взгляда на тему.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ÜLVİ BAXIŞLI
Naxçıvan Dövlət Universiteti
baxisliulvi@hotmail.com

UOT:339

BEYNƏLXALQ İNFRASTURUKTUR LAYİHƏLƏRİNİN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

Açar sözlər: *infrasturuktur, inteqrasiya, nəqliyyat qovşağı, turizm, qeyri-neft sektoru*
Key words: *infrastructure, integration, transport hub, tourism, non-oil sector*
Ключевые слова: *инфраструктура, интеграция, транспортный узел, туризм, не нефтяной сектор*

Respublikamız müstəqillik əldə etdikdən sonra ölkə rəhbərliyinin düşünülmüş və balanslaşdırılmış iqtisadi siyasəti ilə milli mənafeyə müvafiq strategiyaya uyğun səmərəli beynəlxalq əməkdaşlıq xətti bərqərar edilmiş və günü-gündən də bu mövqe möhkəmləndirilməkdədir. Ölkəmizdə çox mühüm beynəlxalq infrasturuktur layihələri reallaşdırılmış və bu istiqamətdə işlər davam etdirilməkdədir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmış və 2001-ci il fevralın 21-də rəsmi açılışı olmuşdur. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Fikirimizcə, tarixi İpək Yolunun inkişaf etməsinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

· bölgədə yerləşən ölkələrin ticarət-iqtisadi əlaqələrin inkişaf etməsi;
· nəqliyyat əlaqələrin inkişaf etməsi - yük və sərnişinlərin beynəlxalq daşınması;
· tranzit daşınmalar üçün əlverişli şəraitin yaradılması;
· yük daşınmaların müddətinin qısaldılması;
· nəqliyyat siyasətinin uyğun olaraq aparılması;
· daşınma tarifləri və vergilərə xüsusi güzəştlər;
· müxtəlif nəqliyyat sahələr arasındakı əlaqələrin koordinasiya edilməsi;
·çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanması.

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır.

2007-ci il fevralın 7-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş imzalanmış, elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulmuşdur. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilmişdir. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir.

Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz

daşımalarına nisbətən iki dəfədən çox azaldır. Sabitlik və təhlükəsizliyə xidmət edən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır

Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaqdır.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir.

Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcəkdir.

Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm Rusiya ilə, həm İranla quru sərhədi var və bu coğrafi yerləşmə üçtərəfli regional əməkdaşlığın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoyub. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Azərbaycan İran tərəfinə Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kreditin ayrılmasını nəzərdə tutulmuşdur.

Milli iqtisadiyyatın aparıcı sahəsi olan nəqliyyat sistemi istər ölkənin iqtisadi təhlükəsizliyinin etibarlı təminatında, istərsə də ölkə üzrə ümumdaxili məhsulun (ÜDM) formalaşmasında çox mühüm əhəmiyyətə malikdir. Dünya təcrübəsi sübut edir ki, bir çox ölkələr etibarlı nəqliyyat sisteminin yaradılmasını özlərinin milli iqtisadi təhlükəsizliyinin əsas təminatı kimi qəbul edirlər. Bütün bunlar isə sürətli qlobal dəyişikliklər, informasiya, inteqrasiya və s. kimi xüsusiyyətlərlə xarakterizə edilən XXI əsrdə ölkəmizdə də nəqliyyat sisteminə yeni yanaşmanı zəruri edir. Bu gün ölkəmizdə artıq yeni bir nəqliyyat sistemi formalaşdırılır. Ona görə də yeni nəqliyyat sisteminin gələcək perspektivlərinin müəyyən edilməsi, bu perspektivlərin reallaşması və ümumilikdə sistemin səmərəli fəaliyyətinin təmin olunması günümüzün aktual məsələlərindən biridir.

Həyata keçirilmiş beynəlxalq nəqliyyat infrasturukturu layihələri nəticəsində ölkəmizdə təkmil nəqliyyat-tranzit infrastrukturu formalaşdırılmış, eləcə də Azərbaycan Respublikası Avropa-Asiya arasında daşımalar sahəsində qısa yol, zaman sərfi baxımından daha rəqabət qabiliyyətlidir. Yaxın gələcəkdə isə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi ölkəmizi tranzit daşımalarda daha rəqabət qabiliyyətli edəcəkdir. Azərbaycan Respublikasının müxtəlif istiqamətləri əhatə edən nəqliyyat dəhlizlərinin qovşağına çevrilməsi milli təsərrüfatın, onun ayrı-ayrı sahələrinin davamlı inkişafı üçün münbit şərait yaratmışdır. İki və çoxtərəfli müqavilələr sayəsində artıq Azərbaycan Trans-Anadolu və Trans-Asiya nəqliyyat şəbəkəsinin strateji əhəmiyyətli bir tranzit qovşağına çevrilmişdir.

Son 20 ildə hava nəqliyyatı infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, Ölkədə bu müddət ərzində 7 hava limanı tikilib ki, onların 6-sı beynəlxalq əhəmiyyətlidir. Halbuki əvvəl yalnız Bakıda beynəlxalq əhəmiyyətli hava limanı fəaliyyət göstərirdi.

Digərləri yerli əhəmiyyətli hava limanı sayılırdı. Bu gün isə Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala hava limanlarından beynəlxalq reyslər həyata keçirilir.

Bütün bunlarla yanaşı, son dövrlərdə ölkəmizdə ən müasir idman infrastrukturu

yaradılmaqdadır. Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya idman mərkəzi tikilərək, istifadəyə verilmişdir. Bakıda şəhərində isə ən yüksək səviyyədə idman infrastrukturu formalaşdırılmışdır. Təkcə son bir-iki il ərzində bir neçə gözəl, möhtəşəm idman obyekti istifadəyə verilmişdir. Ölkə rəhbərliyinin idmana olan bu cür qayğısı, eyni zamanda idmançılarımızın dünya arenasındakı nəalliyyətləri bu gün bütün dünyada Azərbaycanın idman ölkəsi kimi qəbul olunmasına səbəb olmuşdur.

Bütün bunların məntiqi davamı olaraq ölkəmizdə bir qayda olaraq beynəlxalq idman yarışları keçirilir. İldən-ilə bu yarışların sayı da artır və səviyyəsi də yüksəlir. Bu gün dünyanın ən mötəbər idman yarışlarının burada keçirilməsi artıq ənənə halını almışdır. Qeyd olunanlara nümunə olaraq biz 2015-ci ildə ölkəmizdə keçirilən ilk "Avropa oyunlarını", 2017-ci ildə Bakıda baş tutan "İslam Həmrəylik Oyunlarını", 2016-cı ildən hər il bir mərhələsi Bakı şəhərində keçirilən "Formula-1" yarışlarını və onlarla belə beynəlxalq idman yarışlarını göstərə bilərik.

Azərbaycanda turizm sahəsi də günü-gündən inkişaf edir və tezliklə iqtisadiyyatın ən mühüm sahələrindən birinə çevriləcəkdir. Dövlətin gördüyü tədbirlər, ölkədə müasir turizim infrasturukturlarının yaradılması turist axınını ildən-ilə artırır, odur ki, paytaxtda və digər turist zonalarında çoxlu miqdarda yüksək xidmət səviyyəsinə malik mehmanxanalar tikilmişdir. Hal-hazırda onların sayı artıq 550-ni ötmüşdür. Azərbaycanın regionlarında da mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq, Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki Gabaland attraksionlar parkını, «Tufandağ» qış turizm kompleksini, Qusar rayonundakı möhtəşəm «Şahdağ» turizm mərkəzini, həm idmanla məşğul olmaq, həm də turistləri qəbul etmək üçün müvafiq infrastruktura malik 15-dən çox Olimpiya idman kompleksini və digərlərini göstərmək olar.

Bütün bunlar turizmin Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərdən birinə çevrildiyinə və qarşıda ölkənin iqtisadi inkişafına böyük perspektivlər açdığına dəlalət edir.

Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilmişdir. Hazırda turizm sektoru dünya üzrə ümumi daxili məhsulun 9 faizini, ixracın isə 6 faizini təşkil edir. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Artıq bütün dünya dövlətləri turizm sektorunun iqtisadiyyata müsbət təsiri hesabına əhalinin məşğulluq, həyat səviyyəsi, tədiyə balansının yaxşılaşdırılması kimi makroiqtisadi problemlərlə yanaşı, onunla birbaşa əlaqədar olan sahələrin, o cümlədən, xidmət, kənd təsərrüfatı və digər infrastruktur sahələrinin də inkişafına nail olmağa çalışırlar. Bununla yanaşı, turizmin inkişaf etdirilməsi mədəniyyət, idman, səhiyyə və digər sosial sahələrin gəlirlərinin artırılmasına geniş imkanlar yaradır. Bu baxımdan, turizmin inkişaf səviyyəsi istənilən dövlətdə sosial-iqtisadi, qanunvericilik, təhlükəsizlik və s. sahələrdə dövlət siyasətinin indikatoruna çevrilmişdir.

Eyni zamanda, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində əldə edilmiş inkişaf dinamikası, regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən dövlət proqramları və s. turizmin inkişafına ciddi təkan verir. Bunun nəticəsidir ki, turizm sektoru üzrə əsas iqtisadi göstəricilərdə artım dinamikası təmin edilmişdir. Statistik araşdırmalar da göstərir ki, istər turizm sektorundan daxil olan gəlirlərin həcmində, istər yerli turistlərin, istərsə də ölkəyə gələn xarici turistlərin sayında nəzərəçarpacaq irəliləyişlər vardır. Artıq XXI əsrin ilk illərindən başlayaraq ölkəmizin böyük şəhərlərində xarici qonaqları qəbul edə bilən müasir mehmanxanalar fəaliyyət göstərir. Hazırda Azərbaycanda bütün regionları əhatə edən geniş turizm xidmətləri sistemi sürətlə formalaşdırılır.

Fikirimizcə, nəqliyyat sektorunun inkişafı, xüsusilə turizmin canlanmasına müsbət təsir göstərəcək. İstər nəqliyyat-tranzit, istərsə də turizm xidmətlərində keyfiyyətli və operativ təşkilatçılıq ümumi iqtisadi yüksəlişə və Azərbaycanın dünyaya tanıdılmasına kömək etməklə bərabər, ölkəmizin qeyri-neft sektorunun inkişafı ilə bağlı bir çox məqsədləri reallığa çevirə bilər. Bunun üçün yerli turizm şirkətlərinin fəaliyyətinin dəstəklənməsi və xaricdən daha çox turistin cəlb edilməsi, eləcə də turizm sektorunda qiymətlərin cəlbediciliyinin artırılması məqsədəuyğun olardı .

Son olaraq qeyd edək ki, ölkəmizdə həyata keçirilən beynəlxalq və yerli əhəmiyyətli infrasturuktur layihələrinin reallaşdırılması ölkə büdcəsinə daxilolmaları artıracaq,məşğulluq problemlərinin həllində mühüm rol oynayacaq və əhalinin rifah səviyyəsini xeyli yüksəldəcək. Beynəlxalq infrasturuktur layihələri ölkəmizin xarici ticarət əlaqələrinin genişlənməsi, dünya dövlətləri ilə qarşılıqlı iqtisadi-siyasi bağlılığın artması və strateji tərəfdaşlığın möhkəmlənməsində əsas vasitələrdəndir. Həmçinin ölkə ərazisində istehsal olunan məhsulların dünya bazarlarına daha

rahat və rəqabətqabiliyyətli şəkildə çıxarılmasını təmin edir ki, bu da öz növbəsində ölkənin investisya qabiliyyətliliyini daha da artırır və xarici investisiyaların cəlbində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Aras O. N., Süleymanov E. (2010), Azərbaycan iqtisadiyyatı, Bakı, Şərq-Qərb
2. "Azərbaycan 2020: Gələcəyə Baxış inkişaf konsepsiyası
3. Elşən Bağırzadə., AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ, Bakı–2014
4. A.X.Nuriyev. Regionların inkişafının strateji məsələləri
5. Əliyev A.Ə. Azərbaycanm xarici ticarət-iqtisadi əalqələri, Bakı, 2001.
6. Abbasbəyli A.N. beynəlxalq münasibətlərin proqnozlaşdırmasının nəzəri problemləri. Bakı. 2006
7. www.astat.gov.az
8. www.economy.gov.az
9. www.president.az
10. www.xalqqazeti.com

ABSTRACT

Ulvi Bakhıshlı

THE ROLE OF INTERNATIONAL INFRASTRUCTURE PROJECTS IN AZERBAIJAN'S ECONOMY

The article outlines international infrastructure projects implemented as a result of reconstruction, transformation, integration and improvement measures carried out in the Republic of Azerbaijan after the independence. The main research target of the article is the transport and tourism infrastructure projects.

The article speaks about the separate components along with outlining the significance of international infrastructure projects. The article also provides data on recent international transport projects focusing on significance of the projects in the country's economic efficiency as well as their future role as the main transport hub between Europe and Asia.

The article also explores other important types of infrastructure projects. In particular, tourism infrastructure is widely explored, relevant state policy, achievements are mentioned and emphasizing that the tourism sector is the most promising sector in the non-oil sector.

РЕЗЮМЕ

Ульви Бахышлы

РОЛЬ МЕЖДУНАРОДНЫХ ИНФРАСТРУКТУРНЫХ ПРОЕКТОВ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

В статье говорится о международных инфраструктурных проектах, проводимых в жизнь после обретения Азербайджанской Республикой независимости, в результате осуществления перестроечных, трансформационных, интеграционных и усовершенствованных мероприятий.

В работе наряду со значением инфраструктурных проектов обсуждаются отдельные его составные части. Здесь дана информация об осуществляемых в стране Международных транспортных проектах и подчёркнута их экономическая эффективность для страны и о превращение их в будущем в важный транспортный узел между Европой и Азией.

Также в статье исследованы другие важные виды инфраструктурных проектов. В особенности более обширно исследована инфраструктура туризма, здесь говорится о государственной политике и достигнутых успехах в этой области, как самой перспективной области в не нефтяном секторе.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

İLHAM HÜSEYNOV
Naxçıvan Dövlət Universiteti
HƏVVA ADIGÖZƏLOVA
Naxçıvan Dövlət Universiteti

UOT: 332.6

AQRAR SAHƏDƏ İNVESTİSİYA İSTİQAMƏTLƏRİNİN SEÇİLMƏSİ VƏ ƏSASLANDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *aqrar sahə, investisiya fəaliyyəti, investisiya istiqamətləri, investisiya obyektləri, investisiyaların əsaslandırılması*

Key words: *agrarian sector, investment activity, investment directions, investment objects, investments justification*

Ключевые слова:*аграрная отрасль, инвестиционная деятельность, инвестиционные направления, инвестиционные объекты, обоснование инвестиций.*

Müasir dövr ölkəmizin məqsədyönlü, kompleks şəkildə planlaşdırılmış və həyata keçirilməkdə olan iqtisadi siyasətlə, qəbul olunan spesifik strateji kursla seçilməkdədir. Sahələrin pro-porsional inkişafı, fiskal siyasət, diversifikasiya addımları, yeni quruluşların (sənaye zonalarının, aqroparkların, sərbəst ticarət və digər ərazilərin) yaradılması kimi fəaliyyətlərlə müşayət olunmaqdadır. Respublikanın tərəqqisinə yönələn haqqında bəhs olunan məsələlər eyni zamanda özünün maliyyə tutumluluğu ilə seçilən, müxtəlif təyinatlı investisiyaları tələb edən işlərin icrası halında mümkün olur.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində mühüm komponentlərdən biri olan investisiya prosesləri özündə təcrübi vərdişlərin mövcudluğu ilə yanaşı müvafiq istiqamətdə aparılan elmi araşdırmaların və əsaslandırmaların, əldə olunan mütərəqqi nəticələrin məcmusunu əks etdirməlidir. Belə ki, sadalanan elementlərin hər hansı birinin olmaması lazımi nəticələrin əldə olunmasına, əlaqəli işlərin səmərəli icrasına şərait yaratmır, əlavə çətinlik və maneələrin yaranmasını şərtləndirir.

Ümumiyyətlə, istənilən sahə və ya fəaliyyət işləri ilə əlaqədar investisiya qoyuluşlarının onları icra edən şəxslər (investorlar) tərəfindən həyata keçirilməsi məcmu halında investisiya fəaliyyəti kimi qiymətləndirilir. Əhatə dairəsindən, təyinatınan və digər amillərdən asılı olaraq o, müxtəlif tərkib ünsürlərinə malik ola və fərqli konfiqurasiyalar üzrə aparıla bilər. Məqalədə bizi maraqlandıran meyar – aqrar sahə üzrə aparılan investisiya fəaliyyəti, onun xüsusiyyətləri və əhatə edə biləcəyi əsas istiqamətləridir.

İnvestisiya məsələlərinə keçməzdən əvvəl bu sahənin xüsusiyyətlərinə diqqət yetirmək məqsədəuyğun olardı. Onların sırasında diqqəti çəkən məsələlər aşağıdakılardan ibarətdir:

1. Aqrar sahənin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas iştirakçılardan biri olması;
2. Məhsulların geniş diapozonu və fasiləli istehsal dövrü ilə seçilməsi;
3. Məhsulların toplanılması, qablaşdırılması, saxlanılması və daşınması istiqamətlərində xüsusiyyətlərə malik olması;
4. İstehsalın zəruri komponentlərinin (toxum, yem, gübrə, texniki vasitələr, cins heyvanlar, suvarma sistemləri və s.) əldə olunmasının məsrəflərlə müşayiət edilməsi;
5. Aqrar istehsallarda seleksiya, baytarlıq, tibbi-sanitar və digər tədbirlərdən istifadə olunması;
6. Fəaliyyətin həyata keçirilməsi üçün ilkin kapitalın mövcud olması;
7. Daha geniş arealı əhatə edən və məzmunca fərqli mənşəli infrastruktur sisteminin zəruriliyi və s.

Təsnifatda sadalanan hər bir maddə özündə birbaşa və ya dolayı formada investisiyalaşma əməliyyatlarının aparılması üçün təməlləri və ehtiyacları ifadə etməkdədir.

Sirr deyil ki, müasir Azərbaycan Respublikası, həmçinin onun regionları üzrə əsas demoqrafik göstəricilərin artan templərə malik olaması digər şərtlərlə yanaşı eyni zamanda ərzaq istehlakı

həcmlərinin yüksəlməsi ilə müşayiət olunur. Bu baxımdan idxal əməliyyatlarının həyata keçirilməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında yeganə yol kimi qəbul edilə bilməz. Həmçinin, tarixi istehsal əlaqələri ölkəmizdə aqrar sahənin möhkəm təməllərinin mövcudluğuna dəlalət edir. Əsrlərdən bəri qorunub saxlanılmış miras aqrar sahənin ölkəmizin sosial-iqtisadi həyatında aparıcı yerlərdən birini sahiblənməsini göstərir.

Kənd təsərrüfatı üzrə istehsal sahə və istiqamətlərinin artırılması, hasilatın həcm-tərkib göstəricilərinin yüksəldilməsi və genişləndirilməsi, qeyri-ənənəvi istehsal üsullarına müraciət olunma, mütərəqqi nəaliyyətlərin aqrar sahə subyektləri üçün əlçatan edilməsi məhs düşünülümüş və məqsədyönlü fəaliyyətin təzahürü kimi çıxış etməli, zəruri investisiya istiqamətlərin seçilməsinə şərait yaratmalıdır.

Aqrar sahə tərkib istiqamətlər kimi özündə bitkiçilik və heyvandarlığı birləşdirməkdədir. Həmin istiqamətlər kifayət qədər zəngin məhsul növü və çeşidi ilə fərqlənməkdədir. İfadə edilən fikir digər şərtlərlə yanaşı həmin məhsulların istehsalı və onu tamamlayan satışı üzrə genişspektrli ehtiyacların və deməli, investisiya yönlərinin mövcudluğuna diqqəti çəkir.

Eyni zamanda qeyd olunmalıdır ki, aqrar sahə tarixən özünün mövsümi istehsalı ilə fərqlənmişdir. Düzdür, haliyədə bu istiqamətdə edilən kifayət qədər böyük həcmli investisiyalar (ölkə üzrə 120 milyon ABŞ dollarından artıq) müxtəlif ixtisaslaşma obyektləri və istehsal üsullarına malik istixanaların, aqrar məhsulların saxlanılmasını təmin edən soyuducu komplekslərin yaradılmasına imkan vermişdir. Lakin düşünürük ki, bu sahədə investisiya prosesləri davam etdirilməli, daxili istehlak tələbatının daha yüksək səviyyədə ödənilməsi ilə yanaşı ixrac potensialının artımına öz töhvəsini verməlidir.

Məhsulların toplanılması, qablaşdırılması, saxlanılması və daşınması əməliyyatları özündə mürəkkəb və investisiyatutumlu prosesləri təcəssüm etdirməkdədirlər. Həmin əməliyyatlar eyni zamanda innovativ proseslərə və deməli, investisiya qoyuluşlarına eytiyacı duyulan istiqamətlərdəndir. Bəhs olunan məsələrdə əlavə kapitalın iştirakı optimallığın, qənaətçilliyin, səmərəliliyin və bu əsasda fəaliyyət gəlirliliyinin artırılmasına gətirib çıxarmaqla yanaşı əmtəələrin xarab olması və itkisinin dərəcə etibarı ilə artmasını önləyəcəkdir. Deyilənlərlə yanaşı, göstərilən istiqamətlərdə investisiya fəaliyyətinin həyata keçirilməsi regional, istehsal, texnoloji və digər xüsusiyyətlərin nəzərə alınması şərtilə daha yüksək nəticələrlə yekunlaşa bilər.

Aqrar sahədə investisiya qoyuluşlarını tələb edən məsələlərdən biri də istehsal komponentlərinin əldə olunmasıdır. Təkib etibarı ilə əldə olunanlar sırasında:

- ✓ məhsudar, reproduktiv toxumlar,
- ✓ malqara üçün kombinələşdirilmiş yemlər,
- ✓ məhsuldarlığın yüksəldilməsi üçün istifadə olunan gübrələr,
- ✓ kənd təsərrüfatı texnikası və texniki vasitələri (qoşqular, şumlayanlar və s.),
- ✓ çins heyvanlar,
- ✓ suvarma sistemləri,
- ✓ yanacaq və s. göstərilə bilər.

Bura həmçinin xam kənd təsərrüfatı məhsullarının sadə emalını həyata keçirə biləcək avadanlıq və qurğular, təsərrüfatların özündə yaradılan kiçik həcmli saxlama anbarlarını və digər komponentləri əlavə etmək mümkündür. Sadalananların hər biri spesifik, investisiya prosesləri zamanı nəzərə alınması zərurət təşkil edən xarakter və xassələrə malikdirlər.

Bəhs olunan sahədə aqrar sahibkarların xüsusi vəsaitləri hesabına edilən investisiyalarla yanaşı dövlətin həyata keçirdiyi müxtəlif proqramlar vasitəsilə (məsələn, təsərrüfatların genişləndirilməsi məqsədilə sahibkarlara verilən və minimal məbləği on min manat olan mikrokreditlər) mümkün olan investisiya əməliyyatları da daxil edilməlidir

Aqrar sahədə investisiyaların yönəldiyi mühüm istiqamətlərdən birini də istehsallarda seleksiya, baytarlıq, tibbi-sanitar və digər tədbirlərdən geniş istifadə olunmasıdır. Adətən belə tədbirlər sahəvi müstəvidə regionlar miqyasında mərkəzləşdirilmiş qaydada qəbul olunan xüsusi proqramlar, həyata keçirilən vahid iqtisadi siyasətin tərkib ünsürü kimi icra olunmaqdadır.


İstənil sahədə formalaşdırılmaqda, təşəkkül tapmaqda olan sahibkarlıq fəaliyyəti istehsalaqədərki məsrəflərə yol açır və ilkin kapitalın mövcudluğu halında baş tuta bilər. Bu baxımdan aqrar subyektlərin xüsusi və ya borc vəsaiti formasında pul vəsaitlərinə ehtiyac yaranır. Qoyuluş şəklini

alan investisiyalar məzmun etibarı ilə çatışmayan pul vəsaitləri üzrə kəsirin aradan qaldırılması məqsədini güdür və istehsalın sürətlə irəlilədilməsinin zəmini rolunda çıxış edir.

Müasir dövrdə aqrar istehsal sahələri, həmçinin onların həyata keçirildiyi subyektlər mütərəqqi infrastruktur sistemlərinin imkanlarından istifadə etməklə öz fəaliyyətini qurmaqdadırlar. Suvarma və içməli su, elektrik enerjisi, xüsusi təyinatlı daşıma və saxlama vasitələri təsərrüfatların istifadə etdiyi infrastruktur elementlərindən mühüm olanları kimi qəbul edilir, onların əldə edilməsi, yaradılması isə investisiyalaşmanın xüsusi obyektlərindən hesab olunmaqdadır.

Digər tərəfdən, investisiya fəaliyyəti özündə bir sıra ümumi məqamları əhatə etməkdədir ki, onları daha aydın şəkildə sxem 1 vasitəsilə görmək mümkündür.

Sxem 1.İnvestisiya fəaliyyətinin ardıcıllığı



Sxemdən də göründüyü kimi, "aqrar sahə - investisiya fəaliyyəti" tandemində görülməsi nəzərdə tutulan işlərin birinci mərhələsi məqsədin müəyyənləşdirilməsi və ona uyğun plan-proqram işlərinin həyata keçirilməsidir. Aparılmış müşahidələr istər aqrar sahə, istərsə də regional və ya subyektlər miqyasında istehsal və onu tamamlayan reallaşdırmada çatışmazlıqların hansı həlqələri əhatə etməsi haqqında ümumi şəkildə ilkin məlumatlar toplanır. Onların təhlili məqsədlərin müəyyənləşdirilməsinə yol açır. Dəqiqləşdirilmiş məqsədlər sonrakı fəaliyyət adımlarının atılmasına start vermiş olur.

Məsələyə elmi-nəzəri və təcrübi aspektlərdən yanaşma onun davam etdirilməsinin xaotik proses olmadığını, bəlli fəaliyyət ardıcıllığının, qanunauyğunluqların gözlənilməsini tələb edir. Bu baxımdan, investisiya işlərinin həyata keçirilməsini nəzərdə tutan zəruri plan və proqramlar hazırlanmalıdır. Onlarda investiyaların növləri, obyekti, mərhələləri, icrasının zaman ifadələri, mənbələri və digər zəruri göstəricilər öz əksini tapmalıdır.

Hazırlanmış plan və proqramlar təyinatından asılı olaraq sahə, istiqamət və ya mikrosəviyyədə investiya təyinatlı monitorinqlərin aparılmasına yol açır. Artıq obyektləri müəyyən edilmiş investisiya istiqamətləri üzrə geniş əhatəli, elmi cəhətdən əsaslandırılmış müşahidələrin təşkili mümkün olur. Bu mərhələnin nəticələrinə görə investisiyaların daha çox ehtiyac duyulduğu istiqamətlər seçilir.

İnvestisiya istiqamətinin seçilməsi özündə alınmış monitorinq nəticələrinin və ölkənin (və ya regionun, daha kiçik məskünlaşma məkanının) aqrar reallıqlarının məcmu şəklində öyrənilməsi əsasında həyata keçirilir. Bu zaman mövcud ola bütün birbaşa və dolayı təsir faktorları çoxamilli təhlilə məruz qalmalı, müxtəlif situasiyalar üzrə araşdırma təşkil olunmalıdır (torpaq resurslarının, işçi qüvvəsinin say-tərkib ifadəsinin yetərliliyi, tələbatın ödənilməsində yerli, regionlararası və ya ixrac ehtiyaclarının ödənilməsi və s.).

Aparılan seçim və dəqiqləşdirilən investisiya istiqamətləri onlar üzrə həyata keçiriləcək iqtisadi-texniki və maliyyə əsaslandırılması işlərinin icrası üçün şərait yaradır. Belə ki, investisiyanın təyinatı, onun hansı formada və kim tərəfindən həyata keçirilməsi, məbləğinin hansı həcmlərdə olması (smetası) və icra mərhələliyi, onun başa çatması halında hansı problemlərin aradan qalxması və ya səviyyəsinin minimallaşdırılması, istehsalın, infrastrukturun və ya satışın quruluşu və həyata keçirilməsində yarana biləcək dəyişikliklər məhs bəhs olunan istiqamətdə həyata keçirilən iqtisadi-

texniki və maliyyə əsaslandırmalarının yekunlarından, onların parametrlərindən asılıdır. İnvestisiya obyektinin məzmunundan asılı olaraq (istehsal komponenti və xidmət elementi) əsaslandırmalarda alqı-satqı obyekti onun ətrafında formalaşan bütün sistemi ilə əks olunmalı, spesifikasiyalar (əgər varsa) fərdi qaydada göstərilməlidir. Məsələn, investisiya obyekti hər hansı alınacaq avadanlıqdan ibarətdirsə, onun alınması şərtləri və qiymətləri ilə yanaşı, istifadəçiyə çatdırılma qaydasına və müddətlərinə, sazlama, ilkin sınaqların keçirilməsi və isifadəyə verilmə, hesablaşma üsulları və formasına, ehtiyat hissələri ilə təmin olunma və digər şərtlərə aydınlıq gətiriməlidir.

İnvestisiya fəaliyyətinin tətbiq obyekti baxımından müxtəlif formaları mövcuddur (istehsalın texnika, dövriyyə vəsaitləri ilə təmin olunması, infrastrukturun yaxşılaşdırılması və s.). Onlardan biri də innovativ fəaliyyətin təşkilini əhatə edir. Müvafiq yanaşma çoxsaylı işlərin həyata keçirilməsini əhatə edir ki, onların sırasında mühüm olanlarına aiddir:

- ✓ Sahənin və ya onun tərkib elementlərinin quruluşunun yenilənməsi və transformasiyası;
- ✓ İşçi heyətinin keyfiyyət xarakteristikalarının təkmilləşdirilməsi;
- ✓ Elm və texnika sahəsində uzunmüddətli proqramların həyata keçirilməsi;
- ✓ Texniki və texnoloji yeniliklərin işlənib hazırlanması və təcrübədə tətbiqi və s.

İnvestisiya işlərinin növbəti mərhələsi kimi vəsait mənbələrinin müəyyən olunması çıxış edir. Bu halda onların mərkəzləşdirilmiş qaydada (ölkə üzrə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində) dövlət vəsaitləri hesabına, xüsusi və ya cəlb edilmiş borc vəsaitləri formasında həyata keçiriləcəyinin qabaqcadan müəyyən edilməsi, onlardan istifadənin mümkünlüyünün dəqiqləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Digər tərəfdən, Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanununda investisiya məsələlərinin tənzimlənməsi ilə əlaqədar birbaşa müddəalar öz əksini tapmaqdadır. Müvafiq hüquqi-normativ akta əsasən investisiya fəaliyyəti investorlar tərəfindən edilən investisiya qoyuluşları zamanı yaranan hərəkətlərin məcmusu kimi qiymətləndirilir. Onun növlər etibarı ilə təsnifatı özündə çoxsaylı qrupları ifadə edir ki, bunlardan mühüm olanlarından aşağıdakıları göstərmək mümkündür:

1. Ölkənin hakimiyyət orqanları, həmçinin hüquqi subyektlər tərəfindən büdcə və büdcədənkənar fondların, xüsusi borc vəsaitlərinin hesabına edilən investisiya fəaliyyəti;
2. Respublika vətəndaşları, müxtəlif hüquqi və fiziki subyektlər tərəfindən həyata keçirilən qeyri-dövlət investisiya fəaliyyəti;
3. Ölkəmizin və xarici ölkə vətəndaşlarının, hüquqi subyektlərinin və dövlətlərin birgə həyata keçirdiyi investisiya fəaliyyəti;
4. Xarici ölkələrin hüquqi şəxsləri və vətəndaşları, dövlətlər, beynəlxalq maliyyə subyektləri tərəfindən birtərəfli qaydada həyata keçirilən investisiya fəaliyyəti və s.

Təsnifatdan da göründüyü kimi, Azərbaycan Respublikasında investisiya fəaliyyəti ilə məşğul olan uyğun qurumların təşkili mühüm amillərdən hesab olunur. Belə qurumlar dövlət, özəl və qarışıq formalarda olur. Onların fəaliyyət dairəsinə investisiyalara ehtiyacları olan ölkə və regiondaxili prioritet sahələrin müəyyənləşdirilməsi, xarici investisiyaların təşviqi, əlaqələndirilməsi, səmərəli istifadəsi, istiqamətləndirilməsi, mövcud tələbatlar səviyyəsində müvafiq layihələrin hazırlanması və onların həyata keçirilməsi, hüquqi sahədə zəruri tədbirlərin həyata keçirilməsi və s. aiddir.

Aqrar sahədə həəyata keçiriləcək investisiya fəaliyyətinin sonuncu mərhələsi kimi real investisiya proseslərinin icrası çıxış edir. Həmin mərhələ özündə bütün digər öncəki mərhələləri əyani, təcrübi təzahürü kimi çıxış edir.

Məqalədə investisiya fəaliyyətinin ümumi mahiyyətinə nəzər salınmaqla, onun mümkün mühüm amillər əsasında təsnifləşdirilməsi aparılmışdır. Qeyd olunan istiqamətdə elmi təməllərlə əsaslandırılmış sistemli işlərin həyata keçirilməsi təcrübi tətbiq zamanı investisiyaların məqsədyönlülüyünün, onların planlaşdırılmış şəkildə icrasının, səmərəliliyinin və əsaslandırılmış olmasının zəmini kimi çıxış edəcəkdir. Yaranan vəziyyət ümumilikdə ölkə iqtisadiyyatının, o cümlədən onun aparıcı sahələrindən olan kənd təsərrüfatının fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına şərait yaradacaq və ölkədə məhsul bolluğu, ərzaq təhlükəsizliyi, istehsal sahələrinin yeni texnika və texnologiya ilə təminatı sahələrində görülən işlərin zənginləşməsinə səbəb olacaqdır.

ƏDƏBİYYAT

1 1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s.
2 2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s
3 3. Ağayev S.T. Sahibkarlıq fəaliyyətində maliyyə menecmentinin təşkili. Bakı, Elm, 2003, 200 s.
4 4. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, Qeyrət, 2014, 107s.
5 5. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaş-masında rolu. Naxçıvan: Qeyrət. 2013, 130 s.
6 6. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avrora, 2013, 406s.
7 7. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan, Əcəmi, 2015, 184s.
8 8. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu. İqtisadiyyat və həyat jurnalı. 2002, № 10-12, s.22-31.
9 9. Azərbaycan Respublikası DSK-nın rəsmi elektron ünvanı. www.stat.gov.az
. 10. İnvestisiyalar. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi. http: //www.economy.gov.az/ index.php?lang=az.

ABSTRACT

Ilham Huseynov
Yeva Adygozalova

INVESTMENT PROPOSALS IN AQRAR SELECTION AND METHODOLOGY FEATURES

The article deals with the agrarian peculiarities and investment processes that play a key role in promoting food security, one of the leading components of the country's economy. This focus was focused on the classification of investment directions, their capacity-building and justification.

At the beginning of the work, the idea of the field of agriculture is explained by its location and the objectives it imposes, which implies the interconnection of the "modules" involved in the study of the problem, the dependence between them and the completion of each other, informs you of the impact and capabilities that may arise in different situations.

Investment processes are generally considered important tools in the economic development of the country and its regions. These operations, which are carried out by various physical or juridical persons, are not only affecting the structure of the economy but also contribute to the rapid development of priority areas and contribute to diversification and transformation.

Here, the sequence of implementation of investment processes is extensively studied in the application of individual approach to each stage. In this case, depending on the characteristics of the facilities involved in the regional or smaller dimensions, the performance of the work is recommended on the basis of visual evidences.

РЕЗЮМЕ

Ильхам Гусейнов
Ева Адыгезалова

ОСОБЕННОСТИ ВЫБОРА И ОБОСНОВАНИЯ ИНВЕСТИЦИОННЫХ НАПРАВЛЕНИЙ В АГРАРНОЙ ОТРАСЛИ

В статье повествуется об особенностях аграрной отрасли, как одной из ведущих составных экономики страны и играющей особую роль в обеспечении продовольственной безопастности, и об инвестиционных процессах. Особое внимание уделяется группированию инвестиционных направлений, проводимому по ним выбору на основе фактора важности и их

обоснованию.

В начале работы наряду с созданием представления о сущности сельского хозяйства повествуется о выполняемых им задачах и поставленных перед ним целях, что обуславливает взаимоотношения «модулей», учавствующих в изучении проблемы и взаимодополняющих один-другого, дается информация о формах и возможностях влияния при различных ситуациях.

Инвестиционные процессы считаются важным экономическим инструментов развития как страны вцелом, так и его регионов. Эти операции, проводимые в рамках различных государственных программ, различными физическими или же юридическими лицами наряду с влиянием на соотношения, превращаются в ощутимый толчок ускоренного роста приоритетных отраслей, вносят свою лепту на мероприятия по диверсификации и трансформации.

В работе очередность претворения в жизнь инвестиционных процессов рассматривается объемно, с уделением индивидуального внимания каждому из стадий. В региональном и более мелких масштабах релщмендованные к применению инвестиции в зависимости от особенностей привлекаемых к ним объектов рассматриваются на основе реальных примеров.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

EYVAZ EYVAZOV
Naxçıvan Dövlət Universitetinin
e.a.eyvazov@rambler.ru

UOT:332

KİÇİK VƏ ORTA SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏDƏN İSTİFADƏ

Açar sözlər: *sahibkarlıq, dövlət tənzimlənməsi, kiçik və orta sahibkarlıq, innovasiya, rəqabət, maliyyələşdirmə, güzəştli kreditləşdirmə*

Keywords: *entrepreneurship, state regulation, small and medium-sized enterprises, innovation, competition, financing, concessional lending*

Ключевые слова: *предпринимательство, государственное регулирование, малые и средние предпринимательства, инновации, конкуренция, финансирование, льготное кредитование,*

Sahibkarlıq (və ya sahibkarlıq fəaliyyəti) - əsrlər boyu insan həyatının mühüm atributu kimi çıxış edən, yeni təsərrüfat formalarının təkmilləşdirilməsinin zəruri komponenti olan, tarixi və sosial dəyərə malik çoxşaxəli təzahür forması və ya şəklidir. Məhz dövlətin bilavasitə təsiri ilə sahibkarlıq fəaliyyətinin təkamülü müasir inkişaf etmiş dövlətlər üçün xarakterik olan bazar tipli iqtisadiyyatın formalaşmasına səbəb olmuşdur. Hal-hazırda inkişaf etmiş dövlətlərin böyük əksəriyyətində sahibkarlıq fəaliyyətinin bu və ya digər formada tənzimlənməsi iqtisadiyyatın mühüm elementi olub, bu dövlətlərin sahibkarlıq fəaliyyətinə təsir formaları ölkələrin tarixi ənənələrindən, iqtisadiyyatların inkişaf səviyyəsindən, milli xüsusiyyətlərindən asılı olaraq müxtəlifdir. Ötən əsrimizin 80-90-cı illərində ölkəmizdə baş verən sosial-iqtisadi proseslər istehsal vasitələrinin milliləşdirilməsi (dövlət mülkiyyətində olması) və iqtisadiyyatın inzibati-amirlik sistemi ilə idarə edilməsi təməlinə dayanan iqtisadi modelin səmərəli olmadığını sübut etdi. Sovetlər Birliyinin dağılması və respublikamızda müstəqillik aktının qəbul edilməsi ilə suveren dövlət kimi yeni iqtisadi sistemə keçid çərçivəsində ölkəmizdə planlı iqtisadiyyatdan imtina edilməsi və bazar münasibətlərinin formalaşdırılması ilə bağlı olaraq sahibkarlıq fəaliyyətinin inkişafına limitsiz azadlıq verildi. Bu zaman sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin vacibliyini empirik olaraq başa düşən və qəbul edən iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin təcrübəsi nəzərə alınmamışdı [1].

Kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi məsələsini araşdırarkən, ilk əvvəl dövlətin kiçik və orta sahibkarlığa dəstəyinin səbəbini müəyyənləşdirmək lazımdır. Fikrimizcə, bu dəstək və ya himayənin səbəbini müəyyənləşdirmək üçün kiçik və orta müəssisələrlə iri müəssisələrin qarşılıqlı müqayisəsini nəzərdən keçirmək məqsədə uyğundur. Qeyd edək ki, hər hansı bir inkişaf etmiş dövlətin əsasını iri müəssisələr təşkil edirsə, onların iri həcmli kapitala malik olması elmi-texniki potensiala və istehsal güclərinə əhəmiyyətli dərəcədə təsir göstərirsə, kiçik sahibkarlıq isə inkişaf etmiş bazar sisteminin mühüm tərkib hissəsi hesab olunur. Kiçik sahibkarlıq müəssisələrin təşkilinin daha çevik, dinamik və kütləvi formasını əks etdirir. Məhz bu sektorda istənilən ölkənin inkişafının qan damarı hesab olunan milli resursların əsas kütləsinin dövriyyəsi həyata keçirilir. Kiçik sahibkarlığın hüdudları dövlət və digər hökumət orqanları tərəfindən müəyyənləşdirilmiş qanunvericilikdən asılıdır.

İnkişaf etmiş ölkələrdə kiçik və orta müəssisələr milli iqtisadiyyatın ən mühüm sektorunu təşkil edir. Əgər iri müəssisələr ölkənin elmi-texniki və istehsal potensialının səviyyəsini müəyyən edirsə, kiçik və orta müəssisələr işgüzar həyatın kütləvi forması olub ölkənin sosial-iqtisadi inkişafının stabilliyini təmin edir. Kiçik və orta müəssisələrin bir sıra ölkələr üçün əhəmiyyətini aşağıdakı cədvəl məlumatlarından görmək olar (cədvəl 1.).

Kiçik və orta sahibkarlıq sektoru yüksək dinamikliyi, innovasiya fəaliyyətinin çevikliyi, yeni

məhsulları və iş yerlərini yarada bilmə qabiliyyətliliyi ilə fərqlənir. Məsələn, ABŞ-da XXI əsrin ilk onilliyi ərzində innovasiya fəaliyyətinin təqribən 55%-i və yeni iş yerlərinin təxminən 75%-i kiçik və orta sahibkarlıq sektorunda yaradılmışdır. Bununla yanaşı kiçik və orta sahibkarlıq sektorunda

Cədvəl 1. 2005-2010-cu illər ərzində kiçik və orta müəssisələrin bir sıra ölkələrin iqtisadiyyatında xüsusi çəkisi

Ölkələr	KOM ümumi məşğul əhali sayında xüsusi çəkisi (%)	KOM ölkələrin ÜDM-də xüsusi çəkisi
Böyük Britaniya	52	53-56
Almaniya	69	55-57
ABŞ	53	50-52
Yaponiya	78	52-55
Macarıstan	65	50-52
Polşa	60	50-52

Mənbə: [2]

Kapital qoyuluşunun effektivliyi iri biznes sferasına nisbətən 9 dəfə yüksəkdir [3].

İnkişaf etmiş ölkələrdə kiçik və orta müəssisələrin sürətli və dayanıqlı inkişafı və ya böyüməsi ölkə hökumətlərinin iqtisadiyyatın bu sektorunun inkişafında maraqlı olması ilə izah edilir. Bu sektorun inkişafının digər bir səbəbi dövlət orqanları tərəfindən əhalinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa sövq edilməsidir. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi təcrübəsinə nəzər yetirəcəyimiz ölkələrdə kiçik və orta sahibkarlığa dövlət dəstəyi sistemində çoxlu oxşar cəhətləri görmüş olacağıq. Bu da iqtisadiyyatdakı qloballaşma proseslərinin güclü təsiri və maliyyə dəstəyi, texniki və informasiya köməyi üzrə ixtisaslaşan beynəlxalq təşkilatların fəaliyyəti ilə şərtləndirilir. Buna görə də nəzərdən keçirilən ölkələrin təcrübəsini öyrənmək məqsədəuyğundur.

Beynəlxalq təcrübədə kiçik və orta sahibkarlıq vahid bir təzahür forması kimi nəzərdən keçirilir. Kiçik sahibkarlığın yüksək inkişaf səviyyəsi bazar iqtisadiyyatının uğurlu fəaliyyətinin başlıca şərtidir. Dünyanın inkişaf etmiş bir çox ölkələrində kiçik biznes iqtisadi artımın tempini, ümumi daxili məhsulun strukturunu və keyfiyyətini müəyyən edir. Kiçik və orta sahibkarlığın uğurlu fəaliyyəti iqtisadiyyatın sağlamlaşdırılması üçün aşağıdakı əlverişli şəraiti yaradır: a) rəqabət inkişaf edir; b) əlavə iş yerləri yaradılır; c) ixrac potensialı yüksəlir; ç) yerli xammal resursları daha yaxşı istifadə edilir.

Kiçik sahibkarlığın əmək sərfi sferasını genişləndirmək, işlə təminatda yeni imkanlar yaratmaq, əhalinin işgüzar fəallığını artırmaq və yaradıcı güclərini istehsal dövriyyəsinə cəlb etmək qabiliyyətinə malik olması böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradılır ki, bunlardan əsasları aşağıdakılardır: 1.xüsusi mülkiyyətin mühafizəsinə yüksək təminatın verilməsi; 2. sahibkarlara azad fəaliyyət və geniş təsərrüfat müstəqilliyinin verilməsi; 3.düzgün, vicdanlı rəqabətin müdafiə olunması və inhisarçılıq fəaliyyəti ilə mübarizə; 4. güzəştli kreditləşdirmə və maliyyələşdirmə; 5. investisiyaların verilməsinə əhəmiyyətli köməkliyin göstərilməsi. Atılan bu addımlar nəticəsində kiçik istehsalçılar iri biznes subyektlərinə görə şəxsi kapitalları hesabına yüksək mənfəət əldə edirlər [4].

İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər yetirdikdə görürük ki, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və himayə edilməsi üzrə dövlət siyasətini kifayət qədər resurs imkanlarına və səlahiyyətlərə malik ixtisaslaşdırılmış dövlət orqanları vasitəsilə daha səmərəli şəkildə həyata keçirmək olar. Böyük Britaniyada bu tip dövlət orqanı 2000-ci ildə "Sənaye və ticarət nazirliyi (DTİ)"-nin tərkibində "Kiçik biznesə xidmət üzrə milli agentlik (SBS)" adı altında, ABŞ-da SBA adı altında, Almaniyada "İqtisadiyyat və texnologiyalar Federal nazirliyi (BMWA)"nin tərkibində "Kiçik və orta biznes, sənətkarlıq, xidmət və azad peşə ümumi direktoratlığı" adı altında, Yaponiyada "İqtisadiyyat, ticarət və sənaye nazirliyi (METİ)" tərkibində "Kiçik və orta sahibkarlıq agentliyi (SMEA)" adı altında, Macarıstanda "İqtisadiyyat nazirliyi" tərkibində "Sahibkarlığın inkişafı üzrə milli sovet" adı altında, Polşada "İqtisadiyyat nazirliyi" tərkibində "Sənətkarlıq, kiçik və orta sahibkarlıq departamenti" adı altında formalaşdırılmışdır. Bu zaman icra səlahiyyətlərinin bir hissəsi digər təşkilati

strukturlara (banklara, fondlara, departamentlərə, nəzarət-audit xidmətlərinə və s.) həvalə edilir. Yuxarıda adları qeyd edilən bütün təşkilatların funksiyaları əsasən oxşar olub, əsaslı fərq isə iyerarxik tabeçilikdə, digər təşkilatlarla qarşılıqlı fəaliyyətdə, təşkilati strukturda, fəaliyyət miqyasında, həmçinin əməkdaş və ictimai təşkilatlarla əlaqələr və ya münasibətlər sistemində özünü biruzə verir. İnkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın himayə edilməsindən məsul olan dövlət təşkilatlarının fəaliyyətinin öyrənilməsi göstərir ki, bu problemin ən mühüm həlli yolu ABŞ-da 1953-cü ildə "ABŞ prezidenti yanında Kiçik Biznes Administrasiyası (Small Business Administration - SBA)" kimi təşkilati strukturun yaradılması olmuşdur. SBA-nın fəaliyyətinin effektivliyini ABŞ-ın dayanıqlı inkişafı faktı, kiçik və orta sahibkarlığın gücü, SBA təcrübəsinin Avropa İttifaqında, Böyük Britaniya və Yaponiyada tətbiq edilməsi təsdiqləyir.

SBA-nın tərkibinə kiçik və orta sahibkarlığın tənzimlənməsi və himayə edilməsi üzrə işləri operativ həyata keçirən, həmçinin uzunmüddətli proqramların reallaşdırılmasını əlaqələndirən 4 departament daxildir. Bundan başqa SBA-nın tərkibinə iki müstəqil idarə - Vəkillik və Ümumi Təftiş idarəsi, bir inzibati departament (informasiya mərkəzi, əmək resursları və plan şöbəsi) və 9 ixtisaslaşdırılmış şöbə və xidmət aiddir. SBA ABŞ-da tamamilə və ya qismən federal büdcə vəsaitləri hesabına maliyyələşdirilən şaxələndirilmiş təmsilçilik, şöbə, məsləhət məntəqələri, biznes mərkəzləri və müvəkkil kompaniyalar şəbəkəsi yaratmışdır. Kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsi çərçivəsində həyata keçirilən dəstəyin böyük kapital qoyuluşu tələb etməyən, bir çox ölkələrdə geniş yayılmış və bizim ölkəmizdə də tətbiq oluna biləcək aşağıdakı bəzi növləri üzərində qısaca dayanaq:

✓ "Təqaüdçü rəhbərlərin məsləhət bürosu (ServiceCops of RetiredExecutives -SCORE)"nun işi kiçik və orta sahibkarlığa texniki kömək və məsləhət verilməsi üçün hazırda təqaüdə çıxmış yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən istifadə edilməsi ilə bağlıdır. ABŞ-ın 389 məsləhət məntəqəsi 11,4 min təqaüdçü ilə əməkdaşlıq edərək hər il 400 mindən yuxarı müştəriyə məsləhət verir. Analoji strukturlar Avropa İttifaqı ölkələrində də fəaliyyət göstərir. Bizim ölkəmizdə bu təcrübəni kiçik və orta sahibkarlığa dəstək olan yerli strukturlarla əməkdaşlıqda maraqlı olan yüksək ixtisaslı təqaüdçülər haqqında lokal məlumat bazasını yaratmaqla tətbiq etmək olar.

✓ Bir çox ölkələrdə (Almaniya, ABŞ, Yaponiya və s.) kiçik və orta müəssisələr kifayət qədər ağırlıqlı texniki kömək və iri həcmli kreditlər almaq üçün fəaliyyətlərinin təşkilati, texniki, maliyyə, kadr və başqa aspektləri üzrə obyektiv məlumatlar təqdim etməlidirlər. Bu cür məlumatlar adətən müvəkkil ixtisaslaşdırılmış təşkilatlar və ya diaqnostik mərkəzlər tərəfindən hazırlanır. Bu əhəmiyyətli dərəcədə müəssisələrə qoyulmuş və ya yatırılmış vəsaitlərin itirilməsi riskini aşağı salır. Bizim ölkəmizdə resursların məhdudluğunu, maliyyə köməkliyi üçün kütləvi müraciətləri və ayrılmış kreditlərin qaytarılmadığı hallarının tez-tez baş verməsini nəzərə alaraq maliyyə və texniki köməyə, restrukturizasiyaya ehtiyacı olan kiçik və orta müəssisələrin məcburi diaqnostikasını həyata keçirən institutların yaradılması zəruridir. Bu vəsaitlərin qənaət olunmasına və onların məqsədəuyğun istifadə edilməsinə, həmçinin sahibkarların məsuliyyət və cavabdehliyinin yüksəldilməsinə imkan verəcəkdir.

✓ Kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin və dolayı maliyyə dəstəyinin güclü vasitəsi dövlət və ya regional proqramlar çərçivəsində kiçik və orta sahibkarlığın maliyyə resursları ilə təmin edilməsi məqsədilə ayrılan kreditlərə dövlət təminatının verilməsidir. Bu cür proqramlar ABŞ-da, Yaponiyada, Almaniyada və digər ölkələrdə mövcuddur. Məsələn, ABŞ-da 2002-ci ildə kiçik və orta sahibkarlığın kreditləşdirilməsinə təminatın verilməsi üçün 17,5 mlrd dollar ayrılmışdır. ABŞ-da bu tipli 20-dən yuxarı ixtisaslaşdırılmışkreditləşdirmə proqramları mövcuddur. Qeyd edək ki, bu cür sistemin respublikamızda inkişafı xüsusi (şəxsi) kapitalın cəlb edilməsi hesabına kiçik və orta sahibkarlığa dəstəyin maliyyə resursları bazasını əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verəcəkdir.

✓ ABŞ, Yaponiya və İngiltərədə geniş yayılmış kiçik və orta sahibkarlıq fəaliyyətinin investisiya kreditləşməsi (investisiya yönümlü kredit verilməsi) təcrübəsi olduqca maraqlıdır. Bu təcrübənin əsasını şəxsi kapitallarını istifadə etməklə və SBA təminatı altında alınmış kapitalı cəlb etməklə xüsusi investisiya kompaniyaları (Small Business İnvestment Companies – SBİC)

şəbəkəsinin yaradılması təşkil edir. SBİC şəbəkəsi kiçik və orta sahibkarlıq fəaliyyətinə möxtəlif-yönümlü investisiya qoyuluşu həyata keçirir. Bu kompaniyalar səhm kapitalı, istiqraz vərəqəsi, uzunmüddətli borc verir, həmçinin maliyyə resurslarının idarə edilməsi üzrə xidmətlər göstərirlər. Onların fəaliyyəti üçün sövqedici stimul kiçik müəssisələrin uğurlu inkişafı və gələcək çiçəklənməsi halında SBİC-in mənfəətin bölüşdürülməsi prosesinin iştirakçısı olması ehtimalıdır.

✓ Kiçik və orta sahibkarlıq sektorunun innovasiya fəaliyyəti ilə məşğul olan müəssisələrinin ciddi problemlərindən biri intellektual mülkiyyətin hüquqlarının müdafiəsidir. Bununla əlaqədar olaraq Yapon hökuməti intellektual mülkiyyətin müdafiəsini, yayılmasını və intellektual mülkiyyətin hüquqlarının milli qeydiyyat sisteminin təkmilləşdirilməsini təmin edən bir sıra təşkilati və qanunverici tədbirlər həyata keçirmişdir. Fikrimizcə, ölkəmiz reallığında kiçik müəssisələrin innovasiya işləmələrinin patentləşdirilməsi və başqa ölkələrdə yeni məhsullarının sertifikatlaşdırılması məsrəflərinin maliyyələşdirilməsinin məqsədə uyğunluğu haqqında rəy vermək hüququna malik ekspert şurası yaratmaq məqsədə uyğundur. Bu məsrəflərin maliyyələşdirilməsi üçün dövlət təminatı və güzəştli kreditləşdirmə mexanizmindən istifadə etmək olar. Bu innovasiya fəaliyyəti ilə məşğul olan bir çox müəssisələrə dünyəvi yeniliyə və rəqabət qabiliyyətliliyə malik işləmələrinpatentləşdirilməsi və sertifikatlaşdırılması üçün vəsait əldə etməyə imkan verəcək, eyni zamanda, bu müəssisələrin dünya bazarına çıxma imkanlarını asanlaşdıracaqdır.

✓ Kiçik və orta sahibkarlığın gələcək inkişafına yönəldilə biləcək maddi və maliyyə resurslarının məhdud olmasından çıxaraq Yaponiya və Böyük Britaniyanın təcrübəsinə müraciət etmək, fikrimizcə, məqsədəuyğundur. Yaponiya və Böyük Britaniyanın təcrübəsi kiçik və orta sahibkarlığın inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə əsaslanır. Məsələn, Böyük Britaniyada 2000-ci ildə maliyyə resurslarının istifadə edilməsinin optimallaşdırılması məqsədilə kiçik və orta sahibkarlığın tənzimlənməsinin və himayə edilməsinin ikisəviyyəli prioritetlər sistemi qəbul edilmişdir. Bu sistemin analoji olaraq respublikamızda tətbiq edilməsinin məqsədə uyğunluğunu nəzərdən keçirək. Prioritetliyin birinci səviyyəsi ümumdövlət tətbiq miqyasına uyğun olmalıdır və sosial-iqtisadi islahatlar üçün zəruri resursların sürətli toplanmasına imkan yaratmalıdır. Prioritetliyin birinci səviyyəsi ölkənin sosial-iqtisadi inkişafı üçün strateji əhəmiyyətə malik konkret müəssisələr qrupunun inkişaf və himayə edilməsinin yüksək nəticəliliyini təmin edir. Prioritetliyin ikinci səviyyəsi sosial-iqtisadi inkişafın yerli və regional məqsədlərinə uyğun gəlməlidir və daha effektiv sürətlə inkişaf edən müəssisələrin, həmçinin yüksək sosial əhəmiyyət kəsb edən müəssisələrin himayə edilməsi yolu ilə regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün kifayət qədər resurs toplamaqdır. Qeyd edək ki, müəssisələrin bir neçə məqsədli prioritetlərə cavab verməsi halında, onlar bir neçə mənbədən maliyyə dəstəyinin verilməsinə və əlavə güzəştlərin əldə edilməsinə ümid edə bilərlər. [5].

Kiçik və orta sahibkarlıq fəaliyyətinin himayə edilməsi üzrə həyata keçirilən dövlət siyasətinin inkişaf etmiş ölkələrdə istifadə edilən 5 əsas istiqamətini ayırmaq olar: 1. vergi stimullaşdırılması; 2. dövlət tədatükü (alımı); 3. gömrük-tarif tənzimlənməsi; 4. dövlət subsidiyalaşdırılması; 5. Standartlaşdırma. Eyni alətlər dövlətlər tərəfindən sahədəki mövcud vəziyyətdən asılı olaraq müxtəlif məqsədlərə nail olmaq üçün istifadə oluna bilər. Qeyd edək ki, istifadə olunan bu alətlər müxətlif təsirlər doğura bilər. Məsələn, aşağı idxal paylı seqmentlərdə daxili istehsal həcminin artırılması və kompaniyaların ixrac bazarlarına çıxmasına köməklik göstərilməsi, müəssisələrin rəqabət qabiliyyətlilik səviyyəsinin saxlanılması məqsədilə modernləşdirilməsi üçün vergi güzəştləri və ya subsidiyalaşdırma kimi tənzimləmə alətlərindən istifadə edilə bilər. İdxal bu zaman stabil olmaqla aşağı səviyyədə qalacaqdır və onun stabilliyi logistik (maddi-texniki) mülahizələrlə, ayrı-ayrı istehlakçıların istehlak prioritetləri ilə, texnoloji asılılığın hakim olması ilə izah olunur. İdxaldan asılı olan sektorlarda vergi güzəştləri və ya subsidiyalaşdırma kimi tənzimləmə alətlərindən istifadə müəssisələrin rəqabət qabiliyyətliliyini yüksəldir və idxalı əvəzetməni stimullaşdıran mexanizm olur[7,8].

Kiçik və orta sahibkarlığın himayə edilməsi üzrə dövlət siyasətinin məqsədlərini iki yerə - iqtisadi və sosial məqsədlərə ayırmaq olar. İnkişaf etmiş xarici ölkələr kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafının stimullaşdırılması üçün vergi güzəştləri mexanizmini fəal surətdə tətbiq edirlər. Məsələn, İsveçdə ötən ilin səviyyəsi ilə müqayisədə cari ildə (2016-cı ildə) firmalar araşdırma işlərinə

sərf etdikləri məsrəflərin 10% həcmində vergi məbləğindən azad edilmişlər. Fransa və Almaniyada araşdırma işlərinə və işləmələrə sərf edilən cari məsrəflər hesabdan silinə bilər. Vergi araşdırma krediti Böyük Britaniya, Belçika, Danimarka, Avstraliya, Avstriya, Macarıstan, İspaniya, Portuqaliya, Kanada, Fransa, Norveç, ABŞ, Yaponiya, Meksika və Cənubi Koreya kimi ölkələrdə tətbiq edilir. İspaniya, Böyük Britaniya, Almaniya və İsveç kimi ölkələr kiçik və orta sahibkarlığın innovasiya yönümlü fəaliyyətini stimullaşdırmaq üçün dolayı vergilərdən istifadə edirlər. Qeyd edək ki, hazırda bu ölkələrdə innovasiya təyinatlı əmtəələr üzrə ƏDV normasının diferensiallaşdırılmasının tətbiq edilmə mümkünlüyü nəzərdən keçirilir.

Bir çox tədqiqatçı və kompaniyalar səhm satışından əldə edilən mənfəətdən alınan vergi normasının azaldılmasını vergi stimullaşdırılmasının ən perspektiv növü adlandırırlar. Bu təcrübənin ABŞ-da tətbiqi vençur kapitalının və vençur sahibkarlığının stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olduğunu sübut etdi. Çin Xalq Respublikası hökuməti kənd təsərrüfatı məhsullarının emalı sənayesinin və qeyri-kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi, vergi islahatlarının aparılması, taxıl istehsalının himayə edilməsi yolu ilə kənd təsərrüfatına ünvansız subsidiyalaşdırma göstərir. ABŞ-da yarpaq tütünə qoyulan vergi istisna olmaqla kənd təsərrüfatının spesifik məhsullarına qoyulan bütün növ vergilərin ləğv olunması planlaşdırılır ki, bu addım kəndlilərin hər il 478 mln. dollar həcmində vergi yükünün azalmasına imkan verir[10].

Qeyd edək ki, yüksək texnologiyaların mənimsənilməsi və inkişafı zonalarında vergi güzəşti rejimi təcrübəsindən istifadə olunur ki, bu da kiçik və orta sahibkarlığın innovasiya yönümlü fəaliyyətini stimullaşdırır. Məsələn, Çinin şimal-şərqində yerləşən Harbində müəssisələr qeydiyyat tarixindən başlayaraq üç il ərzində tamamilə əlavə dəyər vergisindən azad edilir, sonrakı üç il ərzində ƏDV-ni 50% güzəştlə təqribən 8,5% həcmində vergi ödəyir. Texnologiya işləyiciləri üçün avadanlıq və cihazların idxalı rüsumların ödənilməsindən tamamilə azad edilmişdir.

Bir sıra hallarda dövlət satınalmaları kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinin təsirli aləti ola bilər. Bir çox ölkələrdə dövlət satınalmaları bazarının ÜDM-nin əhəmiyyətli hissəsini təşkil etdiyi faktını nəzərə alaraq qeyd edə bilərik ki, yerli kompaniyaların dövlət sifarişlərinə yol tapması ehtimalı milli istehsalçıları istehsalı genişləndirməyə, müasir texnologiyaları tətbiq etməyə, işçilərin sayını artırmağa imkan verən uzunmüddətli müqavilələrlə təmin edir. Buna görə də dünya ölkələrinin böyük əksəriyyətində dövlət ehtiyaclarının ödənilməsi üçün satınalmalar bazarı proteksionist siyasət səhnəsinə çevrilir. Bu cür ölkələrin əsas arqumenti və ya sübutu vergi ödəyicilərinin pullarının milli sahibkarlığın himayə edilməsinə yönəldilməsi qənaəti və ya inancıdır. Ümumdünya ticarət təşkilatı milli hökumətlərin yerli istehsalçıları dövlət satınalmaları sferasında ixracçılara məhdudiyyətlərin gətirilməsi yolu ilə müdafiə etmək siyasətini məhdudlaşdırmır.

Dövlət müdaxiləsinin gömrük-tarif metodları ölkə iqtisadiyyatındakı struktur dəyişikliklərin stimullaşdırılması və daxili bazarın qorunması üçün idxal və ixrac əməliyyatlarının tənzimlənməsinə istiqamətlənmişdir. Gömrük-tarif tənzimlənməsi dövlət orqanları tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilən təşkilati, iqtisadi və hüquqi tədbirlər məcmusunu əks etdirir. Başqa sözlə desək, gömrük-tarif tənzimlənməsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsini əhatə edir. Gömrük-tarif tənzimlənməsinin əsas prinsiplərindən biri dövlət tərəfindən birtərəfli qaydada gömrük rüsumlarının müəyyənləşdirilməsi prinsipidir. Bu prinsip gömrük-tarif münasibətlərinin subyektlərinə rüsumların ödənilməsi müddəti və həcmi (ölçüsü) məsələləri üzrə hər hansı bir razılaşma əldə edilməsini və ya müqavilə bağlanmasını qadağan edir.

Avropa İttifaqı ölkələrində hər il Avropa İttifaqı Komissiyası tərəfindən formalaşdırılan və çap olunan Vahid Gömrük tarifləri fəaliyyət göstərir. Rəsmi nəşrdə qanunvericiliklə müəyyən edilmiş fərdi (muxtar) və konvension (şərti) rüsum dərəcələri öz əksini tapır. Vahid Gömrük tariflərində əmtəələrin böyük əksəriyyəti üçün gömrük tarif dərəcələri 4-25% arasındadır.

Konvension (şərti) rüsum dərəcəsi və ya konvension gömrük tarifi ÜTT-nin üzvü olan, ən əlverişli şərait yaratma rejimindən faydalanan ölkələrin əmtəələrinə tətbiq edilir. Praktik olaraq əlverişli şərait yaratma rejimi tarifləri istənilən mənşədən əmtəələrə tətbiq olunur. Bu tariflər qida məhsulları və kənd təsərrüfatı məhsulları üçün fərdi (muxtar) tariflərdən 10-13% aşağıdır. Digər əmtəələr üçün əlverişli şərait yaratma rejimi tarifləri fərdi tariflərdən 25%-dən 70%-dək aşağıdır.

Ümumi İmtiyazlar Sistemi sxemi bütün inkişaf etməkdə olan ölkələrə - 69 Afrika, Sakit okean

və Karib hövzəsi ölkələrinə tətbiq edilir. Bununla yanaşı sərbəst ticarət haqqında bir sıra razılaşmalar (Norvüçlə, İslandiya, İsveçrə, İsrail ilə), assosiasiya sazişi (Türkiyə, Malta, Macarıstan, Polşa və s.) fəaliyyət göstərir.

Bazar iqtisadiyyatlı ölkələrdə həyata keçirilən dövlət investisiya siyasətinin təhlili göstərir ki, investisiya siyasəti investisiya fəaliyyəti üçün ümumi şəraitin yaradılması ilə məhdudlaşmır, eyni zamanda, iqtisadiyyatın üzünmüddətli maliyyələşdirilməsi sisteminin yaradılmasında dövlətin fəal rolunu nəzərdə tutur. Qeyd edək ki, xarici ölkələrdə iqtisadiyyatın dövlət maliyyələşdirilməsi müxtəlif metod və mexanizmlərin köməyi ilə həyata keçirilir. Məsələn, İtaliya və Finlandiya üçün sənayenin dövlət subsidiyalaşdırılması xarakterikdir. Bu ölkələrdə dövlət dəstəyi birbaşa maliyyələşdirmə şəklində ixraca kömək etməyə istiqamətlənmişdir. Bu məqsədlərin həyata keçirilməsi üçün İtaliyada "Saçe" dövlət sığorta şirkəti yaradılmış və daha sonra 1998-ci ildə əmlak və təşkilati müstəqilliyə malik xarici ticarət əməliyyatlarının sığortalanması üzrə Dövlət institutuna çevrilmişdir.

Fransa və Almaniyada dövlətin iqtisadi siyasəti regional iqtisadi fərqliliyin tarazlaşdırılmasına yönəldilmişdir. Bu ölkələrdə, həmçinin pul vəsaitlərinin bölüşdürülməsininsahəvi və daha səmərəli hesab edilən regional metodundan istifadə edilir. Fransada dövlət və region münasibətləri müqavilə əsasında, regionların iqtisadi inkişafına dövlət dəstəyi məqsədilə milli planlaşdırma sistemi çərçivəsində qurulur. Fransa və Almaniya təcrübəsi əsasında – müxtəlif regionlar arasındakı fərqlərin tarazlaşdırılması üçün dövlət maliyyələşdirilməsi prinsipindən artıq Avropa İttifaqı səviyyəsində də istifadə edilir. Çin və Yaponiya iqtisadiyyatındakı ən mühüm struktur layihələrin maliyyələşdirilməsi üçün həm büdcə vəsaitlərindən, həm də dövlət təminatı altında olan müxtəlif növ vətəndaş əmanətlərindən fəal istifadə edilir.

Standartlaşdırmaya bu fəaliyyətin əsas subyektləri – dövlət orqanları və əmtəə və xidmət istehsalçıları tərəfindən müasir yanaşma onunla müəyyən olunur ki, standartlaşdırma dünya miqyasında ticarət əlaqələri sahəsindəki siyasətin başlıca halqasıdır və cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi sferasının işləməsini təmin edən sabitləşdirici amildir. Bu yanaşmanın mahiyyəti dövlətin və istehsalçı məsuliyyətinin bölüşdürülməsindən ibarətdir[11].

Cəmiyyətin və bazarın artan ehtiyaclarının ödənilməsi məqsədilə, həmçinin standartlaşdırma prosesində iştirak edən bütün maraqlı tərəflərin mənafelərini nəzərə almaqla standartlaşdırma üzrə aparıcı milli orqanlar milli standartlaşdırma sistemi strategiyaları işləyib hazırlayırlar. Bu zaman beynəlxalq standartlaşdırma sisteminin strateji inkişaf planları, beynəlxalq ticarətdəki texniki maneələr üzrə müqavilə müddəaları nəzərə alınır. Fəaliyyət göstərən strategiyalara (konsepsiyalara) aşağıdakıları aid etmək olar:

1. Standartlaşdırmanın Alman strategiyası (2004-cü il);
2. ABŞ-ın milli standartlaşdırma strategiyası (2000-ci il);
3. 2002-2005-ci illəri əhatə edən standartlaşdırmanın fransız sisteminin strategiyaları;
4. İngiltərənin milli standartlaşdırma strategiyası (2003-cü il).

Fikrimizcə, sənayecə inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın inkişafının həlledici amili dövlət dəstəyi və ya himayəsinin həyata keçirilməsidir. Biznesin çoxyönlü stimullaşdırılması, hər şeydən əvvəl, onun inkişafı üçün əlverişli iqtisadi və hüquqi mühitin yaradılmasını nəzərdə tutur. İnkişaf etmiş bazar iqtisadiyyatlı xarici ölkələrin təcrübəsi göstərir ki, inkişaf etmiş sahibkarlıq fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafında mühüm funksiyalar yerinə yetirir. Qeyd edək ki, araşdırılmış xarici təcrübə uğurlu şəkildə Azərbaycan iqtisadiyyatına uyğunlaşdırıla və tətbiq oluna bilər.

Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, kiçik və orta sahibkarlığa dövlət tərəfindən lazımi qayğı göstərilməsi elə bir işgüzarlıq mühitini formalaşdırır ki, bunsuz şəxsi marağa və istehsalçıların təşəbbüsünə əsaslanan bazar iqtisadiyyatı mümkün deyildir.

Belə ki, respublikada müasir sahibkarlıq sistemini dövlətin köməyi ilə formalaşdırmaq lazımdır. Nəinki iqtisadi təşəbbüsün dövlət tərəfindən məhdudlaşdırılması hallarını aradan qaldırmaq, həm də sahibkarlığa təsirli dövlət köməyi mühitini yaratmaq lazımdır. Kiçik və orta sahibkarlığı inkişaf etdirməyin strategiyası respublikanın tarixi və milli xüsusiyyətlərinə, sosial-iqtisadi və coğrafi-siyasi şəraitinə, dünyanın müasir iqtisadi və intelekual inkişaf meyllərinə əsaslanmalıdır. Çevik sahibkarlıq quruluşunun formalaşdırılması özündə kiçik, orta və iri sahibkarlığı əlaqələndirərək iqtisadiyyatın, respublika əhalisinin tələbatına və dünya təsərrüfatının rəqabət şəraitinə uyğunlaşdırılmasına güclü

təsir göstərə bilər. Sahibkarlığa maraq oyatmaq üçün istifadə edilən tədbirlər sistemi əhalinin iqtisadi və əmək fəallığının artırılması, məhsuldar əməyin həvəsləndirilməsi amili rolunu oynamalıdır. Sağlam sahibkarlıq mühitinin inkişaf tapması və insanlarda müvafiq təfəkkür və davranış tərzinin ayrılmaz cəhətləri kimi müasir sahibkarlıq ruhunun tərbiyə edilməsi Azərbaycanda səmərəli bazar iqtisadiyyatının sürətlə formalaşdırılmasının, cəmiyyətdə sosial-siyasi vəziyyətin stabilləşdirilməsinin ən mühüm şərtidir.

ƏDƏBİYYAT

1 1. Дегтярев А.Н., Лузина И.А. Государственная поддержка предпринимательского сектора: мировой и российский опыт. Москва, 2000.
2 2. U.S.SBA. The Millenium: Small Business and Enterpreneur ship in the 21-st Century. Washington, 1995
3 3. Шульце П. Российские преобразования в европейском контексте // Власть, Москва, 2001, № 9.
4. Киселев В. Взаимодействие крупного капитала и государственной власти (зарубежный опыт) // Проблемы теории и практики управления. 2010, № 1.
5. Личко К.П. Прогнозирование и планирование аграрно-промышленного комплекса. Учебник, Москва, Гардарики, 2012.
6 6. Руденко Л.Г., Жидков А.С. Государственно-частное партнерство как возможный инструмент стимулирования импортозамещения // Экономика и предпринимательство, 2015, №6, стр.179-183.
7 7. Бадалов А.Л. Частно-государственное партнерство в реализации инвестиционных проектов // ЭКО. 2008, №6, стр. 129-141.
8 8. Гайнутдинов Э.М. Основы предпринимательства. Минск, Высшая школа, 2003, 45 стр
9 9. Пелих А.С. Экономика предприятия и отрасли промышленности, Москва, 2011.
10. URL: http://www.sba.gov/aboutsba
1 11. URL: http://www.nisse.ru

ABSTRACT

Eyvaz Eyvazov

USING INTERNATIONAL EXPERIENCE OF STATE REGULATION OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP ACTIVITY

The article analyzes the practice of state regulation of entrepreneurial activity in the developed countries of the world. The forms of state influence on the entrepreneurial activity of these countries differ depending on historical traditions, the level of economic development, national characteristics, the reasons for state support of small and medium-sized businesses, and so on. A comparison of small and medium-sized enterprises with large enterprises.

Based on international experience, it was noted that the decisive factor in the development of small and medium-sized businesses in industrialized countries is support, as well as state protecttion. Multifaceted business incentive implies the creation of a favorable economic and legal environment for its development.

The necessary state care for small and medium-sized businesses creates such a business environment, without which a market economy based on personal interests and initiatives of producers is impossible. It was stressed that the formation of a flexible structure of pre-engagement can have a strong influence on the adaptation of small, medium and large enterprises to the needs of the population of the republic and the competitive environment of the world economy. It is noted that the system of measures used to stimulate entrepreneurship is the most important condition for increasing the economic and labor activity of the population, creating a healthy entrepreneurial

environment, the rapid formation of an effective market economy in Azerbaijan, and stabilizing the socio-political situation in society.

РЕЗЮМЕ

Эйваз Эйвазов

ИСПОЛЬЗОВАНИЕ МЕЖДУНАРОДНОГО ОПЫТА ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ДЕЯТЕЛЬНОСТИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

В статье анализируется практика государственного регулирования предпринимательской деятельности в развитых странах мира. Формы влияния государства на предпринимательскую деятельность этих стран различаются в зависимости от исторических традиций, уровня экономического развития, национальных особенностей, причин государственной поддержки малого и среднего бизнеса и т.д. Так же было рассмотрено сравнение малых и средних предприятий с крупных предприятиями.

Основываясь на международный опыт, было отмечено, что решающим фактором в развитии малого и среднего бизнеса в промышленно развитых странах является поддержка, а так же защита государства. Многогранный стимул бизнеса предполагает создание благоприятной экономической и правовой среды для его развития.

Необходимая забота государства для малого и среднего бизнеса создает такую бизнес-среду, без которой основанная на личных интересах и инициативах производителей рыночная экономика невозможна. Было подчеркнуто, что формирование гибкой структуры предпринимательства может оказать сильное влияние на адаптацию малого, среднего и крупного предпринимательства к потребностям населения республики и конкурентной среды мировой экономики. Отмечается, что система мер, используемых для стимулирования предпринимательства, является важнейшим условием повышения экономической и трудовой активности населения, создания здоровой предпринимательской среды, быстрого формирования эффективной рыночной экономики в Азербайджане и стабилизации общественно-политической ситуации в обществе.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NURİYYƏ İBRAHİMOVA
Naxçıvan Dövlət Universiteti
nuriyyeibrahimova@mail.ru

UOT:330

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI SOSİAL-İQTİSADİ İNKİŞAFINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN SÜRƏTLİ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Açar sözlər: *region, sahibkarlıq, potensial, maksimum, strayegiya, resurs*
Key words: *region, owner, potensial, maximum, strategy, resources*
Ключевые слова: *регион, предпринимательство, потенциал, максимум, стратегия, ресурсы*

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş quruculuq xətti ölkəmizdə davamlı inkişafı təmin etmişdir. Sahibkarlığın inkişafı bu istiqamətdə nəzərdə tutulmuş mühüm faktordur. İqtisadiyyatın canlandırılmasının əsas yolunun islahatlardan və sahibkarlığın inkişafından keçdiyini bildirən ulu öndərimiz deyirdi ki, "Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur. Hazırda bu yol uğurla davam və inkişaf etdirilir.

Azərbaycan Respublikası Prezidentinin regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramları ölkəmizin eləcə də muxtar respublikamızın davamlı inkişafına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə gətirib çıxarmışdır. Cari il yanvar ayının 3- da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iatisadi inkişafı "Dövlət Proqramı"nın icrasının ümumi ilinin yekunlarına həsr olunmuş konfransda ölkə prezidenti cənab İlham Əliyev sahibkarlığa dövlət dəstəyinin bundan sonra da davam etdiriləcəyini bildirərək demişdir. "Sahibkarlığın inkişafı ilə bağlı bütün lazımi tədbirlər görülür. Biz bütün bu işləri görürük ki, Azərbaycanda inkişaf hərtərəfli və sürətli olsun".

Region iqtisadiyyatının inkişafı indiki tarazlı inkişaf strategiyasının reallaşması kontekstində mühüm əhəmiyyət kəsb edir. Regionda sahibkarlıq həmin regionda bazar münasibətlərinin təşkilatı forması olmaqla region məqsədlərinin və onun iqtisadi-sosial potensialının maksimum istifadəsi qanunauyğunluqlarını əhatə edir. Əgər hər bir regionun öz sahə şəraiti onun ilkin resurs potensialını yaradırsa, onun sonrakı inkişafı, iqtisadi siyasətin, dövlətin iqtisadi rolu ilə daha da artır, təkmilləşir.

Sahibkarlığın inkişafının regional problemləri və əsas istiqamətləri həmin regionun resurslarından və onun əsas tələbat sisteminin ən səmərəli ödənilməsi yollarından və xüsusiyyətlərindən asılıdır.

Milli iqtisadiyyatı formalaşdırmaq, daxili bazarı xarici amillərin təsirindən qorumaq üçün sağlam sahibkarlıq mühitinin yaradılması zəruridir. Bu amil nəzərə alınaraq ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həmçinin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir. 2016-cı ildə Sahibkarlığa Kömək Fondu tərəfindən özəl bölmənin inkişafına 15 milyon manatdan artıq kredit verilmişdir. Fəaliyyətin bu növü ilə məşğul olmaq istəyən 33 hüquqi və 2173 fiziki şəxs qeydiyyata alınmış, 49 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır.

Muxtar Respublikada sahibkarlığın sahəsində yaradılan şəraitin nəticəsidir ki, ötən il ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 87 faizi ötmüşdür. Hazırda sənaye sahəsində məhsul istehsalının 96 faizi, tikintidə görülən işlərin 85 faizi, nəqliyyat xidmətinin 82 faizi, rabitə xidmətinin 81 faizi, kənd təsərrüfatında işlərin 98 faizi, ticarət və mehmanxana xidmətlərinin isə 100

faizi özəl bölmənin payına düşür ki, bunlar da çox yüksək göstəricilərdir.

Bu gün dünyada gedən böhrandan qorunmağın ən yaxşı yolu sahibkarlq fəaliyyətinin daha da genişləndirilməsindən və yerli istehsalın inkişaf etdirilməsindən keçir. Bu bir tərəfdən idxaldan asılılığı aradan qaldırsa, digər tərəfdən əhali məşğulluğuna əhəmiyyətli təsir göstərir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər öz nəticəsini göstərib, yeni istehsal müəssisələri fəaliyyətə başlayıb və yerli istehsalın həcmi artıb. 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsalı olunurdusa, hazırda 366 adda məhsul istehsal olunur. Yeni yaradılan sahibkarlıq müəssisələri hesabına əhalinin 344 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Əhalinin ərzaqla təminatında kənd təsərrüfatının mühüm rolu vardır. Ona görə bu sahədə sahibkarlığın inkişafına dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Aqrar sektorda fəaliyyət göstərən sahibkarlar torpaq vergisi istisna olmaqla həmin növ vergilərdən azaddırlar. Onlara güzəştli şərtlərlə texnika, yanacaq, kredit, subsidiyalar, gübrə verilir, suvarma sistemlərinin təkmilləşdirilməsi üçün yeni infrastruktur yaradılır. Bütün bunları həyata keçirməkdə məqsəd məhsul bolluğuna nail olmaqdan, əksər kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, sənaye sahəsində də sahibkarlıq fəaliyyəti genişlənib. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublikada bu gün aqrar sənaye kompleksi böyük üstünlüyə malikdir. Hazırda Naxçıvan Muxtar Respublikasında avtomobil və tikinti materialları, ərzaq və məişət əşyaları istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr fəaliyyət göstərir. 1996-cı ildə muxtar respublika da ümumilikdə 40 sənaye müəssisəsi vardısa, bu gün onların sayı 11 dəfə artırılaraq 442-yə çatdırılıb. Yeni fəaliyyətə başlayan müəssisələr əsasən yerli xammaldan istifadə əsasında öz fəaliyyətlərini qurublar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehsalçılara çatdırılmasına imkan verir. Hal hazırda muxtar respublikada mövcud olan 442 istehsal müəssisəsindən 311 və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Bu hesaba bir tərəfdən digər sahələr də inkişaf edir, ikinci tərəfdən isə daxili bazar etibarlı şəkildə qorunur.

Muxtar Respublikada 2016-cı ildə sosial-iqtisadi inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi artaraq 2 milyard 582 milyon 361 min manat təşkil edib. Yeni normativ hüquqi aktların qəbulu, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər əlverişli biznes mühitinin inkişafına şərait yaradıb. Ötən il sahibkarlara verilmiş kreditlərin 79 faizi sənaye və kənd təsərrüfatı olmaqla real sektorun, 21 faizi isə xidmət sektorunun payına düşüb, 6 heyvandarlıq, bir quşçuluq, bir balıqçılıq, 6 soyuducu anbar və 3 istixana təsərrüfatı fəaliyyətə başlayıb. Sahibkarların sayının artması məşğuıuq problemlərinin həllinə də əhəmiyyətli təsir göstərib. Bu fəaliyyətin nəticəsində 2016-cı ildə 3 mindən artlq iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılması icracın genişlənməsinə yeni imkanlar yaradıb, elektrik enerjisi, ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları xarici ölkələrə ixrac edilib.

Elə bu baxımdan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın formalaşması üçün yerli xammala əsaslanan xarici bazar seqmentləri ilə idarə olunan forma və idarəçiliyə daha üstünlük vermək olar. Belə ki, Naxçıvan Muxtar Respublikasının duz mədənləri, mineral su ehtiyyatları, təbii bitkilər, daş karxanaları açmaq, turizm bazası kimi servis xidmətlərini genişləndirmək, iqtisadi cəhətdən səmərəli ərazinin sosial-iqtisadi inkişafı üçün kompleks yanaşma texnologiyasıdır.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikasının 2014-2018 ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
2. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri Bakı 2000., səh 114.
3. Əlirzayev Ə.Q. Əliyev K.Q. Sahibkarlığın inkişafının təsnifatı, İqtisadiyyat və audit, Bakı, 2002
4. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri, İqtisadiyyat və audit jurnalı 2003 №10. Səh 24-25.
5. N.Əhmədov Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf, Bakı, 2008.
6. İbrahimov İ. Aqrar islahatlar və sahibkarlığın inkişafı, Bakı, 2005.
7. Xalq qəzeti 12 fevral 2017- ci il.
8. Rüstəmov A., Qasımov D. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi Bakı Avrora, 2013, səh 406.
9. Abbasov T.A. Naxçıvan Muxtar Respublikasında aqrar bazarın formalaşması və xüsusiyyətləri

Bakı, 2005, Səh 301.
10. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşdırılmasında rolu Naxçıvan, 2014. Səh 129.
11. N.İbrahimova Regionda aqrar sahənin istehsal iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri Naxçıvan, İdeya 2011, Səh 214.

ABSTRACT

Nuriyya Ibrahimova

IN THE SOCIAL-ECONOMIC DEVELOPMENT OF NAKCHIVAN AUTONOMOUS REPUBLIC FAST DEVELOPING DIRECTION OF OWNER SHIP ACTIVITY

The development of regional economy manes an important role in realizing con test of development strategy. In region owners provide the aim of the region and the using rules of social economic potensial. If the condition of all countries can make the first resource potensial that time its development will be improved on the reason of the economic policy.

The regional problems and direction of the development of owner deperd on the count ries resources.

For forming the national economy, saving the domestic market from the foreign market the creating of owhers are very important. Considering of these articles in our country at the same teme. Nakhchivan Autonomous Republic the creating of the small owner are on the centre of the attention. The increasing of financial aid to the owner, disappearing of the artifitual affords, some taxes and duties ingluence to the development of the owners.

РЕЗЮМЕ

Нурия Ибрагимова

РОЛЬ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Экономическое развитие региона в контексте реализации настоящей сбалансированной стратегии развития имеет важное значение. Предпинимательство, являющееся организационной формой рыночных отношений в регионе, охватывает закономерности целей региона и максимального использования его социально-экономического потенциала. Если отраслевое условие каждого региона создаёт его первичный ресурсный потенциал, его дальнейшее развитие еще более повышается и совершенствуется в результате проводимой государством экономической политики.

Региональные проблемы и основные направления развития предпинимательства зависят щт ресурсов данного региона, а также путей и особенностей самого эффективного выполнения основной системы спроса.

Для формирования национальной экономики, защиты внутреннего рынка от влияния внешних факторов необходимо создание здоровой предпинимательской среды. Учитывая этот фактор в нашей стране, в том числе в Нахчыванской Автономной Республике, частная собственность, развитие малого и среднего бизнеса находятся в центре внимания. Повышение с каждым годом финансовой поддержки предпинимателям, устранение искусственного вмешательства в деятельность этой области, внедрение ряда налоговых и таможенных льгот оказывают воздействие на развитие предпринимательской деятельности.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ŞAHİN ƏLİYEV
Naxçıvan Dövlət Universiteti

UOT:330

NAXÇIVAN VƏ İRAN ARASINDA NƏQLİYYAT ƏLAQƏLƏRİNİN İNKİŞAFI, ONUN İQTİSADİ SƏMƏRƏLİLİYİ

Açar sözlər: nəqliyyat sektoru, qarşılıqlı əlaqələr, ölkə iqtisadiyyatı, iqtisadi səmərə, Naxçıvan, İran

Key words:transport sector, mutual relations, country economy, economic benefits, Nakhchivan, Iran

Ключевые слова: транспортный сектор, взаимоотношения, экономика страны, экономические выгоды, Нахчыван, Иран

Nəqliyyat sektoru dedikdə, hər bir ölkə daxilində fəaliyyət göstərən nəqliyyat sahələrinin qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Nəqliyyatın inkişaf etdirilməsi müasir şəraitdə dünya ölkələrinin qarşısında duran vacib problemlərdən hesab edilir. Əlverişli nəqliyyat sahələrinin inkişafı ölkələrin iqtisadiyyatına müsbət təsir etməklə yanaşı, yeraltı və yerüstü təbii resursların istehsal dövriyyəsinə cəlb olunmasına geniş imkanlar açır. İqtisadiyyatda nəqliyyat sektorunun inkişafı, xarici ticarət əlaqələrin inkişafına da böyük təkan verdi. Bu sahədə qonşu ölkələrlə əlaqələr daha geniş intişar tapmışdır. Qədim Naxçıvan diyarının əlverişli coğrafi mövqedə - Şərqlə Qərbin qovşağında yerləşməsi tarixən bu diyarın bölgə üçün mühüm əhəmiyyət kəsb etməsini şərtləndirən amillərdən biri olmuşdur. Bölgə üçün mühüm əhəmiyyət kəsb edən Naxçıvan İran İslam Respubliksası üçün də nəzər nöqtəsində olmuşdur. Bu qədim yurdların sosial-iqtisadi inkişafında Araz çayı sahilində yerləşən Culfa şəhərinin mühüm rolu olmuşdur. Vaxtilə bu şəhər (Culfa) İrandan Gürcüstana, Şirvana və Dağıstana gedən karvan yolları üzərində yerləşdiyindən çox böyük iqtisadi və mədəni əhəmiyyətə malik idi.

Türkmənçay sülh müqaviləsinə əsasən iki dövlətin sərhəddi Araz çayı müəyyən edildiyindən 1829-cu ildən Culfa şəhəri ərazisindən, Araz çayı üzərindəki gediş-gəliş körpüsündə Rusiya və İran tərəfindən gömrük nəzarəti təşkil edilməyə başlanılmışdı. Bu gün də uğurla fəaliyyət göstərən Culfa Gömrük İdarəsinin əsası məhz həmin ildə qoyulmuşdur. Bu gömrükxana Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə də fəaliyyətini davam etdirmiş, Naxçıvanın İranla iqtisadi-mədəni əlaqələrində müstəsna əhəmiyyət kəsb etmişdir **[5].**

Bir məsələni də vurğulamaq yerinə düşərdi ki, vaxtı ilə Naxçıvan Azərbaycandan ayrı deyildir və Ermənistanın İranla heç bir sərhədi yoxdur. General-qubernatorluq isə Şuşa şəhərində yerləşirdi. Naxçıvanın Türkiyə ilə sərhədində Nuraşen (indiki Sədərək) məntəqəsi var idi. Naxçıvanın İranla sərhəd boyu aşağıdakı məntəqələr var idi:

1. Alışarı
2. Şahtaxtı
3. Nehrəm
4. Yayıcı
5. Ordubad
6. Culfa
7. Əlidərə [2, s.23].

1969-cu ildə İran Bakı şəhərində öz konsulluğunu açmışdır. İqtisadi əlaqələr tədricən də olsa inkişaf etmişdir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. Bundan sonra iki ölkə arasında əlaqələr yaranmağa başlamışdır. İki ölkə arasında diplomatik əlaqələr 12 mart 1992-ci ildə qurulmuşdur. 1992-ci ilin mart ayından İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətini davam etdirir, 1992-ci ilin dekabr ayından isə Azərbaycan Respublikasının İran

İslam Respublikasında səfirliyi fəaliyyətə başlamışdır. Səfirliyin yaranması ilə eyni vaxtda İranın Naxçıvanda baş konsulluğu yaranmışdı [3,s. 255].

Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin əsası isə 1992-ci ildə İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri Ümummilli Lider Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı 24 avqust 1992-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" ilə qoyulmuşdur. Azərbaycanın müstəqilliyinin ilk dövrlərində İİR-lə münasibətlərdə müəyyən soyuqluq yaransa da, Heydər Əliyevin müdrik siyasəti, Naxçıvanla İranın əlaqələrinin inkişaf etdirilməsi bölgənin düşdüyü böhrandan çıxmasına, həm də Azərbaycan-İran əlaqələrində tarazlığın təmin edilməsinə şərait yaratdı. 1993-cü ilin martında İİR-in Naxçıvanda baş konsulluğunun açılması, Heydər Əliyevin ikinci dəfə İİR-ə səfəri Naxçıvanla İran arasında əlaqələrin daha da genişlənməsinə təsir göstərdi.

Azərbaycanla İran arasında mehriban qonşuluq münasibətlərinin mövcudluğu son illər hər iki ölkə arasında əlaqələrin ən müxtəlif səviyyələrdə inkişafına ciddi təkan verib. Belə ki, həm İranın, həm də Azərbaycanın mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da dərinləşdirib. İran hazırda Azərbaycanın ixrac-idxal əməliyyatları apardığı əsas dövlətlərdən biridir. İki dövlət arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə artmaqdadır. İranlı iş adamları respublika iqtisadiyyatına investisiya qoyuluşunda mühüm paya malikdirlər. Mövcud əlaqələr çoxşaxəli olub, iqtisadiyyatın ən müxtəlif sahələrini əhatə edir.

Azərbaycanın İranla siyasi əlaqələrinin yüksək səviyyəsi və geniş müqavilə-hüquq bazası öz növbəsində iqtisadi müstəvidə münasibətlərin inkişafına geniş imkanlar açır. Bu iki ölkə iqtisadi sahədə uğurla əməkdaşlıq edir. İqtisadi əməkdaşlığın əsas istiqamətlərindən olan ikitərəfli ticarət əlaqələri ildən-ilə genişlənir. Ticarət əlaqələrinin strukturu çoxşaxəlidir və neft-qaz, sənaye, tikinti, kənd təsərrüfatı və digər sahələri əhatə edir [1].

Nəqliyyat sahəsində həyata keçirilən layihələr də Azərbaycan-İran əlaqələrində mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan vilayəti arasında Culfa-Culfa (İran) avtomobil yolu körpüsünün istifadəyə verilməsi nəqliyyat əlaqələrinin genişlənməsi, beynəlxalq tranzit yüklərin daşınması, vətəndaşların rahatlığının təmin olunması baxımından müstəsna əhəmiyyətə malikdir. Azərbaycan və İran arasında müqavilə-hüquqi bazanın genişləndirilməsi, rabitə və yüksək texnologiyalar, kənd təsərrüfatı, turizm, təhsil, səhiyyə, meliorasiya və mədəniyyət sahələrində də əlaqələr uğurla davam etdirilir.

1993-cü ildə ulu öndərin ali hakimiyyətə qayıdışından sonra isə Azərbaycan-İran dövlətlərarası münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır.

İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin inkişafına Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin dərinləşməsi də öz töhfəsini verir. Azərbaycan-İran münasibətlərində qarşılıqlı etimadın yaradılmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ümumilikdə, dövlət başçılarının son 20 il ərzində dəfələrlə rəsmi və işgüzar səfərləri, eləcə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində çoxsaylı görüşləri, əldə edilmiş razılaşmalar və imzalanmış sənədlər bu münasibətlərin daha da dərinləşməsində böyük rol oynamışdır. Bütün bunlar isə ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli töhfə verib, əməkdaşlığın inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

1996-cı ildən ötən müddətdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığa dair 4 saziş, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında iqtisadi və mədəni əməkdaşlığa dair 5 saziş, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ilə isə iqtisadi və mədəni əməkdaşlığa dair 4 saziş imzalanmışdır. Həmçinin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında bu günədək imzalanmış əksər sazişlərdə Naxçıvana aid xüsusi maddələr öz əksini tapmış və yaxud sazişlər birbaşa Naxçıvan Muxtar Respublikasına aid olmuşdur. 2007-ci ildə Azərbaycan Respublikası ilə İran İslam

Respublikası arasında imzalanmış dörd sazişin hamısı – "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su Elektrik stansiyalarının tikintisi barədə Protokol", "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası)- Culfa (İran İslam Respublikası) yeni avtomobil körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası arasında Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilməsi haqqında Memorandum" Naxçıvan Muxtar Respublikasına aid olmuşdur. İmzalanan bu Memorandumlardan ikisi nəqliyyat sektoruna şamil edilməkdədir. Şahtaxtı-Poldəşt və Culfa-Culfa keçid-buraxılış məntəqələrinin iş saatının artırılması da iki tərəfin əlaqələrinin genişlənməsində təsirli olmuşdur və hazırda bu gömrüklər vasitəsi ilə ildə 450 min insanın keçməsi artımın diqqəti cəlb dərəcədə olduğunu göstərir.

İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikası ilə qeyri-neft ticarət dövriyyəsinin həcmi ildə 20 milyon dolları keçir. Bu həcm iki tərəfin potensiallarını nəzərə alaraq bir neçə dəfə arta bilər [6].

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin həyata keçirilməsi, eləcə də avtomobil nəqliyyatı sahəsində qarşılıqlı əhəmiyyət kəsb edən məsələlərin müzakirə edilməsi məqsədi ilə iki ölkə arasında bu sahədə birgə Komissiya yaradılmışdır. Bakı şəhərindən və Azərbaycan Respublikasının digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə yük daşımaları İran ərazisindən keçməklə həyata keçirilir. 2007-ci ilin avqust ayında imzalanmış memoranduma əsasən həmin ilin noyabr ayından başlayaraq İran ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə müntəzəm avtobus reysləri işləyir. İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə 2017-ci ilin 9 ay ərzində Naxçıvandan Bakıya 16 min 697, Bakıdan Naxçıvana isə 18 min 22 sərnişin daşınıb.

Azərbaycan üçün olduqca böyük əhəmiyyət kəsb edən bu mühüm sənədlərin imzalanması Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsi, dövlətimizin beynəlxalq aləmdə yüksək nüfuzunun göstəricisi, İran İslam Respublikası ilə son illərdə sürətlə inkişaf edən, dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan və regionda sülh yaratmağa yönələn münasibətlərinin təzahürüdür.

Bağlanmış müqavilələrə əsasən, 2011-ci ilin oktyabr ayında Naxçıvan-Təbriz-Tehran və əks istiqamətdə, 2010-cu il sentyabrın 19-dan etibarən isə Naxçıvan-Urmiya və Urmiya-Naxçıvan müntəzəm avtobus marşrutları fəaliyyətə başlamışdır.

Nəqliyyat əlaqələrinin inkişafında Araz çayı üzərində körpülərin tikilməsi də mühüm əhəmiyyətə malikdir. 2007-ci ildə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında beynəlxalq statusa malik Şahtaxtı-Poldəşt körpüsü tikilərək istifadəyə verilmişdir. Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında imzalanmış müqaviləyə əsasən, Culfa-Culfa (İran) yeni avtomobil körpüsü inşa edilmişdir. Onu da qeyd edim ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının digər bölgələri ilə quru yol nəqliyyatı əlaqəsi hal-hazırda ancaq İran İslam Respublikası ərazisi vasitəsi ilə həyata keçirilir [4].

Naxçıvanla İran arasında hava nəqliyyatı olmasada, ancaq Azərbaycan Respublikası və İran İslam Respublikasının təyin etdiyi aviasiya şirkətləri - "Azərbaycan Hava Yolları" və "İran Air" Bakı və Tehran şəhərləri arasında uçuşlar həyata keçirir. Bakı şəhərində "İran Air" aviasiya şirkətinin, Tehran şəhərində isə "Azərbaycan Hava Yolları" aviasiya şirkətinin nümayəndəliyi fəaliyyət göstərir. İki ölkə arasında hava daşımaları haqqında Hökumətlərarası saziş mövcuddur. 2012-ci ildən etibarən Bakı və Təbriz şəhərləri arasında uçuşların həyata keçirilməsinə başlanılmışdır [7].

Bu gün iki ölkənin neft-qaz sektorunda səmərəli əməkdaşlıq üçün çox mühüm perspektivlər var. İran Azərbaycanın neft-qaz yataqlarına investisiyalar qoyur. Xəzər dənizində yerləşən neft-qaz yataqlarının birgə işlənilməsi məsələsi ardıcıl müzakirə olunur və bu, müsbət nəticələrlə nəzərə çarpır. Bu da təsadüfi deyil, çünki Xəzər dənizi hər iki ölkənin ümumi sərvətidir. Xəzər dənizinin

bundan sonra da əməkdaşlıq, təhlükəsizlik və sülh dənizi olacağı heç kəsdə şübhə doğurmur.

Hal-hazırda Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatının ödənilməsinə dair 2004-cü ilin avqust ayında Azərbaycan Respublikası ilə İran İslam Respublikası hökumətləri arasında imzalanmış "Təbii qaz mübadiləsi üzrə müqavilə"nin icrası olaraq 2005-ci ilin noyabr ayından muxtar respublikaya təbii qazın verilməsinə başlanılmışdır.

2005-ci il tarixdə Culfa-Ordubad magistral yolunun asfalt-beton örtüyünün yenidən bərpasına dair müqavilə imzalamaq üçün İran İslam Respublikasının "Səhəndab Azərbayacan" konsorsiumunun nümayəndə heyəti Naxçıvana səfər etmişdir. Səfər çərçivəsində nümayəndə heyəti Naxçıvan MR Ali Məclisi Sədrinin qəbulunda olmuşdur. Görüşdə Naxçıvan MR Nazirlər Kabineti ilə İran şirkəti arasında asfalt-beton örtüyü ilə döşənməsi nəzərdə tutulan 36,8 km magistral yolun bərpa işlərilə bağlı müqavilə imzalanmışdır [8].

Naxçıvanla İran əlaqələrində nəqliyyat sektorundan bəhs edərkən Dəmir yol nəqliyyatı haqqında da məlumat verməliyik. Çünki Naxçıvan və İran arasında iqtisadi əlaqələrin yaranmasında, genişlənməsində və inkişafında bu sahə mühüm rol oynamışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 1996-cı ilində Naxçıvan-Təbriz marşrutu ilə qatar istifadəyə verilmiş, insanların gediş-gəlişi intensivləşmiş, ticarət əlaqələri isə genişlənmişdi. Sonralar rentabelli olmadığı üçün Naxçıvan-Təbriz marşrutu fəaliyyətini dayandırdı. Hələ SSRİ dövründə Moskva-Tehran qatarı Naxçıvan Muxtar Respublikasının Culfa rayonundan İran ərazisinə keçərək Təbrizə, oradan isə Tehrana doğru hərəkət edirdi. Qeyd etmək lazımdır ki, bu gün Naxçıvanın iqtisadi inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşması Naxçıvan-Məşhəd qatar marşrutunun istifadəyə verilməsi üçün imkan yaradıb. Bunu sayəsində müqəddəs məkan olan Məşəd şəhərinin Naxçıvandan çox sayda ziyarətçiləri olmuşdur.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi sahədə 30-a yaxın sənəd imzalanmışdır ki, bunlardan mühümləri investisiyaların qarşılıqlı təşviqi və qorunması, ticarət, enerji, nəqliyyat, turizm, gömrük məsələlərində əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlıq üzrə sazişlərdir.

2012-ci ildə Azərbaycan Respublikasının İran İslam Respublikası ilə ümumi ticarət dövriyyəsinin həcmi 263 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 176 milyon ABŞ dolları, ixracın həcmi 87 milyon ABŞ dolları təşkil etmişdir. Burada bir cəhət də diqqət çəkir. İran ilə Azərbaycan arasında uzun sərhədlər, çoxlu müştərəkliklər və yaxşı iqtisadi potensial olmasına baxmayaraq, statistik rəqəmlərdən aydın olur ki, ticarət dövriyyəsi o qədər də böyük deyil. Azərbaycan Prezidenti İlham Əliyevin İran İslam Respublikasına səfəri, eyni zamanda, yaxın gələcəkdə ticarət dövriyyəsinin artırılmasına da öz müsbət təsirini göstərəcək.

Xatırladaq ki, hazırda İranın Azərbaycana yatırdığı investisiya 1,2 milyard ABŞ dolları ətrafındadır. Bunun 150 milyon dolları qeyri-neft sektoruna yönəldilib. Ümumi potensialı nəzərə aldıqda daha geniş nəticələr əldə ediləcəyi gözlənilir. Hazırda Azərbaycanda İranın 430-dan artıq şirkəti fəaliyyət göstərir [1].

Azərbaycan Respublikasından İrana əsas ixrac malları polad yarımfabrikatlar, təbii qaz, yeyinti sənayesinin qalıqları, elektrik enerjisi, texniki məqsədlər üçün bitkilər, qara metallardan digər məmulatlar, ipək, plastik kütlələr və onlardan məmulatlar, İrandan Azərbaycan Respublikasına əsas idxal malları sement klinkerləri, plastik kütlələr, sement, maşın və mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura, şüşə və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, qara metallar və onlardan məmulatlar, dənli bitkilər, keramika məmulatları, meyvə-tərəvəz olmuşdur. Bunların hamısı nəqliyyat sektorunun mövcudluğu və inkişafı sayəsində həyata keçmişdir və keçməkdə də davam etməkdədir.Azərbaycanın xarici ticarət dövriyyəsində İranın payı 0,84 faiz (24-cü yer), o cümlədən idxalda 1,65 % (15-ci yer), ixracda isə 0,55% (25-ci yer) təşkil etmişdir. Bu gün regionun iqtisadi gələcəyi üçün böyük önəmi olan “Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi”nin bir hissəsi olan və Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dəmir yolu xətlərinin birləşdirən “Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan)” dəmir yolu xəttinin çəkilişinin başa çatdırılması məsələsi prioritet məsələlərdən birini təşkil edir.

2011-ci il tarixində Tehran şəhərində keçirilmiş “Rəşt - Astara (İran) - Astara (Azərbaycan

Respublikası)" dəmir yolu xəttinin tikintisi ilə bağlı üç ölkənin dəmir yolları qurumlarının rəhbərlərinin üçtərəfli görüşündə "Rəşt-Astara (İran) - Astara (Azərbaycan Respublikası) dəmir yolu xəttinin tikintisi layihəsi üzrə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyəti və İran İslam Respublikası Dəmir Yolları arasında Anlaşma Memorandumu imzalanmışdır. Tərəflər, qeyd olunan layihənin həyata keçirilməsi üçün Məhdud Məsuliyyətli Cəmiyyətin Moskva şəhərində yerləşməklə qeydiyyatdan keçirilməsi, gələcəkdə Tehran və Bakı şəhərlərində filiallarının yaradılması barədə razılığa gəlmişdir. Məhdud Məsuliyyətli Cəmiyyətin qeyd olunan dəmir yolunun tikintisi üçün investisiyaların cəlb olunması, eləcə də dəmir yolunun layihələşdirilməsi və tikintisi, sərnişin və yükdaşımanın həyata keçirilməsi, üç ölkə ərazisində nəqliyyat ekspeditor xidmətlərinin göstərilməsi, dəmir yolu xətlərinin və texniki vasitələrinin cari saxlanması, təmiri və istismarı, informasiya, hüquqi, lizinq, marketinq, reklam xidmətləri, həmçinin ticarət, elmi-texniki xidmətlərin təmin edilməsi istiqamətində fəaliyyət göstərməsi razılaşdırılmışdır. İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də Azərbaycan Respublikası və İran İslam Respublikasının nümayəndələrindən ibarət yüksək səviyyəli işçi qrupu fəaliyyət göstərməkdədir.

Bundan başqa, 2010-cu il fevral ayının 17-də Azərbaycan və İran hökumətləri arasında imzalanmış Enerji və Nəqliyyat Sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumunda Naxçıvan Muxtar Respublikasının nəqliyyat və enerji sahəsi ilə bağlı müvafiq maddələr də öz əksini tapmışdır.

İran İslam Respublikası ilə qurulan iqtisadi münasibətlər sahibkarlıq subyektlərinin qarşılıqlı əlaqəsində də özünü göstərməkdədir. Muxtar respublikanın sahibkarları dəvət əsasında İran İslam Respublikasında keçirilən sərgilərdə iştirak edərək istehsal etdikləri məhsulları nümayiş etdirirlər.

Nəhayət, biz Naxçıvanın nəqliyyat problemlərinin həlli üçün də çalışırıq. Qeyd etdiyim kimi, Naxçıvan-Təbriz-Məşhəd dəmir yolu fəaliyyətə başlamışdır. Bildiyiniz kimi, biz indi İran İslam Respublikası və Rusiya ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyirik. İşlərin bizə aid olan hissəsi artıq başa çatıb. Bu dəhliz tam işə düşəndən sonra Naxçıvan dəmir yolu ilə İran vasitəsilə Azərbaycanın əsas hissəsi ilə də birləşəcək. Biz bu layihəni sürətləndirmək istəyirik ki, tezliklə bu, baş versin. Ondan sonra Naxçıvanda istehsal olunan mallar artıq dünya bazarlarına rahatlıqla çıxa biləcək və insanlar üçün bu, əlbəttə ki, əlavə imkanlar yaradacaq [9]. Son olaraq qeyd etmək olar ki. Naxçıvanla İran arasında nəqliyyat sektoru yüksələn xətlə inkişaf edir, bu insanların sosial rifahının yaxşılaşmasına bir başa müsbət təsir göstərir.

ƏDƏBİYYAT

1. Bayramov V.Azərbaycan ilə İran arasında iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir, Xalq qəzet, 27 fevral, 2016.
2. C.Q.Nuriyev, A.Ə.Əliyev, M.C.Atakişiyev, Gömruk işinin təşkili və idarə edilməsi, Ali məktəblər üçün dərslik (yenidən işlənmiş və tamamlanmış variantda), Bakı, 2009. 293 s.
3. Vəliyev Y. Müasir dövrdə Azərbaycan-İran münasibətləri // Tarix və onun problemləri, 2009, №4, s. 253-259
4. Şərq qapısı qəzeti, 11 yanvar, 2014
5. 180 yaşlı Culfa Gömrük İdarəsi. http: // customs.gov.az/az/news-154.html
6. http://azeri.sahartv.ir/news/azərbaycan-i254083-İran və naxçıvan əlaqələri genişlənir.
7. http://tehran.mfa.gov.az/az/content
8. http://dmfa.nakhchivan.az/page.php?lang=az&page=000201
9. http://www.respublica-news.az/index.php/siyas-t/item/14835-azaerbaydzan-prezidenti-ilham-aeliyevin-nakhch-van-mukhtar-respublikas-na-saefaeri

ABSTRACT

Shahin Aliyev

THE DEVELOPMENT OF TRANSPORTATION LINKS BETWEEN NAKHCHIVAN AND IRAN, ITS ECONOMIC EFFICIENCY

Development of Transport Relations between Nakhchivan and Iran, its Economic Efficiency. The article investigates the development of the transport sector between Nakhchivan and Iran Islamic Republic, its impact on economics, organization of customs business in foreign relations system and the other issues.During the investigation it was known that the relations between Nakhchivan and Iran still existed in Tsarist Russia. Having gained independence these relationships have evolved through an upward trend .Azerbaijan-Iran intergovernmental relations has risen to a new level after the great leader's returning to power in 1993. Today these relations are realized through Julfa and Shakhtakhti customs.

РЕЗЮМЕ

Шахин Алиев

РАЗВИТИЯ ТРАНСПОРТНЫХ ОТНОШЕНИЙ МЕЖДУ ИРАНОМ И НАХИЧЕВАНИ, ЕГО ЭКОНОМИЧЕСКАЯ ЭФФЕКТИВНОСТЬ

В статье были рассмотрены задачи по развитию транспортного сектора между Иранской Исламской Республики и Нахичевани, организации таможенных работ в системе международных отношений и другие вопросы. Установлено что отношения между Нахичеваном и Ираном существовали еще со времен царской России. После триобретении независимости эти отношения стали развиватся с высоким темпом. В 1993 году после возвращения обшенационального лидера к власти отношения между Азербайджанам и Иранам поступили в новым , более качественном уровен. Сегодня эти отношения выполняется с помощю таможенных Джульфа и Шахтахты.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

SƏXAVƏT HEYDƏRLİ
Naxçıvan Dövlət Universiteti

UOT:330

AZƏRBAYCANDA ƏRZAQ BAZARININ İNKİŞAFI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ DAİR

Açar sözlər: *aqrar sahə, regional inkişaf, ərzaq bazarı, dövlətin ərzaq siyasəti və s.*
Key words: *agrarian sector, regional development, food market, food policy of the state, etc.*
Ключевые слова: *аграрный сектор, региональное развитие, продовольственный рынок, продовольственная политика государства и т. д.*

Ərzaqla təmin olunma hələ qədimdən də əhalini düşündürən ən əsas yaşayış üçün vacib olan problemlərdən biri və birincisi olmuşdur. Nə yeyib yaşamaq daimi bir problem olaraq formalaşmış və o vaxtdan da qalmaqdadır da. Hətta bu problem ayrı-ayrı fərdlərdən başlayaraq, bütöv ölkələrin probleminə, (mühüm ərzaq təminatı) lazımi həcmdə, çeşiddə isə - milli təhlükəsizliyin vacib elementinə çevrilmişdir.

Müasir dövrdə ərzaq təminatı bu problemi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin aktual problemi olaraq qalır. Bununla əlaqədar qeyd etməliyik ki, inkişaf etmiş ölkələrdə bu məsələyə əlbəttə daha çox diqqət yetirilir. Bu onunla şərtlənir ki, həmin ölkələrdə artıq ərzaqla təmin olmanın mükəmməl mexanizmləri işlənib hazırlanmışdırsa da, öz istehsal gücündən istifadəyə xüsusi yer verilərək digər ölkələrdən gətirilən məhsullara çox da əsaslanmayan mexanizmi də qurulmuşdur. Belə halda bu ölkənin iqtisadi-milli təhlükəsizliyi daha etibarlı qorunmuş olur. Ərzaq təhlükəsizliyi anlayışına iqtisadi ədəbiyyatda müxtəlif baxışlar mövcuddur.

Bu baxışlardan biri ondan ibarətdir ki, ərzaq təhlükəsizliyi - iqtisadi, təşkilati, texnoloji, sosial ekoloji və başqa amillər sistemidir. Aqrar sahənin sabit inkişafına yönəldilmiş əhalinin tibbi-elmi normaya uyğun gələn müxtəlif və rəqabətədavamlı ərzaq məhsullarına tələbatını təmin etmək üçün lazımi ehtiyat yığmaq və xaric üçün əlavə məhsul istehsalı başa düşülür. Buna görə də ərzaq təminatı üçün xaricdən gətirilən ayrı-ayrı məhsulların həcmi ümumi ixracın 5-8%-ni əhatə etməlidir. Hansı ki, mövcud mühitdə onu istehsal etmək mümkün deyildir.

Digər bir baxışa görə, ərzaq təhlükəsizliyi zəruri bir hal olaraq hər bir fərd öz demoqrafik, iqtisadi, siyasi, mədəni, fərdi potensial inkişafını təmin etməlidir. Ona görə ərzaq təhlükəsizliyi təbii fəlakətlər, müharibələr, iqtisadi böhran, ölkə iqtisadiyyatının radikal dəyişiklikləri və s. zamanı daha da aktuallaşır.

Digər tərəfdən artıq ərzaq təhlükəsizliyi dünyəvi bir problemdir. "Dövlət və cəmiyyət tərəfindən əhalinin həmişə aktiv və sağlam həyat tərzini saxlamaq üçün, müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində (təhlükəsizlik) ərzaq, qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli ödənilməsini təmin edən tədbitlər kompleksi nəzərdə tutulur. Ərzaq təhlükəsizliyinin hüquqi əsasını ölkə konstitusiyası təşkil edir və hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Ölkənin milli ərzaq suverenliyi baş verə biləcək hər hansı fövqəladə vəziyyətlər zamanı, dövlətin əhalini ərzaq və qida məhsulları ilə təmin etmək imkanına, eləcə də hər bir kəsin ərzaq məhsulları əldə etmək üçün fiziki, sosial və iqtisadi imkanlara malik olması deməkdir."

Onunla dünyanın 35 beynəlxalq təşkilati fəaliyyət göstərir. Bunlardan BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilati (FAO), Beynəlxalq kənd təsərrüfatı inkişafı fondu, Ümumdünya ərzaq ittifaqı, Dünya ərzaq proqramını qeyd etmək olar.

BMT ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO)-nin tərkibində dünyanın 190 ölkəsi iştirak edir ki, onların sırasında ən nəhəng ölkələr də vardır. Bu təşkilat 1945-ci ildə yaradılmışdır, onun əsas fəaliyyət məqsədi isə insanların həyat şəraitini yaxşılaşdırmaq, ərzaq təminatını artırmaq, istehsalın səmərəliliyini artırmağın artımı və kənd təsərrüfatı və ərzaq məhsullarının bölgüsünün təmin edilməsi,

kənd əhalisinin vəziyyətini yaxşılaşdırmaq, dünya iqtisadiyyatının inkişafına təsir etməkdən ibarətdir.

Ölkələrin təbii şəraitinə, iqtisadi vəziyyətinə uyğun olaraq ərzaq təhlükəsizliyini təmin etmək müxtəlif yollarla mümkündür.

- xüsusən ərzaq malları istehsalı yolu ilə
- xüsusən idxal yolu ilə
- bir qismi istehsal və idxal hesabına

Göstərilən iki yolla gedənlər həddindən artıq inkişaf etmiş və maliyyə zənginliyinə malik olan ölkələrə aiddir.

Ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissələri kimi 2 yolla müəyyənləşdirilə bilər.

- Ərzağın fiziki təminatı (çatışmamazlığı) belə ki, o lazımi istehlak yerinə və ya xüsusi istehlakçıların tələbat normalarına uyğun tələbat normalarına uyğun ödəmə qabiliyyətliləri kimi lazımi həcmdə çeşiddə çatdırılır.
- İqtisadi cəhətdən ərzaqla təmin olunma cəmiyyətin iqtisadi və sosial inkişaf səviyyəsini, ayrı-ayrı təbəqələrin yaşayış vəziyyətini, istehsal və şəxsi təsərrüfat səviyyəsini, eləcə də dövlət tərəfindən xüsusi istehlakçılar üçün ayrılan vəsaitin həcmindən aydın olur.

Bütün bunlarla yanaşı ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilk növbədə regionlarda yerli səviyyələrdə bu işin təşkili ilə də bağlıdır. Buna görə qeyd etməliyik ki, bu prosesdə əsas diqqət ölkədə ərzaq ehtiyat fondlarının təmin olunmasına və idxal səviyyəsinin düzgün müəyyənləşməsinə verilir. Lokal şəraitdə yerli ərzaq təhlükəsizliyi - məntiqi ilə də çuğlaşır. Hətta ev təsərrüfatçılığının da inkişafında ərzaq təhlükəsizliyi məntiqi vardır.

Yerli ərzaq təhlükəsizliyi və qidalanma regional bazarların inkişafı ilə sıx bağlı olandır. (Bu problem eyni zamanda nəqliyyat, daşınma, saxlama, emal, ilkin emal ilə, topdan və pərakəndə satışla bağlı olandır. Bu baxımdan faktiki və normal istehlak səviyyəsinin də müəyyənləşdirilməsi əsas məsələlərdəndir.

Azərbaycan öz coğrafi yerləşməsinə, eləcə də ərzaq məhsullarının istehsalına görə zəngin ölkədir. Lakin hələlik bu məsələ axıracan, lazımi səviyyədə həll edilməmişdir.

Artıq Azərbaycanda bazar iqtisadiyyatı, xüsusi mülkiyyətin dövlət tərəfindən hüquqi cəhətdən tanınması ölkədə sahibkarlıq fəaliyyətinə güclü təkan vermişdir. Odur ki, iqtisadiyyatın bütün sahələrində radikal islahatlar keçirməklə sahibkarlığın formalaşması, inkişaf etdirilməsi və bu əsasda ərzaq məhsulları istehsalının artırılması bazar iqtisadiyyatının tələblərinə uyğun qurulmalıdır. Sahibkarlığın formalaşması və inkişafı iş adamlarının işə can yandırması, işgüzarlıq, səy, bacarıq və qabiliyyətlərinin üzə çıxarılması ilə xarakterizə olunur. Bu isə öz növbəsində biznesin inkişafında iştirak edən adamlardan yeni peşələrin mənimsənilməsini, insanlara və onların fəaliyyətinə yeni baxımları, ən başlıcası isə yeni bilikləri tələb edir. Bazar iqtisadiyyatına keçid şəraitində hər bir sahibkar, müəssisə rəhbəri, menecerlər və iş adamları ictimaiyyətin məqsədi ilə öz məqsədlərini uzlaşdırmalı, ölkənin inkişaf strategiyasına müvafiq öz strategiyasını qurmalı, strateji istiqamətdə düşünməyi bacarmalıdırlar.

Sahibkarlıq fəaliyyəti çox mürəkkəb və geniş sahəli fəaliyyət olaraq mürəkkəb istehsal təşkilati təsərrüfat sistemini əhatə edir və onun əsas vəzifəsi məhsul istehsal etmək və xidmət göstərməkdir. Bazar münasibətlərinin subyekti kimi çıxış edən müəssisələrin fəaliyyət əmtəə istehsalçıları arasında sərt rəqabət şəraitində baş verir.

Məhz rəqabətli bazar mühiti istər ayrı-ayrı müəssisə, istərsə də cəmiyyətin iqtisadi inkişafı üçün daha əhəmiyyətli şərait yaradır. Bazar mühiti müəssisələri daha rentabelli işləməyə vadar edir. Müəssisələr bu məcburiyyət qarşısında qalaraq yüksək mənfəət əldə etmək üçün elə ərzaq məhsulları istehsal etməlidirlər ki, onlara böyük tələbat olsun. Bu şəraitdə fəaliyyət göstərən sahibkarlar və təsərrüfat işçiləri dərindən dərk etməlidirlər ki, ərzaq məhsullarının keyfiyyət səviyyəsini, məhsulun texniki-iqtisadi parametrlərini - qiymət, maliyyə, istehsal prosesi, satış siyasətini konkret bazarlara elmi əsaslarla qabaqcadan uyğunlaş-dırmağa əsas götürməlidirlər. Bunun üçün, onlar sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi sahəsində lazımi biliklərə yiyələnməlidirlər.

Bununla əlaqədar olaraq, sahibkarlıq fəaliyyətinin idarə edilməsinin ilkin məsələləri - sahibkarlıq mədəniyyətinin yüksəldilməsi, qiymət, maliyyə-kredit mexanizminin səmərələşdirilməsi, yaradıcı innovasiya mühitinin yaradılması, müxtəlif növ sahibkarlıq fəaliyyəti üzrə qərarların qəbul

edilməsi və onun üçün kommunikasiya prosesinin təşkili ön plana çəkilməlidir.

Bu gün Azərbaycanda sahibkarlıq fəaliyyətinin nəzəri və təcrübi məsələləri iki nöqteyi nəzərdən xüsusi əhəmiyyət kəsb edir.

Birinci, Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçməsi əsas təsərrüfat vasitələri səviyyəsində və mexanizmlərin öyrənilməsini tələb edir.

İkinci, ölkə müəssisələrinin dünya bazarına çıxma imkanları menecment sisteminin dərindən öyrənilməsi və bu sahədə təcrübi biliklərə yiyələnməsi zərurətini şərtləndirir.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin bir sıra formaları müxtəlif meyarlar baxımından fərqləndirilir ki, onlardan da ən əsasları mülkiyyət və iqtisadi fəaliyyətin həcmi meyarlarıdır. Belə ki, mülkiyyət meyarına əsasən sahibkarlıq fəaliyyəti fərdi, kollektiv və dövlət sahibkarlığı, iqtisadi fəaliyyətin həcminə görə isə kiçik, orta və iri sahibkarlıq formalarında mövcud olur. Fərqləndirmə meyarından asılı olmayaraq sahibkarlığın bütün formalarının təşkilati-iqtisadi forması kimi müəssisələr çıxış edirlər.

Sahibkarlığın bütün formaları qarşılıqlı əlaqəlidirlər və bir birlərini tamamlayırlar.

Məlumdur ki, 1995-2016-cı illərdə ölkədə həyata keçirilən islahatlar nəticəsində sərbəst və müstəqil fəaliyyətə əsaslanan sahibkarlığın müxtəlif formalarının inkişafına şərait yaradılmış bazar prinsiplərinə uyğun yeni iqtisadi münasibətlər bərqərar olmuşdur.

Ölkənin aqrar siyasətində əsas məqsəd mümkün qədər ölkə əhalisinin ərzaq məhsullarına istehlak tələbatının daxili istehsal hesabına ödənilməsini yaxşılaşdırmaqdan ibarətdir. Başqa sözlə, "aqrar siyasətin əsas proqram və strateji məqsədi, təqdim edildiyi kimi, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. İlk növbədə ödənilməyən ərzaq tələbatının səviyyəsinin bərpa edilməsidir və sonra istehsal və idxal olunan ərzağın keyfiyyətini yüksəltmək, əhalinin ərzaq məhsullarına olan istehlak strukturunun quruluşunu yaxşılaşdırmaq, zənginləşdirməkdən ibarətdir. Aqrar sahədə iqtisadi idarəetmə mexanizmi müasir durumda mənfəətliliyi duymaqla, ətraf mühitə zərər vurmamaqla marketinq, istehsal, maliyyə, texnologiya, insan potensiallarından düzgün istifadə etməyi nəzərdə tutan mexanizmdir".

Dövlətin aqrar siyasətinin əsas vəzifəsi isə səmərəli istehsal strukturu yaratmaqla əhalinin ərzaq, sənayenin isə kənd təsərrüfatı xammalı ilə təminatını yaxşılaşdırmaq üçün sosial-iqtisadi mexanizmi formalaşdırmaqla mövcud potensialdan səmərəli istifadə etməkdir. Bu məqsədlə aqrar bölmədə iqtisadi yeniləşməyə nail olmaqla bazar transformasiyalarının ölkənin ərzaq təhlükəsizliyinə istiqamətləndirilməsi aktuallaşır. Bu baxımdan daxili istehsalın artırılması, bazarın formalaşması öncül vəzifələrdən biri kimi dəyərləndirilir.

Dövlətin aqrar siyasəti ölkədə ərzaq məhsullarının ümumi həcmində idxal olunan məhsulların xüsusi çəkisinin 2003-2010-cu illərdə 10-15%-dən çox olmamaq şərti ilə ərzaq məhsulları asılılığını aradan qaldırmağa yönəldilməlidir. Bu aqrar islahatların həyata keçirildiyi şəraitdə aqrar siyasətin əsas istiqamətlərinin düzgün müəyyənləşdirilməsini və bir sıra tədbirlərin həyata keçirilməsini tələb edir.

Təhlil nəticəsində aydın olur ki, Azərbaycanda kənd təsərrüfatı məhsulları və ərzağın ən mühüm növlərinin adambaşına istehsalı xarici ölkələrdə olduğundan bir neçə dəfə aşağıdır. Belə ki, adambaşına taxıl istehsalı Rusiyadan 2 dəfə, Almaniyadan 3 dəfə, Kanadadan 13 dəfə, Belorusdan 2,5 dəfə, Qazaxıstandan 4 dəfə, Qırğızıstandan 2 dəfə aşağı olmuşdur. Ölkəmiz Gürcüstan və Tacikistandan çox məhsul istehsal etmişdir. Adambaşına kartof, bitki yağı, ət, süd, yumurta istehsalında kəskin fərqlər mövcuddur. Həm də onu da nəzərə almaq lazımdır ki, həmin məhsulların istehsal səviyyəsi hələ çox aşağıdır. Buradan belə məntiqi nəticə çıxır ki, ölkədə kənd təsərrüfatı məhsulları istehsalı artırılmalı, ərzaq təhlükəsizliyi təmin olunmalıdır.

Onu da nəzərə almaq lazımdır ki, göstərilənlərlə yanaşı, müasir dövrdə Azərbaycanda əhalinin qida ilə təmin olunan enerjiyə tələbatının tam ödənilməsini, insanların yüksək dərəcədə aktiv və sağlam həyat yaşamasına etibarlı zəmin yaradılmasını təmin etmək üçün istehlak olunan ərzaq məhsullarının kaloritik səviyyəsi artırılmalı və strukturu yaxşılaşdırılmalıdır. Əhalinin istehlak etdiyi ərzağın kaloriliyinin strukturunda ciddi irəliləyişə nail olmaq üçün ölkədə kənd təsərrüfatı məhsulları istehsalı və onun keyfiyyəti yüksəldilməlidir.

Ölkədə ərzaq vəziyyətinin mürəkkəbliyi və onun xaricdən alınan məhsullardan asılılığı, bir

sıra təcili tədbirlərin tətbiq edilməsini tələb edir ki, onlar müəyyən ərzaq növləri üzrə təhlükəsizliyi təmin etməyə istiqamətləndirilir. Bu baxımdan əsas istiqamətlərə bunları aid etmək olar:

- aqrar bölmənin sabit inkişafının stimullaşdırılması, bu sahənin, xammal, eləcə də əsas ərzaq növləri üzrə mərkəzi dövlət və regional fondların yaradılmasını, həmçinin ASK-nin (aqrar sənaye kompleksi) ixracını təmin edəcək dərəcəyə çatdırılması;
- ailə büdcəsində ərzaq məsrəflərinin 30-35%-i qədər azaldılması şərti ilə alıcılıq qabiliyyətinin, gündə 3000-3500 kkal istehlakı təmin edəcək səviyyəyə qədər artırılması
- kənd təsərrüfatı məhsullarının ixracı və bu sahənin strukturunun inkişafı hesabına çatışmayan ərzaq və xammalın idxalı üçün lazım olan valyuta ehtiyatlarının yaradılması.

Fikrimizcə, Azərbaycan, müstəqil dövlət olaraq, bu problemi öz imkanları daxilində, aqrosənaye kompleksinin sabit inkişafı hesabına həll etməlidir.

Azərbaycan aqrar sahənin inkişafının strateji məqsədi - ölkədə ərzaq təhlükəsizliyinə nail olunması və onun təmin edilməsidir, yəni respublika özünü 9 əsas ərzaq qrupu üzrə daxili istehsal hesabına təmin etməli və bu təminat, ümumi tələbatın 85%-dən az olmamalıdır.

Araşdırmalardan aydın olur ki, aqrar sahədəki potensiallardan istifadənin dövlətin ərzaq təhlükəsizliyini təmin etməyə yönəldilməsi və onun ixraca istiqamətləndirilməsində geniş imkanları vardır.

Aqrar bölmənin inkişafının strateji məqsədlərinə nail olmaq üçün ölkənin siyasi, iqtisadi və ekoloji xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Siyasi xüsusiyyət ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət kimi yenicə formalaşıb və hazırda müstəqillik yolunun ilkin mərhələlərini keçməkdədir. Bu gün o, dünya ölkələri tərəfindən tanınır və dünya birliyinə tam hüquqlarla daxil olmuşdur.

Araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyinə nail olmaq üçün iqtisadi şərait o qədər də əlverişli deyildir.

Məlumdur ki, bir dövlətin ölkələrarası əmək bölgüsündən beynəlxalq əmək bölgüsünə keçməsi əlavə vəsait tələb edir. Daxildəki maliyyə mənbələrinin məhdudluğu ərzaq kompleksinə xüsusən kənd təsərrüfatına investisiyalar ayırmağa imkan vermir, eyni zamanda qeyri-sabit iqtisadiyyat, təbii ki, investorları cəlb etmir.

Göstərildiyi kimi, etibarlı ərzaq təhlükəsizliyina nail olmaq üçün ərzaq ehtiyatlarında daxili istehsalın payı 80-85% təşkil etməlidir (təhlükəsizliyin aşağı həddi - 60%-dir). Bu məqsədlə hər bir ölkə ərzaq bazarını dünya ərzaq bazarı ilə əlaqələndirməlidir. Bu baxımdan ölkə ərzaq bazarının dünya ərzaq bazarı ilə əlaqələri iki amili nəzərə almaqla qurulmalıdır:

- dünya bazarı - daha yaxşı şəraitdə istehsal edilən yaxud yüksək ixrac miqyasına və dəstəyinə malik olan malların bazarıdır. Buna görə dünya qiymətləri həmişə daha pis şəraitdə istehsal olunan malların dəyərindən aşağı olacaq;
- azərbaycanda kənd təsərrüfatının bütün sahələrində istehsal üçün şərait o qədər də münasib deyildir. Bundan başqa, bu şərait çox dəyişkəndir. İstehsalın intensivləşməsi nəticəsində şəraitin qeyri-sabitliyi artır, eyni zamanda iqlimin qlobal iştiləşməsi də ona mənfi təsir göstərir.

Beləliklə, Azərbaycanda aqrar sahə hər zaman mənfi şəraitdə inkişaf etmək məcburiyyətindədir və sahənin istehsal etdiyi məhsul daha çox məsrəf tələb edəcəkdir. Sahənin bu baxımdan maliyyə dəstəklənməsinə böyük ehtiyac vardır.

Yuxarıda qeyd edilənlərdən əlavə, kənd təsərrüfatının ehtiyac həcmini də nəzərə almaq lazımdır. Bu ehtiyac hazırda xaricdəkinə nisbətdə çoxdur. Nəzərə alınsa ki, ehtiyatlardan istifadəni ildə hətta 2-3% qaldırmaqla uzunmüddətli perspektiv üçün çox böyük tədbirlərin həyata keçirilməsi ilə üzləşərik, bu halda fikrimizcə aşağıdakı nəticəni çıxarmaq düzgün olardı: kənd təsərrüfatı hələ uzun müddət dünyada aparıcı mövqe tutan dövlətlərlə nisbətdə müəyyən qədər səmərəsiz texnologiyalarla işləməli olacaq və faktiki olaraq həmişə dövlət dəstəyinə ehtiyac duyacaqdır.

Ərzaq təhlükəsizliyini təmin edən tədbirlər çox rəngarəng olsa da, onların hamısı bir məqsədi daşımalıdır - bəlli ssenari üzrə (xüsusilə də inkişaf edən ölkələrdə) siyasət yeridən tədarükçü-dövlətlərin diktatından yaxa durtarmalıdır. Bu məsələ isə çox sadədir: əvvəlcə - humanitar yardım, sonra aşağı qiymətlərlə mal kommersiya tədarükləri, daha sonra milli kənd təsərrüfatının dağıdılması və nəticədə - ixracatçıların açıq diktatı. Bu amillərin təsirindən qurtarmaq üçün yalnız bir istiqamət

mövcuddur - əsas məhsulların ölkədaxili istehlak və ixracı üçün kifayət həcmdə istehsal təmin edilməlidir.

Azərbaycanda aqrar sahənin inkişafının strateji məqsədi - ölkədə ərzaq təhlükəsizliyinə nail olunması və onun təmin edilməsidir, yəni respublika özünü 9 əsas ərzaq qrupu üzrə daxili istehsal hesabına təmin etməli və bu təminat, ümumi tələbatın 85%-dən az olmamalıdır.

Strateji məqsədə nail olmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsini vacib hesab edirik. Bu tədbirlər, kənd təsərrüfatının texnoloji cəhətdən yenidən təchiz olunması, istehsal potensialından daha səmərəli istifadə, əkinçilik və heyvandarlığın inkişafı, iqtisadi-sosial yeniliklər və sair bu kimi amillərlə bağlıdır. Son dövrlərdə bu problemlərin həlli üçün dövlətimiz tərəfindən xüsusi proqramlar işlənib hazırlanmış və müvəffəqiyyətlə başa çatmışdır. İ.Əliyevin qeyd etdiyi kimi "On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu, onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il ən azı ona bərabər həcmdə sərmayə yatırılacaq.

On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Əlbəttə ki, bu artımın ümumi iqtisadi inkişafımızla sıx əlaqəsi var. Hesab edirəm ki, biz bu göstəriciyə görə fəxr edə bilərik. Əlbəttə ki, əhali artımı hər bir ölkə üçün önəmli amildir. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki artan əhali, eyni zamanda, bizdən buna adekvat iqtisadi inkişaf tələb edir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar".

Tədqiqat göstərir ki, ərzaq istehsalının artırılması, ərzaq təhlükəsizliyi üzrə strateji səviyyələrin təyin edilməsini, onlara nail olma mexanizmlərinin konkretləşdirilməsini, aqrar siyasətində prioritetlərin müəyyənləşdirilməsini, mənbə və vəsaitlərin araşdırılmasını, dövlət səviyyəsində mərhələli strateji tədbirlərin tətbiq edilməsini tələb edəcəkdir.

Bununla yanaşı, hazırki mərhələdə həmçinin xammal və ərzaq ehtiyatlarının çevik stimullaşdırma mexanizmini, kənd təsərrüfatının dövlət dəstəyinə dair ciddi tədbirlərin tətbiqini nəzərdə tutmaq lazımdır ki, bunlar kənd təsərrüfatı məhsullarına olan tələbat və təklifin böhran səviyyədən aşağı enməsinə yol verməsin. Hazırda Azərbaycanda ərzaq təhlükəsizliyinin strateji istiqamətləri müəyyənləşdirilmiş, 2010-cu ilədək konkret tədbirlər həyata keçirilməsi nəzərdə tutulur. Göstərilən strateji istiqamətləri şəkil 2-dən aydın görmək olar.

Kənd təsərrüfatı istehsalının böhran həcmi, ölkə və regional səviyyədə daxili ərzaq bazarının ümumi balansı daxili istehsalın hesabına təxminən 60% təmin edilməlidir. Kənd təsərrüfatı istehsalının böhran səviyyədən aşağı enməsi, ərzaq və iqtisadi təhlükəsizliyin zəifləməsi və itirilməsi, idxaldan asılılığın artması və milli kənd təsərrüfatının dağılması deməkdir. Azərbaycan üçün böhran səviyyəsinin konkret kəmiyyət parametrləri mövcuddur: 1,5-2,0 mln. ton taxıl; 1-1,3 mln ton kartof; 1,5-2,0 mln ton tərəvəz; 0,7-1,0 mln ton meyvə; 2,0-2,5 mln ton şəkər çuğunduru; 2,5-3,0 mln ton süd; 700-1000 min ton ət (diri çəkidə); 100-120 min ton bitki yağı; 2,5-3,0 mlrd. ədəd yumurta. Bu səviyyə, ərzaq istehsalı artımı və ərzaq təminatı üçün hesablama meyarı olmalıdır. Aşağıda göstərilən çərçivələrdə ərzaq istehsalı aşağı səmərəli və zərərli sayılır (kənd təsərrüfatının əsas növləri üzrə): taxıl - 17-19 s/h; kartof - 90-100 s/h, şəkər çuğunduru - 150-170 s/h, hər inəkdən süd sağımı - 1900-2000 kq, qaramalın gündəlik çəki artımı - 400-500 q. Qeyd ediləndən aşağı olan bitkiçilik və heyvandarlıq məhsulunun artımı, maya dəyərinin sürətlə artması, xərclərin və ehtiyatların özünü ödəməməsi, eləcə də maddi-texniki vəsaitlərin qeyri-səmərəli xərclənməsi ilə nəticələnir. Beləliklə, araşdırmalardan aydın olur ki, ərzaq fondunun formalaşma strategiyası özünü təminetmə

prinsiplərinə əsaslanmalıdır. Bu, dövlət müstəqilliyinin möhkəm iqtisadi təməlinin əsas şərtidir. Özünü təminetmə heç də o demək deyil ki, respublika ərzaq ehtiyatlarının formalaşması məsələsində özünü təcrid etməlidir. Əksinə, söhbət ixrac məqsədlərinə yönəldilmiş istehsalın artırılmasından və idxalın quruluşunun təkmilləşdirilməsindən gedir ki, bunların sayəsində beynəlxalq əmək bölgüsünün üstünlüklərindən, eləcə də münasib bazar konyukturundan istifadə etməklə ölkənin ərzaq müstəqilliyini təmin etməkdən gedir.

Ərzaq təhlükəsizliyi və aqrar siyasətdə ərzaq təminatının mərhələlərinin təhlilindən aydın olur ki, ərzaq probleminin həlli bir neçə mərhələdə həyata keçirilməlidir. Birinci mərhələ aşağıda sadalanan təcili tədbirlərin həyata keçirilməsini tələb edir: istehsalatın aşağı düşməsinin qarşısının alınması, kənd təsrrüfatı istehsalçılarının texnika, gübrə, bitkiləri mühafizə vasitələri, yanacaq, sürtkü yağları və bigər materiallarla təmin edilməsidir. Bu mərhələdə aqrar siyasətin strateji mövqelərini müəyyənləşdirmək, bütün mülkiyyət formalarından olan müəssisələrin fəaliyyətini tənzimləyəcək hüquqi-normativ aktların hazırlanması lazım gəlir.

İkinci mərhələdə kənd təsərrüfatında sabitlik təmin edilməlidir. Bunun üçün bazar infrastrukturunu formalaşdırmaq və inzibati idarəçiliyi iqtisadi idarəçiliklə əvəz etmək zəruridir. Bütün bunlarla yanaşı aqrar bölmənin digər sahələrlə münasibətləri təkmilləşir və kəndin sosial inkişafı üçün iqtisadi şərait yaradılır.

Üçüncü mərhələ yeni texnologiyaların tətbiq edilməsi hesabına kənd təsrrüfatı məhsullarının istehsalının artımını, ərzaq probleminin həllini və xarici iqtisadi fəaliyyətdə əlverişli səviyyəyə nail olmanı əhatə edir.

Tədqiqatı yekunlaşdıraraq, qeyd etmək istərdik ki, ölkədə və onun regionlarında ümumiyyətlə əlverişli investisiya mühiti yaratmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirilməlidir.

Perspektivdə aqrar sahədə investisiya mühitinin ciddi şəkildə yaxşılaşdırılması, istehsal və məhsuldarlığın artımı üçün struktur islahatların keçirilməsi - rəqabət şərtlərinin bərabərləşdirilməsi və iqtisadiyyatın daha da liberallaşdırılması vacibdir.

Bu proses iqtisadiyyatımızın bütün strukturlarının yenidən qurulması, əhalinin işlə təmin etmək və kasıbçılıq həddini aşağı salmaq kimi xüsusi sosial proqramların həyata keçirilməsi ilə müşaiyət olunmalıdır.

Aqrar sahədə inkişaf etmiş investisiya infrastrukturu: banklar, sığorta şirkətləri, fond bazarları və s. yaratmaq zəruriliyi qarşıda durur.

Prioritet sahə və müəssisələrin dövlət tərəfindən dəstəklənməsi investorlara dövlət təminatı sisteminin yaradılması, aqrar sahənin sektoru müəssisələrinə vergi qoyuluşlarının azaldılması, bank faiz stavkasının iqtisadiyyatın real sektoruna kredit resurslarının axınını stimullaşdıran səviyyəyə endirilməsi və s. investisiya mühitini yaxşılaşdıran tədbirlərə aiddir. Aqrar sahədə investorları dəstəkləmək üçün aşağıdakıları da nəzərə almaq lazımdır: hüquqi islahatların keçilməsi (onun çərçivəsində mövcud olan qanunlarda dəyişikliklər və yenilərinin qəbul edilməsi); vergi qoyuluşu yükünün azalması (güzəştlərin təqdim edilməsi ilə); dövlət qarantiyaların təmin edilməsi; inzibati islahatlar (bürokratizmə qarşı və dövlət idarəsi funksiyalarının dəqiq müəyyən edilməsinə yönəldilmiş); markoiqtisadi sabitliyin təmin edilməsi.

Aqrar sahədə bu tədbirlər təkcə xarici deyil, yerli investorların da stimullaşdırılmasına yönəldilməlidir. Həm xarici, həm daxili investorlar üçün bərabər şərait yaradılmalı, diskriminasiyaya yol verilməməlidir.

Ümumilikdə investisiya ən çox bu istiqamətlərə yönəldilməlidir: aqrar sahədə ümumi iqtisadi iqlimin yaxşılaşdırılması, iqtisadi vəziyyətin sabitliyi və effektiv iqtisadi qanunvericiliyin gücləndirilməsi; qiymətli kağızlar bazarı ilə iqtisadiyyatın real sektoru arasında sabit əlaqəni təmin edə biləcək effektiv ölkədaxili kapital bazarının təşkil edilməsi; respublikanın müəssisələrinin beynəlxalq qiymətli kağızlar bazarına çıxışının təmin edilməsi.

Fikrimizcə, aqrar sahədə xarici kapitaldan səmərəli istifadə etmək məqsədilə xüsusi iqtisadi inkişaf istiqamətləri işlənib hazırlanmalıdır.

Azərbaycan iqtisadiyyatında aqrar sahə xarici investorlar üçün daha cəlbedici sahəyə çevrilməlidir. Hazırda həm neft sektorunda qazanılmış vəsaitin və həm də xarici investisiyaların birbaşa qeyri neft sektorunun müxtəlif sahələrinə yönəldilməsi prioritet məsələdir.

Beləliklə, tədqiqat işi bizə belə bir nəticə çıxarmağa imkan verir ki, xarici investisiyalaşma prosesi xüsusilə inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatı üçün çox əhəmiyyətlidir və iqtisadi artıma bir təkanverici qüvvə kimi çıxış edə bilər. Bu proses balanslaşdırılmış şəkildə keçməli, ayrı-ayrı sahələr ilə bərabər, ümumilikdə iqtisadiyyatın inkişafına xidmət etməlidir.

İnvestisiya proseslərinin dövlət tərəfindən idarə olunması ölkənin istehsalat və sosial potensialının struktur dəyişdirilməsinin, onun səmərəliliyinin yüksəldilməsinin ən mühüm vasitələrindəndir. Məqsədyönlü və kifayət qədər miqyaslı investisiya siyasəti aparılmasa, elmi-texniki tərəqqidən söhbət ola bilməz.

ƏDƏBİYYAT

1. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı, 2015, 320 səh.
2. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, Elm, 2003, s. 315.
3. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans, 2018

ABSTRACT

Heydarli Sakhavat

ABOUT THE DEVELOPMENT OF THE FOOD MARKET IN AZERBAIJAN

The article examines the relationship between the modernization of food market in modern times and showed the way of developing this process. This problem is a global problem as well as the problem of the whole country. It includes social, economic and political meanings. Here, attention is paid to the development of entrepreneurship. As a result, the article offers concrete suggestions and suggestions for improving the food market. It was also about food safety issues.

РЕЗЮМЕ

Гейдарли Сахават

О РАЗВИТИИ ПРОДОВОЛЬСТВЕННОГО РЫНКА В АЗЕРБАЙДЖАНЕ

В статье рассматривается взаимосвязь между модернизацией и модернизацией. Эта проблема является глобальной проблемой, а также проблемой всей страны. Он включает социальные, экономические и политические значения. Здесь внимание уделяется развитию предпринимательства. В результате в статье предлагаются конкретные предложения и предложения для рынка продуктов питания. Это также касается вопросов безопасности пищевых продуктов.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MURAD SEVDİMALIYEV
AMEA Naxçıvan Bölməsi
sevdimaliyevmurad@gmail.com

UOT: 332.122

XAMMAL EHTİYATLARI VƏ MİNERAL RESURSLARIN DÜZGÜN İSTİFADƏSİ İLƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFINA TƏSİR MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Açar sözlər: *xammal ehtiyatları, mineral resurslar, makroiqtisadi göstəricilər, sosial-iqtisadi inkişaf, təbii ehtiyatlar, milli sərvət, sosial dayanıqlılıq*

Key words: *raw material reserves, mineral reserves, macroeconomic indicators, socio-economic development, natural reserves, national wealth, social solidarity*

Ключевые слова: *запасы сырья, полезные ископаемые, макроэкономические показатели, социально-экономическое развитие, природный заповедник, национальное богатство, социальная солидарность*

Naxçıvan Muxtar Respublikasının sosial həyatının inkişaf proseslərinə, onun iqtisadi qanuna-uyğunluqlarının məqsədyönlülüyünə diqqət edəndə burada təbii ehtiyatlardan düzgün istifadə edildiyini görməkdəyik. İqtisadiyyatın mikro səviyyədəki düzgün təşkili, onun mezo səmərəliliyinin stimullaşdırılmasına şərait yaratmış, bu isə makro səviyyədəki əlverişli nəticələrin əldə edilməsini sürətləndirmişdir.

Bildirmək lazımdır ki, muxtar republika sənaye baxımından o qədər də əlverişli mövqedə deyildir. Həm də regionun uzun zamandır blokada vəziyyətdə olması, buraya investisiya və maliyyə axınının qarşısını almışdır. Təbii ki, bu və digər səbəblər Naxçıvanda uzun illər boyunca sənaye sahələrinin inkişafdan qalmasına öz mənfi təsirini göstərmişdir. Lakin bütün bunlarla bərabər tarixə nəzər saldıqda, Naxçıvan MR Azərbaycanın iqtisadiyyatında önəmli yerlərdən birini tutduğunun şahidi ola bilərik. Günümüzdə muxtar respublika ərazisində sayları onlarla olan yeni-yeni sənaye müəssisələri tikilir və ya onların genişləndirilməsi istiqamətində işlər görülür [1, s. 58-64]. Üzümçülük və şərabçılıq, tikinti materialları sənayesi, maşınqayırma və metal emalı sahəsində Naxçıvan sosial iqtisadi inkişafda və əhalinin məşğulluğunun təmin edilməsində böyük rol oynamışdır. Azərbaycan ərazisində keyfiyyətinə və müalicəvi xüsusiyyətinə görə tanınmış Sirab, Badamlı, Vayxır və Darıdağ mineral suları üzrə yaradılmış zavodlar iqtisadi inkişafın tənzimlənməsində böyük rola malikdir [2, s 18]. Bu mineral bulaqlar nəinki ölkəmizdə, həm də onun hüdüdlarından kənarda da məşhurdur.

Tədqiqatlar göstərir ki, muxtar respublikamızın bu sahədə olduqca çox faydalı potensialı mövcuddur və ondan perspektiv məqsədlər üçün səmərəli istifadə edilməkdədir. Bu ərazi İlahinin insanlara bəxş etdiyi çoxlu miqdarda metal və qeyri-metal faydalı qazıntılar, həmçinin mineral sularla zəngin bir diyardır. Burada molibden, sink, qurğuşun, mis, gümüş, qızıl, civə və digər məhsulların: daş duz, kükürd kimi qeyri-metalların: gəc, əhəng, dolomit, travertin, odadavamlı gil, andaluzit, mərmər, tuf daşı və s. kimi tikinti materiallarının yataqları aşkar edilmiş və bunların çoxundan xalq təsərrüfatında geniş istifadə olunur. Muxtar Respublikada 200-dən artıq mineral bulaq vardır ki, bunlardan yuxarıda qeyd edildiyi kimi Badamlı, Sirab, Vayxır və Darıdağ mineral suları respub-likamızdan kənarda da məşhurdur [3, s.144]. Şübhəsiz ki, göstərilən təbii potensialdan səmərəli istifadə edilməsi ölkənin milli iqtisadiyyat quruculuğu proseslərindəki tədbirlərində muxtar respublikanın rolunu və yerini yüksəltməkdədir.

Təcrübə göstərir ki, istənilən ölkənin xammal ehtiyatlarına malik olması onun:

- iqtisadiyyatının dayanıqlığını gücləndirir və müqavimətliliyini artırır;

- idxaldan asılılığını minimuma endirməklə, onun məhdudlaşdırılmasında hərəkətverici qüvvəyə çevrilir.
- İxracyönümlü məhsulların istehsalında yaradıcı təşəbbüsləri stimullaşdırır;
- iqtisadi müstəqilliyini gücləndirir, hadisə və proseslərin düzgün istiqamətləndirilməsində zəruri olacaq islahatların həyata keçirilməsini sürətləndirir;
- iqtisadi prioritetlərə doğru fəaliyyətin bütün sahələrində perspektivlərə yol açır və onun davamlılığını təmin edir;
- sosiallaşma meylliliyini və gücünü artırır, bununla da əhalinin rifahının göstəricilərinin yüksəldilməsi səviyyəsinin təkanverici qüvvəsinə çevrilir və s.

Elmi mənbələrə diqqət edəndə görürük ki, xammal anlayışı iqtisadiyyatın aparıcı sahələrinin çevik təşkili və burada işlək mexanizmlərin stimullaşdırılmasını təmin edir. Belə ki, xammal özündə kənd təsərrüfatı məhsullarını (buğda, pambıq, meyvə, tərəvəz və s.) və təbii məhsulları (balıq, xam neft, dəmir filizi, meşə,) birləşdirir [4, s. 205]. Buradan da göründüyü kimi xammal iqtisadiyyatın istehsal əhəmiyyətinin yüksəldilməsində zəruri mərhələnin təşkilində vacibdir, ona xidmət edir və bu sahədəki münasibətlərin inkişafına təkan verməkdədir.

Xammal ehtiyatlarından səmərəli istifadənin təşkili və bu sahədəki proseslərin yaradıcı ideyalar əsasında idarə olunması məsələləri müasir dövrdə muxtar respublikanın müəyyən etdiyi hədəflərə doğru tədbirlərində mühüm vasitəyə çevrilmişdir. Bu sahə ilə bağlı araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında özünün sosial-iqtisadi aktuallığı ilə seçilən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji Yol Xəritələrinin icrası istiqamətində müəyyən edilən məqsəd və vəzifələrin səmərəli və məhsuldar icrası məsələlərində də muxtar respublikanın xammal ehtiyatlarından istifadə edilməsi baza rolunu oynamaqla, ona daha məhsuldar güc gətirməkdədir. Bu sırada milli iqtisadiyyat perspektivinə, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına, ixtisaslaşmış turizm sənayesinin inkişafına, logistika və ticarətin inkişafına dair [7]. hədəflərin əldə edilməsi istiqamətlərində xammal ehtiyatlarından düzgün istifadənin yolları müəyyənləşdirilmişdir. Təbii ki bu, makroiqtisadi proseslərin təşkilində regional siyasətin səmərəliliyinə xidmət etməkdədir .

Araşdırmalar göstərir ki, muxtar respublikanın ərazisində mövcud olan xammal, eləcə də digər yeraltı filiz və qeyri-filiz kimi təbii ehtiyatlarının böyük əksəriyyəti iqtisadiyyatın sənayeləşmə siyasətinin əhəmiyyətliliyi ilə seçilir və uzun illər üzrə nəzərdə tutulan perspektivlər üçün səmərəli və məqsədyönlü istifadə oluna bilər. Bu sırada muxtar respublikanın iqtisadi potensialının daha da artırılmasında mühüm göstəriciyə malik olan duz ehtiyatlarını da qeyd etmək yerinə düşər. Mənbələr göstərir ki, Naxçıvan Muxtar Respublikasının ərazisində olan potensial duz ehtiyatları 2,6-2,7 milyard ton həcmindədir. Qeyd etmək lazımdır ki, təkcə Nehrəm yatağı üzrə kondisiyalı duz ehtiyatı 735 milyon hesab olunur. Burada istehsal olunan duz ehtiyatı Azərbaycan Respublikasının potensial ehtiyatlarının 27%-ə qədərini təşkil etməkdədir. Bu, özünün sosial-iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də ölkənin və muxtar respublikanın prioritetlərinə çevrilən səhiyyə (sağlamlıq), mətbəxt, tarixi və digər yüksək mahiyyətli turuzm potensialının inkişafı üçün səmərəli hesab edilə bilər. Nehrəmdə mövcud olan duz ehtiyatlarından sənayedə istifadə üçün əsaslandırılmış ehtiyat 326 milyon ton olduğu göstərilməkdədir. Muxtar respublikada istifadə olunan ehtiyat isə 90 milyon tondur [5, s. 13]. Hazırda da muxtar respublikanın bu sahədəki potensialı özünün yüksələn dinamikasını təşkil etməkdədir. Araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublikasının Duzdağ mədənində ən müasir texnologiya quraşdırılmış və həmin istehsal müəssisəsi yeni texnoloji avadanlıqlarla təmin edilmişdir. Bunun da nəticəsində "Naxçıvan Duz İstehsalı" MMC-də illər üzrə duz istehsalında təmin edilən artım da bunu təsdiq etməkdədir. Mənbələrə istinad edəndə aydın olur ki, 2001-ci ildə burada 2300, 2014-cü ildə isə 6200 ton duz istehsal edilmişdir. 2015-ci ildə isə bu göstərici 8 min 339 ton 700 kiloqram məhsul təşkil etmişdir. Hesablamalar göstərir ki, müəssisədə 2001-ci illə müqayisədə 6 min 39,7 ton, 2014-cü illə müqayisədə isə 2 min 139,7 ton çox duz istehsal olunmuşdur [8].Yəni mövcud potensial muxtar respublikada iqtisadiyyatın inkişafında təbii ehtiyatların stimullaşdırıcı təsirinin yüksək olduğunu təsdiq edir.

Digər tərəfdən, muxtar respublikada iqtisadiyyatın sahə strukturunun təşkilatlanmasında, xüsusilə də əsas makroiqtisadi göstərici olan Ümum Daxili Məhsulun strukturunda ilk yeri tutan sənaye potensialının daha da artırılmasında, bu sahədə idxalın məhdudlaşdırılması ideyalarına

üstünlük vermək, bununla da ixrac potensialının daha da stimullaşdırılmasında zəruri infrastruktur təşkilatlanmasını təmin etmək lazımdır. Təbii ki, burada sement istehsalının yüksələn əhəmiyyətindən bəhs etmək yerinə düşər. Qeyd edək ki, 2011-ci ildən fəaliyyət göstərən Naxçıvan Sement Zavodu gündəlik 1300 ton məhsul istehsaletmə gücünə malik olmaqla, müasir texnologiyalarla tam təchiz edilmişdir. Təmin edilmiş istehsal potensialı sementin həm ölkəmizin müxtəlif regionlarına, həm də Türkiyə və Gürcüstana göndərilməsinə imkanlar açmışdır. Bu sənaye müəssisəsində 18 əsas istehsal bölməsi vardır. Ən mühüm nailiyyət isə ondan ibarətdir ki, sement istehsalının tələbata uyğunluğu və dolğun ödənilmə gücünə malik olması ilə seçilməkdədir. Bunları qeyd etməkdə əsas məqsədimiz muxtar respublikanın müvafiq sahələri üzrə yetərli xammal bazasına malik olmasını göstərməkdir. Bəhs etdiklərimiz əsasında bir məqamı da vurğulamaq yerinə düşər. Bir halda ki, əsas xammal olan əhəngdaşı, mergel və köməkçi xammallar - dəmirli gil Kəngərli rayonunun Çalxanqala, kvars Şərur rayonunun Gümüşlü, gips isə Babək rayonunun Nehrəm kəndləri yaxınlığındakı yataqlardan çıxarılır, deməli, muxtar respublika sement istehsalı sahəsində də tələbata uyğun istehsal potensialını formalaşdıra bilmiş və bu sahədə də Naxçıvan brendi beynəlxalq miqyasda öz yerini tutmuşdur [6, s. 177].

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafındakı proseslərin ardıcıllığına diqqət edəndə aydın olur ki, müvafiq sahə üzrə pesrspektivlər böyükdür, davamlıdır və məhsuldardır. Elə bu kimi potensialın mövcudluğunun nəticəsidir ki, muxtar respublika ərazisini açıq hava altında muzey kimi də ifadə edirlər. Burada iqtisadiyyatın sahə strukturuna çeviklik gətirən həmin potensial ərazinin əksər hissələrini əhatə etməkdədir. Nəzərə alsaq ki, muxtar respublikanın ərazisi həm də aqrar bölgədir, onda burada çox güclü xammal bazasının olduğunu qeyd edə bilərik. Son illərdə dövlət siyasətinin zəruri tərkib hissəsinə çevrilən uğurlu iqtisadi siyasət, həyata keçirilən iqtisadi və sosial islahatlar aqrar sektorun təşkilatlanmasına birbaşa xidmət etməkdədir. Şübhəsiz ki, təşəkkül yolu isə məhz bu potensial üzərində daha mütərəqqi görünməkdədir. Bu isə mezoiqtisadi əhəmiyyətliliyini gücləndirməklə, aqrar sənaye kompleksinin dayaqlarının möhkəmlənməsini təmin etməkdədir.

Naxçıvanda iri sənaye müəssisələrinin yaradılması xüsusi diqqət mərkəzində saxlanılır. Təsis olunan bu sənaye müəssisələrində həm daxili bazar üçün məhsul istehsal olunması ilə yanaşı, həm də ixrac yönümlü məhsul istehsalı nəzərdə tutulmuşdur. Ən əsası da son illərin mühüm sənaye müəssisələrinə aid olan Gəmiqaya, Naxçıvan Avtomobil Zavodu, Mebel Fabriki, Dizayn MMC, Cahan Holdinq, Badamlı və Sirab mineral sular zavodu və s. şirkətlər qrupuna aid olan müəssisələrdə daxili və xarici bazar üçün müasir standartlara uyğun olan mal və məhsullar istehsal olunur [9, s.42]. Bu müəssisələrin yaradılmasında əsas məqsəd sənayenin düzgün və dayanıqlı inkişafının təmin olunmasından ibarətdir. Qeyd etmək yerinə düşər ki, bu sənaye müəssisələri xarici ölkələrdən gətirilmiş yüksək keyfiyyətli avadanlıqlarla təmin olunmuşdur. Bu da ekoloji mühitin təmizliyini qorumaq və iş mexanizmi üçün yaranacaq maneələrin aradan qaldırılması məqsədi daşıyır.

Eyni zamanda bazar iqtisadiyyatının tələblərinə uyğun regionlarda münasib biznes mühitinin yaradılması və kənd təsərrüfatı üzrə ümumi məhsulun istehsalı dinamikasında böyük artım qeydə alınmışdır. Nəzərə alsaq ki, digər sahələrə nisbətən kənd təsərrüfatı hətta on il bundan öncədə prioritet sahə kimi idi, bu illər ərzindəki artımı yüksək qiymətləndirmək olar. Həm əhalinin əsas məşğuliyyət sahəsi kimi, həm də dövlətin son illər apardığı aqrar siyasətin istiqaməti kimi kənd təsərrüfatı muxtar respublika həyatında aparıcı rola malikdir.

Yuxarıda qeyd etdiyimiz kimi, muxtar respublikanın xammal ehtiyatları ilə yanaşı, onun mineral resurs imkanlarından səmərəli istifadə edilməkdədir. Həm müalicəvi, həm də süfrə suyu kimi yüksək əhəmiyyətə malik olan bu göstərici eyni zamanda ixrac potensialının artırılmasında da spesifikliyi ilə seçilməkdədir. Milli iqtisadiyyatın əsas perspektivləri baxımından da zəruri hesab edilən bu amillər sosial-iqtisadi proseslərin hərəkətverici qüvvəsi kimi çıxış etməkdədir. Artıq Naxçıvan Muxtar Respublikasının istehsalı olan məhsulların xarici bazarlara çıxış imkanlarının daha da genişlənməsi özünü mühüm yüksəliş mərhələsinə gəlib çatmışdır. Diqqət edəndə görünür ki, muxtar respublika mineral suların ixracı sahəsində, xüsusən də "Sirab" və "Badamlı" mineral suyundan ibarət Naxçıvan brendini dünyaya təqdim etməkdədir. Əgər "Sirab" mineral suyu Rusiya, Ukrayna, Türkiyə, İran kimi ölkələrə ixrac edilirsə, "Badamlı" mineral suyu MDB məkanına,

Dubaya, Səudiyyə Ərəbistanının hüdudlarına daxil ola bilirsə, deməli, muxtar respublika öz təbii sərvətlərinin qiymətləndirilməsində, ixracında və ondan əhalisinin rifahı naminə səmərəli istifadə edilməsində artıq güclü təcrübəyə malikdir [6, s. 176]. Kreaitv ideya və təşəbbüslərin məhsulu olan bu nailiyyətlər Naxçıvan məhsullarının brendləşməsində, onların analoqlarından seçilərək dünya bazarında rəqabət qabiliyyətli olmasında, eləcə də yüksək istehlak dəyərinə malik əmtəə kimi qəbul edilməsində mühüm əhəmiyyət daşımaqdadır.

Beləliklə, tədqiqatların nəticəsi kimi qeyd etmək olar ki, muxtar respublikanın xammal ehtiyatlarından və mineral resurslarından düzgün istifadə edilməklə, makroiqtisadi inkişaf üçün onlardan səmərəli istifadə edilməkdədir. Təbii ki, bu isə müəyyən edilən hədəf və prioritetlər baxımından olduqca vacibdir.

ƏDƏBİYYAT

1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatın prioritetləri, İqtisadi artım, dinamik inkişaf, Bakı, Sabah, 2008, 452 s.
2. Naxçıvan MR-nın tarixi, siyasi, iqtisadi bələdçi kitabı, Naxçıvan, Qeyrət, 1998, 64s.
3. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası, Bakı, Elm, 1999, 227 s.
4. Kotler F. Marketinqin əsasları. Rus dilindən tərcümə edən Ergün firması. Nəşr edən Vahid Əziz, Bakı: Ergün, 1993, 559 s.
5. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə, Bakı, Elm, 2000, 104 s.
6. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Naxçıvan, Əcəmi, 2017, 186 s.
7. http://www.president.az/articles/21953
8. http://qlobal.az/naxcivan-duz-istehsali-mmc-mehsul-istehsalini-artirir/#.Wm7TP6SgfIU
9. Həbibbəyli İ. Hacıyev İ. Cəfərov K. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, 2010, 279s.

ABSTRACT

Murad Sevdimaliyev

IMPROVE IMPACT MECHANISM OF ECONOMIC DEVELOPMENT WITH THE CORRECET MANAGEMENT OF RAW MATERIALS AND MINERAL RESOURCES IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article mentions raw materials and mineral resources and their use as the driving force of the socio-economic potential of Nakhchivan Autonomous Republic. It was shown that these reserves have significant influence on the strategic importance in the development of the national economy of the autonomous republic. And also emphasized the exceptional importance of raw materials and mineral resources for strenhtening foreign trade relations minimizing and restricting dependence on imports, as well as export diversification.

Currently, the potential volume of the salt deposit on the territory of Nakhchivan Autonomous Republic is about 2.3-2.7 billion tons. The salt produced here is 27 % of the potential reserve of the Republic od Azerbaijan. The salt mines of Nakhchivan Autonomous Republic are eqquipped with modern equipment in accordance with latest technologies.

The raw materials of the autonomous republic, including its minerals, are effectively used. This indicator, which is of great importance for both medical and tabele water, is also chosen specifically to increase export potential. These factors, which are also considered necessary for the main prospects of the national economy are the driving force of socio – economic processes.

The expansion of Nakhchivan Autonomous Respublic output to the foreign market has reached the srage of development. It is obvious that Nakhchivan Autonomous Republic represents the Nakhchivan brand, mainly “Sirab” and “Badamly”, in the field of export of mineral waters.

РЕЗЮМЕ

Мурад Севдималыев

УСОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА ВОЗДЕЙСТВИЯ НА РАЗВИТИЕ ЭКОНОМИКИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ ПУТЕМ РАЦИОНАЛЬНОГО ИСПОЛЬЗОВАНИЯ СЫРЬЕВЫХ ЗАПАСОВ И МИНЕРАЛЬНЫХ РЕСУРСОВ

В статье рассказывается о ресурсов сырья и минеральных ресурсов, как двигательная сила социально-экономического потенциала Нахчыванской Автономной Республики, о возможностях их использования. Указано, что эти ресурсы являются важным влиянием в повышении стратегического значения автономной республики в строении национальной экономики.Кроме того рассказывается об исключительном значении ресурсов сырья и минеральных ресурсов в усилении внешних торговых связей страны, в понижении до минимума зависимости и в ограничении ввоза, а также в процветании вывоза.

В данный момент потенциальные месторождения соли на территории Нахчыванской Автономной Республики составляет 2.6-2.7 миллиардов тонна. Производства соли здесь составляет 27 % потенциальных ресурсов Азербайджанской Республики. В руднике Дуздаг Нахчыванской Автономной Республики сооружена самая современная технология и это производственное учреждение обеспечено новыми технологическими оборудованиями. В результате всего этого обеспечен прирост производства соли из года в год в ООО «Нахчыван Дуз Истесалы».

Сейчас рационально используется минеральные ресурсные возможности рядом с ресурсами сырья автономной республики. Этот показатель, который является высоким значением как лечебная, так и столовая вода, в то же время отличается своей спецификой в повышении потенциала вывоза.

Эти факторы. которые считаются важными с точки зрения основных перспектив национальной экономики, выступают как двигательные силы социально-экономических процессов. Продукции Нахчыванской Автономной Республики, которые расширяли возможности выхода на внешний рынок, дошли до своих важных стадий роста. Обращая внимание, видно, что автономная республика в области экспорта минеральных вод, особенно «Сираб» и «Бадамлы», представляет миру как Нахчыванский бренд.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

İLHAM ƏLİZADƏ
AMEA Gəncə Bölməsi
aliyegence@mail.ru

UOT: 330

HEYDƏR ƏLİYEVİN NEFT SRTATEGİYASI "BP" VƏ TƏRƏFDAŞLARI "ŞAH DƏNİZ" LAYİHƏSİNDƏ

Açar sözlər: *Heydər Əliyev, Azərbaycanın müstəqilliyi, neft strategiyası, əsrin müqaviləsi, Xəzər qazı,"Şah dəniz"konsorsiumu*

Key words: *Haydar Aliyev, Azerbaydjan independent, contract of the centry, Caspian qas, consorstium "Shah deniz"*

Ключевые слова: *Гейдар Алиев, независимость Азербайджана, нефтяная стратегия, контракт века,Каспийский газ,консорсиум "Шах дениз"*

"Xəzər dənizinin Azərbaycan sektorunda "Şah dəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" növbəti Saziş 1996-cı il iyunun 4-də Bakıda "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoil", Türkiyənin "TPAO", Fransanın "Elf Akiten", Rusiyanın "LUKoil" və İranın" OİEK" şirkətləri arasında imzalandı.(6,s.298). Bu Saziş "Əsrin müqaviləsi"ndən sonra "BP" və tərəfdaşlarının imzaladığı ikinci müqavilə idi.Qeyd etmək lazımdır ki, bu müqavilənin əsası 1992-ci ilin 7 sentyabrında imzalanan "Şahdəniz" yatağının birgə işlənməsi üçün danışıqlar aparılması və yatağın işlənməyə hazırlanması barədə "Britiş Petroleum" və "Statoil" şirkətlərinə xüsusi səlahiyyətlər verilməsi haqqında müqavilə ilə qoyulmuşdur. Hər iki şirkət alyans yaradaraq işə başlamış,sonradan həmin alyansa Türkiyənin "TPAO" (Türk petrolları) şirkəti də qoşulmuşdur.

1995-ci ilin oktyabr ayında ARDNŞ-nin təkilifi əsasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə "BP" və "Statoil" alyansına "Şah dəniz" yatağında işlərin görülməsinin davam etdirilməsi səlahiyyəti verən sərəncam imzalanmışdır. Hasilatın pay bölgüsü ilə əlaqədar ilkin danışıqlarda ARDNŞ 40 % pay almışdı. Azərbaycan hökuməti bu layihədə iştirak etməkdə israrlı olan Fransa, Rusiya, İtaliya, İran kimi dövlətlərin maraqları ilə Azərbaycanın maraqlarının üst-üstə düşdüyünü nəzərə alaraq bu dövlətlərin istəyini Əbülfəz Elçibəy iqtidarından fərqli olaraq təmin etdi. Beləliklə, "Əsrin müqaviləsi"ndən kənarda qalmış Fransa və İtaliya şirkətləri, ABŞ-ın təzyiqi ilə "Əsrin müqaviləsi" konsorsiumunda yer alması mümkün olmayan İran, həmçinin daha məhsuldar və perspektivli" Şahdəniz" yatağının işlənməsində maraqlı olan Rusiyanın "LUKoil" şirkəti də Azərbaycan Prezidenti Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində ARDNŞ-nin "Şah dəniz" konsorsiumda olan 40%-lik payı hesabına bu layihədə təmsil oluna bildilər. ARDNŞ, "BP" və tərəfdaşların birgə fəaliyyəti sayəsində "Şah dəniz" yatağının dünyanın bir neçə neft şirkətləri ilə birgə işlənməsi, istifadə olunması və pay bölgüsü haqqında hazırlanan Saziş layihəsi imzalanmaya tövsiyyə edildi.

Nəticədə, "Xəzər dənizinin Azərbaycan sektorunda "Şah dəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə görə şirkətlər arasında pay bölgüsü aşağıdakı kimi razılaşdırıldı: "BP"-25,5 %, "Statoil"-25,5%, ARDNŞ-10%,"Elf Akiten"-10%," "OİEK"-10%, "TPAO"-9%, Rusiya və İtaliyanın birgə təsis etdiyi "Luk-Acip" şirkəti -10%," (5,s.97).

Sazişin imzalanma mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yekun nitqi ilə çıxış edərək birdirdi ki, "Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın neft-qaz yatağının istifadə olunmasında bizimlə artıq bir neçə il əməkdaşlıq edən Böyük Britaniya Krallığının hökuməti və bu ölkənin "British Petroleum" şirkəti yenə bizimlə bir yerdədir...Mən bunu xüsusi qeyd edirəm ki, biz bu işlərə başlayarkən-ilk müqaviləni imzaladıqdan indiyədək cənab Timoti Eqqar (Böyük Britaniyanın Energetika və Sənaye naziri) bizimlə birlikdədir

və bu gün də tədbirdə iştirak edir" (1,s.415). Heydər Əliyev çıxışında müqaviləyə Fransanın "Elf Akiten",İtaliyanın "Acip" və İranın "OİEK" şirkətlərinin də qoşulmasını da xüsusi qeyd etdi və neft-qaz sənayesi sahəsində yaranan bu əməkdaşlığı Sazişin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirdi. Sazişin imzalandığı gün-4 iyun, heç şübhəsiz ki,simvolik xarakter daşıyırdı. Heydər Əliyev Sazişin imzalanma mərasimindəki nitqində bu məsələyə də aydınlıq gətirərək dedi: "Təsəvvür edin ki,üç il bundan əvvəl, 1993-cü il iyunun 4-də respublikamız, xalqımız çabalayırdı, təhlükə qarşısında, qan içində,vətəndaş müharibəsi içində idi. Amma üç ildən sonra biz məhz bu gün, iyunun 4-də artıq üçüncü böyük neft müqaviləsini imzalayırıq"(2,s.471).

Həqiqətən də bu müqavilə cəmi üç ildə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın necə böyük bir inkişaf yolu keçdiyini,Azərbaycan dövlətinin müstəqilliyi və suverenliyinin necə möhkəmləndiyini,onun beynəlxalq nüfuzunun günü-gündən artmasını bütün dünyaya nümayiş etdirdi.

"Şah dəniz" layihəsi ilə əlaqədar imzalanmış Sazişə uyğun olaraq Podratçıların öhdəlikləri kəşfiyyat dövrünün üç ili ərzində yerinə yetirilməli idi.Həmin dövr "Xəzər dənizinin Azərbaycan sektorunda "Şah dəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin Azərbaycan parlamentində ratifikasiya olunduğu 17 oktyabr 1996-cı il tarixdən başlayaraq 17 oktyabr 1999-cu ilə qədər olan dövrü əhatə edirdi.

"Şah dəniz" layihəsinin operatoru "BP"şirkəti oldu. "BP"-nin "Şah dəniz" yatağının işlənməsində iştirak etmək üçün yaratdığı "BP eksploreyşn ("Shah deniz") LTD şirkətinin prezidenti Mayk Şermanın 1997-ci il martın 5-də "Şah dəniz" neft yatağı üzrə müqavilə layihəsinin idarəetmə komitəsi üzvlərinin Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündə verdiyi hesabatda qeyd olundu ki, "adi standart layihələrdə əvvəlcə qiymətləndirmə mərhələsi,sonra hazırlıq mərhələsi, daha sonra isə işlənmə mərhələsi gəlir.Təcrübəmizə əsaslanaraq güman edirik ki, ilk neft 9 ildən sonra çıxarılacaqdır... Eyni zamanda ümid edirik ki, kəşfiyyat dövrünün nəticələrinə görə bu 9 ili azaldıb 4 il səviyyəsinə endirə bilərik". Göründüyü kimi mürəkkəb struktura malik "Şah dəniz" yatağının işlənməsi hətta "BP" kimi bir şirkət üçün də uzun müddətli və gərgin fəaliyyət tələb edirdi.

"Şah dəniz" yatağı haqqında onu qeyd etmək lazımdır ki, bu yataq Bakıdan 70 km cənub-şərqdə, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının yaxınlığında, Xəzərdə 12 km eni, 30 km uzunluğu olan zolağı əhatə edir. Sturukturun şimalında suyun dərinliyi 50, cənubunda isə 500 metrə çatır. Yatağın kontrakt sahəsi 859,8 kv.metr, layihə ilə proqnozlaşdırılan qaz ehtiyatı 500 mlrd.kub m.,neft ehtiyatı 200 mln. ton, qaz kondensat ehtiyatı isə 40 mln. tondur. Layihənin maliyyələşdirilməsi üçün 4-5 mlrd. dollar tələb olunurdu.(10)

"Şah dəniz" layihəsinin digər, əvvəllər imzalanmış layihələrlə həm oxşar, həm də fərqli cəhətləri vardır. "Azəri", "Çıraq", "Günəşli"- də olduğu kimi "Şah dəniz"də də oxşar seysmik çəkilişlər və topoqrafiq tədqiqatlar aparılmalı, 3 il ərzində iki kəşfiyyat quyusu qazılmaqla bu yatağın kommersiya dəyəri sübut olunmalıdır. 3-cü quyunun qazılması isə əlavə kəşfiyyat müddətində başa çatdırılmalıdır, sazişin qüvvədə olma müddəti 30 ildir.

Layihələr arasında birinci fərq layihələrin strukturundadır. Belə ki, "Şah dəniz" layihəsi daha çox tərəfdaşlıq deməkdir. Tərəfdaşlıq "BP"-nin əsas iş prinsiplərindən biri olduğu üçün bu prinsipə şirkətin fəaliyyətində xüsusi önəm verilir. İkinci fərq suyun 50 metrdən 500 metrədək olan dərinliyi,üçüncü fərq quyuların 6 min metrədək dərinliyi,habelə geologiyanın,strukturun mürəkkəbliyi və quyulardakı 10 min atmosferdən artıq olan yüksək təzyiqlə bağlıdır. Sazişin imzalanmasına qədər yatağın işlənməsinə müəyyən hazırlıq işləri aparılmasına baxmayaraq hələ də bu yatağın qaz və yaxud neft yatağı olması məlum deyildi.(4,s.285)

Öhdəlikləri müqavilədə göstərilən müddətlərdə icra etmək üçün "BP" şirkəti 1997-ci ilin aprel-iyun aylarında yatağın üst qatının öyrənilməsi məqsədilə 3177,7 poqon km-də 158 profil üzrə mühəndis-kəşfiyyat işləri apardı.1998-ci ilin may-avqust aylarında 800 kv.m ərazidə 3d seysmik tədqiqatları apararaq 24.482,4 km məlumat yazdılar. Nəticədə qiymətləndirmə quyularının yerləşmə məkanları dəqiqləşdirildi.

"Şah dəniz" layihəsinin operatoru "BP" şirkətinin təşəbbüsü ilə yeni üzən qazma qurğusunun hazırlanması ilə əlaqədar qazma qurğularından birgə istifadəçilər klubu yaradıldı. Həm "Əsrin müqaviləsi"ndə, həm də "Şah dəniz" layihələrində işlərin gedişi göstərirdi ki, yalnız istifadədə olan bir "Dədə Qorqud" üzən qazma qurğusu ilə ayrı-ayrı layihələrdəki müqavilə öhdəliklərini müəyyən

edilmiş vaxtlarda yerinə yetirmək mümkün deyildir. Ona görə də yeni,daha müasir və daha böyük iş həcmlərini yerinə yetirmək üçün istifadəçilər klubunun birgə vəsaiti ilə daha bir üzən qazma qurğusunu təmir edib modernləşdirməyə ehtiyac var idi. Bu məqsədlə "Xəzərdənizneft"in "Şelf-5" qazma qurğusu seçildi və ARDNŞ-dən icarəyə götürüldü. Modernləşdirilməsi 40 mln. dollara və 450 min iş saatı sərf olunmasına başa gəlmiş "Dədə Qorqud" qurğusundan fərqli olaraq "Şelf-5"in (sonradan "İstiqlal" adlandırıldı-İ.Ə.) modernləşdirilməsinə 115 mln. dollar və bir milyon iş saatı lazım gəldi. Təkcə "Şelf-5"- dəki köhnə avadanlıqların sökülməsinə üç ay vaxt sərf edildi. İşlərin 70 faizi Azərbaycanda, Bakı "Xəzərneftdonanma"nın gəmiqayırma zavodunda, qalan 30 faizi isə Rusiyanın Vıborq gəmiqayırma zavodunda yerinə yetirildi."Şelf-5" qazma qurğusunda dəyişdirilən bütün qazma avadanlıqları,digər qurğular və texnika neft sənayesinin ən son nailliyyətləri ilə işləyən Qərb ölkələrinin zavodlarından gətirildi. Yeni avadanlıqların alınmasına 50 mln.dollar,yəni sərf olunan ümumi məbləğin təxminən yarısına bərabər bir vəsait xərcləndi.(4,s.294)

1998-ci il iyulun 7-də "Dədə Qorqud" üzən qazma qurğusu layihə dərinliyi 6069 metr olan birinci quyunun (SDX-1) qazılmasına başladı.Planlaşdırıldığı kimi 14 dekabr 1998-ci ildə 2550 metr dərinlikdən sonra qazma işləri "İstiqlal"üzən qazma qurğusu tərəfindən aparılmağa başlandı. Quyunun layihə dərinliyi artırıldı, lakin 6316 metr dərinliyində daşlaşmış qata görə quyunun qazılması dayandırıldı. Qazılmış quyunun müxtəlif nöqtələrində, müvafiq olaraq 5620-5818, 6000-6150 və 6209-6307-ci metr dərinliklərdə qiymətləndirmə üçün yarıqlar açıldı. 1999-cu il 23 iyunda quyularda qiymətləndirmə və təsdiqetmə işləri aparıldı. Tədqiqatların nəticəsi göstərdi ki, birinci quyuda təxminən 700 mlrd.kub m. qaz, 70 mln. ton kondensat vardır.

1999-cu ilin 12 iyulunda "Şah dəniz" yatağında əldə edilmiş nəticələrin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yanında keçirilən müşavirədəki təqdimat mərasimində "BP-AMOKO" şirkətinin və "BP"-nin rəhbərlik etdiyi konsorsiumun prezidenti Endi Honvud "Şah dəniz" yatağında böyük qaz ehtiyatlarının aşkar edildiyini və bu yataqdan ildə təxminən 16-20 mlrd. kub metr qaz hasil etməyin mümkün olduğunu bildirdi. Endi Honvud bu ehtiyatları dünya bazarına çıxarmaq üçün bir kəmərə ehtiyac olduğu fikrini ilk dəfə səsləndirdi və bu işlə təcili, elə bu gündən məşğul olmağın lazım gəldiyini xüsusi vurğuladı. Konsorsiumun rəhbəri "BP"və tərəfdaşları tərəfindən indiyədək aparılmış işlərə 367 milyon dollar sərmayə qoyulduğu bildirdi. ARDNŞ-nin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə isə bu yataqda 1 trln.kub metrdən artıq qaz ehrtiyatı olduğunu müşavirədəki çıxışında qeyd etdi. (8,1). Belə bir ehtiyatla isə həm Azərbaycanın qaza olan daxili tələbatını ödəmək, həm də qaz ixracını təmin etmək mümkün idi.

Müşavirədə yekun nitqi söyləyən Heydər Əliyev qeyd etdi ki, "Şah dəniz" konsorsiumunun prezidentinin verdiyi məlumatlar tam aydındır. Ona əlavə etməyə bir şey yoxdur. Mən bir daha deyirəm ki, bu məlumatlar çox sevindiricidir. Ancaq məni daha çox sevindirən o oldu ki, konsorsiumun prezidenti məsələ qaldırdı: qazın ixracı üçün artıq bu gün iş görmək lazımdır. Bəli, mən də belə hesab edirəm. Ona görə də mən bu gün Azərbaycan Dövlət Neft Şirkətinə və konsorsiuma göstəriş verirəm ki, onlar indiyə qədər əldə etdikləri nailiyyətlər əsasında yeni quyuların qazılmasını sürətləndirsinlər...Çünki yeni quyular nə qədər tez qazılarsa, orada olan qazın və neft kondensatının həcmi daha da dəqiq olacaqdır. Bu da qazın ixracı üçün lazımi işlər görməkdə bizə kömək edəcəkdir...Mən konsorsium rəhbərinin təklifi ilə tam razıyam ki, bizim üçün ən əlverişli bazar Türkiyədər. Bir müddət əvvəl,Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəl ilə danışarkən ona mənə dedi ki, Türkiyənin gələcəkdə,bəlkə də 2010-cu ilə qədər 40 milyard kub metr qaza ehtiyacı vardır. Biz bu ehtiyacı təmin edə bilərik". (2,s.472).

1999-cu ilin 4 mayında "Şah dəniz" yatağının birinci quyusundan 6 km cənubda "İstiqlal" üzən qazma qurğusu layihə dərinliyi 6500 metr olan ikinci quyuda (SDX-2) qazma işlərinə başladı. Daşlaşmış təbəqə ilə əlaqədar qazma işləri 5892 metr dərinlikdə dayandırıldı. 15 fevral 2000-ci ildə ikinci quyuda bir neçə rejimdə yoxlama və testləşdirmə işləri aparılmağa başlandı, gündə 1,8mln. kub m. qaz və 520-540 ton kondensat alındı.

2000-ci ilin 17 iyulunda "İstiqlal" üzən qazma qurğusu layihə dərinliyi 6800 metr olan üçüncü (SDX-3) qazma quyusunda qazma işlərinə başladı. Daşlaşmış laylara görə qazma işlərində yaranmış çətinliklərlə əlaqədar 10 noyabr 2000-ci ildə quyunun qazılması 6688 metr dərinliyində dayandırıldı və birinci,ikinci quyularda olduğu kimi bu quyuda da anoloji yarıqlar açıldı. (5,s.97).

SDX-1,SDX-2 və SDX-3-in hələ dəqiqləşməmiş göstəricilərindən məlum oldu ki, bu quyularda ən azı 755 mlrd.kub m. qaz və 105 mln.ton kondensat ola bilər. Lakin yeni proqram üzrə "Şah dəniz" yatağının yenidən işlənməsi variantı bu yataqda təxminən 1(bir) trln.kub metr qaz və 150 mln.ton kondensat olduğunu deməyə imkan verirdi. Qeyd etmək lazımdır ki,1aprel 2001-ci il tarixə olan məlumata görə "BP" şirkəti layihənin operatoru kimi "Şah dəniz" yatağında ikinci və üçüncü quyuların qazılmasından sonra hər üç quyuda bu işlərin görülməsinə 473,953 mln.dollar xərcləmişdi.(5,s.97).

Bu sevindirici proqnozlardan sonra ARDNŞ və konsorsium tərəfindən qazın satış bazarını müəyyənləşdirmək,qaz ixrac boru kəmərinin çəkilməsi məsələsini həll etmək və "Şah dəniz" yatağından ilkin qazın hasilatına ən geci 2003-cü ildə başlamaq vəzifəsi qarşıya qoyuldu. Satış bazarı kimi Türkiyə seçilsə də bu ölkənin Türkmənistanla 16 mlrd.kub metr qazın alınmasına dair imzaladığı müqavilə ilə əlaqədar danışıqlarda çətinliklər yarandı. Müqaviləyə görə türkmən qazının Azərbaycan ərazisindən Türkiyəyə nəqli nəzərdə tutulmuşdu. "Şah dəniz" qaz yatağı kəşf olunduqdan sonra isə yalnız tranzit ölkə olmaq Azərbaycanın maraqlarına uyğun deyildi. Vəziyyətdən çıxış yolu kimi Azərbaycan həmin boru kəməri ilə öz qazını da ixrac etmək üçün bu kəmərin ötürücülük imkanlarının yarısına sahib olmaq istəyini bildirdi(8.1.). Özünün milli maraqlarını qoruyan Azərbaycanın təklifini Türkmənistan hökuməti qəbul etmədi. Belə olan halda isə Azərbaycan Xəzər dənizinin dibi ilə Transxəzər qaz kəmərinin çəkilməsinə razılıq vermədi (9.2.).

Heydər Əliyevin Türkiyə prezidenti Süleyman Dəmirəllə apardığı danışıqlar tezliklə öz bəhrəsini verdi və nəhayət 12 mart 2001-ci ildə Ankarada "Şah dəniz" yatağından hasil edilən qazın Türkiyəyə ixrac edilməsinə dair müqavilə imzalandı. Müqaviləyə əsasən Azərbaycandan Türkiyəyə 2004-cü ildə 2 mlrd. kub metr, 2005-ci ildə 3 mlrd. kub metr, 2006-cı ildə 5 mlrd.kub metr, 2007-2018-ci illərdə isə hər il 6,6 mlrd.kub metr qaz satılması nəzərdə tutulurdu(9.2.). Türkiyə ilə müqavilənin imzalanması Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin çəkilməsi ilə bağlı Gürcüstanla danışıqları intensivləşdirdi. Lakin bu danışıqlar heç də gözlənildiyi kimi rahat getmədi.Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə bağlı tranzit tariflərinin müzakirəsində olduğu kimi Cənubi Qafqaz Boru Kəməri ilə qaz nəqlinin tarifləri məsələsində də Gürcüstan hökuməti heç bir əsas olmadan maksimum qiymətlər irəli sürür, hər min kub metr qazın nəqlinə görə beş dollar tranzit tarifi müəyyənləşdirməyi istəyirdi. Gürcüstanın qazın nəqlinə görə tələb etdiyi əsaslandırılması mümkün olmayan tranzit qiymətlərlə bağlı danışıqların uzanması Azərbaycan kimi Gürcüstanın da mənafeyinə uyğun deyildi. Nəhayət, 2001-ci il sentyabrın 29-da Bakıda Azərbaycan Respublikası ilə Gürcüstan arasında Cənubi Qafqaz Boru Kəməri ilə təbii qazın Gürcüstan ərazisindən tranziti, nəqli və satışı haqqında saziş imzalandı.(3.s.183). Sazişdə nəql olunan qazın hər min kub metrinə görə 2,5 dollar tranzit haqqı və inflyasiyaya görə 5 ildən bir tənzimlənmə variantı kimi Azərbaycanın təklifi rəsmiləşdirildi. Bundan əlavə Gürcüstan 50 dollardan az olmayan qiymətlə ildə 500 mln. kub metrədək qaz almaq hüququ əldə etdi.Sazişin imzalanmasından əvvəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstan nümayəndə heyəti ilə keçirilən danışıqlarda Gürcüstan Prezidenti Eduard Şevardnadzenin çıxışındakı etiraf bu kəmərin çəkilməsinin Heydər Əliyevin nə qədər böyük zəhməti bahasına başa gəldiyini bir daha göstərdi. E. Şevardnadze çıxışında dedi: "Mən qaz kəməri barədə (Bakı-Tbilisi-Ərzurum qaz kəməri-İ.Ə.) şübhəli əhval-ruhiyyədə idim. Çünki onlar (Gürcüstan prezidentinin köməkçiləri - İ.Ə.) həmişə məni qorxudub deyirdilər ki, Dünya Bankı bir şey məsləhət görür,biz isə başqa bir şey edirik və sair. Yadınızdadırsa, Sizin nümayəndələriniz mənim yanımda oldular və onlara bildirdim ki, Heydər Əliyeviç necə desə,eləcə də olacaqdır. Qoy Dünya Bankı, Beynəlxalq Valyuta Fondu nə istəyirlər desinlər. Heydər Əliyev isə elə dedi ki, bu, təbii olaraq, Azərbaycana da sərfəlidir, Türkiyəyə də sərfəlidir, Gürcüstana da çox sərfəlidir."(3,s.179)

Bu illərdə Azərbaycanın energi layihələrinin həyata keçirilməsinə ABŞ və Böyük Britaniya hökumətlərinin ciddi siyasi dəstək verələrini xüsusi qeyd etmək lazımdır. Bu istiqamətdə 2001-ci ilin may ayında ABŞ hökumətinin qəbul etdiyi "Mili energi siyasətinə dair doktrina" da bütünlükdə Xəzər regionunun, o cümlədən Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsinə xüsusi önəm verilməsi əhəmiyyətli rol oynadı. Sənəddə ABŞ Prezidentinə tövsiyyə olunurdu ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı,Türkiyə və Gürcüstanın fərqli mənbələrdən qazla təchiz olunması, Azərbaycana öz qazını ixrac etməkdə kömək göstərilməsi üçün "Şah dəniz" qaz kəmərinin inkişafına

dair özəl investorların və hökumətlərin səylərini dəstəkləsin (7.1.).

Beləliklə, 2003-cü il fevralın 27-də Bakıda "Şah dəniz" qaz yatağının birinci mərhələsinin işlənməsinə başlamaq haqqında sənədlər imzalandı. Cənubi Qafqaz Boru Kəmərinin tikinti və istismar üzrə operatoru "BP" şirkəti, biznesin inkişafı və inzibati işlər üzrə operator isə "Statoyl" şirkətləri təyin olundu. Boru kəmərinin tikintisinə 2004-cü ilin oktyabrında başlandı və 2006-cı ilin may ayında ötürücülük qabiliyyəti 20 mlrd.kub metr,ümumi uzunluğu 971 km, diametri 42 düyüm, Azərbaycan hissəsi 443 km, Gürcüstan hissəsi 248 km, Türkiyə hissəsi isə 280 km olan kəmərin tikinti işləri qısa müddətdə başa çatdırıldı. Səngəçal terminalından başlayan Cənubi Qafqaz Boru Kəməri Türkiyənin Ərzurum şəhərində "Botaş" şirkətinin qaz kəməri sisteminə qoşuldu və kəmərə ilk qaz vuruldu.2007-ci ilin iyulunda Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkiyəyə ilk qaz çatdırıldı. Bu kəmərin Bakı-Tbilisi-Ceyhan kəməri ilə eyni dəhlizdə çəkilməsi tikintinin qısa müddətdə başa çatdırılmasına kömək oldu. Belə ki, CQBK-nin tikintisinə başlayarkən böyük vaxt tələb edən torpaq mülkiyyətçilərinin məlumatlandırılması, 58 metrlik dəhlizdə torpaqayırma işlərinin aparılması, məhsulun inventarlaşdırılması başa çatdırılmış, xüsusi mülkiyyətdə olan pay torpaqlarından keçən kəmərə görə mülkiyyətçilərlə Azərbaycan dövləti arasında torpaq icarə müqavilələrinin notarial qaydada bağlanması prosesi yekunlaşdırılmış, tikintini aparan şirkətlər müəyyən edilmişdi. (10).

Beləliklə, "BP" və tərəfdaşlarının, ABŞ və Böyük Britaniya hökumətlərinin ciddi siyasi dəstəyi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin hazırladığı və böyük müdrüklüklə həyata keçirdiyi enerji siyasəti sayəsində Cənubi Qafqaz Boru Kəməri istifadəyə verildi. "Şah dəniz" layihəsilə Azərbaycanın qaza olan daxili tələbatı tamamilə ödənildi. Rusiyadan Azərbaycana qaz idxalına tamamilə son qoyuldu. Gürcüstanın qaza olan tələbatının 75 faizi təmin olundu. Azərbaycan qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə çevrildi. "BP" şirkətinin operator kimi "Şah dəniz "yatağında apardığı dəqiqləşmələr bu yataqda 1,2 trln. kub metr qaz ehtiyatının olmasını təsdiq etdi. Üstəlik "Azəri", "Çıraq", "Günəşli" yataqlarındakı ehtiyatları da nəzərə alsaq qaz ehtiyatlarının 1,5 trln.kub metr həcmində olduğu dəqiqləşdi(10).

"Şah dəniz" mərhəlı-1 proqramının uğurla həyata keçirilməsi, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin qısa müddətdə istifadəyə verilməsi və "BP" şirkəti tərəfindən uğurla idarə olunması gələcəkdə "Şah dəniz-2" layihəsinin işlənməsinə, yeni-Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsinin həyata keçirilməsilə Azərbaycan qazının Avropaya ixracı məsələsinin də reallaşmasına təkan verdi.

ƏDƏBİYYAT

1. Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, Kitab 6, Azərnəşr, 1998, 501 s .
2. Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, Kitab 20, Azərnəşr, 2007, 521 s.
3. Heydər Əliyev, Müstəqilliyimiz əbədidir, Kitab 36, Azərnəşr, 2011, 512 s.
4. Heydər Əliyev, Azərbaycan nefti dünya siyasətində, Kitab 4, Bakı, 1997.478s.
5. Ильхам Aliyev, Каспийская нефть Азербайджана, Moskva, 2003. 316 c.
6. Azərbaycan Respublikasının Qanunlar Külliyatı, Bakı Qanun, 1997, 831 s.
7. Azərbaycan qəzeti 1. 20 may 2001.
8. Xalq qəzeti, 1. 13 iyul 1999-cu il, 2. 22 aprel 2000-ci il, 3. 28 fevral 2003
9. Mülkiyyət qəzeti, 1. 20-27 iyul 1999-cu il, 2. 25 mart 2001.
10. https://www.bp.com/az_az/caspian/operations projects/pipelines/SCP html

ABSTRACT

Ilham Alizade

HEYDAR ALIYEV OIL STRATEGY.
BP AND PARTNERS IN THE SHAH DENIZ PROJECT

SOCAR signed with foreign oil corporations the contract about joint operation in the Shah Deniz sector on June 4,1996. It was third contract signed by SOCAR with foreign oil corporations and second with BP and partners after" contract of century". According to Heydar Aliyev's policy of more countries and companies involvment in realization of this contract, beside BP and Statoil concortium were ensured participation of France, Russia, Italy and Iran oil companies. Exploration of Shah Deniz gas and condensate field and construction of South Caucasus Pipeline ensured gas supplying needs of Azerbaijan and partially of Turkey and Georgia. South Caucasus Pipeline made possible idea of gas exporting to Western countries in the future.

РЕЗЮМЕ

Ильхам Ализаде

НЕФТЯНАЯ СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА.
"BP" И ПАРТНЕРЫ В ПРОЕКТЕ "ШАХ ДЕНИЗ"

4 июня 1996 года в Баку SOCAR подписал контракт с иностранными нефтяными компаниями о совместной эксплуатации сектора "Шах дениз".Это был третий контракт подписанный SOCAR с иностранными нефтяными корпорациями и второй с "BP" и партнерами после"контракта века". В соответсвии с политикой Гейдара Алиева о вовлечении еще больших стран и компаний в реализацию этого контракта, наряду с консорсиумом "BP" и "Statoil" было обеспечено участие нефтяных компаний из Франции, Италии и Ирана.Разведка газа и конденсата, строительство газопровода Баку-Тбилист- Эрзурум позволило удовлетворению потребностей Азербайджана и частична удовлетворила потребности Турции и Грузии в газе. Южный Кавказский газопровод дал толчок для возможности реализации идеи транспортировки газа в Европу.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MAYİSƏ ABBASOVA
Naxçıvan Universiteti
abbasovaruziya@gmail.ru

UOT: 330

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ÖZƏL SAHİBKARLIĞA DÖVLƏT DƏSTƏYİNİN ROLU

Açar sözlər: *özəl sahibkarlıq, iqtisadi siyasət, iqtisadi islahatlar, dövlət dəstəyi, inkişaf, prioritet istiqamətlər*

Key words: *private entrepreneur, economic politics, economic reforms, state support, development, priority directions*

Ключевые слова: *частное предпринимательство, экономическая политика, экономические реформы, государственная поддержка, развитие, приоритетные направления.*

Bu gün sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan dövləti öz iradəsini nümayiş etdirir. Sahibkarlara daim diqqət göstərilir, onlara güzəştli kreditlərin, texnikanın lizinq yolu ilə verilməsi, fermerlərə subsidiyaların ayrılması, bütövlükdə kənd təsərrüfatını, eləcə də sahibkarlığı stimullaşdıran Dövlət Proqramlarının qəbul olunması və onların müvəffəqiyyətlə icra olunması ölkədə sahibkarlığın inkişafına münbit şərait yaratmışdır.

Azərbaycanda 90-cı illərin ortalarından başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən islahatlarla planlı iqtisadi modeldən liberal bazar iqtisadiyyatına keçid təmin edilib, dünyada ən yüksək inkişaf templəri ilə sənaye, xidmət və kənd təsərrüfatı sahələrində real irəliləyişə nail olunub. Ulu Öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır.

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial - iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının təkmilləşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycanda özəl bölmənin inkişafında, sahibkarlığa dövlət maliyyə dəstəyinin gücləndirilməsində Sahibkarlığa Kömək Milli Fondunun işinin səmərəli təşkili xüsusilə əhəmiyyətlidir. Fondun məqsədi Azərbaycan Respublikasında sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərməkdən, onlara maliyyə dəstəyi verməkdən ibarətdir. Əsas vəzifələr isə fondun vəsaitləri hesabına Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini qanunvericiliyə uyğun maliyyələşdirmək, fonda maliyyə ehtiyatlarının cəlb olunması üçün tədbirlər görmək, o cümlədən maliyyə bazarlarından kreditlərin cəlb olunması barədə danışıqlar aparmaq və təkliflər vermək, fonda sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi üçün verilmiş vəsaitlərin səmərəli və təyinatı üzrə istifadə etməkdir □2□.

Bazar iqtisadiyyatında regional istehlak bazarında kiçik və orta biznesin bəzi spesifik çətinlikləri əmələ gəlir. Bunların arasında maneələr xüsusi yer tutur. Ona görə də dövlətin mühüm vəzifələrindən biri sahibkarlığın inkişaf etdirilməsi üçün dövlət siyasətinin aparılması olmalıdır. Dövlət siyasətinin isə əsas istiqamətləri aşağıdakılardır:- sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün inzibati maneələrin ixtisar edilməsi; - sahibkarlıq fəaliyyətinə dövlət orqanlarının müdaxiləsinin minimuma endirilməsi □3□.

«Azərbaycanda kiçik və orta sahibkarlığın Dövlət Proqqamı (2002-2005-ci illər)» bu istiqamətdə həyata keçirilən dövlət tədbirlərinin sistemliliyinin təmin edilməsində mühüm rol oynayaraq ölkədə sahibkarlığın inkişafına böyük təkan vermişdir.

Sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Vergi siyasətinin kiçik və orta sahibkarlığa dövlət köməyinin digər istiqamətləri ilə əlaqələndirilməsinə dair tədbirlər keçirilmiş, sahibkarlığın vergi yükü azaldılmışdır. Lisenziyalaşdırma sistemi köklü surətdə təkmilləşdirilmiş, verilən lisenziyaların vahid dövlət reyestri yaradılmışdır. Kiçik və orta sahibkarlıq subyektlərinin müəyyən edilməsi meyarları təkmilləşdirilərək sahibkarlıq sektoruna dövlət köməyinin ünvanlılığı daha da artırılmışdır.

Ölkə Prezidenti İlham Əliyev dəfələrlə vurğulayır ki, son illər ölkəmizdə uğurlu iqtisadi islahatların əldə edilməsində özəl sektorun, milli sahibkarlar təbəqəsinin rolu kifayət qədər böyükdür. Ötən müddətdə kiçik və orta sahibkarların güzəştli kreditlərlə təmin olunması, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində bir sıra mühüm addımlar atılmışdır □5□.

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının təsdiqlənməsi,

şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiqlənməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad və apellyasiya məhkəmələrinin yaradılması kimi tədbirlər bunun əyani təcəssümüdür. Belə ki, son illər özəl sektorun ümumi daxili məhsul istehsalındakı xüsusi çəkisinin 85 faizə çatması da respublikamız üçün kifayət qədər böyük göstəricidir. Prezident İlham Əliyev özəl sektorun dinamik inkişafına təkcə sosial-iqtisadi yüksəliş xəttinin deyil, həm də demokratikləşmə prosesinin ardıcıllığını, vətəndaş hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasını təmin edən başlıca vasitələrdən biri kimi yanaşır.

Respublikamızda sahibkarlığın inkişafına mane olan süni maneələrin aradan qaldırılması istiqamətindəki fəaliyyətinin ardıcıl və davamlı səciyyə daşıdığını Prezident İlham Əliyevin 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı bir daha təsdiqləyir ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosialiqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlətin sahibkarlığın inkişafı üçün qayğı və səyini əsirgəmədiyini xüsusi qeyd etmişdir: "Sahibkarlara daim diqqət vardır. Sahibkarlar həm siyasi, həm də maddi tərəfdən dəstəklənir. Sahibkarlara müxtəlif yollarla Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli kredit şəklində böyük vəsait verilir".

Bütün bu nailiyyətlər, onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların, iş adamlarının etibarlı himayədarına çevrilmiş cənab İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni inkişaf dönəminə qədəm qoymaqla, sahibkarlığın inkişafına diqqət daha da artırılıbdır. Məhz elə buna görədir ki, qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən iqtisadi strategiya uğurla davam etdirilir.

Hazırda sahibkarlığın inkişafı üçün yüksək qayğı və diqqət göstərilməsi, iqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişafı Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Son illərdə dövlət büdcəsinin formalaşmasında qeyri-neft sektorundan gələn gəlirlərin xüsusi çəkisinin yüksələn xətlə artması aparılan siyasətin müsbət nəticələrə gətirib çıxardığını təsdiq edir. Bu barədə dövlət başçısı Nazirlər Kabinetinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclaslarında mütəmadi olaraq ətraflı məlumat verir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, "biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik" □2□.

Məhz dövlət başçısının ciddi qayğısı və nəzarəti sayəsində Azərbaycanda sahibkarlığın inkişafı məqsədilə sistemli və ardıcıl addımlar atılmaqdadır. Bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən son aylar ərzində qəbul edilmiş qərarlar, imzalanmış fərman və sərəncamlar prosesin dönməz olduğunu göstərir. Prezidentin 21 aprel 2016-cı ildə Sahibkarlar Gününün təsis edilməsi ilə

bağlı imzaladığı sərəncam da məhz bu məqsədə xidmət edir. Sərəncama əsasən, aprelin 25-i Sahibkarlar Günü elan edilib.

Görülən tədbirlər nəticəsində ölkəmizdə son on ildə sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmış, bütövlükdə məşğul əhalinin 74%-ə yaxını özəl sektorda toplanmışdır. Həyata keçirilən tədbirlərin nəticəsində ölkədə istehsal olunan ümumi daxili məhsulda özəl sektorun payı getdikcə artmaqdadır. Hazırda ölkədə istehsal olunan ümumi daxili məhsulda özəl sektorun payı 87%-ə çatmışdır □1□.

Muxtar Respublikada həyata keçirilən iqtisadi islahatların nəticəsidir ki, sahibkarlığın inkişaf dinamikası gündən-günə yüksəlməkdə davam edir.

ƏDƏBİYYAT

1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri, iqtisadi artım, dinamik inkişaf. Bakı, Sabah nəşriyyatı, 2008, s.288.
2. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyədən praktikaya. Bakı, Nurlan, 2009, 360 s.
3. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı. İqtisadiyyat və audit №2, Bakı, 2002.
4. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, 2000, s.114.
5. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri. İqtisadiyyat və aydit jurnalı №10, Bakı, 2003.

ABSTRACT

M.M.Abbasova

ROLE OF STATE SUPPORT TO PRIVATE ENTREPRENEURSHIP IN NAKHCHIVAN AR

The article deals with entrepreneurship development as a result of the 1990s economic policy in the country and the state's support and care for entrepreneurship in this regard. As well the directions of the state economic policy are investigated here.

The article emphasizes that the elimination of artificial obstacles to the development of entrepreneurship in our republic is consistent and continuous. Thanks to the serious care and control of the head of state, he takes systematic and consistent steps in order to develop entrepreneurship in Azerbaijan.

РЕЗЮМЕ

М.М. Аббасова

РОЛЬ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ ЧАСТНОМУ ПРЕДПРИНИМАТЕЛЬСТВУ В РЕСПУБЛИКЕ

В статье говорится об ускорении развития предпринимательства в результате проводимой с 90-х годов в стране экономической политики и оказываемой со стороны государства в этом направлении помощи и заботы предпринимателям. Здесь также исследуются направления государственной экономической политики.

В статье в особенности отмечается, что устранение искусственных препятствий, тормозящих развитие предпринимательства носит последовательный и длительный характер. Именно благодаря серьёзной заботе и контролю главы государства предпринимаются последовательные шаги с целью развития предпринимательства

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ARAZ ƏSGƏROV
Naxçıvan Dövlət Universiteti

UOT: 330

SƏNAYE PARKLARINDA İŞGÜZAR FƏALİYYƏTİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ MÖVCUD QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ


Açar sözlər: *iqtisadiyyat, sərbəst fəaliyyət zonaları, sənaye parkları, işgüzar fəaliyyət, qanunvericilik bazası*

Key words: *economics, free zones, industrial parks, business activity, legislation base*

Ключевые слова: *экономика,свободные зоны деятельности, промышленные парки, правовая база*

Hazırda inkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bir çox ölkələrində qlobal rəqabət şəraitində kiçik və orta sahibkarlığın rəqabətədavamlılığının təmin olunması, o cümlədən, xammalın əldə edilməsi, istehsal prosesində yeniliyin tətbiq edilməsi, məhsulların bazara çıxarılması və s. mövzularda yaranan problemlərin sənaye parkları və məhəlləri vasitəsilə, onların tərkibində təmsil olunmaqla aradan qaldırılması və həlli daha asandır. Başqa sözlə, sənaye parkları kiçik və orta müəssisələrin işgüzar fəaliyyətini stimullaşdıra, bazara çıxması üçün əlverişli mühit formalaşdıra bilər. Xarici ölkələrin təcrübəsinə istinadən demək olar ki, sənaye parkları sahibkarlığın dəstəklənməsinə, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye subyektlərinin yaradılmasına, sənaye və kənd təsərrüfatı potensialının artırılmasına imkan yaradır. Məhz bu baxımdan sənaye parklarının əhəmiyyətli cəhətlərini nəzərə alaraq, Azərbaycan Respublikasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın dəstəklənməsinin, işgüzar fəaliyyətin stimullaşdırılmasının yollarından biri kimi sənaye parklarının yaradılmasına ehtiyac duyulur və bu istiqamətdə gərəkli addımlar atılmaqdadır. Əslində sənaye parklarının təşkili və idarə edilməsi, işgüzar fəaliyyətin stimullaşdırılması, sahibkarlıq fəaliyyətinin müxtəlif üsul və vasitələrlə dəstəklənməsi bir-birini tamamlayan bir "medalyon"un iki üzüdür. Belə ki, sənaye parklarının təşəkkülü və formalaşması prosesi onu təşkil edən strukturun dəyişmə meylləri ilə tənzimlənir və işgüzar fəaliyyətin, məşğulluğun perspektivini, sahibkarlığın sahə quruluşunu və marketinq strukturunu müəyyən edir. İşgüzar fəaliyyətin stimullaşdırılması, sahibkarlığın dəstəklənməsi bir sıra təşkilati idarəetmə tədbirlərindən, habelə sənaye parkları və məhəllələrinin təşkili və inkişaf perspektivlərindən asılıdır. Təsvir etdiyimiz medalyonun hər iki üzü isə bu istiqamətdə yaradılmış mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi ilə birbaşa bağlıdır. Qeyd etdiyimiz sənaye parklarının təşkili və idarə edilməsi, işgüzar fəaliyyətin stimullaşdırılması və qanunvericilik bazasının təkmilləşdirilməsi arasındakı qarşılıqlı əlaqə və asılılığı sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar (sxem 1).

Sxem 1. Sənaye parklarının təşkili və idarə edilməsi, işgüzar fəaliyyətin stimullaşdırılması və qanunvericilik bazasının təkmilləşdirilməsi arasındakı qarşılıqlı əlaqə və asılılığı



Fikrimizcə, respublikamızda işgüzar fəaliyyətin inkişafı üçün geniş zəmin yaradılması baxımından sənaye parklarının formalaşdırılması istiqamətində ilkin qanunvericilik bazası artıq yaradıl-

mışdır. Belə ki, ölkəmizdə sənaye parklarının yaradılması ilk dəfə 2002-ci ilin sentyabrında imzalanan "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanda müəyyənləşdirilmişdir. Sənaye parklarının yaradılması bununla yanaşı, bir sıra dövlət proqramlarında, o cümlədən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında" nəzərdə tutulmuşdur. Bununla yanaşı, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlər planında sənaye parkının yaradılması planlaşdırılmışdır. Yuxarıda adları qeyd edilən mühüm sənədlərin qəbulu sənaye parklarının formalaşdırılması üçün zəmin yaratmış, xarici ölkələrin sənaye parkları və məhəllələrinin yaradılması istiqamətindəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, həmçinin BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə ilkin qanunvericilik bazası formalaşdırılmış, Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir.

"Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2011-ci il tarixli 548 nömrəli "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" fərmanının 7.1.2-ci yarımbəndinə əsasən hazırlanmışdır və dövlət tərəfindən sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir. Sənaye parklarının təşkili və idarə edilməsini tənzimləyən Əsasnamə "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun zəminində yaradılaraq işgüzar fəaliyyətin stimullaşdırılmasını nəzərdə tutur. Buradakı başlıca məqsədlərdən biri də sənaye parkları daxilində fəaliyyətə maraq göstərən xarici şirkətlərin və ya xarici investisiyalı birgə müəssisələrin cəlb olunmasıdır. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilməyən, müasir texnologiyaların tətbiqi yolu ilə yüksək rəqabət qabiliyyətli məhsulların istehsalı və xidmətlərin göstərilməsi ilə bağlı işgüzar fəaliyyətin həyata keçirilməsinə zəmin yaradan sənaye parkları bu fəaliyyətin başlıca hərəkətverici qüvvəsidir.

İnnovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi məqsədini, eyni zamanda, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması "alt" məqsədini əhatə edən sənaye parklarının yaradılması istiqamətində formalaşdırılmış mövcud qanunvericilik bazasının perspektiv inkişaf baxımından təkmilləşdirilməsi zamanı, fikrimizcə, qarşılıqlı maraqların nəzərə alınması, dövlət-özəl sektor əməkdaşlığının təşkil edilməsi böyük əhəmiyyət kəsb edər.

Bildiyimiz kimi, işgüzar aləmin subyektləri olan biznesmenlərin başlıca marağı maksimal mənfəətin əldə edilməsidir. Sənaye parkları isə ya biznes fəaliyyətinin qurulmasının yeni üsulu, ya da mövcud biznesin genişləndirilməsi vasitəsi olduğundan işgüzar fəaliyyət üçün yeni imkanlar yaradır. Ölkə rəhbərliyinin, regional hökumətin maraqları isə, son nəticədə biznesin inkişafı hesabına əldə edilən əhalinin həyat dəyərlərinin yüksəldilməsi, ölkə iqtisadiyyatına yeni investisiyaların cəlb olunması, yeni iş yerlərinin yaradılması, prioritet sahələrin inkişaf etdirilməsidir. Maraqların qarşılıqlı asılılığı və yaxınlığı sənaye parklarının yaradılması və idarə edilməsi zamanı dövlət-özəl sektor əməkdaşlığının təşkili üçün zəmin yaradır. İşgüzar fəaliyyətin stimullaşdırılması baxımından mövcud qanunvericilik bazasının dövlət-özəl sektorlarının əməkdaşlığı çərçivəsində təkmilləşdirilməsi ona görə əhəmiyyətlidir ki, özəl sektor sıx-sıx təşəbbüskarlıq göstərən tərəf kimi özünü ifadə etdiyi halda, hökumət orqanları investisiyaların səmərəli müdafiəsini təmin edən tərəf kimi çıxış edir. Qarşılıqlı əməkdaşlığın bu forması investisiya qoyuluşlarındakı riski minimuma endirir ki, bu da işgüzar fəaliyyətin inkişafına əlverişli şərait yaradır.

Respublikamızda dövlət-özəl sektor münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına

dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında özəl sektorun payı 80%-dən çoxdur, məşğul əhalinin təqribən 70%-i isə bu sektorda çalışmaqdadır.

Əldə olunan nailiyyətlərlə yanaşı qeyd edək ki, haliyədə ölkəmizdə, xüsusən onun regionlarında sənaye müəssisələri tərəfindən daha yüksək texnologiyalar sisteminin tətbiqinə keçid prosesi çox zəifdir. Belə ki, 2016-cı ildə innovasiya fəaliyyəti ilə məşğul olan və ya istehsal prosesində yeniliyin tətbiq edilməsinə üstünlük verən subyektlərin ümumi müəssisə sayındakı xüsusi çəkisi 2-3% olmuşdur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2016-cı ildə ümumi sənaye məhsulu istehsalı həcmində innovasiya məhsullarının xüsusi çəkisi 0,02% təşkil etmişdir. Qeyd olunan dövrdə emal sənaye müəssisələrində istehsal olunan məhsulların 0,1%-i innovasiya təyinatlı olmuşdur. Dünya Bankının məlumatına əsasən avrozonada yüksək texnoloji məhsulların ixracı emal sənaye məhsullarının ixracının 25%, Baltikyanı Respublikalarda 13-19%, Rusiyada 12% təşkil edirsə, Azərbaycanda bu rəqəm 5%-ə bərabərdir.

Apardığımız araşdırmalar nəticəsində bir faktı qeyd edə bilərik ki, bu cür vəziyyətin başlıca səbəblərindən biri respublikamızın regionlarında investisiya resurslarının və elmi texniki potensialın məhdud səviyyədə olması və yüksək ixtisaslı işçilərin sayının azlığıdır. Digər tərəfdən, respublikamızda fəaliyyət göstərən özəl müəssisələrin innovasiyalı texnologiyaların istehsala tətbiqində maraqlı olmamaları səbəbinin istehsal müəssisələri arasında məhsulların maya dəyərinin aşağı salınması, rəqabət uğrunda aparılacaq mühitinin olmaması və istehsalçıların öz məhsullarını istədikləri qiymətə sata bilmələridir.

Bəhs etdiyimiz bu situasiyalar innovasiya fəaliyyətinin strateji prioritetlərinin düzgün müəyyənləşdirilməsini diktə edir. İnnovasiya fəaliyyətinin strateji prioritetlərindən biri kimi hal-hazırki iqtisadi vəziyyətdə inkişaf etmiş ölkələrdə geniş tətbiq olunan sənaye parklarının yaradılması, onların təşkilati-iqtisadi alətlərindən istifadə innovasiya yönümlü işgüzar fəaliyyətin stimullaşdırılması baxımından daha əhəmiyyətlidir. Çünki yeni iqtisadi münasibətlər şəraitində xarici bazarlara çıxışın əsas yollarından biri - bazar üçün yeni məhsul istehsalına nail olmaq, yeni texnologiyaların tətbiqi hesabına daxili və xarici bazarda azərbaycan məhsullarının rəqabətqabiliyyətliliyini nəzərə çarpacaq dərəcədə artırmaqdır. Fikrimizcə, işgüzar fəaliyyətin stimullaşdırılması nöqteyi-nəzərindən mövcud qanunvericilik bazasının məhz bu yöndə təkmilləşdirilməsi daha səmərəli olar. Düşüncələrimizi konkretləşdirməklə demək olar ki, yeni məhsul və texnologiyaların kəşfi istehsal üçün tələb olunan səviyyədə rəqabət mühitinin formalaşdırılmasında əsas amillərdən hesab olunur ki, bu nöqteyi nəzərdən də sənaye parklarının təşəkkül tapması və fəaliyyətinin təşkili mühüm həll yollarındandır.

Sənaye parklarının yaradılmasında innovasiya yönümlü işgüzar fəaliyyətin stimullaşdırılması məqsədilə qanunvericilik bazasında nəzərdə tutulan addımlardan biri – vergi təyinatlı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsidir. Müvafiq tədbirləri innovasiya yönümlü işgüzar fəaliyyətə, onun inkişafına təsir dərəcəsindən asılı olaraq birbaşa və dolayı təsir tədbirlərinə ayırmaq olar.

İnnovasiya fəaliyyətinin stimullaşdırılmasına birbaşa olaraq istiqamətlənən vergi güzəştlərinə ilk olaraq 21 dekabr 2012-ci il tarixli Qanunla start verilmişdir. Məhs onun əsasında Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə sənaye parklarında təmsil olunan vergi ödəyicilərinə güzəştlər tətbiq olunmuşdur. Belə ki, qüvvədə olan mövcud Vergi Məcəlləsinə və İqtisadiyyat Nazirliyinin qərarına əsasən yaradılan sənaye parkları və məhəllələrinin rezidentlərinə 7 il ərzində gəlir, mənfəət, əmlak, torpaq, o cümlədən əlavə dəyər vergisi ilə bağlı tətbiq olunan vergi güzəştləri mühüm stimullaşdırma tədbirlərindəndir. İnnovasiya fəaliyyətinin stimullaşdırılmasına birbaşa olaraq istiqamətlənən bu maddələrin bir neçəsini xüsusilə qeyd etmək yerinə düşər. Belə ki, Vergi Məcəlləsinə edilmiş əlavələrə əsasən:

- ✓ sənaye parkları və məhəllələrinin (SPM) rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin SPM-dəki fəaliyyətindən əldə etdikləri gəlir (əmək haqqından tutulan gəlir vergisi istisna olmaqla) qanunvericiliyə uyğun olaraq SPM-lərdə qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 7 il müddətində gəlir vergisindən (maddə 102.1.21);

✓ SPM-lərin idarəedici təşkilatının və ya operatorunun mənfəətinin sənaye parkları və məhəllələrinin infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi qeydiyyata alındıqları dövrdən başlayaraq 7 il müddətində mənfəət vergisindən (maddə 106.1.12);

✓ SPM-in rezidenti olan hüquqi şəxslərin sənaye parkları və məhəllələrindəki fəaliyyətindən əldə etdikləri gəlir qanunvericiliyə uyğun olaraq SPM-də qeydiyyata alındıqları dövrdən başlayaraq 7 il müddətində mənfəət vergisindən (maddə 106.1.13);

✓ SPM-lərin infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye parkları və məhəllələrinin idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı qeydiyyata alındığı tarixdən 7 il müddətində əlavə dəyər vergisindən (maddə 164.1.15);

✓ SPM-lərdə istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye parkları və məhəllələrinin rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı rezidentin SPM-də qeydiyyata alındığı tarixdən 7 il müddətində əlavə dəyər vergisindən (maddə 164.1.16) azad edilmişdir.

Bununla yanaşı Məcəlləyə edilmiş əlavələrə əsasən SPM rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq sənaye parkları və məhəllələrində qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 7 il müddətində sənaye parkları və məhəllələrindəki əmlaklarına görə (maddə 199.7), SPM-in idarəedici təşkilatı və ya operatoru sənaye parkları və məhəllələrinin ərazisində yerləşən əmlaklarına görə əmlak vergisindən (maddə 199.8), torpaq vergisi ilə bağlı edilən əlavəyə əsasən isə SPM rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq sənaye parkları və məhəllələrində qeydiyyata alındıqları hesabat ilindən başlayaraq SPM-lərdə istifadə etdikləri torpaqlara görə 7 il müddətində torpaq vergisindən (maddə 207.3), SPM-in idarəedici təşkilatı və ya operatoru sənaye parkları və məhəllələrinin ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini (maddə 207.4) ödəməkdən azaddırlar. Qeyd olunan bu güzəştlər ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin formalaşdırılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə tətbiq edilmişdir.

İnnovasiya fəaliyyətinin stimullaşdırılması istiqamətində atılan addımlardan biri də elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinin vergi stimullaşdırması tədbiridir. Qüvvədə olan Vergi Məcəlləsinin 113-cü maddəsinə əsasən gəlir götürmək məqsədi ilə aparılan elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli xərclər istisna olmaqla) gəlirdən çıxılır. Bu da vergi ödəyicisinin vergi tutulan gəlirini azaltmaqla onun sərəncamında əlavə maliyyə vəsaitinin qalmasına gətirib çıxarır və bununla da innovasiya yönümlü investisiya fəaliyyətini təşviq edir.

İnnovasiya fəaliyyətinin əsas struktur bölmələrindən biri olan təhsil müəssisələrinə əlavə dəyər vergisi ilə bağlı tətbiq olunan vergi güzəştləri bu struktur bölmələri innovasiya yönümlü iqtisadi fəaliyyətə sövq edir. Belə ki, təhsil müəssisələrinin əlavə dəyər vergisindən azad edilməsi təhsil müəssisələrini ödənişli əsaslarla təhsil xidmətlərinin göstərilməsində maraqlı edir ki, bu da onlar üçün alternativ gəlir mənbəyi hesab olunur. Nəticədə təhsil xidmətləri göstərən müəssisələrin maliyyə imkanlarının genişlənməsi onların elmi-texniki bazasının möhkəmlənməsinə, yeni texniki avadanlıqların alınıb quraşdırılmasına, laboratoriyaların zənginləşdirilməsinə, elmi tədqiqatların miqyasının artırılmasına və bu sahədə fəaliyyət göstərən işçilərin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına münbit şərait yaratmış olur.

Fikrimizcə, əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın formalaşdırılması istiqamətində tədbirlər planı hazırlanmalı, qanuni əsası təmin edilərək həyata keçirilməlidir.

Sənaye parkları və burada fəaliyyət göstərən rezidentlər ilə ali təhsil müəssisələri, elmi-tədqiqat institutları arasında iş birliyinin formalaşdırılması elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələrin də cəlb olunmasını stimullaşdırır ki, bu da, son nəticədə elmi fəaliyyətlə məşğul olan işçilərin, o cümlədən gənclərin sosial müdafiəsini gücləndirəcək və "beyin axını"nın qarşısını alacaqdır. İşgüzar fəaliyyətin stimullaşdırılması baxımından mövcud qanunvericiliyin qeyd etdiyimiz yöndə təkmilləşdirilməsi respublikamızda, o cümlədən Naxçıvan Muxtar Respublikasında innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsal arasındakı əlaqələri gücləndirəcək, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmlər yaradacaqdır. Məhz bu baxımdan innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirləri hazırlanmalı və müvafiq qanunvericilik bazası yaradılmalı və ya mövcud qanunvericilik bazası təkmilləşdirilməlidir..

İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni məhsulların, fəaliyyət növlərinin inkişafı üçün əlverişli şəraitin yaradılması qayəsindən çıxış edərək qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlər gücləndirilməli, elmtutumlu məhsullar və texnologiyalar işlənilməli, sənaye parkları və məhəllələrində tətbiq edilməlidir. Bu baxımdan, mövcud müvafiq normativ hüquqi baza təkmilləşdirilməli, innovativ sahibkarlığın və biliklərə əsaslanan iqtisadiyyatın inkişafını təmin etməkdən ötrü Azərbaycan Respublikası prezidentinin 29 dekabr 2012-ci il tarixli fərmanı illə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında nəzərdə tutulduğu kimi İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu təsis edilməlidir.

Vergi Məcəlləsindən əlavə Azərbaycan Respublikasının qanunlarında öz əksini tapan vergi stimullaşdırması tədbirləri innovasiya fəaliyyətinin stimullaşdırılmasına dolayı olaraq istiqamətlənən vergi güzəştləridir. Belə ki, 28 noyabr 2003-cü il tarixli 521 nömrəli, 14 mart 2006-cı il tarixli 186 nömrəli Qanunlarla əhalinin əmanətləri üzrə ödənilən faizlər, habelə investisiya qiymətli kağızları üzrə divident və faizlərdən olan gəlirlər 01 yanvar 2002-ci il tarixdən 01 fevral 2019-cu il tarixədək gəlir vergisindən azad edilmişlər. Bundan əlavə, 27 dekabr 2009-cu il tarixli 903 nömrəli və 2012-ci il tarixli 542 nömrəli qanunlarla banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 01 fevral 2019-cü il tarixədək gəlir vergisindən azad edilmişdir.

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının 27 noyabr 2001-ci il tarixli Qanununa və həmin qanunun qüvvədə qalma müddətinin uzadılması barədə Azərbaycan Respublikasının 25 noyabr 2008-ci il tarixli Qanununa əsasən Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan hüquqi şəxslər 1 yanvar 2014-cü il tarixədək Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini, fiziki şəxslər isə əlavə dəyər vergisini, həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar. Azərbaycan Respublikasının 28 oktyabr 2008-ci il tarixli Qanununa əsasən bankın, sığorta və təkrar sığorta şirkətinin mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi 1 yanvar 2009-cu il tarixdən 3 il müddətində mənfəət vergisindən azad edilmişdir. Sadalanan vergi stimullaşdırma tədbirləri birbaşa olaraq innovasiya fəaliyyətinin stimullaşdırmasına yönəlməsə də dolayısı ilə bu fəaliyyətin inkişafına hər hansı dərəcədə öz müsbət təsirini göstərmişdir.

Göründüyü kimi, vergi qanunvericiliyində innovasiya fəaliyyətini həm birbaşa, həm də dolayısı ilə stimullaşdıran vergi güzəştləri öz əksini tapmışdır. Lakin bu stimullaşdırma tədbirləri innovasiya fəaliyyətini tam olaraq mövcud dövrün tələblərinə uyğun olaraq stimullaşdırma imkanına malik deyildir. Fikrimizcə, xarici ölkələrin qüvvədə olan qanunvericilik təcrübəsini öyrənməklə vergi qanunvericiliyinə birbaşa olaraq innovasiya fəaliyyətini stimullaşdıracaq, bu fəaliyyətin miqyasının və sürətinin artımına müsbət təsir edəcək vergi güzəştlərinin tətbiqi üçün mövcud qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Fikrimizcə, innovasiya yönümlü işgüzar fəaliyyətin stimullaşdırılması baxımından sənaye parklarının rezidentlərinin əmlak vergisindən azad edilməsi üçün kapital qoyuluşu həcminə olan tələbin azaldılması daha effektiv təsirə malik olardı.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək deyə bilərik ki, respublikamızda, onun ayrılmaz

tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında işgüzar fəaliyyətin stimullaşdırılması baxımından yaradılmış və yaradılması nəzərdə tutulan sənaye parklarının mövcud qanunvericilik bazasının aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsi fikrimizcə məqsədəuyğun olar:

1. sənaye parklarının rezidentləri üçün dövlət təminatının verilməsi qaydasının təkmilləşdirilməsi;
2. sənaye parkındakı kadastr qiymətləndirməsindən keçmiş dövlət əmlakının rezidentlər tərəfindən kredit götürən zaman girov kimi istifadə edilməsi və bu prosesin qanunvericilik çərçivəsində təkmilləşdirilməsi;
3. xüsusi maliyyələşmənin səfərbər edilməsi üçün dövlət kapital qoyuluşu mexanizmindən istifadə prosedurasının təkmilləşdirilməsi;
4. sənaye parkları rezidentlərinin perspektiv inkişaf planlarını nəzərə alaraq dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi qaydası və bu qaydaların təkmilləşdirilməsi;
5. sənaye parklarının mövcud infrastruktur təminatının daha da yaxşılaşdırılması üçün yerli büdcə xərclərinin subsidiyalaşdırılması və qanunvericilik çərçivəsində bu prosesin təkmilləşdirilməsi və s.

ƏDƏBİYYAT

1. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. İkinci nəşr, Bakı, Elm, 2007, 427 səh.
2. Sənaye parkları sahibkarlığa dəstək sisteminin elementləri kimi. "İqtisadiyyat" qəzeti, №8 (951), 2017
3. Zeynel Dinler. Bölgesel iktisat. Bursa, 2012, 449 yaprak
4. Ayla Eraydın. Post-Fordizm ve değişen mekansal özellikler. Ankara, 2012
5. M.Özdemir. Türkiyede organize sanayi bölgeleri. Ankara, 2010

ABSTRACT

Araz Asgerov

IMPROVING LEGISLATIVE BASE IN THE FIELD OF STABILIZATION OF WORK ON THE ENTREPRENEUR PARKS

Industrial parks have been selected as the main research object in the article. Relevant structures represent various legal entities with a variety of elements. The fact that they belong to the industry is a general specification. However, industrial parks include production of goods and services within the area.

For the purpose of forming relevant parks in the capital and regions of the country in the current period primarily to meet the needs of our country's industrial products and services, to expand its export potential, to adopt new technical and technological capacities, to implement more advanced production, organizational methods issues.

The organization of business activities on industrial parks is an important task in the investigation. In the context of the context, the specific weight of the area is increased in the country's economy, the expansion of the variety of its commodity production based on its distribution, the delivery of ready-made products to the highest possible level, and the reduction of financial and tax burden The steps to be taken to ensure that the free flows of resources are met more efficiently should be considered as factors influencing the functioning of parks and sub-entities involved in them.

Improving the legislative framework along with other factors in the complex implementation of these issues is of paramount importance. From this point of view, the law has been enacted for the adoption and implementation of interim legal and normative acts on the basis of scientific research and observation, study of international experience and other works.

РЕЗЮМЕ

Араз Аскеров

СОВЕРШЕНСТВОВАНИЕ СУЩЕСТВУЮЩЕЙ ПРАВОВОЙ БАЗЫ ПО СТИМУЛИРОВАНИЮ ДЕЛОВОЙ ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ ПАРКОВ

В статье основным объектом исследования выбраны промышленные парки. Соответствующие организования являются юридическими субъектами, воплощающими в себе различные модификации с многочисленными элементами. Их отношение к промышленности выявляет их общеотраслевую профилизацию. Наряду с этим промышленные парки суммируют в себе производство товаров и оказание услуг по различным внутриотраслевым направлениям.

В настоящее время цели широкого распространения формирований как в центральных территориях, так и в регионах соответствующих парков охватывают в себе в превую очередь такие вопросы, как погашение потребностей республики по промыщленным товарам и услугам, расшрение их экспортного потенциала, освоение возможностей новой техники и технологий, применение более современных производственных-организационных способов и т.д.

Организация деловой деятельности в промышленных парках поставлена одной из важных задач исследования. В сущности предпринимаемые шаги по увеличению удельного веса отрасли в экономике страны, расширению его повидового состава по выпуску продукций за счет разветвления, достижению максимально возможных уровней по продукционным показателям, направлению свободных средств для погашения потребностей производств за счет уменьшения объема финансового-налоговых исчислений и другие аналогичные щаги являются факторами, стимулирующе влияющими на работы парков и их субъектов.

При комплексном выполнении вышеуказанных задач наряду с другими факторами, также имеет особое значение и усовершенствование правовой базы. С этой точки зрения принятие и применение на практике в нашей стране соответствующих современным требованям правово-нормативных документов стало закономерной деятельностью.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

CAVADXAN QASIMOV
AMEA Naxçıvan Bölməsi
cavadxan.yusifolu@mail.ru

UOT: 330

NAXÇIVAN MUXTAR RESPUBLİKASI: AQRAR SEKTORDA MƏŞĞULLUQ PROBLEMİNİN HƏLLİNDƏ YENİ MƏRHƏLƏ

Açar sözlər: *aqrar sector, dinamik inkişaf, sosial siyasət, məşğulluq potensialı, əmək potensialı, heyvandarlıq məhsulları və s.*

Key words: *agrarian sector, dynamic development, social policy, employment potential, labor potential, livestock products, etc.*

Ключевые слова: *аграрный сектор, динамическое развитие, социальная политика, потенциал занятости, потенциал труда, продукция животноводства и т. д.*

22 fevral 2018-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalanmışdır. Ölkəmizin makroiqtisadi təminatında qətiyyətli söz sahibi kimi muxtar respublikanın sosial-iqtisadi inkişafında mühüm mərhələ başladan hüquqi mexanizmlərin məntiqi davamı olan bu tənzimləmə iqtisadiyyatın sahə strukturunun təşkilatlanması və məhsuldarlığnın artırılmasında hərəkətverici qüvvə olacaq.

Naxçıvan Muxtar Resublikası ərazisinin ixtisaslaşmasına və əhalisinin yerləşməsinə görə aqrar bölgə olması burada kənd təsərrüfatının davamlı inkişafını, təsərrüfatçılığın yeni iqtisadi şəraitə uyğun formalarının yaradılmasında və məşğulluq səviyyəsinin təminatında bu sahəyə aid fəaliyyətin stimullaşdırılmasını şərtləndirən zəruri amillərdir. Bu mənada imzalanan Sərəncamda ölkənin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və müəyyən edilən hədəflər, eləcə də prioritetlər baxımından aqrar sektorun inkişafı strateji məsələ olaraq götürülür. Ən vacib və aktual yanaşma isə ərzaq təhlükəsizliyinin etibarlı təminatı istiqamətindəki proseslərin səmərəli təşkili və idarə olunmasında özünü göstərməkdədir.

Aqrar sahənin inkişafı məqsədilə müvafiq infrastruktur potensialının yaradılması, heyvandarlığın inkişafı və bu sahə üzrə məhsuldarlığın artırılması müasir dövrün uğurlu nəticələrinə aiddir. Məhz nəzərdə tutulan əsas məqsəd isə bir sıra amillərlə yanaşı müvafiq istiqamət üzrə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsinin vacibliyindən ibarət olmuşdur. Bunun üçün ölkə başçısı imzaladığı Sərəncamla Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatının Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılması nəzərdə tutulmuşdur.

Qeyd edək ki, bu məsələlər müasir iqtisadi şəraitdə ölkəmizdə məqsədyönlü və perspektivlərə söykənən tədbirlərin tərkib hissəsi kimi həyata keçirilməkdədir. Bu sahədəki proseslərin gedişi göstərir ki, ölkəmizdə müvafiq istiqamət üzrə müəyyən edilən tədbirlər inkişafyönümlüdür, ardıcıldır və bir-birini mahiyyətləndirməkdədir. Belə ki, hələ 19 avqust 2015-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin bu sahə ilə bağlı, daha doğrusu, "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" hüquqi baza olacaq Sərəncamı da olmuşdur. Orada da əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 (yüz) manat həcmində subsidiya müəyyən edilmişdir (3).

Milli iqtisadi quruculuq proseslərində bu tədbilərin davam etdirilməsi:

- mövcud təsərrüfatların fəaliyyətinin daha da məhsuldarlığına təkan olmaqla, yeni təsərrüfatların yaradılmasını sürətləndirəcək;

- aqrar sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət edərək, kəndlərin istehsal potensialının gücləndirilməsinə zəmin yaradacaq. Bu isə yerli istehsalın dəstəklənməsində və daxili bazarın qorunmasında Naxçıvan məhsullarının çəkisini daha da artıracaq. Nəticədə isə ərzaq məshulları ilə etibarlı təminat məsələlərində əlçatanlığı təmin edəcək;

- məskunlaşma sahəsində pozitiv nəticələr göstərəcək;

- kənd yerlərində əmək ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində faydalı mexanizmlər təqdim edəcək;

- aqrar sektorda məşğulluq probleminin həllini daha da sürətləndirəcək.


Bütün bunlar həm də muxtar respublika iqtisadiyyatının sosiallaşma səviyyəsini yüksəltməkdədir. Çünki, sosiallaşan iqtisadiyyat əsasən cəmiyyətin artmaqda olan tələbatının ifadə oluna bildiyi, insanların təhsilinin, sağlamlığının, dünyagörüşünün, mədəni keyfiyyətlərinin təmin edildiyi, ölkənin elmi-texniki inkişafı ilə müşayiət edilən iqtisadiyyatın səmərəlilik göstəricisidir (1, s. 32).

Qeyd edilənlərlə yanaşı, imzalanan sərəncamın icrası muxtar respublikada heyvandarlığın (mal-qaranın) inkişafı sahəsində yeni mərhələnin başlanğıcını qoyacaqdır. Statistik məlumatlara diqqət edəndə aydın olur ki, Naxçıvan Muxtar Respublikasında əsas heyvandarlıq göstəricisi kimi mal-qaranın sayındakı yüksək göstərici 1970-(63759 baş)1980-ci illərdə (69033 baş) olmuşdur.

Müasir müstəqillik illərində muxtar respublikada xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bazar münasibətlərinə uyğun olaraq iqtisadi islahatların başladılması, xüsusi ilə ucqar Gal və Şurud kəndlərindəki islahatlar məhz heyvandarlıq sahəsindən başlamaqla, sonralar ölkəmiz miqyasında çevik şəkildə davam etdirilməyə başlandı. 1994-cü ildə böyük Heydər Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın Zaqatala və Xızı rayonlarında eksperimentlər aparılmış və istənilən nəticəyə nail olunmuşdur.

İslahatların başladılması ilə xüsusi mülkiyyətə sahib olma hüququ qazanan istifadəçilər torpaq üzərində fəaliyyətin səmərəli təşkilinə başlamış, bu sahədəki proseslərin düzgün istiqamətləndirilməsi nəticəsində çoxsahəli istiqamətlər üzrə təsərrüfatların qurulmasına nail olmuşlar. Həmin təsərrüfatlar müxtəlif ixtisaslaşmalar üzrə olmaqla, həm də heyvandarlıq sahəsində səmərəli fəaliyyətin də təmin edilməsini nəzərdə tuturdu. Məhz bu dövrdən başlayaraq muxtar respublikada heyvandarlığın yeni iqtisadi şəraitə və qanunlara xas inkişafı təmin edilmiş oldu. Nəticədə isə, milli liderin müdrik fəaliyyətilə Naxçıvandan başlanan islahatlar kənd adamlarının uğurlu fəaliyyətinin hərəkətverici qüvvəsinə çevrildi. Həmin baza əsasında da 1995-ci ildən etibarən muxtar respublikada bazar münasibətləri əsasında heyvandarlığın inkişafında yeni mərhələnin təməli qoyuldu. Azərbaycan dövlətinin və onun makroiqtisadi hədəflərinin ən məhsuldar dövrü kimi 1995-ci ildən daha da zənginləşdirilən bu tədbirlər davamlı, ardıcıl və perspektivli nəticələrlə müşayiət edilməyə başlandı.

Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında mal-qaranın sayı (ilin sonuna, baş)




Şəkil Naxçıvan Muxtar Respublikası 75. yubiley-statistik məcmuə. Naxçıvan: 1999, 96 s. əsasında müəllif tərəfindən hazırlanmışdır

Göründüyü kimi, muxtar respublikada təsərrüfatların inkişafına dövlət dəstəyinin göstərilməsi, sağlam iqtisadi fəaliyyət mühitinin dayanıqlığına təkan vermiş və bu, özünü əsas məşğulluq sahələrindən olan heyvandarlığın dinamik inkişafı ilə ifadə etməkdədir. Təhlillər nəticəsində aydın olur ki, 2017 - 1995-ci illər arasında iribuynuzlu mal-qaranın artım göstəriciləri üzrə 2 dəfədən çox artım əldə edilmişdir. Eyni hesablamanı qoyun və keçilər üzrə aparanda 2,4 dəfədən çox artım olduğu görünür.

Məqsədyönlü tədbirlərin həyata keçirilməsi muxtar respublikada ərzaq təhlükəsizliyinin qorunmasına etibarlı təminat yaratmış və bu, keyfiyyətli heyvandarlıq məhsullarının istehsalı və istifadəsini stimullaşdırmışdır. Təkcə ötən 2017-ci ildə muxtar respublikada 14378 ton kəsilmiş çəkidə ət, 82857,3 ton süd, 1033,5 ton fiziki çəkidə yun istehsal edilmişdir. Bu göstəricilər bir tərəfdən müvafiq sahə üzrə səmərəli fəaliyyətin mövcudluğunu ifadə edirsə, digər tərəfdən bu fəaliyyət üçün yaradılmış sağlam iqtisadi mühiti və dövlətin stimullaşdırıcı tədbirlərinin əhəmiyyətini sübut edir. Təbii ki, bunlar aqrar siyasətin və bu sahədəki məşğulluq təminatının güclü mexanizmlərlə təşkilini də ifadə etməkdədir.

Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında əsas heyvandarlıq məhsullarının istehsalı (ton)



Şəkil Naxçıvan Muxtar Respublikası 75. yubiley-statistik məcmuə. Naxçıvan: 1999, 96 s. əsasında müəllif tərəfindən hazırlanmışdır

Artıq davamlı, səmərəli və çoxşaxəli iqtisadi quruculuq mərhələlərinin başlandığı Naxçıvan Muxtar Respublikası 2000-ci ildən yalnız inkişafı hədəfləyən sosial-iqtisadi proseslərin vəhdətini təmin edə bilmişdir. Təhlillər göstərir ki, 2017 – 2000-ci illər arasında ət istehsalı (kəsilmiş çəkidə) 2,8 dəfə, süd və yun istehsalı (fiziki çəkidə) isə 2 dəfə artmışdır.

Nəzərə alsaq ki, Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Heyvandarlıq komplekslərinin inkişaf etdirilməsi və "Aqroferma"ların yaradılmasının dəstəklənməsi məsələləri öz əksini tapmışdır, onda həyata keçirilən tədbirlərin məqsədyönlü və uzaq gələcək üçün nəzərdə tutulduğunu qeyd etmək yerinə düşər.

Beləliklə, Naxçıvan Muxtar Respublikası dövlətin səmərəli iqtisadi siyasətindən bəhrələnməklə qeyri-neft sektorunun inkişafı məqsədlərinə qətiyyətlə töhfə verməkdədir. Heyvandarlıq sahəsində həyata keçirilən tədbirlər ümumilikdə iqtisadi sahədəki islahatların davamlılığını göstərməklə yanaşı, həm də ölkənin sosial siyasətinin dayanıqlığına istiqamətlənib.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası 75. yubiley-statistik məcmuə, Naxçıvan, 1999, 96 s.
2. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, tarixilik və müasirlik. Dərs vəsaiti, Naxçıvan, Əcəmi, 2017, 184 s.
3. http://www.statistika.nmr.az/

ABSTRACT

Javadkhan Gasimov

NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: NEW STAGE OF SETTLEMENT OF ACCUSATIONS IN AQSAR SECTOR

The article touched upon the dynamic development of the agrarian sector in our country and in its regions, in particular in the Nakhchivan Autonomous Republic, the development of animal husbandry and productivity in this area. The importance of legal regulation in animal husbandry development is mentioned. Dynamic development indicators of livestock products are presented on the basis of statistical figures. As a result of the analysis, the sustainable development of the agrarian sector is nowadays highlighted as a priority of national economic development. All of these have emerged as stimulating mechanisms. The Nakhchivan Autonomous Republic is actively involved in the country's national economic development. Clearly, agrarian sector has a significant impact on raising the level of aggregate employment, which is a strategic issue by arranging efficient use of labor resources.

РЕЗЮМЕ

Джавадхан Гасымов

НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА: НОВЫЙ ЭТАП РАССМОТРЕНИЯ ОБВИНЕНИЙ В СЕКТОРЕ АГРАР

В статье затронуло динамичное развитие аграрного сектора в нашей стране и в ее регионах, в частности в Нахчыванской Автономной Республике, развитие животноводства и продуктивность в этой области. Упоминается важность правового регулирования в развитии животноводства. Динамические показатели развития продукции животноводства представлены на основе статистических данных. В результате анализа устойчивое развитие аграрного сектора в настоящее время подчеркивается в качестве приоритета развития национальной экономики. Все это стало стимулирующим механизмом. Нахчыванская автономная республика активно участвует в национальном экономическом развитии страны. Очевидно, что аграрный сектор оказывает значительное влияние на повышение уровня совокупной занятости, что является стратегическим вопросом путем организации эффективного использования трудовых ресурсов.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

VÜSAL NOVRUZOV
Naxçıvan Dövlət Universiteti

UOT: 330

İQTİSADİ ARTIM ŞƏRAİTİNDƏ ROMER MODELİ VƏ ONUN TƏTBİQİ

Açar sözlər: *kapital, iqtisadi artım, ÜDM, investisiya, əhali, təbii ehtiyatlar*
Key words: *capital, economic growth, GDP, investment, population, natural resources*
Ключевые слова: *капитал, экономический рост, ВВП, инвестиция, население, природные ресурсы.*

Ümumiyyətlə, iqtisadi artım analiz olunan iqtisadi tsiklin bir dövründən bəri ortaya çıxan fərqin təzahürüdür. Makro səviyyədə iqtisadi artıma təsir edən faktorlar və onların təsirləri barədə araşdırmalar 1980-ci illərdən başlayaraq meydana gəlmişdir. Onu da qeyd edək ki, bu dövrlərdə meydana gələn inteqrasiyalı artım modelləri keçmiş illərdəki neoklassik modellərdən kəskin fərqlənirdi. İnteqrasiyalı artım modellərində cilalayıcı güc əsas etibarilə iqtisadi tsiklin zaman anlayışında özünü göstərir.

Neoklassik yanaşmada (Solov versiyası) aşağıdakı əsas prinsiplər mövcuddur.

✓ Uzunmüddətli dövrdə iqtisadiyyat onun başlanğıc şərtlərinə (təbii ehtiyatlar, əmək, kapital, sahibkarlıq fəaliyyəti) adekvatdır.

✓ Dövlətin iqtisadi siyasəti əhalinin artım tempindən asılıdır:

✓ Adambaşına düşən gəlirin artım tempi yalnız texnoloji inkişaf səviyyəsindən asılıdır.

✓ Stabil iqtisadiyyatda kapital fondları gəlir artımının dərəcəsinə bərabər dərəcədə artır.

✓ Sabit vəziyyətdə kapitalın marjinal məhsuldarlığı stabil olaraq müəyyən edilir, İşçi qüvvəsinin marjinal olduğu halda məhsuldarlığı texnoloji inkişaf tempinə çatır.

Neoklassik modellərdə əsas faktor kapital və əmək hesab olunaraq məhsuldarlığın əsas mənbəyi xarici və texnoloji inkişafdır. Lakin 1986-cı ildən başlayaraq daxili inkişaf və daxili resurslar hesabına intensiv artımın yollarını göstərən fikirlər meydana gəldi. Solov artım modellərində hər bir istehsal amili məhsuldarlığın azaldılması və adambaşına düşən gəlirlərin artması ilə işləyir, ancaq daxili böyümə modellərində (Endogenous Growth Theory) bu xüsusiyyət mövcud deyil. Bu işin məqsədi - iqtisadi performansın yüksəldilməsi ilə nəticə almaqdır. Rebelo (1991) daxili böyümə modeli belə ifadə olunur:

$$\mathbf{Y = A \bullet K}$$

Burada A – texnoloji səviyyəni, K - isə kapitalı ifadə edir. Bu funksiyadan (f(k)/ k =A) yararlanaraq kapitalın yığım əmsalını belə ifadə etmək olar:

$$\mathbf{Y_k = A-(n+t)}$$

Burada Y_k – kapitalın yığım əmsalını, A – texnoloji səviyyəni, n – işin artım sürətini, t – amortizasiyanı göstərir. Başqa sözlə ifadə etsək, burada iqtisadi artımın pozitiv səviyyəyə çatması üçün texnoloji inkişafdan başqa tsiklin müddəti, qənaət faizi, əhalinin təbii artımı və amortizasiya kimi faktorlar əsaslı təsir göstərir. Əslində, neoklassik artım modelləri Solovun ilk modeli (1956) ilə başlamış, demək olar ki, eyni məzmunu xarakterizə edir. Sonradan Denison (1961), Cass (1965), Koopmans (1965), Ehrlich (1990) modelləri də meydana gəldikdən sonra böyük vüsət almışdır. Həmin modellərin ortaq nöqtələri isə qapalı makroiqtisadi mühit, istehsal gücü, rəqabətli bazar tarazlığı və yalnız rasional fərdlərin və faktorların təsirləri hesab olunur. Bu modellərdə adambaşına düşən istehsal, adambaşına düşən istehlak əsas alınmaqla, bazar tarazlığı ön planda tutulur. Belə bir mühitdə yalnız texnologiyanın gücü ilə (disembodied technological change) yeni artım funksiyasına nail olunacağı güman edilir.


Romer modelində əsas prinsiplər aşağıdakı kimi ümumiləşdirilə bilər:

- ✓ İqtisadi artımda kəmiyyət yox keyfiyyət göstəriciləri daha əhəmiyyətlidir.
- ✓ İnsan kapitalı iqtisadi artım sürətini müəyyənləşdirən əsas faktordur.
- ✓ Texnoloji inkişaf iqtisadi artımın əsas dinamikasıdır.
- ✓ İqtisadiyyat tarazlıqda olsa da, ETT-yə ayrılan insan kapitalı kifayət deyil.
- ✓ Dünya iqtisadiyyatında iqtisadi inteqrasiya böyümə sürətini daha da artırır.
- ✓ Əhali sayının artması iqtisadi artıma nail olmağa dəlalət etmir.


Bu modeldə Romerin yanaşmasının əsasları bunlardır: insan kapitalı, ETT və texnoloji inkişaf böyümənin əsas sütunlarıdır. Texnoloji inkişaf iqtisadiyyatın idarəedici qüvvəsini daha çox kapital yığmağa təşviq edir. Başqa sözlə, adambaşına düşən ÜDM də bu zəmində öz artımını göstərir. İkincisi, texnoloji inkişaf, bazar ünsürləri iqtisadi qərar qəbul edən vahidlərin yəni maraqlı tərəflərin təşəbbüsləri ilə sıx bağlıdır. (1)

Neoklassik modeldə kapitalın artan bir gəliri olmadığı halda, Romer (1986) modelində kapitalın artan gəliri mövcuddur. Bu modeldə istehsal 4 faktordan ibarətdir: funksional əmək, kapital, texnologiya və insan kapitalı. Paul Romer, xarici ticarətin sərbəst buraxılması və xüsusilə insan kapitalının zəngin olduğu ölkələrlə iqtisadi fəaliyyətin təmin edilməsi vəziyyətində artım prosesinin pozitiv şəkildə artacağını ifadə edir.

Paul Romerin modeli yaxın keçmişdə (1995-2015) Honq Konq və Şenzenin iqtisadi yüksəlişində örnək olaraq göstərilir. Ümumiyyətlə, Çin iqtisadiyyatında müasir modellərin müstəsna rolu vardır. Məsələn: Honq Konq və Şenzendə iqtisadi artım XIX əsrdən sonra yüksəlişə başlamış, XXI əsrdə rekord səviyyədə özünü göstərmişdir. Sabitliyin, insan kapitalının və texnoloji inkişafın müsbət mənada əsas faktor rolunu oynadığı bu regionda hələ uzun illər daxili inkişaf nəzəriyyələrinin öz bəhrəsini verəcəyi güman edilir.(Şəkil 1)



Paul Romerə görə, texnoloji inkişaf - sahibkarlar üçün yeni bir xidmət, bazarda istehlakçılar üçün yeni bir dəyəri olan əmtəədir. Məsələn, Honq Konq iqtisadiyyatında əvvəllər əhalinin surətli artımı iqtisadi artım dərəcəsində özünü göstərmirdi. Lakin 1982-ci ildən başlayaraq texnoloji inkişaf meylləri üst səviyyəyə qalxaraq, özünü iqtisadiyyatın bütün sahələrində göstərməklə əhali artımının adambaşına ÜDM artımına mənfi təsir etmədiyi ortaya çıxmışdır. (Şəkil 2) Başqa sözlə, yeni texnologiya sahibkarların insanlara təqdimatı əsasında mənfəətə çevrilir. Bazara çıxarılan əmtəələr üzrə mənfəət hesabında əmtəələr arasında gəlirlilik fərqi ortaya çıxacaqdır. Məsələn: bir əmtəənin üzərində göstərilən müddətin çoxluğu və davamiyyəti həmin əmtəənin satıcılarının artmasına, yəni təklifin çoxalmasına səbəb olacaq ki, bu zaman təklif qanununa görə qiymət aşağı olacaq. Romerin sözlərinə görə, bir çox artım konsepsiyası (Texnoloji diffuziya təsiri və ya Xarici müsbət təsirlər) firmaların təqdim etdiyi qiyməti xüsusi məlumat olaraq qəbul edilir. Yəni təqdim olunan bazar qiyməti həmin məhsul barədə, həmin firma barədə və bazar barədə ciddi məlumatlar verir.



Yuxarıda üç əsas ünsür göstərildikdə firmalar qiymətləri barədə məlumat alırlar və bu məlumat bazarda tarazlığa aparmır. Romer modelində şirkətlər inhisarçı rəqabət mühitindədirlər. Araşdırma və tədqiqatların nəticəsi göstərir ki, yeni xidmət və yeni məhsul istehsal edən firma, bu sabit xərcləri kompensasiya etmək üçün məhsulu və ya xidməti yüksək qiymətlərlə satmaq arzusunda

olur. Fərqli mallarla bazarlara girən firmalarda əsas maraq xarici ticarətdə mənfəətli maraqlardır. Romerə görə, kapitalist qanunlara əsasən iqtisadi təbəqələşmə, azad ticarət yalnız mənfəətin təsiri ilə başlayır, lakin ciddi bir artım effekti yaradır. Bazar araşdırmasını və yenilikləri genişləndirir və inkişaf etdirir. Əgər bazarın ölçüsü və forması yenilikləri qəbul etmirsə, insan kapitalına dəyər vermir deməkdir. İnsan kapitalının böyük olduğu bazarlarda işləyən işçilər, firmalar və ya ölkələr daha surətli böyüyürlər. İnkişaf tək bir fərdin və sistemin tələblərinə uyğun mənfəət yaradırsa, bu mənfəət, sistemin digər ünsürlərini və fərdlərini tətmin edirsə, əlbəttə ki, bazar canlanır və iqtisadi artımı formalaşdırır.

ƏDƏBİYYAT

1. Romer, P.M., 1986, Increasing Returns and Long-Run Growth, Journal of Political Economy 94 (October)
2. Romer, P.M., 1990, Endogenous Technological Change, Journal of Political Economy 98 (October)
3. İqtisadi nəzəriyyə. Dərslik, (T.S.Vəliyev, Ə.P.Babayev, M.X.Meybullayevin redaktəsi ilə), Bakı, 2001
4. Solow, R.M., 1988, Growth Theory: An Exposition, New York, Oxford University Press.
5. Solow, R.M., 1994, Perspectives on Growth Theory, The Journal of Economic Perspectives 8:1 (January)
6. https://ekonomihukuk.com/buyume-kalkinma/icsel-buyume-modelleri/
7. http://www.kalkinma.gov.tr/Documents/ercanny

ABSTRACT

Vusal Novruzov

ROMERʹS MODEL IN THE CONDITIONS OF ECONOMICAL GROWTH AND USAGE OF THE MODEL

This article deals with Romer's Model of Endogenous Growth Theory of neoclassical theory. The purpose of comparing with Solow model analyzed his Endogenous Growth Theory Model. This model not only represents endogenous growth but it is closely linked with developing countries also.

РЕЗЮМЕ

Вусал Новрузов

МОДЕЛЬ РОМЕРА И ЕЕ ВНЕДРЕНИЕ В УСЛОВИЯХ ЭКОНОМИЧЕСОГО РОСТА

В статье в сравнительной форме с версией Солова неоклассической теории анализируется модель Ромера. Эта модель является не только эндогенным ростом, она также тесно связана с развивающимися странами. Рассматривается роль этой модели в развитии экономики на основе современных экономических систем.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MƏHSƏTİ MƏMMƏDOVA
Naxçıvan Dövlət Universiteti
Mehsetimemmedova 1974@gmail

UOT: 330

NAXÇIVAN İQTİSADİYYATI ƏN YÜKSƏK İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Açar sözlər:*iqtisadi siyasət, bazar iqtisadiyyatı, iqtisadi funksiya, iqtisadi islahatlar, dövlət tənzimlənməsi*

Key words: *Ekonomic policies, the market economy, the state, economic functions, state regulation, the economic reforms.*

Ключевые слова: *экономическая политика, рыночной экономика, государства, экономические функции,государственное регулирование, экономические реформы*

Əsası ümummili lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində dinamik inkişafın möhkəm təməli yaradılmışdır. Bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, investisiyaların daha çox regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin təmin edilməsi həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin ana xəttini təşkil etmişdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi " Hər bir dövlətin gücü onun iqtisadi gücü ilə ölçülür"

Azərbaycanda 90-cı illərin ortalarından başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən islahatlarla planlı iqtisadi modeldən sosialyönümlü bazar iqtisadiyyatına keçid təmin edilmiş, sürətli inkişaf templəri ilə sənaye, xidmət və kənd təsərrüfatı sahələrində real irəliləyişə nail olunmuşdur. Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır.

Ölkəmizin iqtisadi potensialının güclənməsi, dövlət büdcəsinin gəlirlərinin artması, neft sektorundan asılılığın minimuma endirilməsi, ölkənin istehsal gücünün artması, aqrar sektorun inkişafı, çoxlu sayda yeni iş yerlərinin açılması ərzaq və ekoloji təhlükəsizliyin gücləndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi Azərbaycanın firavan yaşamasının sübutudur.

Heydər Əliyevin iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu.

Məhz ümummilli lider Heydər Əliyevin siyasi-iqtisadi inkişaf strategiyası, onun davamçısı prezident İlham Əliyevin müəyyənləşdirdiyi iqtisadi platforma üzrə irəliləyən Naxçıvan Muxtar Respublikasında da sürətli inkişaf özünü bariz şəkildə göstərməkdədir.

Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi real sektorun inkişafı diverssifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrasturukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Bu istiqamətdə muxtar respublikada iqtisadi islahatlar həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün şərait yaradılmışdır.

Muxtar respublikamızın hərtərəfli iqtisadi inkişafında sənaye sahələrinin genişləndirilməsinin mühüm rolu vardır. Sənaye məhsulunun həcminə görə ölkəmizin iqtisadi rayonları arasında öncül yerlərindən birini tutan Naxçıvanda bu sahə yüksəkgəlirliliyi ilə seçilir. Məhz buna görə də regionun gələcək inkişafı üçün sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi,

strukturunun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması dövlət siyasətinin əsas məqsədlərindəndir.

Naxçıvan Muxtar Respublikasının sənayesi tarixən Azərbaycan iqtisadiyyatında önəmli yerlərdən birini tutmuşdur. Hələ 1970-1980-ci illərdə muxtar respublikada istehsal olunan yüzlərlə məhsul növünün xeyli hissəsi xarici ölkələrə ixrac olunurdu. 1990-2000-ci illərdə muxtar respublikada aparılmış elmi ixtisaslaşma və ictimai əmək bölgüsü sayəsində emal və hasilat sənayesi formalaşmışdır.

Muxtar respublikanın iqtisadiyyatının əsasını çoxsahəli kənd təsərrüfatı təşkil edir. Buranın iqlim-torpaq şəraiti kənd təsərrüfatının inkişaf etdirilməsinə əlverişli şərait yaradır.

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə ölkənin sosial-iqtisadi probremlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir.Bu məqsədlə qanunvericilik bazasının təkmilləşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyini göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Ölkəmizin sosial-iqtisadi inkişafına töhvələrini verən Naxçıvan Muxtar Respublikasının gündən-günə öz potensialını artırmaqdadır. Sosial-iqtisadi inkişafı, hərbi qüdrəti, siyasi sabitliyi və digər keyfiyyətləri ilə diqqəti cəlb edən muxtar respublika iqtisadiyyatının sahə strukturunda balanslaşdırılmış, bir-biri ilə əlaqəli və bir-birinin inkişafına təkan olacaq intibahla iqtisadiyyatın diverfikasiyasına stimul vermişdir.

Naxçıvan Muxtar Respublikasında güclü potensial, etibarlı iqtisadiyyat, dayanıqlı sosial siyasət mövcuddur. İnkişaf, tərəqqi, intibah hər addımda özünü göstərməkdədir. Hətta ucqar dağ kəndlərində belə ən müasir infrastrukturun yaradılması, yüksək səviyyəli elmin, təhsilin, səhiyyənin,mədəniyyətin və digər sahələrin çevik inkişafı burada sosial-iqtisadi inkişaf üçün mükəmməl baza formalaşmışdır.

ƏDƏBİYYAT

1. M.M.Mahmudov, İ.M.Mahmudova Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi, 2009.
2. Şəkərəliyev A.Ş Dövlətin iqtisadi siyasəti, Bakı 2009.
3. Naxçıvan Muxtar Respublikası 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Şərq qapısı, 2012-ci il

ABSTRACT

M. R. Mamedova

HIGHEST STAGE OF DEVELOPMENT IN THE NAKHCHIVAN ECONOMY

The article particularly the role of the state in the political system of the society? Market economy and economic roleof the state in public functions, indicated the need for state regulation.
As a result of the economic policies of the Nakhchivan autonomous republic in the period of autonomy in the article is talking about the comprehensive development of a healthy public.

РЕЗЮМЕ

М. Р. Мамедова

НАИВЫСШЕГО РАЗВИТИЯ В ЭКОНОМИКЕ НАХЧЫВАНА

В статье общества в политической системе рыночной экономике, роль государства и роль государства в условиях экономического функции, отмечается необходимость государственного регулирования экономики.

В статье говорится о всестороннем развитии здоровой экономики автономии в результате в нахчыванской автономной республике в период высокой экономической политике.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MEHRİBAN İMANOVA
Naxçıvan Dövlət Universiteti
marketinq05@mail.ru
ZEKERİYA BİNGÖL
Muğla SK Üniversitesi
zbingol@mu.edu.tr

UOT: 330

AZƏRBAYCANDA MƏDƏNİ İRS TURİZM SƏNAYESİNİN ƏSAS İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *turizm sənayesi, mədəni irs, turizm marşrutu, turizm agentliyi*
Keywords: *tourism industry, cultural heritage, tourism route, tourism agency*
Ключевые слова: индустрия туризма, культурное наследие, туристический маршрут, туристическое агентство

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, turizm ölkənin iqtisadi təhlükəsizliyinin formalaşmasına güclü təsir göstərməklə, dövlət büdcəsi gəlirlərinin artırılmasında, işsizlik probleminin aradan qaldırılmasında və ticarət balansının sabitləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın təbii sərvətləri, füsunkar təbiəti, çoxçeşidli iqlimi, zəngin folklor nümunələri, tarixi abidələri burada geniş turizm potensialının olduğunu göstərir. Turizm iqtisadiyyatın mühüm amili olsa da, elm və mədəniyyətin inkişafı ilə də birbaşa əlaqəlidir.

Azərbaycan dünyada müstəqil siyasət yeridən bir ölkə olaraq öz təbii sərvətlərinə görə, daha çox isə neft ölkəsi kimi tanınır. Bununla yanaşı, ölkəmizin zəngin mədəni *irsi* və *milli*-mənəvi dəyərlərinin də dünyada tanıdılması mühüm əhəmiyyət kəsb edir. Artıq mədəniyyətimizin çox qiymətli nümunələri olan İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi, həmçinin *Qobustan dövlət tarixi-bədii qoruğunun* UNESCO-nun Dünya Maddi İrs Siyahısına salınması bu tarixi abidələrə verilən yüksək dəyərin ifadəsidir. 2013-cü ildə bu təşkilat tərəfindən İçərişəhər, Şirvanşahlar Sarayı və Qız qalasına gücləndirilmiş mühafizə statusu verilmiş və bu abidələr xüsusi emblemlə nişanlanmışdır. Haaqa Konvensiyasına əsasən belə mədəni obyektlər bəşəriyyətin yüksək dəyərləri kimi qorunur və güclü şəkildə mühafizə olunur (11).

Azərbaycanın *Bakı dağ mərhələsi, Binəqədi dördüncü dövr fauna və flora qəbiristanlığı,* Lökbatan palçıq vulkanı, Hırkan Milli Parkı, Ordubad tarixi şəhəri, Atəşgah, Şuşa tarixi şəhəri kimi bir sıra maddi və mənəvi mədəniyyət abidələri UNESCO tərəfindən Ümumdünya irs obyektlərinin müvəqqəti namizədlər siyahısında öz əksini tapmışdır. Azərbaycan milli mədəniyyət nümunələri olan muğamın, aşıq sənətinin, Novruz bayramının, xalça toxuculuğu ənənəvi sənətinin, tar ifaçılıq sənətinin, Çovğan atüstü oyununun, Lahıc misgərlik sənətinin, kamançanın, həmçinin milli mətbəximizdən olan lavaş və dolmanın UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi bu mili dəyərlərin bütün dünya mədəniyyəti üçün qiymətli olduğunu sübut edir və ölkəmizdə turizmin bu sahəsnin inkişaf etdirilməsi üçün güclü potensialın mövcud olduğunu göstərir (11).

Müasir turistlər öz mənəvi ehtiyaclarını ödəmək üçün müxtəlif ölkələri gəzib xalqların mədəniyyətini, tarixini öz gözləri ilə görə bilmək istəyində olurlar. Turistlərin bu istəyini reallaşdırmaq üçün ölkəmizin demək olar ki, bütün regionlarında əlverişli şərait və tarixi-mədəni sərvətlər mövcuddur. Qarşıda duran əsas vəzifə isə bu sərvətləri turizm məhsuluna çevirməkdən ibarətdir. Bunun üçün ökəmizdə turizm sənayesinin inkişafı fonunda gəlmə turizminin genişləndirilməsi mühüm əhəmiyyətə malikdir (5, 78).


Turizm sənayesi özündə iqtisadiyyatın bir çox sahələrini birləşdirməklə, xidmət sahəsində ən böyük bölmələrdən biri hesab edilir. Səyahəti həyata keçirmək üçün turisti, ehtiyacı olan bütün xidmət və ya məhsullarla təmin edən sahibkarlıq fəaliyyəti turizm sənayesini əhatə edir. Turizm sənayesinin inkişaf etdirilməsi üçün ilk növbədə iqtisadi inkişafın əsas ünsürlərindən biri olan rəqabət təmin edilməli, rəqabətqabiliyyətli sahələr araşdırılmalıdır. Tələbin müəyyən edilməsi baxımından turizm potensialının

araşdırılmasında isə ölkənin sosial, iqtisadi və demoqrafik vəziyyəti, mövcud bazarlara yaxınlıq, viza rejimi, birbaşa uçuşların olması, nəqliyyat əlaqələri mühüm rol oynayır. Tələb və təklifin məqsədyönlü şəkildə tarazlığını təmin etmək turizm sənayesinin inkişafına təsir edən vacib amil hesab olunur. İqtisadiyyat inkişaf etdikcə, insanların həyat səviyyəsi yüksəldikcə, dünyaya inteqrasiya gücləndikcə turizm zəruri tələbat məhsuluna çevrilir ki, bunun da sayəsində yeni sənaye və xidmət sahələri yaranaraq turizm sənayesini inkişaf etdirir (4, 121).

Ölkədə turizmin inkişafı daha çox yerləşdirmənin düzgün təşkilindən asılı olduğu üçün turizm sənayesində əsas yerlərdən birini mehmanxana təsərrüfatı tutur. Azərbaycanda iqtisadi inkişaf yüksəldikcə mehmanxana və mehmanxana tipli müəssisələrin sayında da artım baş verir. Əgər 2006-cı ildə 285 müəssisə mövcud idisə, 2016-cı ildə onların sayı iki dəfədən çox artmışdır. Turizm agentliklərinin sayı 2010-cu ildə 126, 2016-ci ildə 272-ə çatmışdır. 2010-2015-ci illər ərzində Azərbaycanda turizm müəssisələrinin sayında ortalama ildə 4,5 faiz, turizm sahəsində məşğulluq səviyyəsində ildə 6 faiz, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 8,5 faiz artım müşahidə edilmişdir. Bu isə gələcək inkişaf potensialından xəbər verir (12).

2016-cı ildə ölkələr üzrə xarici vətəndaşlar tərəfindən mehmanxana və mehmanxana tipli müəssisələrə cəmi 111 188 min manat ödənmişdir. Bu məbləğin tərkibində Rusiya vətəndaşlarının payı ütünlük təşkil edərək hər il artmış və 2016-cı ildə ödənilmiş məbləğ 16 211 min manat olmuşdur. Həmin ildə turistlərin məhz, 77 faizi qonaq evlərində, mehmanxanalarda yerləşdirilmişdir. Təhlil nəticəsində aydın olur ki, 2010-cu illə müqayisədə 2015-ci ildə qonaq evlərində və mehmanxanalarda yerləşdirilən turistlərin sayında 5921 nəfər azalma olmuş, pansionatlarda, istirahət evləri və sanatoriyalarda yerləşdirilən turistlərin sayında isə 5716 nəfər artma müşahidə olunmuşdur (2). Bu da pansionat, istirahət evləri və sanatoriyalarda qurulmuş infrastrukturun modernləşdirilməsi ilə qonaq evləri və mehmanxanaların üzərinə düşən yükü azaltmışdır.

Turizm sənayesinin fəaliyyət sahələri aşağıdakılardan ibarətdir:



Şəkil1 :Turizm Sənayesinin Fəaliyyət Sahələri (8,21)

2016-ci ildə mehamnxanalarda mövcud olan nömrələrin (otaqların) ümumi sayı 20330, turistlərin daha çox olduğu dövrdə istifadə olunan nömrələrin sayı 13 933 vahid olmuşdur (12). Bu

da indiki vəziyyət üçün mehmanxanaların kifayət etdiyini göstərir. Lakin digər ölkələrə nisbətən uyğun qiymətə seçimlərin az olması turistlər üçün müəyyən problemlər yarada bilər. Məsələn, araşdırmaya görə Bakı şəhəri üzrə gündəlik qiyməti 50 ABŞ dolları və daha aşağı olan 49 seçim, 20 ABŞ dolları və daha aşağı olan 5 seçim imkanı mövcuddursa, regionun digər şəhəri olan Tbilisidə eyni qiymətlərə, müvafiq olaraq, 184 və 33 seçim vardır (9). Eyni qaydada, evlərini səyahətçilərə kirayəyə verən yerli sakinlər üçün onlayn platforma olan "Airbnb.com" saytında Bakı üzrə 50 ABŞ dolları və ya daha aşağı qiymətə 96 seçim təklif edildiyi halda, Tbilisidə eyni qiymətə 400 seçim mövcuddur (10). Bu da, hələlik, bu sahədə problemlərin olmasından xəbər verir.

Turizm sənayesinin inkişafına təsir edən digər əsas amil nəqliyyat əlaqələri hesab olunur. 2015-ci ildə səyahət agentlikləri və tur operatorlar tərəfindən xidmət göstərilmiş turistlərin 67,1 faizi hava nəqliyyatından, 19,7 faizi avtobus, 13,2 faizi minik avtomobillərindən istifadə etmişdir (12). Turistlərin səyahət istiqaməti üçün seçimi etdiyi zaman diqqət yetirdiyi digər bir məsələ getmək istədiyi ölkə ilə birbaşa hava əlaqəsinin olmasıdır. Azərbaycan üzrə Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ və Zaqatala olmaqla, kommersiya məqsədli və beynəlxalq səviyyəli, altı hava limanı mövcuddur. Bakı şəhərində yerləşən və modern infrastruktura malik olan Heydər Əliyev Beynəlxalq Hava Limanı Azərbaycanın ən işlək hava limanı olsa da, bütün hava limanlarında təyyarə uçuşlarının sayını artırmaq imkanı vardır.

Səyahətin nəzərdə tutulduğu ölkələr arasındakı məsafə azaldıqca uçuşlar daha az xərc tələb edir. Bu da həm vaxta, həm də büdcəyə qənaət etdiyindən turist üçün ilk növbədə qonşu ölkələr prioritet bazarlar hesab olunur. Məsafənin və nəqliyyata çəkilən məsrəflərin çoxluğu əksər hallarda turisti səyahətdən çəkindirir. Hazırda, Azərbaycan Heydər Əliyev Beynəlxalq Hava Limanından Avropa və Asiyanın, uçuş məsafəsi qısamüddətli olan, 26 əsas şəhərindən 13-ü ilə birbaşa hava əlaqəsinə malikdir. Bu şəhərlərdən ölkəmizə gələ biləcək mümkün turist sayının 60 milyona yaxın olmasını nəzərə alsaq, digər 13 şəhərlə hava əlaqəsinin qurulması daha 30 milyon turistin cəlb edilməsinə səbəb ola bilər (1). Bakıdan avtomobillə ən yaxın məsafədə yerləşən Təbriz, Ərdəbil, Mahaçqala, Tbilisi kimi dörd böyük şəhərin 3,7 milyon nəfər əhalisi ölkəmiz üçün potensial turistlər hesab edilə bilərlər.

Turizm sənayesinin inkişafı üçün əsas olan digər amil ictimai iaşə sayılır. İaşə dövriyyəsi 2015 –ci ildə əvvəlki illərdə müqayisədə 14 faiz artaraq 1 111,2 mln.man, iaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı 15 645 vahid olmuşdur (12).

Statistikaya nəzər salsaq aydın olar ki, əhaliyə satılmış turizm yollayışı blanklarının sayı 2015-ci ildə 44 615 ədəd, 2016-cı ildə 36.978 ədəd təşkil etmişdir. 2015-ci ildə bunun 4 695 ədədini ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, 38 002 ədədi ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, 1 918 ədədi Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına verilmişdir. Beləliklə, ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışı blanklarının sayı ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışı blanklarının sayından 8 dəfə, Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm yollayışı blanklarının sayı isə 20 dəfə çoxdur. Bu da ölkədə turizm sektorunun zəif inkişafından xəbər verməklə, xüsusi tədbirlərin görülməsinə gətirib çıxarmış və nəticədə 2016-cı ildə ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına 5 842 ədəd, Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına 6 768 ədədturizm yollayışı blankı satılmaqla artıma nail olunmuş, ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışı blanklarının sayında (24 368) azalmaya nail olunmuşdur. 2015-ci ildə Azərbaycana qəbul olmuş turistlərin əsasını 1052 nəfər olmaqla Rusiya Federasiyasının vətəndaşları təşkil etmiş, göndərilmiş turistlərin sayı üzrə ilk yer 121 356 nəfər olmaqla Türkiyyə Respublikasının payına düşmüşdür (1).

Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyalar, 2010-cu ildə 949,2 milyon manat, 2014-cü ildə 2 204,0 milyon manat, 2015-ci ildə 1 063,9 milyon manat təşkil etmişdir (12).

Azərbaycanda turizm sektorunun inkişafı nöqteyi-nəzərindən qonşu ölkələr olan Gürcüstan, İran, Türkiyə və Rusiya xüsusi əhəmiyyət kəsb edir. Bu ölkələr arasında məsafənin qısalığı, daimi və nisbətən ucuz nəqliyyat qiymətlərinin olması, oxşar mədəni dəyərlər turizm əlaqələrinin genişləndirilməsi üçün geniş imkanlar açır. Rusiyada, İranda Gürcüstanda milyonlarla etnik azərbaycanlının yaşaması, bu qonşu ölkələrdən daha çox turist cəlbetməyin mümkün olduğunu göstərir. Göstərilən amillərlə yanaşı vizanın əldə edilməsinin asanlığı və əlverişli uçuşların olması Türkiyə ilə qarşılıqlı turist mübadiləsinə səbəb olur.

Avropalı turistlər mədəni turizmə daha çox maraq göstərdiyi üçün Azərbaycandan birbaşa uçuşların olduğu şəhərlər turizm potensialı üçün daha əlverişli sayılır. Bu ölkələrdən turistlərin cəlb edilməsi üçün İpək Yolu, Nuhun gəmisi, hərbi yürüşlər və tarixi döyüş yerləri kimi tarixi marşrutların turizmə təsiri baxımından hərtərəfli qiymətləndirilməlidir.

Beləliklə, Azərbaycanda mədəni turizm sənayesinin əsas inkişaf imkanları kimi ölkənin tarixinin qədimiliyini, mədəni abidələrin zənginliyini, Qərbi *Asiya və* Şərqi *Avropanın* qovşağında yerləşərək əlverişli coğrafi mövqeyə malik olmasını, beynəlxalq tədbirlərin keçirilməsində təcrübənin olmasını, turizmin prioritet sahə olaraq dövlət tərəfindən dəstəklənməsini göstərmək olar.

Bu sahənin inkişafında olan çatışmamazlıqlar isə kadr hazırlığının tələblərinə tam cavab verməməsi, regionlarında turizm informasiya mərkəzlərinin az olması, ölkə tanıtımının yetərincə təşkil olunmaması, hədəf ölkələrdə mədəni turizm marşrutlarının təşviqinin həyata keçirilməsi, qonşu ölkələrdən olan turizm agentliklərilə birgə turizm xidmət paketlərinin hazırlanması hesab olunur. Bu çatışmazlıqların aradan qaldırılması ilə yanaşı, yeni turizm xidmətlərinin yaradılması və inkişaf etdirilməsi, mədəni marşrutlarda bələdçi işləmək üçün sertifikasiya proqramının işlənib hazırlanması, sahibkarlara təlimlərin keçirilməli, onların stimullaşdırılması üçün müəyyən təkliflərin hazırlanması, kimi tədbirlərin həyata keçirilməsi Azərbaycanda turizm sənayesinin inkişafına təkan verər.

ÜTT-nin məlumatlarına əsasən, bir turistin səyahət, yaxud istirahət etməsi üçün lazım olan orta maliyyə xərcləri əsasında ildə 1,5 mln. turist qəbul edən Azərbaycan Respublikasında 4,5 mlrd. dollara yaxın ümumi gəlir əldə etmək mümkündür. Hesab edirik ki, Azərbaycanın malik olduğu rekreasiya ehtiyatları turizmin formalarından səmərəli istifadə etməklə dövlət büdcəsinin gəlirlərinin formalaşmasının mühüm mənbələrinə çevrilə bilər (1).

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
2. Abbasov C.R. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. Bakı, 2005, 250 s.
3. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2010, 529 səh.
4. Əlirzayev Ə.Q. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı, Adiloğlu, 2006, 164 s.
5. İham Hüseynov, Nigar Əfəndiyeva, Turizmin əsasları, Bakı, 2007
6. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Dərs vəsaiti. Bakı:"Mütərcim", 2002, 512 s.
7. Yeganlı S.T., Hacıyev E.M. Turizm. Dərs vəsaiti. Bakı. ABU, 2006, 324 səh
8. O. Akova, İ. Kızılırmak, H. Tanrıverdi, Turizmişletmeçiliyi, Temelkavramlarveuyqulamalar. DetayYayınçılıq ------S.21
9. https://www.booking.com/index.en-gb.html Turizm üçün yerləşdirmə vasitələrinin sifarişi
10. https://airbnb.com/s/homes Turizm üçün yerləşdirmə vasitələrinin sifarişi
11. https://az.wikipedia.org/wiki/AzYUNESKOnun_qeyri_maddi_mədəni_irs_siyahısı
12. http://www.stat.gov.az/source/tourism/ Azərbaycan Dövlət Statistika Komitəsinin saytı
13. http://mct.gov.az/az Azərbaycan Mədəniyyət Turizm Nazirliyinin saytı

ABSTRACT

Mehriban İmanova
Zekeria Bingol

BASIC DEVELOPMENT FEATURES OF THE CULTURAL HERITAGE TOURISM INDUSTRY IN AZERBAIJAN

Research explores the features of the cultural heritage tourism industry and the possibility ways to develop it in Azerbaijan. This research analyzes the areas of activity of the tourism industry. Information on tourism forms sold to Azerbaijan citizens was collected and tourism agencies, public catering facilities, inn households, transport opportunities were reviewed in the article. The Research mostly uses statistical sources related to tourism. Tourism industry is one of the biggest section in toursim service and includes manufacturing, commercial and transport enterprises engaged in selling

tourist demanded goods. It`s been determined that tourism is a sluggish field in the country and as a new field it stays on the focus of attention. The progress of tourism industry forecasts of future potential of tourism in the country. Negative factors on tourism sector, we may show very low staff training, very few tourism information centers in regions, inefficient country representation, non-supplied rapid transition in frontier checkpoints, external threats depending on the geopolitical standing of the country.

Besides, eliminate these shortcomings, to create new tourism services, work out a certification program to work an attendant in cultural routes, train entrepreneurs and prepare some proposal to stimulate them, instigate cultural tourism routes in terget countries, organize tourism service packs with tourism agencies from border countries and other steps may stimulate tourism industry in Azerbaijan.

The growth of tourism industry in Aazerbaijan, affecting on forming economicial safety, increasing the income of state budget, overcoming unemployment, stabilizing trade balance will highly encourage development of science and culture.

РЕЗЮМЕ

Мехрибан Иманова
Зекериа Бингол

ОСНОВНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ КУЛЬТУРНОГО НАСЛЕДИЯ ИНДУСТРИИ ТУРИЗМА

В научной статье исследуя особенности культурного наследия индустрии туризма в Азербайджане, исследуются также пути его возможного развития. В этих исследованиях были проанализированы области деятельности в туристическом секторе. Собраны сведения о туристических отправных бланках, проданных Азербайджанским гражданам, оценены туристические агентства, объекты общепита, гостиничные хозяйства, уровень их занятости, возможности транспортных связей. В исследованиях в основном использованы статистические источники, связанные с туризмом. Установлено, что в стране туристический сектор развит слабо, а индустрия туризма, являясь новой отраслью, находится в центре внимания. Подъём в действующих отраслях индустрии туризма говорит о будущем потенциале развития туризма в стране. Среди факторов отрицательно влияющих на это развитие можно указать на неполное соблюдение требований подготовки кадров, недостаточность информационных туристических центров в регионе, недостаточность адекватной рекламы в стране, недостаточная обеспеченность быстрого прохождения через пограничные контрольно-пропускные пункты, внешние угрозы, которые могут возникнуть в зависимости от геополитического положения страны. Развитию индустрии туризма в Азербайджане, наряду с устранением перечисленных недостатков, могут дать толчок подготовка и осуществление таких мероприятий, как создание и развитие новых туристических услуг, разработка сертификационных программ подготовки проводников культурных маршрутов, обучение предпринимателей, подготовка определённых рекомендаций для их стимулирования, содействие осуществлению культурных туристических маршрутов в определённых странах, подготовка пакета совместных туристических услуг с туристическими агентствами приграничных стран. Развитие индустрии туризма в Азербайджане может оказать существенное влияние на формирование экономической безопасности страны, рост доходов государственного бюджета, устранение проблем безработицы, на стабилизацию торгового баланса, а также дать толчок развитию науки и культуры.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

HƏSƏN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti
hasan_1961@mail.ru

UOT: 330

BAZAR İNFRASTRUKTURUNUN MAHİYYƏTİ VƏ İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINDA ROLU

Açar sözlər: *infrastruktur, istehsal infrastrukturu, sosial infrastruktur, bazar infrastrukturu, institusional infrastruktur, beynəlxalq infrastruktur, davamlı iqtisadi inkişaf*

Key words: *infrastructure, production infrastructure, social infrastructure, market infrastructure, institutional infrastructure, international infrastructure, sustainable economic development*

Ключевые слова: *инфраструктура, производственная инфраструктура, социальная инфраструктура, рыночная инфраструктура, институциональная инфраструктура, международная инфраструктура, стабильное экономической развитие*

İqtisadi ədəbiyyatlarda infrastrukturların mahiyyəti və məzmunu haqda müxtəlif fikirlər mövcuddur. Bir qrup mütəxəssislər infrastrukturlara istehsal prosesinin fəaliyyətini yaxşılaşdırmaq üçün ona xidmət edən sahələr dəsti və ya əhalinin həyat şəraitini yaxşılaşdırmaq üçün xidmətedici sahələr dəsti, bir qrup mütəxəssislər isə milli iqtisadiyyatın funksional fəaliyyətinin normal təmin edilməsinə yönəlmiş vahid, kompleks sahələr dəsti kimi qiymətləndirirlər.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşması infrastrukturlar haqda fikir və düşüncələri əsaslı sürətdə bazar infrastrukturu kateqoriyasına transformasiya olunmasına yönəltmişdir. Bazar infrastrukturları bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektləri və obyektlərin funksional fəaliyyətinin effektivliyini təmin edən fəaliyyət növlərinin məcmusundan ibarətdir. Yəni, bazar infrastrukturu bazarın normal fəaliyyətini və onun inkişafını təmin edən milli iqtisadi vahidlərin funksional fəaliyyətlərini özündə təcəssüm etdirən kompleks sahələr dəstidir. O, iqtisadiyyatın ayrı-ayrı sahələrinin fəaliyyətinə xidmət edən müxtəlif müəssisə və təşkilatların bütövlüyündən ibarətdir.

Bazar infrastrukturunun funksional fəaliyyəti ikili xarakterə malikdir. O, bir tərəfdən əhatə etdiyi bazar subyektlərinə, digər tərəfdən isə insanların, əmək resurslarının, eləcə də bazarda mütamadi iştirak edən bir sıra amillərin təkrar istehsalına xidmət edir.

Bazar bütün iqtisadi sistemlərdə mövcuddur və iqtisadi sistemin xarakterindən və orada formalaşan mülkiyyət münasibətlərindən irəli gələn funksional fəaliyyətə malikdir. Lakin bazar iqtisadi sistemində bazarın funksiyaları daha geniş, bazar qanunları daha mükəmməl fəaliyyətdədir(5).

Yüksək inkişaf etmiş müasir bazar, biri-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən, aşağıdakı altı əsas funksiya yerinə yetirir:

1. Vasitəçilik funksiyası. Bu funksiyanı yerinə yetirərkən bazar, tələb və təklifin konteksində yaranan qiymətlər əsasında alıcı ilə satıcı arasında ticarət-iqtisadi münasibətlərin vasitəçisi kimi çıxış edərək, alış-satış prosesini tamamlayır.

2. Qiymətyaratma funksiyası. Bazarda azad rəqabət mühitində məcmu tələblə təklifin kəsişməsindən mövcud əmtəələrin satış qiymətləri formalaşır.

3. İnformasiya funksiyası. Bazarda mövcud olan əmtəələrin konkret və ya diqtə olunan qiymətləri əsasında kommersiya qurumları müəyyən mal qruplarının qiymətlərinin kanyukturası (qiymətlərin artma və ya azalması) haqda, həmçinin bazardan ümumi iqtisadi vəziyyət haqda məlumat xarakterli informasiya alırlar. Eyni zamanda iş adamları bazarlardan bazar tutumu, alıcı və satıcı davranışları, rəqiblər, müştərilər, qiymət, tələb, təklif, rəqabət, bazarın müxtəlif istiqamətdə tədqiqi və s. barədə mütəmadi iqtisadi informasiyalar alırlar. Bazardan toplanılan, belə relevant informasiyalar istehsalın və satışın həcminin əvvəlcədən müəyyən edilməsində sahibkar subyektlərə

yaxından dəstək olurlar.

4. Tənzimləmə funksiyası. Bazarın bu funksiyası sərbəst bazar münasibətlərinin tənzimlənməsinə təsir edir. A.Smitin təbirincə desək, "görünməz əllər" bazarı tənzimləyir. Bazar subyektlərindən rentabelliyi aşağı olan, nisbətən az gəlirli sahələr innovativ texnologiyaya üstünlük vermədiklərindən və istehsal sahələrinə, infrastrukturların modernləşməsinə maliyyə vəsaitlərini cüzi miqdarda ayırdıqlarından, istehsal etdikləri məhsulların maya dəyərləri, bu sahələrə üstünlük verən yüksək rentabelli rəqib firmaların istehsal etdikləri anoloji məhsulların maya dəyərlərinə nisbətən artıq olur. Nəticədə birinci təsərrüfat subyektlərində satışın həcmi aşağı düşdüyündən istehsalın həcmi də xeyli azalır, ikincilərdə isə artım müşahidə olunur.

5. Stimullaşdırma funksiyası. Bu funksiya bazarda tələb və təklif əsasında formalaşan qiymətlərin yaranmasına və təsərrüfat subyektlərinin iqtisadi effektivliyinin artırılmasına motivasiya edir. İqtisadi effektivlik dedikdə, təsərrüfat subyektlərinin yaratdığı mənfəətin, bu mənfəəti yaratmaq üçün sərf etdikləri xərclərin cəminə olan nisbəti kimi başa düşülür. Bu baxımdan, mənfəət artdıqca, xərclər azaldıqca iqtisadi effektivlik də artmış olur. Mənfəətin artırılması üçün tələbata uyğun geniş çeşiddə mal istehsal edib, satışını təşkil etmək lazımdır. Tələbatın öyrənilməsinin yolu isə bazardan başlayır. Beləliklə, bazar iqtisadi effektivliyin artırılması üçün təsərrüfat subyektlərini stimullaşdırır.

6. Sağlamlaşdırma funksiyası. Bu funksiyanın həyata keçirilməsi cətin və mürəkkəb bir proses olmasına baxmayaraq, iqtisadi cəhətdən faydalıdır. Bazar, iqtisadi qanunlar əsasında, iqtisadi cəhətdən lazımsız olan və səmərəsiz fəaliyyət göstərən bazar subyektlərindən davamlı olaraq özünü təmizləyir. Belə ki, araşdırmalar aparmadan bazara daxil olan aşağı rentabelli təsərrüfat subyektləri rəqabətin dağıdıcı təsirlərinə məruz qalaraq, müflisləşib bazardan çıxırlar. Əksinə, daima bazar tədqiqi ilə məşğul olan, bazar fəlsəfəsini,"istehsal olunan malların satılmasını yox, satıla bilən malların istehsal olunmasını" əldə rəhbər tutan, innovativ düşüncəli təsərrüfat subyektləri isə inkişaf edərək, bazar payını genişləndirirlər(1).

Beləliklə, bazar infrastrukturunun tədqiqindən aşağıdakı nəticələr əldə edilir:

-bazarın iqtisadi infrastrukturları bütövlükdə iqtisadi sistemin funksional fəaliyyətinə əhəmiyyətli təsir göstərir;

-bazar infrastrukturu iqtisadiyyatın davamlı inkişafında mühüm rola malik, bazar subyektlərinin inkişafına xidmət edən, biri-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən çoxsaylı, kompleks sahələr dəstidir;

Bazar infrastrukturu müxtəlif əlamətlərə görə təsnifləşdirilir. Quruluşuna və mövcud obyektlərin profilinə, eləcə də fəaliyyət sferasına görə aşağıdakı bazar infrastrukturları fərqləndirilir:

1.Əmtəə bazarı. Buraya aşağıdakı istehlak bazarı elementləri daxildir:

-ərzaq və qeyri ərzaq malları; məişət; nəqliyyat; kommunal xidmətlər; yaşayış evləri; qeyri-istehsal təyinatlı binalar və s.

2. Maliyyə bazarı. Buraya aiddir:

-kapital bazarı, investisiya bazarı; kredit bazarı; qiymətli kağızlar bazarı.

3. Əmək bazarı. Buraya əmək birjaları aiddir.

Əmtəə bazarında mallar bir neçə mərhələdən keçərək, təkrar istehsal prosesinin istehsal sferasından istehlak sferasına yönəldilir. Bu zaman mallar çəkilir, bükülür, qablaşdırılır, markalanır, daşınır, anbara yığılır, topdan və pərakəndə satış obyektlərinə göndərilir və mübadilə olunaraq, istehlakçılara çatdırılır. Bu texnoloji prosesləri yerinə yetirərkən, əmtəə bazarı müxtəlif tipli müəssisələrlə və müxtəlif iqtisadi fəaliyyət növləri ilə təsərrüfat-iqtisadi əlaqələrə cəlb olunur. Malların istehsaldan istehlaka yeridilməsində əmtəə bazarının müxtəlif təyinatlı institutları iştirak edirlər. Bu fəaliyyəti yerinə yetirərkən, əmtəə bazarı infrastrukturunun əsas funksiyası ictimai istehsalın və istehlakın bütün sferalarının biri-biri ilə qarşılıqlı əlaqəsinin təmin edilməsinə yönəlir. O, mal kütləsinin bütün istiqamətlərdə hərəkətini təmin edir, alqı-satqı müqavilələrinin bağlanmasına, mal göndərilməsinə və istehlakçıların tələbatının ödənilməsinə xidmət edir(4).

Əmtəə və xidmətlər bazarına aşağıdakılar aiddir: əmtəə birjaları; topdan və pərakəndə ticarət; yarmarka və hərraclar; informasiyaların toplanması, işlənilməsi və ötürülməsi; reklam, marketinq funksiyalarını yerinə yetirən firma və müəssisələr; müxtəlif vasitəçi kompaniyalar; servis xidmətləri göstərən təsərrüfat subyektləri və s.

Əmtəə birjaları- müxtəlif keyfiyyət əlamətlərinə görə malların alqı-satqısını həyata keçirən, daima fəaliyyət göstərən bazarlardır. Birjalar hər hansı bir malın mülkiyyətçisi deyildir və öz adından, öz hesabına malların ticarətini aparmır. Birja ticarətində bütün əməliyyatlar razılaşma yolu ilə, tipik kontraktlar əsasında müntəzəm həyata keçirilir. Burada alıcı və satıcılar biri-birini seçməkdə sərbəstdirlər.

Topdan və pərakəndə ticarət müəssisələri tədavül dairəsində formalaşan təsərrüfat birliklərini özündə birləşdirir. Birjadan fərqli olaraq topdan və pərakəndə ticarət müəssisələri malları istehsalçılardan öz hesabına alır və satır.

Topdan ticarət müəssisəsi dedikdə, malların iri partiyalarla müəssisə və təşkilatlar arasında müqavilə əsasında, nəqd və ya qeyri-nəqd hesablaşma yolu ilə alınıb, satılması başa düşülür. Topdan ticarət müəssisələri bazarda tələbatı öyrənir, tələbata uyğun əvvəlcədən verilmiş sifarişlərə görə istehsal müəssisələrindən müqavilə əsasında, malları topdan qaydada alır və istehsalın davamı ilə əlaqədar işləmələri yerinə yetirdikdən sonra topdan qaydada satışını təşkil edir.

Pərakəndə ticarət müəssisələri dedikdə, malların kiçik partiyalarla nəqd və ya qeyri-nəqd hesablaşma yolu ilə birbaşa istehlakçılara çatdıran müəssisələr başa düşülür. Pərakəndə ticarət müəssisələri müqavilə əsasında, müşahidə edici sənədlər üzrə malları topdan satış müəssisələrdən alıb, satışını təşkil edirlər. Müasr dövrdə pərakəndə ticarət müəssisələri hiper market, super market, market, ticarət mərkəzləri, mağazalar, ticarət avtomatları, kiosklar, laryoklar, ticarət pavilyonları və s. formada fəaliyyət göstərirlər.

Yarmarkalar bütün təsərrüfat sahələri istehsalçılarının müəyyən vaxtda və müəyyən müddət ərzində, əvvəlcədən müəyyən olunmuş yerdə fəaliyyət göstərdiyi bazarlardır.

Hərraclar vaxtı və keçirilmə yeri bəlli olan, dövrü fəaliyyət göstərən bazarlardır.

Əmtəə və xidmətlər bazarının bazar infrastrukturları (informasiyaların toplanması, işlənilməsi və ötürülməsi; reklam, marketinq funksiyalarını yerinə yetirən firma və müəssisələr; müxtəlif vasitəçi kompaniyalar; servis xidmətləri göstərən təsərrüfat subyektləri və s.) mövcud bazarda formalaşan tələb, tələbat və təklif haqda istehsalçı və satıcılara relevant informasiya verərək, əmtəə və xidmətlər bazarının malla tarazlaşdırılmasını təmin edirlər.

Maliyyə bazarı. Burada pul kütləsinin alqı-satqısı və valyuta mübadiləsi həyata keçirilir. Bu bazar maliyyə imkanları müxtəlif olan təsərrüfat subyektləri arasında maliyyə münasibətlərini tənzimləyir. Maliyyə bazarı, kredit və qiymətli kağızlar bazarından ibarət olan kapital bazarını özündə birləşdirir.

Əmək bazarı. Bu, əmək ehtiyyatlarının (iqtisadi fəal əhalinin) iqtisadi hərəkət forması, yəni bazar iqtisadiyyatı qanunlarına uyğun olaraq, iş qüvvəsinin alınıb satıldığı bazardır.

Bazar iqtisadiyyatı şəraitində bazar infrastrukturları təkrar istehsal prosesinin fazaları: istehsal, bölgü, mübadilə və istehlak ilə, birbaşa əlaqəli olduğu üçün iqtisadi inkişafa bilavasitə təsir edirlər.

Araşdırmalar göstərir ki, bazar infrastrukturları mükəmməl inkişaf etmiş ölkələrdə iqtisadi proseslərin operativ tənzimlənməsi həyata keçirildiyindən, mal qıtlığı, informasiya, servis xidmətləri qıtlığı, bank, sığorta və investisiya mühitinin effektivliyinə təsir edən kompleks xidmətlər qıtlığı kimi çatışmazlıqlar tezliklə aradan qaldırılır və belə ölkələrdə iqtisadi tələbatların ödənilməsi maksimum səviyyədə həyata keçirilə bilir. Ona görə də ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi üçün digər infrastruktur sahələri ilə birlikdə bazar infrastrukturunun bütün sahələrinin inkişafının təmin edilməsi strateji məqsəd kimi qarşıya qoyulmalıdır. Bunlardan birinin əlahiddələşdirilməsi və digərinin nəzərə alınmaması fayda verə bilməz. Davamlı iqtisadi inkişaf baxımından yanaşıldıqda bazar infrastrukturunun bütün sahələrinin kompleks inkişafı nəzərə alınmalıdır.

Bazar infrastrukturunun mahiyyəti və məzmun elementləri iqtisadiyyatın davamlı inkişafı baxımından araşdırılarkən, aşağıdakı nəticələr əldə edildi:

1. Bazar infrastrukturu, bazar münasibətlərindən yaranaraq, bazarda formalaşan və biri-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən çoxsaylı iqtisadi sahələri özündə ehtiva edir.

2. Yüksək inkişaf etmiş müasir bazar biri-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif funksiyalar yerinə yetirir. Bu funksiyalardan doğan bazar infrastrukturları bazarın və bazar subyektlərinin sivilizasiyalı inkişafına şərait yaratmaqla, bütövlükdə iqtisadi sistemin funksional fəaliyyətinə əhəmiyyətli təsir göstərir.

3. Bazar infrastrukturları bütün iqtisadi sistemlərdə davamlı iqtisadi inkişafın təmin olunmasının ən vacib elementləridir.

ƏDƏBİYYAT

1. İqtisadi nəzəriyyə, Mikroiqtisadiyyat-1,2. Dərslik // RF əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Q.P.Juravlyovanın ümumi redaktəsi ilə.-4-cü nəşr, yenidən işlənilmiş və əlavələr edilmişdir, M.: Daşkov və Ko nəşriyyat-ticarət korporasiyası, 2010, 924 s.
2. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, 1998, 102 s.
3. Hüseynov T.H. Azərbaycanda bazar sisteminin iqtisadi problemləri, Bakı, Elm, 2004, 227 s.
4. Tağıyev A.N.Bazar iqtisadiyyatının əsasları, Dərslik, Bakı, Maarif, 2000,342 s.
5. H.Ə.Məmmədov. Davamlı iqtisadi inkişaf:infrastruktur problemləri, Monoqrafiya, Əcəmi poliqrafiya mərkəzi, Naxçıvan, 2017, 240s.

ABSTRACT

Hasan Mammedov

IMPORTANCE OF MARKET INFRASTRUCTURE AND ITS ROLE IN SUSTAINABLE DEVELOPMENT OF ECONOMICS

In the article, the market infrastructure, its significance and content elements are involved in the research. It is pointed out that the functional activity of market infrastructure has a double character. It serves, on the one hand, to the covered market entities, on the other hand to the processing of human labor resources, as well as a number of factors constantly participating in the market.

It is noted that the market exists in all economic systems and has a functional action corresponding to the nature of the economic system and the property relations formed there. However, in the market economy, market functions are more extensive, market laws work more perfectly.

The article explains the various functions of highly developed modern markets interacting with each other. Here, the classification of the market infrastructure according to various characteristics is given. There are market infrastructure for the structure, the profile of existing facilities, as well as in the field of activity.

At the end, market infrastructures are assessed as important elements for ensuring long-term economic development in all economic systems.

РЕЗЮМЕ

Гасан Мамедов

ЗНАЧЕНИЕ РЫНОЧНОЙ ИНФРАСТРУКТУРЫ И ЕЕ РОЛЬ В УСТОЙЧИВОМ РАЗВИТИИ ЭКОНОМИКИ

В статье к исследованию привлечены рыночная инфраструктура, его значение и содержательные элементы. Указывается, что функциональная деятельность рыночной инфраструктуры обладает двойным характером. Он служит, с одной стороны охватываемым рыночным субъектам, с другой стороны переработке трудовых ресурсов людей, а также ряда факторов, постоянно участвующих на рынке.

Отмечается, что рынок существует во всех экономических системах и обладает функциональным действием, соответствующим характеру экономической системы и формируемым там отношениям собственности. Однако в рыночной экономической системе функции рынка более обширны, рыночные законы работают более совершенно.

В статье разъясняются различные функции высокоразвитых современных рынков, взаимодействующих друг с другом. Здесь даётся классификация рыночной инфраструктуры по различным признакам. Различают рыночные инфраструктуры по строению, по профилю имеющихся объектов, а также по сфере деятельности.

В конце рыночные инфраструктуры оцениваются как важные элементы обеспечения длительного экономического развития во всех экономических системах.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

AĞARZA RÜSTƏMOV
Naxçıvan Dövlət Universiteti
AĞADADAŞ QAFAROV
AMEA İqtisadiyyat İnstitutu

UOT: 330

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ RAYONLARINDA KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNİN TEXNİKİ TƏCHİZAT SƏVİYYƏSİNİN TƏŞKİLİ

Açar sözlər: *kənd təsərrüfatı, iqtisadiyyat, bazar iqtisadiyyatı, səmərəli istehsal, Texniki təchizat, təchiz olunma səviyəsi, iqtisadi rayon, ərzaq təhlükəsizliyi, aqrolizinq, aqroservis.*

Key words: *agriculture, economics, market economy, efficient production, technical equipment, supply level, economic district, food security, agro-leasing, agro-service.*

Ключевые слова: *сельское хозяйство, экономика, рыночная экономика, эффективное производство, техническое оснащение, уровень оснащения, экономический район, продовольственная безопасность, агролизинг, агросервис.*

Kənd təsərrüfatı texnikası təkcə texniki potensialın əsası deyil, həm də kənd təsərrüfatı məhsullarının səmərəli istehsalı üçün zəruri olan ən mühüm istehsal resurslarından biri hesab edilməlidir. Beləliklə, texniki resusrların və texniki təchizat səviyyəsinin azalması həm kənd təsərrüfatı məhsulları istehsalının həcminə, həm də onun səmərəliliyinə mənfi təsir göstərir..

Kənd təsərrüfatı müəssisələrinin traktorlarla təchiz olunma səviyyəsinə görə qruplaşdırılması göstərmişdir ki, təsərrüfatların ümumi sayının çox hissəsi (birinci qrup) traktorlarla normadan aşağı və ölkə üzrə orta kəmiyyətdən təxminən iki dəfə aşağı səviyyədə təchiz olunmuşdur. Həmin təsərrüfatlar zəruri həcmdə mexanikləşdirmə işlərini müstəqil yerinə yetirə bilmir və təsərrüfat fəaliyyətinin nəticəsi zərərlə başa gəlir.

İkinci və üçüncü qruplara aid təsərrüfatlar traktorlarla təchizat göstəricisinə görə çoxluq təşkil edir. İkinci qrupa aid təsərrüfatlarda təchizat göstəricisi respublika üzrə orta göstəricidən bir qədər aşağı, üçüncü qrupda isə respublika üzrə orta göstəricinin üçdə bir hissəsi qədər çoxdur. Rentabelliyi nisbətən aşağı olan bu təsərrüfatlar mexanikləşdirmə işlərini əsasən öz qüvvəsi hesabına yerinə yetirir. Lakin bu işi aqrotexniki müddətlərdə yekunlaşdıra bilmədiyinə görə ciddi itkiyə məruz qalırlar. Üçüncü qrupa aid təsərrüfatlarda təchizat göstəricisi normativə yaxındır. Hazırda texnikanın mövcud olması istehsalın həcminin və səmərəsini müəyyən edən əsas amillərdən biridir.

Qruplaşdırma nəticəsində alınmış məlumatların təhlili ilə əlaqədar qeyd etmək lazımdır ki, regionların ayrı-ayrı rayonlarında traktorlarla təmin olunma səviyyəsi fərqlənir. Bu halda istehsalın həcmini və səmərəsini əks etdirən göstəricilərlə traktorların sayı arasında ciddi asılılıq müşahidə olunur. İqtisadi rayonlarda traktorların miqdarının yüksəlməsi sayəsində əkin sahəsi və əkinə yararlı sahə yüksəlmişdir. Traktor parkının ölçüsünün artması hesabına rayonlarda əhəmiyyətli dərəcədə dəyər göstəricilərinin artması müşahidə olunmuşdur.

İstehsalın həcmi və səmərəliliyi mövcud texnikanın miqdarı arasında asılılıq olmasını müəyyən etmişik. Buna görə də deyə bilərik ki, texniki potensialın daim təzələnməsi respublikada kənd təsərrüfatında yaxın illərdə istehsalın texnika və silahlanma səviyyəsinin və səmərəliliyin artmasını təmin edəcəkdir. Bu vəziyyətdə əmtəə istehsalçılarına texnoloji xidmət sisteminin inkişaf etdirilməsi yaranmış problemin həllinin ən səmərəli yollarından biridir. Bu istiqamətin reallaşdırılması həm əmtəə istehsalçılarının texniki potensialını möhkəmlətməyə, həm də bütövlükdə ayrı-ayrı iqtisadi rayonlarda və ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcminin və səmərəsinin daha da azaalmasının qarşısını almağa imkan verir (1,2).

Azərbaycan Respublikasında taxıl istehsalı kənd təsərrüfatının əsas sahələrindən biridir.

Aparılmış tədqiqatlar göstərmişdir ki, Azərbaycan Respublikasının regionlarında taxıl istehsalının həcmi və səmərəsi də kənd təsərrüfatı müəssisələrinin texnika ilə, o cümlədən taxılyığan kombaynlarla təmin olunma dərəcəsindən asılıdır. Son illərdə respublikamızın kənd təsərrüfatı müəssisələrində taxılyığan kombaynların sayı xeyli azalmışdır. 2015-ci ildə regionların çoxunda kənd təsərrüfatı müəssisələrində olan kombaynların sayı çox deyildi. İqtisadi rayonlarda keçirdiyimiz sorğuların nəticələrinin təhlil edilməsi taxılyığan kombaynların sayı ilə kənd təsərrüfatı müəssisələrində taxıl istehsalının həcmi və səmərəsi arasında ciddi əlaqə olması qənaətinə gəlməyə əsas verir. Taxıl yığan kombaynların sayı artdıqca dənli bitkilərin orta məhsuldarlığı, taxıl məhsullarının satış həcmi, mədaxil və mənfəət, habelə taxıl istehsalının rentabellik səviyyəsinin artması meyli aşkar müşahidə olunur.

Ölkənin müxtəlif iqtisadi rayonlarında kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulunun dəyərinə traktorların sayının təsiri böyükdür və istehsalın həcmi ilə maşın-traktor parkının həcmi arasında sıx əlaqə vardır. Kənd təsərrüfatı müəssisələrinin kombaynlarla təmin olunma dərəcəsi taxıl istehsalının səmərəsinə ciddi təsir göstərir. Belə ki, ölkəmizin iqtisadi rayonlarında taxılyığan kombaynların sayı artdıqca taxıl istehsalından və satışından əldə edilən mənfəətin məbləği də artır.

Ölkənin iqtisadi rayonlarının kənd təsərrüfatı müəssisələrinin fondlarla təmin olunma dərəcəsinə görə müşahidələrimizin nəticələri istehsalın həcminə və səmərəsinə texniki təchizat səviyyəsinin təsir göstərməsi barədə fikri bir daha təsdiq edir. Texniki resurslar kənd təsərrüfatında istehsal fondlarının əsasıdır və fondlarla təchizat göstəriciləri çox cəhətdən həmin resursların miqdarı və dəyəri ilə müəyyən olunur. Keçirdiyimiz sorğuların nəticələrindən aydın olur ki, fondla təminolunma səviyyəsinin artması artması hesabına kənd təsərrüfatı müəssisələrinin əmtəəlik məhsullarının dəyəri yüksəlmişdir. Ölkənin kənd təsərrüfatı müəssisələrinin müxtəlif iqtisadi rayonlar üzrə bölgüsündən asılı olaraq, onların fondlarla təmin olunma göstəricisi xeyli fərqlənir.

Dünya bazarı və daxili bazar konyukturunun dəyişməsi nəticəsində, eləcə də idarəetmə orqanları tərəfindən bazarın dövlət tənzimlənməsi tədbirləri görülməsi nəticəsində son dövrdə əmtəə istehsalçıları üçün makroiqtisadi şərait müəyyən qədər yaxşılaşmışdır. Ayrı-ayrı qabaqcıl kənd təsərrüfatı müəssisələrinin təcrübəsi də onların səmərəli fəaliyyəti və məhsul istehsalı üçün lazımi imkanlar olduğunu təsdiq edir. Eyni zamanda etiraf etmək lazımdır ki, son 24 ildə kənd təsərrüfatı müəssisələrində əsas fondların təkrar istehsalı təcrübi olaraq həyata keçirilməmişdir. Bununla əlaqədar, hətta kənd təsərrüfatı əmtəə istehsalçıları üçün əlverişli iqtisadi şərait yaradılacağı təqdirdə də indiki dövrdə və yaxın illərdə istehsalın həcminin və səmərəsinin artırılmasının ləngidən əsas amil təşkilati-hüquqi formaları və ölçüləri müxtəlif olan əmtəə istehsalçılarının texniki təchizat səviyyəsi olacaqdır.

Kənd təsərrüfatı müəssisələrinin xüsusi vəsaitləri hesabına texnika parkını yeniləşdirmək mümkün olmadığı şəraitdə bərpa edilmiş texnikanın lizinqi bu problemin həllinin əsas istiqamətlərindən biri hesab edilməlidir. Lakin bu sahədə müəyyən təcrübə olmasına baxmayaraq lizinq hələ lazımi sürətdə inkişaf etmir, istehsalın azalmaqda olan texniki potensialının bərpa olunmasını təmin etmir. Bu, təşkilati-iqtisadi xarakterli, hələ həll edilməmiş problemlər kompleksinin mövcud olmasına dəlalət edir (3).

1993-cü ildən üzübəri möhkəm əsaslar üzrərində qurulmuş dövlətçilik atributları son illərdə daha da möhkəmləndi. Sübut olundu ki, ölkədə sabitliyin qorunub saxlanması dövlətin sosial-iqtisadi, siyasi-mədəni quruculuğunun mühüm amilləridir. Bu baxımdan ölkənin daxilində gedən çəlişmələr, xaricdən edilən müdaxilələri, xalqda dövlətə qarşı inamsızlığı aradan qaldırmaq üçün yeni, müasir prinsiplər əsasında konseptual proqramlar hazırlamaq lazım idi.

2004-cü, 2009-cu və 2014-cü illərdə qəbul olunan Dövlət Proqramlarının sistemli şəkildə həyata keçirilməsi illərin ən aktual mövzusu olmuşdur. Məhz bu baxımdan, son illərdə ümumi daxili məhsul istehsalı 3 dəfə, sənaye məhsulunun həcmi 2,8 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 2,9 dəfə artmışdır. Bu gün bu tərəqqi ölkə iqtisadiyyatının bütün sahələrində yüksələn xətlə davam edir.

Müasir iqtisadi şəraitdə respublikamızın iqtisadi rayonlarda kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektləri aqrar islahatların uğurlu dönüş dövrünü yaşadı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikada çoxukladlı iqtisadiyyat fəal inkişaf edir,

kooperasiya və inteqrasiya prosesləri gedir, kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin sağlamlaşdırılması, kooperativ-korporativ tipli inteqrasiya qurumları yaradılması üçün səy göstərilir.

Kənd təsərrüfatı məhsulları ilə əhalinin ərzaq təminatının yaxşılaşdırılması, məhsul bolluğunun daxili istehsal hesabına yaradılması üçün məhsul istehsalçılarına mexanikləşdirilmiş istehsalat xidmətinin göstərilməsi işinin genişləndirilməsi sahəsində xeyli iş görülmüş və görülmüş işlərin keyfiyyəti yüksəlmişdir.

Ərzaq təhlükəsizliyinin təminatında, xüsusilə şəhər əhalisinin ilboyu tərəvəz və bostan məhsullarına olan tələbatının yaxşılaşdırılması üçün istixanaların, soyuducu kameraların, süd emalı sexlərinin, qarışıq yem istehsalı və meyvə emalı avadanlıqlarının gətirilərək quraşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafıın yekunlarına və növbəti ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: " Aqrolizinq" ASC, aqroservislərin fəaliyyəti kənd təsərrüfatının inkişafına böyük dəstəkdir, bu sahədə də dövlətin müdaxiləsi və siyasəti əlbəttə ki, həlledicidir. Əgər indi Azərbaycanda traktor istehsal olunmasaydı, vəsait kənara gedəcəkdi. Onsuz da Azərbaycan dövləti bu vəsaiti ayırıb, texnikanı alır. İndi texnikanın bir hissəsi artıq Azərbaycanda istehsal olunur. Bu sahədə və buna oxşar digər sahələrdə işlər daha da sürətlə aparılmalıdır".

Məqsədli büdcə maliyyələşdirməsi vəsaitləri cəlb edildikdə respublikamızın regionlarında avadanlıqların lizinqi daha yüksək səmərə verir, çünki lizinq müddətində dəyəri artmır. Respublikamızın kənd təsərrüfatında lizinq mexanizminin hələ tam şəkildə formalaşdırılmasına və dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilməsinə böyük ehtiyac vardır.

Azərbaycan Respublikasında aqrolizinqin əsas subyektləri olan kənd təsərrüfatı əmtəə istehsalçılarının alıcılıq qabiliyyəti aşağı səviyyədə qalır. Lizinq əqdlərin bağlanılarkən obyektlərin (kombaynlar, traktorlar, kotanlar və s. kənd təsərrüfatı texnikasının) bahalığına baxmayaraq, onlar çox vaxt keyfiyyətsiz olur. Belə ki, neqativ halların aradan qaldırılması üçün respublikanın regionlarında "Aqrolizinq" ASC-i tərəfindən 55 aqroservis filialı və onların nəzdində 107-dən çox mexanikləşdirilmiş dəstlər yaradılmış, yerlərdə kənd təsərrüfatı istehsalçılarına servis xidmətləri göstərirlər.

Azərbaycan Respublikasında maşın-traktor parkının və bütövlükdə təsərüfatların iqtisadiyyatının yeniləşdirilməsi üçün ən səmərəli yol hesab edilən lizinq münasibətlərinin inkişaf etdirilməsi başlanılmışdır. Kənd təsərrüfatı texnikası aqrolizinq obyekti kimi istifadəyə verilmiş ilk traktorlar və kənd təsərrüfatı maşınları idi.

İqtisadi rayonlarda maddi-texniki ehtiyatların təminatı üzrə mərkəzin formalaşması məqsədəuyğun hesab olunurdu. Həmin mərkəz kənd təsərrüfatında maddi-texniki ehtiyatlar yaratmaq və təchizatını təmin etmək, istehsalın inkişafındakı tənəzzül meylini aradan qaldırmaq üçün fəaliyyət göstərə bilər. Belə bir yanaşma əsasında lizinq münasibətlərinin formalaşdığı müasir iqtisadi şəraitdə iqtisadi rayonlarda belə mərkəzlərdən hesab olunan aqroservis müəssisələri istehsalın həyata keçirilməsində mühüm yer tutur. Burada kənd təsərrüfatı və ərzaq məhsullarında əsas dəyər yaradan xidmətlərdən biri də aqrotexniki xidmətlərin payına düşür. Ona görə də aqrar sahədə istehsalı aqrotexniki xidmətlərsiz (yəni aqroservis müəssisələrsiz) həyata keçirmək qeyri mümkündür.

Müasir iqtisadi şəraitdə respublikanın aqrar sahəsində mülkiyyət formasına göstərdikləri xidmət növlərinə, eləcə də həcmlərinə görə müxtəlif formalı aqroservis müəssisələri fəaliyyət göstərir. Lakin aqrar sahədə bu müəssisələri birləşdirən və onların qarşısında duran vahid məqsəd istehsalçılara vaxtında və lazımi xidmət göstərməkdir.

Aqroservis müəssisələri üçün texnika parkının saz vəziyyətdə saxlanması, nasaz texnikaların təmiri və mövsümə hazırlanması, eyni zamanda texnikanın işlək vəziyyətdə saxlanması üçün vacib olan texniki qulluq göstərilməsi böyük əhəmiyyətə malikdir. Eyni zamanda aqroservis müəssisələri üçün texnika parkının mütəmadi olaraq yeniləşdirilməsi aqroservis müəssisələri tərəfindən müasir aqrotexniki xidmətin göstərilməsində önəmli yer tutur. Mövcud sferada aqroservis müəssisələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 mart 2005-ci il tarixli Qərarının imkanlarından faydalana bilərlər. Həmin Qərarla təsdiq olunmuş Qaydalara əsasən aqroservis müəssisələri "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən kənd təsərrüfatı texnikasını və texnoloji avadanlıqları,

eləcə də suvarma sistemlərini və avadanlığını lizinq vasitəsilə əldə edə bilərlər.

"Aqrolizinq" ASC-i tərəfindən aqroservislərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlərin aparılması davam etdirilir. Belə ki, Səhmdar Cəmiyyətin maddi-texniki bazasının yaradılması və onun indiki və gələcək fəaliyyətinin həyata keçirilməsinin ən vacib amillərindən biri olmaqla, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün istehsalçılara dəstək məqsədilə dövlət vəsaiti hesabına alınmış kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların qorunub saxlanmasında, texniki qulluğun təşkilində və səmərəli istifadə olunmasında, mineral kübrələrin, pestisidlərin, buğda toxumu, cins damazlıq heyvanların qəbulu, saxlanması və güzəştli satılmasının düzgün və məqsədyönlü təşkilində mühüm əhəmiyyət kəsb edir. "Aqrolizinq" ASC-in maliyyə imkanlarının məhdudluğundan, bu vacib işlərin həyata keçirilməsində dövlətin dəstəyi vacib rol oynayır.

Qeyd etmək lazımdır ki, yeni istifadəyə verilən aqroservis filialları öz istifadələrində olan texnikalarla yanaşı həm də rayon üzrə kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinqə verilmiş texnikaların təmirini və texniki qulluğunu həyata keçirir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinqə verilmiş texnikaların təmirini və texniki qulluğunu həyata keçirmək üçün müasir şəraitdə aqroservislərdə texnikanı və texnologiyanı dərindən bilən yeni tipli ixtisaslı kadrların olmasına böyük ehtiyac vardır. Yeni tipli ixtisaslı kadrların olması daha yüksək səmərəliliyə nail olmağa imkan yarada bilər.

"Aqrolizinq" ASC-nin xarici şirkətlərlə əlaqələri durmadan genişlənir. Hal-hazırda "Aqrolizinq" ASC-nin əməkdaşlıq etdiyi ölkələrin sayı 14-ə, satınalmalar üzrə keçirilən tender müsabiqələrində iştirak edən şirkət və firmaların sayı isə 50-yə yaxındır. "Aqrolizinq" ASC-i Rusiya, Çin, İngiltərə, Ukrayna, Belarus, Türkiyə, İran, Polşa, İtaliya, Finlandiya, Avstriya, Almaniya, Özbəkistan, Qazaxstan və digər ölkələrlə lazım olan ticarət əlaqələrini yaratmış və bu istiqamətdə fəaliyyət dairəsini genişləndirir. Azərbaycan Respublikasında aqrolizinq xidmətləri bazarının inkişaf etdirilməsi və dövlət büdcəsinin vəsaitlərindən daha səmərəli istifadə edilməsi məqsədilə "Aqrolizinq" ASC yaradılmışdır. Bu qurumun iqtisadi rayonlarda kənd təsərrüfatı istehsalının inkişafında böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq respublikamızda daha bir və ya bir neçə aqrolizinq müəssisələrinin yaradılması lizinq xidmətləri bazarında inhisarçılığı azaltmağa, sabitliyi pozan amillərin təsirini zəiflətməyə, motivasiya amillərindən əhəmiyyətli dərəcədə istifadə etməyə imkan verəcəkdir.

Respublikanın iqtisadi rayonlarında apardığımız araşdırmalar zamanı anket sorğularında iştirak edən lizinq alanlar müasir xarici texnika almaq arzusunda olduqlarını bildirirlər.İnhisarçı mövqe tutan istehsalçı müəssisələrə dövlət dəstəyi göstərilməsilə mal göndərənin texnikanı modernləşdirməsinə, onu ən yaxşı dünya nümunələri səviyyəsinə çatdırmağa və onun keyfiyyətini artırmağa stimul yaratmır. Texnikanın zəmanətli istismarı dövründə onun sıradan çıxması halları baş verir.

Biz aqrolizinq mexanizminin təkmilləşdirilməsi istiqamətində işləyərkən lizinq əqdlərinin bağlanması və həyata keçirilməsi zamanı regional xüsusiyyətlərdən maksimum istifadə etməyə çalışmaq. Elmi araşdırmalarımız nəticəsində inkişaf etmiş ölkələrin xüsusən də Müstəqil Dövlətlər Birliyi məkanında istehsal olunan maşınqayırma məhsullarından istifadə edilməklə dövlət lizinqi üzrə qarşılıqlı tələblərin əvəzlənməsi sxemini işləyib hazırlamışıq və onlar praktikada tətbiq edilmişdir.

ƏDƏBİYYAT

1. A.H.Qafarov // Azərbaycan Respublikası Dağlıq Şirvan iqtisadi rayonunun sosial-iqtisadi inkişaf Proqramı və Strategiyası. – Bakı, "AVRORA", 2017-ci il.
2. İ.H.Alıyev // Qloballaşdırma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsinin sosial-iqtisadi problemləri. Bakı, 2007-ci il.
3. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə // Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 9 saylı kiçik müəssisə, 2015-ci il.

ABSTRACT

Rustamov A.A
Qafarov A.H.

REGIONS OF AZERBAIJAN REPUBLIC ESTABLISHMENT OF TECHNICAL SUPPLY STANDART OF AGRICULTURE ENTERPRISES IN ECONOMIC

In the article was explore the technical equipment levels of agricultural enterprises.

It was noted that the technical potential of production in Azerbaijan Republic in recent years was significantly reduce. There is a steady decline in technical capacity. As a result of the study it was established that the volume and efficiency of production depend on the number of methods available. This article confirms that the level of technical equipment has a great impact on the volume and efficiency of production. One of the main directions in solving the problem of providing technical equipment in economic regions is the organization and development of agro-leasing.

РЕЗЮМЕ

Рустамов А.А.
Гафаров А.Г.

ОРГАНИЗАЦИЯ УРОВНЯ ТЕХНИЧЕСКОГО ОСНАЩЕНИЯ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПРЕДПРИЯТИЙ ЭКОНОМИЧЕСКИХ РАЙОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В статье исследованы уровни технического оснащения сельскохозяйственных предприятий в стране. Отмечено, что в последние годы в Азербайджанской Республике технический потенциал производства значительно снижен. Наблюдается тенденция снижения технического потенциала. В результате исследований выявлено, что имеется зависимость между объёмом, эффективностью производства и количеством имеющейся техники. В статье также утверждается мысль о том, что влияние уровня технического оснащения на объём и эффективность производства велико. Одним из основных направлений решения проблемы обеспечения технического оснащения в экономических районах является организация и развитие агролизинга.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

RƏSUL ƏLƏKBƏROV
Naxçıvan Dövlət Universiteti
resulalakberov@hotmail.com

UOT:330

AZƏRBAYCAN İQTİSADİYYATINDA KİÇİK MÜƏSSİSƏLƏRİN YERİ VƏ ROLU

Açar sözlər: *kiçik sahibkarlıq, kiçik müəssisələr, əmtəə və xidmətlər bazarı, ixrac potensialı, səmərəli istifadə, azad sahibkarlıq, müasir bazar mühiti, beynəlxalq təcrübə, ixtisaslaşma*

Key words: *small entrepreneurship, small businesses, commodity and services market, export potential, effective use, free entrepreneurship, modern market environment, international experience, specialization*

Ключевые слова: *малое предпринимательство, малые предприятия, рынок товаров и услуг, экспортный потенциал, эффективное использование, свободное предпринимательство, современная рыночная среда, международный опыт, специализация*

Azərbaycanda sahibkarlıq fəaliyyəti qədim tarixə malik olmaqla böyük inkişaf yolu keçmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində bu qədim fəaliyyət növü sürətli və böyük inkişaf dövrü keçmişdir. Ölkəmizin malik olduğu müxtəlif təbii sərvətlər həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına əvəzsiz şərait yaratmışdır. Son illər həm inkişaf etmiş ölkələrdə, həm inkişaf etməkdə olan ölkələrdə, həm də üçüncü dünya ölkələrinin iqtisadiyyatlarında kiçik və orta müəssisələrin rolu artmaqdadır. Sahibkarlığın inkişafının iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasında, iqtisadi artım və məşğulluğun təmin olunmasında, sənaye məhsulları istehsalının genişlənməsində, ixracın effektivliyinin artmasında, bazar yönümlü iqtisadi siyasətin bərqərar olmasında rolu danılmazdır. Kiçik müəssisələrin yaradılması və inkişafı nəticəsində iqtisadiyyat sahələri üzrə yeniliklərin, mütərəqqi texnologiyaların tətbiqi sürətlənir, əhalinin məşğulluq səviyyəsi artır, azad rəqabət mühiti formalaşır, sahibkarlar yüksək keyfiyyətli məhsulun istehsalına ciddi səy göstərirlər. Qeyri neft sektorunun inkişaf etdirildiyi dövrdə kiçik sahibkarlığın inkişaf etdirilməsi ölkəmizin inkişafında daha əhəmiyyətli rola malikdir. Büdcənin gəlir hissəsini formalaşdırmaq və qeyri neft sektorunu inkişaf etdirmək üçün Azərbaycan iqtisadiyyatında kiçik müəssisələri yeri və rolu mövzusu çox aktual məsələdir.

Müəssisə mülkiyyət formasından asılı olmayaraq bu Qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş. [6]

İri, orta və kiçik sahibkar meyarları

Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası	İşçilərinin orta siyahı sayı	İllik gəliri[1]
Kiçik sahibkar	25 nəfərədək	200 min manatadək
Orta sahibkar	25 nəfərdən 125 nəfərədək	200 min manatdan 1.250 min manatadək
İri sahibkar	125 nəfər və ondan yuxarı	1.250 min manat və ondan yuxarı

Kiçik müəssisələrin digər müəssisələrə nisbətən bir neçə üstün cəhətləri vardır:

1. Kiçik müəssisələrin yaradılması üçün daha az ilkin kapital tələb olunur.

2. Kiçik müəssisələr bazardakı dəyişikliklərə daha cəld və çevikdirlər. Buna görə də bu müəssisələr bazardakı dəyişikliklərə daha tez uyğunlaşa və öz fəaliyyətlərini alıcıların tələblərinə uyğun yenidən qura bilirlər.

3. Kiçik müəssisələr yüksək rentabelliyə malikdirlər, yəni məhsulları daha az istehsal xərcləri hesabına istehsal edə bilirlər. Buna istehsal xərclərinə qənaət etməyə imkan verən bir neçə amillər səbəb olur: bu müəssisələrin dar ixtisaslaşması, əmək haqqının, inzibati idarəetmə xərclərinin daha aşağı səviyyəsi, işçilərdən, avadanlıqlardan daha tez baş verir.

4. Kiçik müəssisələrdə kapitalın dövriyyəsi daha tez baş verir.

5. Kiçik müəssisələr inhisarçılığın məhdudlaşdırılmasında, bazarda rəqabətin yaradılmasında böyük rol oynayırlar.

6. Kiçik müəssisələr istehsal tullantılarından daha səmərəli istifadə edirlər. Hətta, bəzən iri müəssisələrin tullantıları hesab edilən məhsullar kiçik müəssisələr üçün istehsal texnologiyasının zəruri komponenti rolunu oynayırlar.

7. Kiçik müəssisələr əsasən yerli bazar üçün işlədiklərinə görə, nəqliyyat xərcləri azalır. İstehsal və xidmətlərin istehlak sferasına yaxınlaşmasına, yerli xammal, əmək, material ehtiyyatlarının iqtisadi proseslərə cəlb edilməsinə əlverişli şərait yaradır.

Bu saydığımız müsbət cəhətlərlə yanaşı kiçik müəssisələrin mənfi cəhətləri də vardır. Məsələn, iqtisadi cəhətdən müstəqil olan kiçik sahibkarların əsasən fərdi fəaliyyəti onlar üçün bir sıra probləmlər yaradır. Əslində bu müstəqillik həm prinsip, həm də təcrübi fəaliyyətdə yaşamaq uğrunda mübarizədən ibarətdir. Kiçik sahibkarlıq daima yüksək rəqabət şəraitində fəaliyyət göstərirlər. Kapital tutumlu texniki vəzifələrin həyata keçirilməsi, kənardan investisiyaların əldə edilməsi, zəruri informasiyaların alınması, ixtisaslı menecerlərin cəlb edilməsi, işçilərin sosial cəhətdən mühafizəsi və s. sahələrdə kiçik müəssisələrin imkanları iri müəssisələrə nisbətən məhdud olur. Tək şəxsin müəssisəsi, bir şəxsin sərmayəsi ilə yaradıldığından onun həcmi də məhduddur. Kredit almaq imkanı aşağı olur, ala bilsə də, yüksək faizlə alır və aldığını qaytarmaq məcburiyyəti müəssisənin qazancına ciddi təsir göstərir. Belə müəssisələr uzun ömürlü olmurlar. Çünki bütün ixtiyar sahibinin bir şəxs olması üzündən onun dünyasını dəyişməsi və ya müəyyən səbəblər üzündən işini davam etdirə bilməməsi, bu cür müəssisələrin fəaliyyətinə son qoyur. İstər işçilər, istər mal göndərənlər və istərsə də mal alanlarla əlaqədə məsuliyyəti bir şəxs daşıyır. Bütün baş verə biləcək müqavilə, cavabdehlik və iddialara bir nəfər bütün varidatı ilə cavab verməli olur. Qazancın bir nəfərdə toplanması gəlir vergisinin də yüksək olmasına gətirib çıxarır. [1]

Kiçik müəssisələr həm respublikanın daxili bazarlarının əmtəə və xidmətlərlə dolması, inhisarçılığın ləğv edilməsi və rəqabətin bütün sahələrdə genişlənməsində, həm də təşəbbüskar insanların yaradıcılığının üzə çıxması, mövcud əmək və aterial ehtiyatlarının istehsala cəlb olunması və əhalinin tələbatının hərtərəfli təmin olunmasında mühüm rol oynayır. Eyni zamanda, kiçik müəssisələr respublikanın bazar münasibətlərinə keçməsi, bazar mexanizminin təkmilləşdirilməsi, istehsalçılarla istehlakçılar arasında birbaşa iqtisadi əlaqələrin yaranması, həmçinin iqtisadi islahat və istehsalın texnoloji quruluşunun yenidən qurulmasının başlanğıc dövründə yaranmış artıq işçi qüvvəsinin özünə cəlb edilməsi və nəhayət, əhalinin gəlirlərinin və alıcılıq qabiliyyətinin yüksəlməsində böyük əhəmiyyət kəsb edirlər. Dövlət Statistika Komitəsinin yanvar 2017-ci ilin məlumatlarına əsasən hesabat dövründə Azərbaycanda 187.598 qeydiyyatdan keçmiş kiçik sahibkarlıq subyektləri mövcud idi. Bunlardan 170.763-i fərdi sahibkar (fiziki şəxs) kimi qeydiyyatdan keçib. Kiçik sahibkarlığın milli gəlirdə payı 9,2% olub, məşğul əhalidə payı 18,5% təşkil edib. Kiçik sahibkarlığın əlavə dəyərdəki hissəsi 3,587 milyard AZN olub, həmçinin, məhsul satışının həcmində payı isə 5,831 milyard AZN təşkil edib. Azərbaycanda kiçik sahibkarlığın iqtisadiyyatın sektorları üzrə yeri isə ticarətdə 64,6%, nəqliyyatda 10,69%, mehmanxana və restoran xidmətində 6,5%, sənayedə 2,23%, aqrarda 1,91%, tikintidə 0,74%, digər sahələrdə isə 13,33% təşkil edib. [5]

Dünya təcrübəsində kiçik müəssisələrin inkişafında çox diqqət yetirilir və onlara daim dövlət tərəfindən yardım edilir. Dövlət yardımından əlavə fondlar da yaradıla bilər ki, həmin fondlara daxil

olan maliyyə yardımından kiçik müəssisələrin inkişafı üçün istifadə olunsun. Kiçik müəssisələrin ən müsbət cəhəti ondadır ki, orada qısa müddətdə işlər görülür, əlavə kapital qoyuluşu tələb etmir. [2]

Təcrübə göstərir ki, xırda partiyalarla istehsal şəxsi istehlak sferasında tələbatların fərdiləşməsinə və diferensiallaşmasına imkan yaradır. Kiçik sahibkarlığın fəaliyyətinin genişləndirilməsi iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradır; rəqabət mühitinin inkişafı; əlavə iş yerlərinin yaranması; struktur yenidənqurulmasının fəallaşması və istehlak sektorunun genişlənməsini təmin edir. [4]

Kiçik müəssisələrin yaradılması və inkişafı eyni zamanda əmtəə və xidmətlər bazarının doldurulması, ixrac potensialının yüksəldilməsi və yerli xammal ehtiyatlarından səmərəli istifadə edilməsinə səmərəli təsir göstərir. Əmək tutumlu sahələrin genişləndirilməsi əhalinin sahibkarlıq fəaliyyəti üçün həmçinin sərbəst istehsal vasitələrindən və yaradıcılıq səylərindən maksimum istifadə baxımından kiçik müəssisələrin yaradılmasına imkan verir.

Məlumdur ki, elmi-texniki tərəqqinin davamlılığını şərtləndirən amillərdən biri istehsalın təmərküzləşməsidir. Məhz, böyük firmalar istənilən qədər maddi, maliyyə, əmək resurslarına və yüksək bilikli ixtisaslı kadrlara malikdirlər. Bu tip müəssisələr böyük elmi-texniki işlər apara bilirlər. Bununla belə, kiçik sahibkarlığın inkişafı bazarda azad rəqabətə və sağlam mübarizəyə geniş imkan yaradır. Həmçinin, kiçik sahibkarlıq rəqabət mühitinin inkişafı; əlavə iş yerlərinin yaranması; struktur yenidənqurmalarının aktiv həyata keçirilməsi; tələbatçılar sektorunun genişləndirilməsi, bazarın mallar və xidmətlərlə zənginləşməsi, ixrac imkanlarının genişləndirilməsi, yerli xammal resurslarından səmərəli istifadənin effektliyinin artırılmasına geniş şərait yaradır. [2]

Kiçik sahibkarlığın digər əhəmiyyəti yerli təsərrüfat sferasına tez uyğunlaşma qabiliyyəti; qəbul edilmiş qərarların cəld və yüksək operativliklə həyata keçirilməsi; şəxsin öz ideya və fikirlərini həyata keçirmək imkanlarının geniş olması; ilkin kapitala ehtiyacın az olması; müştərilərin tələbatından asılı olaraq məhsulun forma və keyfiyyətində tez bir zamanda dəyişiklik edilməsi imkanlarının mövcudluğu, şəxsi (sahibkar) kapitalın daha da geniş dövriyyəsi və s. ibarətdir.

Müasir bazar mühiti dinamik və dəyişkəndir. İstehlakçıların zövqlərində və tələbatlarında dəyişikliklər, texnologiyalarda, idarəetmə metodlarında yeniliklər fasiləsiz surətdə baş verir. Bütün bunlar iri müəssisələrə nisbətən kiçik biznesdən ötrü yeni üstünlüklər açır. Qərarları lazımi qədər sürətlə çıxarmaq müsətəqilliyinin bacarığı kiçik firmalara ətraf mühitin qeyri-sabitliyindən qazanc əldə etmək imkanı verir. [2]

Bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, qabaqcıl texnika və mütərəqqi texnologiya ilə silahlanmış kiçik ölçülü müəssisələr orta və iri ölçülü müəssisələrə nisbətən daha yüksək istehsal nəticələrinə nail olmağa qadirdirlər. Məsələn, Böyük Britaniyada aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bizneslə məşğul olan sahibkarların 80-85%-i kiçik müəssisə və təşkilat sahibləridir [3]

Bizə belə gəlir ki, kiçik müəssisələrin yüksək səmərəliliyinin başlıca amili, onların məhsul istehsalı sahəsi və əmək vasitələrindən istifadə üzrə dar ixtisaslaşmasıdır. Ona görə də, belə müəssisələr bir qayda olaraq məhdud sayda məhsul istehsal edir və eyni zamanda, dar ixtisaslaşmış avadanlıqlardan istifadə etməsi və yüksək məhsuldarlığı ilə fərqlənirlər ki, bu da qısa müddətdə istehsal texnologiyalarının dəyişməyə, bütövlükdə isə həm məhsul istehsalı prosesini, həm də əsas fondların təkrar istehsalı prosesini intensivləşdirməyə imkan verir. Bazar iqtisadiyyatı inkişafı yolunu tutmuş bütün ölkələrdə kiçik sahibkarlığın inkişaf etdirilməsi həmin dövlətlərdə sahibkarlığın inkişafı istiqamətində aparılan siyasətlərin uğurla nəticələnməsinə gətirib çıxarar. O cümlədən də Azərbaycanda kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi ölkəmizin iqtisadi artımında qeyrineft sektorunun payının artırılmasına xidmət etmiş olar. Hazırda ən əsas məsələ cəmiyyətdə bu dərəcə əhəmiyyəti olan sahibkarlıq sferasını daha da inkişaf etdirməkdir. Xüsusilə burada ən vacib məsələ yerli sahibkarlığın müasir zamanın tələblərinə uyğun bir şəkildə dirçəldilməsidir. Bunun üçün də əsas məsələ həmin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin maddi-texniki bazasının yüksəldilməsidir. [2]

Müstəqil Azərbaycanın qazandığı uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin ölməz ideyalarından güc alır. Ulu öndər Azərbaycanın gələcək inkişafı üçün, mükəmməl strategiya müəyyən etmişdir. Bu böyük tarixi şəxsiyyətin həyata keçirdiyi iqtisadı islahatları Prezident İlham

Əliyev məqsədyönlü, düşünülmüş şəkildə davam etdirir. Azad sahibkarlığın inkişafı bu islahatlar sırasında önəmli yer tutmaqla ölkəmizin inkişafına güclü stimul yaratmışdır. Ölkə prezidentinin 2014-cü il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regionların, o cümlədən qeyri-neft sektorunun inkişafı sahəsində 2004-cü ildən başlanan tədbirlərin uğurlu davamına təminat yaradır. Dövlət Proqramı ölkədə makroiqtisadi sabitliyin təmin olunması, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin açılması, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması və yoxsulluq səviyyəsinin azaldılması kimi prioritetləri özündə birləşdirir. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alır: "Kiçik sahibkarlıq subyektləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiq edilən meyarlar əsasında müəyyənləşdirilir." [6]

Sahibkarların fəaliyyətinin dövlət tərəfindən müdafiə olunması, milli sahibkarlığın inkişaf etdirilməsi, yerli istehsalçıların mənafeyinin xarici təsirlərdən qorunması və digər bu kimi funksiyaların yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən biri də bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılmasıdır. Prezident İlham Əliyevin 19 oktyabr 2015-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" fərmanı da sahibkarlığın inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Sahibkarlar üçün göstərilən dövlətin qayğısı sahibkarlığın inkişaf etdirilməsi üçün maksimum stimul yaratmışdır. [6]

Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunundan, bu Qanundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanunda müəyyən edilmiş müddəalardan fərqli müddəalar müəyyən edildikdə həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.[6]

Sonda belə bir nəticəyə gəlmək olar ki, yuxarıda qeydedilənlər beynəlxalq təcrübədən istifadə etməklə və daxili xüsusiyyətlər nəzərə alınmaqla qiymətləndirilməli. Kiçik sahibkarlığın inkişaf etdirilməsi üçün, aşağıdakı qeyd etdiklərimin həyata keçirilməsi sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün daha məqsədə uyğun olar.

- regionlar üzrə ixtisaslaşma,
- istehsal formalarına və bölgü formalarına uyğunlaşmalı.
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməli.
- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, informasiya əlaqələrinin inkişafına kömək göstərilməli.
- kiçik sahibkarlar üçün vergi sadələşdirilməli.

Yuxarıda qeyd edilənlərin iqtisadiyyata tətbiq olunması büdcə gəlirlərinin artmasına, ölkə iqtisadiyyatının inkişafına təsir göstərəcəkdir .

ƏDƏBİYYAT

1. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı.Bakı, 2005, 661 səh

2. İmanov Ə.Ş. Kiçik sahibkarlıq.Bakı, 2009, 368 səh
3. Abdullayev Z.Ş. və Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı Bakı, 2003, 502 səh
4. Azərbaycanda Kiçik və Orta Müəssisələr üzrə Araşdırma.Bakı, 2009, 169 səh
5.www.stat.gov.az- Kiçik sahibkarlıq subyektlərinin sayı
6. www.e-qanun.az

ABSTRACT

Rasul Alakbarov

THE ROLE AND PLACE OF SMALL ENTERPRISES IN THE ECONOMY OF AZERBAIJAN

The development of small business has a more important role in the development of the country. Small businesses are more flexible and flexible in the market. Creation and development of small businesses also have an impact on the filling of the commodity and services market, increasing the export potential and rational utilization of local raw materials. World experience is paying much attention to the development of small businesses and is constantly being assisted by the state. The development of free enterprise has made a significant contribution to these reforms and has created a strong incentive for our country's development. The modern market environment is dynamic and variable. The State Program implements macroeconomic stability in the country, expanding entrepreneurial activity in the regions, opening new businesses and businesses, and implementing large-scale infrastructure projects. It should be evaluated using international experience and taking into account the internal features.

РЕЗЮМЕ

Расул Алакбаров

РОЛЬ И МЕСТО МАЛЫХ ПРЕДПРИЯТИЙ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

Развитие малого бизнеса играет более важную роль в развитии страны. Малые предприятия более гибкие и гибкие на рынке. Создание и развитие малого бизнеса также оказывают влияние на заполнение рынка товаров и услуг, увеличение экспортного потенциала и рациональное использование местного сырья. Мировой опыт уделяет большое внимание развитию малого бизнеса и постоянно получает помощь со стороны государства. Развитие свободного предпринимательства внесло значительный вклад в эти реформы и создало сильный стимул для развития нашей страны. Современная рыночная среда является динамичной и переменной. Государственная программа реализует макроэкономическую стабильность в стране, расширяет предпринимательскую деятельность в регионах, открывает новые предприятия и предприятия и реализует масштабные инфраструктурные проекты. Его следует оценивать с использованием международного опыта и с учетом внутренних особенностей

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

SƏDAQƏT ƏHMƏDOVA
Bakı Dövlət Universiteti
sedaqet.ahmedova2016@mail.ru
İKRAM CƏBRAYILOV
Bakı Dövlət Universiteti
c.ikram84@gmail.com

UOT: 332.01, 332.1, 338.22

TƏKRAR İSTEHSAL PROSESİNİN NƏZƏRİ TƏHLİLİ VƏ REGİON İQTİSADİYYATINDA TƏZAHÜRLƏRİ

Açar sözlər: *kapital, proses, region, resurs, təkraristehsal, milli gəlir*
Key words: capital, process, region, resource, reproduction, national income
Ключевые слова: *капитал, процесс, регион, ресурс, воспроизводство, национальный доход*

Təkrar istehsal mühasibat uçotu, analiz, planlaşdırma və istehsal prosesinin bərpasını tənzimləyən metodologiyanın inkişaf tarixini ehtiva edir. İqtisadi artım mövzusu ilə bibaşa əlaqəlidir. Yəni iqtisadi artım və iqtisadi inkişaf üçün vacib şərtdir (5, 65). Bu iki anlayış arasında asılılıq birbaşadır. Təkrar istehsal varsa, iqtisadi artım olacaq; əgər təkrar istehsal yoxdursa iqtisadi inkişaf gözlənilməməlidir. Bununla məhsuldar qüvvələrin yenilənmə prosesinin davamı üçün lazım olan istehsal münasibətləri nəzərdə tutulur.

«Təkrar islehsal» anlayışı, iqtisadi nəzəriyyədə geniş istifadə olunsa da, son dövrlərdə «iqtisadi artım» məfhumuna daha çox diqqət yetirilir. İqtisadi artım makrosəviyyədə istehsalın kəmiyyət tərəflərini səciyyələndirir. Məsələn, ümumi daxili məhsulun, xalis milli məhsulun, milli gəlirin müqayisəli dövrdə artımı və s. Lakin qeyd etmək lazımdır ki, təkrar istehsala nəinki maddi nemətlərin istehsalı və istehlakı aiddir, o habelə əhalinin, əmək resurslarının, işçi qüvvəsinin və ümumilikdə sosial-iqtisadi münasibətlərin də təkrar istehsalını əhatə edir. Buna görə də «təkrar istehsal» kateqoriyası «iqtisadi artım» - anlayışından daha geniş hesab olunur. Təkrar istehsal iqtisadiyyatın əsas, mərkəzi problemidir və iqtisadi inkişafın təhlili üçün nəzəri əsasdır. Ümumiyyətlə, reproduksiya milli hesablar sisteminin göstəricilərinə təsir göstərən, müəyyən sosial və iqtisadi amillərdir.

Digər tərəfdən «təkrar istehsal» kateqoriyasının istifadə olunması makroiqtisadi səviyyədə baş verən sosial-iqtisadi dəyişikliklərin mürəkkəbliyi ilə də təsdiq olunmuşdur. İstehsalın dövri xarakteri mənfəəti artırmağa canatan və müvafıq olaraq istehsalın həddən artıq genişlənməsiilə müşahidə olunan artıq kapital istehsalının təzahürformasıdır.

İstehsalın böhranlı şəkildə azalmasıəsas kapitalın kütləvi şəkildə təzələnməsi ilə müşayiətolunur. Bu təzələşmə iqtisadi tərəddüdlərin dövriliyininəsasını təşkil edir və məhsuldar qüvvələrin səviyyəsinin artmasına, kapitalın təkrar istehsalınınyenişəraitə uyğunlaşmasına dəlalət edir. Beləliklə, böhranlar təkrar istehsal ilə bağlı ziddiyətlərin (istehsal ilə istehlak arasında, istehsal ilə tədavül arasında ziddiyyətlərin) zorakılıq yolu ilə həll edilməsi formasıdır.

İstehsalın bir-birinin ardınca gələn və birdəfəlik əməliyyat kimi götürülən kəmiyyət tərəflərini müqayisə etdikdə, onun miqyasının və buna uyğun olaraq istehsal olunan nemətlərin həcminin dəyişdiyini müəyyən etmiş oluruq. Buna uyğun olaraq təkrar istehsalın aşağıdakı növlərini bir-birindən fərqləndirmək lazımdır:

- Sadə təkrar istehsal;
- Geniş təkrar istehsal;
- Azalan (məhdud) təkrar istehsal.

Sadə təkrar istehsal – istehsalın dəyişməz, əvvəlki həcmdə təkrarlanması deməkdir. Daha doğrusu, əgər sadəcə olaraq istehlak edilmiş investisiya əmtəələri və şəxsi istehlak şeylərinin yeri doldurulursa, əlavə investisiya əmtəələri və şəxsi istehlak şeyləri istehsal olunmursa, iqtisadiyyatda çalışan işçilərin sayı dəyişmirsə bu, sadə təkrar istehsaldır. Sadə təkrar istehsalda, yaradılmış əlavə dəyərin (məhsulun) hamısı şəxsi istehlakın ödənilməsinə sərf olunur. Geniş təkrar istehsal – istehsal prosesinin artmış miqyasda təkrarlanması deməkdir. Başqa sözlə, bu təkrar istehsalda nemətlər – investisiya əmtəələri, şəxsi istehlak şeyləri əvvəlki dövrlərə nisbətən artır, cəmiyyət yalnız istehlak edilmiş investisiya əmtəələri və istehlak şeylərinin yerini doldurmur, həm də onlardan daha çox istehsal olunur, istehsala daha çox iqtisadi ehtiyatlar cəlb edilir.

Geniş təkrar istehsalda, yaradılmış əlavə dəyərin (məhsulun) bir hissəsi şəxsi istehlak, digər hissəsi isə məhsuldar istehlak üçün istifadə olunur.Lakin təsərrüfat quruculuğu təcrübəsində elə hallar da olur ki, istehsal nə əvvəlki həcmdə, nə də artmış miqyasda təkrarlanmır, əksinə, onun səviyyəsi əvvəlki dövrlərə nisbətən azalır. Buna azalan və ya məhdud təkrar istehsal deyilir.

Bildiyimiz kimi insanlar yaşayıb inkişaf etmələri üçün gündəlik fəalliyyətində müəyyən qədər maddi və mənəvi nemətlərdən,müxtəlif xidmətlərdən istifadə etməlidirlər.İnsanlar tərəfindən bunların istehlakı daimi olduğu kimi onların istehsalı da daimi olmalıdır.Cəmiyyət üzvlərinə lazım olan bu məhsul və xidmətlərin istehsalın daim davam etməsi təkrar istehsaladlanır.

Təkrar istehsal-istehsalın fasiləsiz,bərpa və təkrarlanmasıdır. O məhsuldar qüvvələrin istehsal münasibətlərinin nemətlərinin təkrar istehsalıdır.Əhatə dairəsinə görə təkrar istehsal fərdivə ictimai təkrar istehsal formalarında olur.Fərdi təkrar istehsal dedikdə ayrı-ayrı təsərrüfatlarda,müəssisələrdə həyata keçirilən təkrar istehsalı nəzərdə tutulur.Öz fəaliyyətlərində fərdi təkrar istehsallar bir-birilə qovuşur və ictimai təkrar istehsal əmələ gətirirlər.Müəyyən ölkə çərçivəsində həyata keçirilən fərdi təkrar istehsalların məcmusu ictimai təkrar istehsalı hesab olunur.

«Təkrar istehsal» anlayışından ilk dəfə istifadə edən mütəfəkkir fransız fiziokratlar məktəbinin banisi həkim F.Kene olmuşdur. (F.Kene 1694-1774 Fransa, Versal). Fransa kralı XVLüdovikin saray həkimi olan F.Kene 1758-ci ildə «İqtisadicədvəl»in ilk mətbəə çapını hazırlamışdır. F.Kene, müasiri olduğucəmiyyətin sinfi strukturunun belə bir təsvirini vermişdir:«Millət vələndaşları üç sinifdən: məhsuldar sinifdən, sahibkarlarsinfindən və bəhrə verməyən sinifdən ibarətdir». O, göstərmişdirki, bu siniflər arasında məhsul istehsalı, bölgüsü, mübadiləsivə istehlakı mövcuddur. Tarixi iqtisadi artım nəzəriyyəsinin kökləri Kene (1694-1774) ilə bağlıdır (6, 279).

Karl Marks təkrar istehsalı iqtisadi artımla birbaşa əlaqələndirən iqtisadçılardandır. O, dəyər əmələ gətirməyən amilləri təkrar istehsal sxeminə daxil etmir. K.Marks ilk dəfə istehsal olunmuş məhsulunrealizasiya şərtlərinin ictimai təkrar istehsala təsiri barədəsualı qoymuş, muəyyən şərtlər daxilində investisiya vəəmtəə bazarlarında tarazlıq şərtlərini muəyyən etmişdir (2, 34).

Merkantilistlər pula kapitalın pul forması kimi baxır vəhesab edirdilər ki, pul əvvəlcə məhsuldar, sonra isə əmtəəformasına kecməli və beləliklə, istehsal prosesinin fasiləsizliyinivə fermerlərin, sənətkarların məşğulluğunu təminetməlidir. Əlbəttə, merkantilistlər investisiya sözündən istifadəetməsələr də, anlayırdılar ki, sərvətin (*xəzinənin*) toplanması millətin əsas məqsədi deyil, ictimai təkrar istehsalprosesinin bir həlqəsidir.

İqtisad elminin klassilərindən A.Smit kapital yığımının ölkənin iqtisadi prosesləri ilə sıx əlaqədə olduğunu göstərmişdir (8, 79). O, ictimai kapitalın təkrar istehsalı prosesini tədqiq edərkən ümumi gəlirlə xalis gəlirin fərqini qeyd etmişdir. Ümumi və xalis gəlir anlayışlarını irəli sürən Smit, ölkənin əhalisinin bütün illik məhsulunu ümumi gəlir, bunun fəhlənin və kapitalistin şəxsi istehlakına gedən hissəsini isə xalis gəlir adlandırır.Smitin iqtisadi təhlillərinə dərindən diqqət yetirdikdə aydın olur ki, elə Smitin dövründə kapitalistlər öz şəxsi yığımları hesabına nəinki sadə təkrar istehsalı, habelə geniş təkrar istehsalı da həyata keçirə bilmişlər. Onun ideyalarından bəhrələnən kapitalizm cəmiyyəti sonrakı inkişaf dövründə də geniş təkrar istehsalla tərəqqi etmişdir.

Sosial-iqtisadi sistemlərin təkamülünə dair bir monoqrafiyanın müəllifi Josef Şumpeter (1883-1950) təkrar istehsalı iqtisadi inkişaf kontekstində tədqiq edir.Şumpeter hesab edir ki, təkrar istehsal məhsuldar fəaliyyətin maddi komponentlərini əks etdirən bir kateqoriyadır (9, 60-61).

Təkrar istehsal prosesinin təmin edilməsi əlbəttə ki, investisiya prosesi ilə bağlıdır. Təkrar

istehsal üzrə kapital qoyuluşu istehsal və qeyri istehsal təyinatlı qoyuluşlara bölünür. İstehsal təyinatın qoyuluşlara istehsal qurğularının tikintisinə və avadanlıqlarına, su təsərrüfatı və meliorasiya qurğularına, kənd təsərrüfatı texnikasının və inventarların gətirilməsinə, çoxillik əkmələrin və bağların salınmasına və s. xərclər aid edilir.Mədəni-məişət təyinatlı obyektlərin tikintisinə, mənzil-kommunal təsərrüfatına məsrəflər qeyri-istehsal təyinatlı kapital qoyuluşuna aid edilir. Kapital qoyuluşunda əsas yeri 1-ci qrup təşkil edir. Ona görə ki, o istehsal prosesində həlledici rol oynayır.

Maliyyə axınlarının düzgün bir şəkildə idarə edilməsi və konsalidasiyası məsələləri təkrar istehsala birbaşa təsir edir. Maliyyə dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Məlumdur ki, əmtəə tədavülü prosesində maliyyəəmtəə tədavülündən ayrılaraq, nisbətən müstəqil hərəkət edir. Bu prosesdə yaranmış maliyyələrin bir hissəsi əhalinin əlində cəmlənir. O, əmək haqqı şəklində alınmış maliyyələr sayılır və iş qüvvəsinin təkrar istehsalına xidmət edir.

Milli iqtisadiyyatın inkişaf prosesində xarici investisiyalar mərkəzi rol oynayır və iqtisadi artım sürəti haqqında əvvəlcədən informasiya verir. Milli iqtisadiyyatın investisiya prosesivasitəsilə inkişaf etdirilməsi milli gəlirin yüksəldilməsinə və bir sıra əmtəə və xidmətlər üzrə olan tələbatı ödəməklə rəqabət qabiliyyətli məhsulların istehsalına səbəb olur. Belə şəraitdə milli gəlirin həm yığım, həmdə istehlak fondlarına yönəldilən vəsaitlərin həcmi artır. Bu prosesin fasiləsizliyinin təmin olunması yığım və istehlak fondlarına yönəldilən vəsaitlərdən səmərəli istehlak olunmasını tələb edir.

Milli gəlir hesabına yaranmış investisiyalar həm yığım, həm də gəlir formasını alaraq istehsal olunması nəticəsində bir tərəfdən öz artımlarına, digər tərəfdən isə geniş təkrar istehsalı şərtləndirmək ilə milli iqtisadiyyatın miqyasının artmasına səbəb olur. Bu zaman investisiyaların nə qədər səmərəli tətbiq olunursa milli gəlirin artım sürəti bir o qədər yüksək olar, nəticədə isə istehlaka yönəldilən yığımın həm mütləq, həm də nisbi həcmi yüksələr. İnvestisiyanın kifayət qədər yüksək səmərəliyinə nail olunması milli iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun artırılmasını təmin etmiş olur.Onsuz əsas istehsal fondlarının təzələnməsi, geniş təkrar istehsalı və onunla əlaqədar rəqabət qabiliyyətli məhsul istehsalı, deməli, ölkənin inkişafının sosial-iqtisadi problemlərinin həlli mümkün deyildir.

Təkrar istehsalın təmin edilməsində infrastrukturun rolu olduqca böyükdür. Sosial iqtisadi həyatda infrastrukturun lazımi səviyyədə inkişaf etməməsi onun xidmət göstərdiyi əsas istehsal sahəsinin geridə qalmasına səbəb ola bilər. İnfrastrukturun normal fəaliyyəti bir tərəfdən məhsuldar qüvvələrin inkişafına, digər tərəfdən ümumi daxili məhsulun çoxalmasına, təkrar istehsalın genişlənməsinə təkan verən əsas amilərdən biridir. Məhz bu səbəbdən də, nəqliyyat infrastrukturunun normal və ahəngdar fəaliyyətini təmin etmək lazımdır.

Regionun təkrar istehsal sistemi aşağıdakı proseslərdən ibarətdir:

- regional məhsulun bərpası;
- kapitalın yığılması və konsentrasiyası;
- iqtisadi resursların istifadəsi və bərpası;
- maddi axınların hərəkəti;
- maliyyə axınının hərəkəti.

Region iqtisadiyyatının əsas xüsusiyyəti onun iqtisadi bütövlüyü - regional iqtisadiyyatın milli iqtisadiyyatdan asılı olmayaraq fəaliyyət göstərməsinin potensial qabiliyyətidir. Bölgə iqtisadiyyatının əsasları onun istehsal kompleksidir - bölgənin iqtisadiyyatının müstəqil və davamlı inkişafı üçün zəruri olan istehsal potensialının funksional vəziyyətinin təmin edilməsinə yönələn bir iqtisadi sistemdir. Region bütövlükdə milli iqtisadiyyatın bir hissəsi kimi fərqlənirilsə də, bu hissədə təkrar istehsal prosesinin bütövlüyü ilə bağlı bir şübhələr var (7, 23). Xüsusi məhsul və xidmətlərin müəyyən bir qrupunun istehsalı, paylanması, mübadiləsi və istehlakı eyni regionda tam şəkildə həyata keçirilə bilər. Bununla yanaşı, təkrar istehsal əlaqələrin bölgənin sərhədləri ilə məhdudlaşmadığı çox sayda məhsul qrupu var. Buna görə bir çox alimlər regional iqtisadiyyatda təkrar istehsal porsesinin bir çox hallarda tamamlanmadığından yazırlar.

Regional təkrar istehsal prosesi iqtisadi əlaqələrin və idarəetmə strukturlarının transformasiyası, struktur böhranı, regional fərqliliklərin tənzimlənməsinin zəruriliyi ilə izah olunur. Buna görə, iqtisadiyyatın mərkəzsizləşmə prosesləri, regional bazarların formalaşması prosesləri regionaltəkrar istehsalın rolu artır.Bölgədəki reproduktiv proseslər yalnız regional iqtisadiyyatın gəlir

götürmə qabiliyyəti ilə deyil, insanların ehtiyaclarının çoxunun təmin olunmasına təsir edən, həyat səviyyəsini və keyfiyyətini müəyyən edən amillərlə bağlıdır.

Regional təkrar istehsal mexanizmi regionun ixtisaslaşmasına və iqtisadi müstəqilliyə əsaslanaraq, vahid iqtisadi məkanda birləşən təsərrüfat subyektləri arasında geniş bölgələrarası iqtisadi əlaqələri nəzərdə tutur, malların və xidmətlərin istehsalçı bölgədən istehlakçı bölgələrə köçürülməsinə kömək edir.

Hər bir region özlüyündə resursların birləşməsinə əsaslanan reproduktiv sistemdir. Bölgələrdə təkrar istehsal, regional idarəetmənin ümumi iqtisadi, struktur, sosial-iqtisadi, iqtisadi-demoqrafik, maliyyə-iqtisadi və regionun investisiya cəlbediciliyini artırmağı nəzərdə tutur. Təkrar istehsal göstəriciləri bölgəni rəqabət mövqeyindən xarakterizə edir, regional sosial-iqtisadi siyasət sahəsində qərarların qəbul edilməsi üçün zəmin kimi çıxış edir.

ƏDƏBİYYAT

1. İsmayilov G.İ. Dünya iqtisadiyyatının nəzəri əsasları, B. 2006, s.169, 252 s.
2. Məmmədov Ə.C,Seyfullayev İ.Z. Vergi və investisiyaB. 2013, s.34. -376 s.
3. Qafarov K.S.,Əhmədov Ə.M., Əsgərov Z.S.Makroiqtisadi təhlilin əsasları. Dərs vəsaiti: «İqtisad Universiteti» Nəşriyyatı, 2012., s.95,- 198 s.
4. Кенэ Ф. Избранные произведения физиократов // Кенэ Ф., Тюрго А.Р. Ж., Дюпон де Немур П.С. Фи- зиократы. Избранные экономические произведения. М., 2008, s.279,. С. 43–487.
5. Медведев В. А., Абалкин Л. И., Ожерельев О. И. и др. Политическая экономия. — М., 1988, s.65
6. Национальное богатство и национальный продукт': Монография.Под редакцией В. Н. Черковпа.: МГУ им. М. В. Ломоносова; Рыбинск: «Офис 2000», 2010., s.64, 280 с.
7. Никитенко М.В. Региональная экономика: сущность и механизм управления.− Минск: Навука и тэхника, 1992, с.23
8. Смит А. Исследование о природе и причинах богатства народов // Антология экономической классики: в 2 томах. Т.I. М., 1993, 396 с.
9. Шумпетер Й.А. Теория экономического развития. Капитализм, социализм и демократия. М., 2007., s.60-61, 864 с.

ABSTRACT

Sadakat Ahmadova
Ikram Jabrailov

THEROTICAL ANALYSIS OF THE PROCESS OF REPRODUCTION AND MANIFESTATIONS IN THE REGIONAL ECONOMY

Investigating the scientific approach to the essence of the recycling process is topical. Reproductive processes, exchanges between capital and revenues, re-manufactured and created for consumption, are a combination of relationships between producers and consumers. The production of ideas is a process that is unique to all forms of modern society. Reproduction is represented in three independent processes: product production, availability of business resources and built-in production relationships. The articles mentioned above are touched upon.

РЕЗЮМЕ

Садакат Ахмадова

Икрам Джабраилов

ТЕОРЕТИЧЕСКИЙ АНАЛИЗ ПРОЦЕССА ВОСПРОИЗВОДСТВА И ЕГО ПРОЯВЛЕНИЯ В РЕГИОНАЛЬНОЙ ЭКОНОМИКИ

Актуальным является исследование научного подхода к содержанию процесса вопроизводства. Процесс воспроизводства, обмен между капиталом и доходами, переделанные и созданные для потребления, представляют собой сочетание отношений между производителями и потребителями. Воспроизводство - это процесс, присущий всем формам современного общества. Воспроизводство представлено в трех независимых процессах: производство продукции, наличие деловых ресурсов и встроенные производственные отношения. Описанные выше задачи затронуты в предоставленной статье.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ƏBDÜLHÜSEYN ZAMANOV
Naxçıvan Dövlət Universiteti

UOT: 330

İDXALI ƏVƏZ ETMƏK POTENSİALI OLAN KƏND TƏSƏRRÜFATI VƏ EMAL SƏNAYESİ MƏHSULLARI İSTEHSALI

Açar sözlər: *kənd təsərrüfatı,emal sənayesi, idxalı əvəz edən potensial kənd təsərrüfatı məhsulları*

Key words: *agricultural, processing industry, import substituent agricultural products*

Ключевые слова: *сельское хозяйство, перерабатывающая промышленность, потенциал импортной замены, сельскохозяйственная продукция*

Bir sıra məhsulların idxalından asılılığın azaldılması hesabına idxal xərclərinin aşağı salınması və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi mühüm vəzifələrdən biridir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Rusiya Azərbaycanın idxal etdiyi əsas 10 məhsul üzrə aparıcı ixracatçı olub, Azərbaycanda bu məhsullara tələbatın demək olar ki, 37 faizini ödəyir. O cümlədən Azərbaycan siqaretin yarıdan çoxunu, bərk buğda və meslinin (buğda və çovdarın qarışığı) 50 faizindən çox hissəsini Rusiyadan idxal edir. Ölkənin idxal etdiyi 10 əsas məhsula olan tələbatının 7 faizini isə, əsasən, regionun digər ölkələri ödəyir və bu, o deməkdir ki, Azərbaycan regionun digər ölkələri ilə oxşar iqlim şəraitinə və biznes mühitinə malik olduğu üçün həmin məhsulları istehsal edib onların idxalını əvəzləyə bilər.

2015-ci ildə Azərbaycan 122,1 milyon ABŞ dolları dəyərində bərk buğda,

174,7 milyon ABŞ dolları dəyərində yumşaq buğda və meslin, 31,2 milyon ABŞ dolları dəyərində qarğıdalı idxal etmişdir.

Bu məhsulların istehsalında Azərbaycanın hazırkı rəqabət qabiliyyəti aşağıdır, çünki ölkədə bu məhsulların yetişdirildiyi təsərrüfatların sahəsi nisbətən kiçikdir və ən əsası, təsərrüfatlar tərəfindən aqrotexniki normaların tətbiqi lazımi səviyyədə deyildir.

2015-ci ildə Azərbaycana 287,2 milyon ABŞ dolları dəyərində siqaret idxal edilmişdir. Hazırda ölkədə tütünçülük lazımi səviyyədə inkişaf etməyib, lakin həm daxili bazarda, həm də regional bazarda tütün məhsullarının böyük həcmdə idxal dövriyyəsini (4,4 milyard ABŞ dolları) nəzərə aldıqda, bu ənənəvi məhsulun istehsalının əhəmiyyətli səviyyədə artırılması üçün böyük bazar potensialının olduğunu demək mümkündür.

2015-ci ildə Azərbaycana 70,3 milyon ABŞ dolları dəyərində emal olunmuş bitki yağı idxal edilmişdir, lakin ölkənin bu məhsul üzrə geniş ixrac dövriyyəsi vardır. 2015-ci ildə 55,9 milyon ABŞ dolları dəyərində bitki yağı ixrac edilmişdir ki, bunun da 54,5 faizi günəbaxan/saflor yağının payına düşür. Azərbaycan bitki yağlarının, xüsusilə günəbaxan/saflor yağının ixracında rəqabətqabiliyyətli olduğundan, bu məhsulların idxalından asılılığın azaldılması üçün mühüm imkanlar mövcuddur.

Azərbaycanda süd emalı müəssisələrinin sayının azlığı ilə yanaşı, sənaye tələbatı üçün təbii süd xammalı istehsalının həcmi də lazımi səviyyədə olmadığına görə, ölkəyə böyük miqdarda süd məhsulları idxal edilir. Mövcud emal müəssisələrinin əhatə dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, habelə təbii süd xammalı üzrə istehsal potensialını artırmaqla, keyfiyyətli və bazarın tələblərinə uyğun süd məhsullarının istehsalını yüksəltmək imkanları mövcuddur.

Təzə ət (mal, toyuq və qoyun əti) Azərbaycanda ən çox istehsal edilən heyvandarlıq məhsulları olmaqla, dəyər ifadəsində həcminə görə ikinci yerdədir. Bununla belə, bu məhsul yerli bazarın tələbatını ödəmir və onun ixracı aşağı səviyyədədir. Ölkədən, əsasən, emal edilmiş və konservləşdirilmiş ət məhsulu ixrac edilir. Azərbaycanda fəaliyyət göstərən emal müəssisələrinin müasir texnologiyalara və yüksək əmək məhsuldarlığına malik olduğunu nəzərə alsaq, onların əhatə

dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, tələb olunan ət məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq olar.

Göründüyü kimi, Azərbaycanın idxal etdiyi kənd təsərrüfatı məhsullarının strukturunda emal edilmiş məhsulların payı daha böyükdür. Ölkədə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması bəzi məhsulların məsələn, tütün, süd və un məhsullarının idxalından asılılığı azalda və ticarət kəsirini nisbətən aradan qaldıra bilər.

Ümumilikdə isə aparılan təhlillər nəticəsində, idxalı əvəz etmək potensialı olan bir sıra kənd təsərrüfatı və emal sənayesi məhsulları müəyyənləşdirilmişdir və həmin məhsulları istiqamətlər üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

- ✓ heyvandarlıq məhsulları: ət, süd, quş əti;
- ✓ dənli paxlalılar: buğda, qarğıdalı və s.;
- ✓ sənaye təyinatlı məhsullar: pambıq, tütün, şəkər çuğunduru, çay, dərman bitkiləri, barama, yun, gön-dəri.

Ortamüddətli perspektiv üçün idxalın əvəzlənməsi məqsədi ilə sənaye məhsulları üzrə emalın inkişaf etdirilməsi nəzərdə tutulur.

Beləliklə, prioritet üzrə qarşıda duran məqsədə nail olmaq üçün idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı məhsullarının hər qrupu üzrə əsas məhsullar müəyyənləşdirilərək, onların istehsal və emal potensialının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.

Bu sahədə aşağıda görüləcək tədbirlərin həyata keşirilməsi nəzərdə tutulur:

1. İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılması.

Ölkədə heyvandarlıq məhsulları istehsalının və beləliklə idxalın əvəz edilməsi imkanlarının artırılması üçün heyvandarlıqda istehsalın intensiv əsaslarla inkişaf etdirilməsi və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məqsədilə qapalı şəraitdə fəaliyyət göstərən iri heyvandarlıq komplekslərinin təşkili.

Eyni zamanda, aqrofermaların yaradılması sahəsində stimullaşdırıcı tədbirlər həyata keçiriləcək, heyvandarlıq komplekslərinin yüksək məhsuldarlıqlı cins heyvanlarla təminatına "Aqrolizinq" ASC vasitəsilə dəstək göstəriləcək, həmçinin heyvandarlıq sahəsində intensivləşmənin əsas amillərindən biri kimi süni mayalanmanın genişləndirilməsi sahəsində işlər davam etdiriləcəkdir.

2. *Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması* .

Heyvandarlıq məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması üçün ailə-kəndli təsərrüfatlarının potensialının artırılmasının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılmasını genişləndirmək. Bu məqsədlə, ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsi digər regionlarda tətbiq edilməsi.

3. Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılması.

Bu tədbir çərçivəsində broyler təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi üçün əlavə dəstək mexanizmlərinin hazırlanması qiymətləndirilərək gecböyüyən quş əti istehsalı, habelə emal məqsədilə iriçəkili quş əti istehsalı kimi, əhalinin müxtəlif qruplarının və emal sənayesinin tələbatına fokuslanmış istehsalı

4. Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsi

Burada əsas məqsəd ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək olduğu üçün, rayon səviyyəsində orta, kənd səviyyəsində isə kiçik ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin formalaşdırılması üçün müxtəlif dəstək mexanizmlərinin hazırlanması.

5.Arıçılıq, balıqçılıq, o cümlədən akvakultura sahəsində inkişafın dəstəklənməsi.

Ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək, kənd yerlərində məşğulluğu təmin etmək və əhalinin gəlirlərini artırmaq, eyni zamanda, ölkənin arıçılıq və balıq məhsulları və digər su bioresursları ilə təminatında yerli istehsalın xüsusi çəkisini artırmaq üçün kənd yerlərində arıçılıq, balıqçılıq, o cümlədən akvakulturanın inkişafı

stimullaşdırılacaq, bu istiqamətdə istehsal fəaliyyəti ilə məşğul olmaq istəyən təsərrüfatların dəstəklənməsi üzrə müxtəlif inkişaf planları hazırlanması.

6.Ərzaq təyinatlı yumşaq və bərk buğda, habelə digər dənli paxlalı bitkilər istehsalının həcminin artırılması

Ərzaq təyinatlı yumşaq buğda və digər dənli paxlalıların istehsalının həcminin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi çərçivəsində əsas diqqət taxılçılığın daha səmərəli olduğu rayonların müəyyənləşdirilməsi, istehsalın maksimum intensivləşdirilməsi və məhsuldarlığın yüksəldilməsi hesabına mövcud əkin sahələrini genişləndirmədən istehsalın həcminin artırılmasıdır.

Müvafiq rayonlarda makaron istehsalı müəssisələrinin yaradılması imkanları araşdırılması, həmçinin bazar infrastrukturunun inkişafı tədbirləri çərçivəsində əsas taxılçılıq bölgələrində kiçik və orta həcmli taxıl anbarlarının yaradılmasının davam etdirilməsi.

7. Şəkər çuğunduru və şəkərli qənnadı məmulatlarının yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi.

Bu tədbir çərçivəsində həm yerli xammal, həm də şəkərli qənnadı məmulatlarının istehsalının artırılması ölkənin əkinəyararlı torpaqları, istehsal strukturu, kənd təsərrüfatı istehsalı sahələri üzrə səmərəlilik və s. bu kimi göstəricilər təhlil edilərək şəkər çuğundurunun yerli istehsalının iqtisadi səmərəliliyi qiymətləndirilməli,təhlilin nəticələrinə əsaslanaraq şəkərli qənnadı məmulatlarının istehsalının yerli xammal bazası hesabına təmin edilməsi ilə bağlı inkişaf planları hazırlanaraq həyata keçirilməlidir.

8. Bitki yağları istehsalında istifadə olunan xammalın (günəbaxan, qarğıdalı, zeytun və s.) yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi

İlk növbədə, bitki yağlarının istehsalında istifadə edilən yağlı bitkilərin yerli istehsalının artırılması üçün mövcud potensial araşdırılmalıdır. Günəbaxan, qarğıdalı, zeytun və digər məhsulların ölkə ərazisində istehsalının iqtisadi səmərəliliyi qiymətləndiriləcək və bu istiqamətdə təkliflər hazırlanacaq, xüsusilə də ölkənin quraq ərazilərində zeytun bağlarının salınması və sonradan zeytun yağının istehsalında istifadə edilməsi imkanları araşdırılacaqdır. Ümumi təhlillər vasitəsilə xammalın yerli istehsalı ilə idxalının iqtisadi cəhətdən səmərəliliyi müqayisə edilməklə, müvafiq inkişaf planları hazırlanaraq həyata keçirilməlidir.

9. Çay plantasiyalarının genişləndirilməsinin stimullaşdırılması

Tədbir çərçivəsində ölkə əhalisinin yerli çay məhsullarına tələbatının müəyyənləşdirilməsi sahəsində araşdırmalar aparılmalı, eyni zamanda, qiymət, keyfiyyət və digər göstəricilər üzrə yerli məhsulun analoji idxal məhsulları ilə müqayisəsi aparılaraq təhlillərin nəticəsində çay plantasiyalarının genişləndirilməsi üzrə optimal göstəricilər müəyyənləşdirilməli və müvafiq inkişaf planları hazırlanaraq həyata keçirilməlidir.

10. Tütün məmulatlarının istehsalının artırılmasının stimullaşdırılması.

Bu tədbir çərçivəsində həm yerli xammal, həm də tütün məmulatlarının istehsalının artırılması imkanları qiymətləndiriləcək, araşdırmalarda ölkənin regionları üzrə müxtəlif iqtisadi göstəricilər təhlil edilərək yerli tütün istehsalının iqtisadi səmərəliliyi qiymətləndirilərək, təhlilin nəticələrinə əsaslanaraq, tütün məmulatlarının istehsalının yerli xammal bazası və ya xammalın idxalı hesabına təşkili imkanları müəyyənləşdirilməli və bu istiqamətdə inkişaf planları hazırlanaraq həyata keçirilməlidir.

11. Pambıq, barama, yun, gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsi

Tədbir üzrə verilmiş istiqamətlərə uyğun olaraq əsas məhsullara şamil edilən xüsusi alətlər və stimullar paketi hazırlanmalı, bitkiçilik və heyvandarlıq məhsulları üzrə daha əlverişli regionların müəyyənləşdirilməli dövlətin tətbiq etdiyi daha effektiv vasitələri və dəstək mexanizmlərini özündə birləşdirilməlidir. Xüsusilə də, ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək üçün, rayon səviyyəsində orta, kənd səviyyəsində isə kiçik yun və gön-dəri emalı müəssisələri şəbəkəsinin formalaşdırılması istiqamətində müxtəlif inkişaf proqramları hazırlanmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
2. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

ABSTRACT

Abdulhuseyn Zamanov

THE PRODUCTION OF IMPORT SUBSTITUENT AGRICULTURAL AND PROCESSING INDUSTRY PRODUCTS

In this article were studied the opportunities for creating favorable conditions in terms of achieving the formation of a competitive agricultural production and processing sector, and increasing the volume of production based on the demand of domestic market or export markets.

РЕЗЮМЕ

Абдулгусейн Заманов

ПРОИЗВОДСТВО СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ И ПРОДУКЦИИ ПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ ИМЕЮЩИХ ПОТЕНЦИАЛ ИМПОРТНОЙ ЗАМЕНЫ

В статье проведены исследования по производству конкурентоспособной сельскохозяйственной продукции, созданию благоприятной среды для достижения формирования перерабатывающего сектора, а также возможности увеличения объёма соответствующего производства на основе спроса на внутреннем и на экспортных рынках.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07)
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

ELTUN İBRAHİMOV
AMEA Naxçıvan bölməsi
eltunibrahimov@yahoo.com

UOT: 330

DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN SƏMƏRƏLİ İCRASINDA MALİYYƏ SİSTEMİNİN ROLU

Açar sözlər: *sosial siyasət, maliyyə, büdcə, müstəqillik, maliyyə münasibətləri*
Keywords: *social policy, finance, budget, independence, financial relations*
Ключевые слова: *социальная политика, финансы, бюджет, независимость, финансовые отношения*

Ölkəmizdə son illərin iqtisadi və sosial siyasətin əsas prioritet istiqamətləri kimi tarazlı inkişaf strategiyası, bütün sahələr üzrə əldə olunmuş makroiqtisadi sabitliyin qorunub saxlanılması, əvvəlki illərdən qalan, icrasına tam nail olunmamış proqramların fəaliyyətinin davam etdirilməsi əhalinin rifah halının yaxşılaşdırılması və s. məsələlər müəyyən olunmuşdur. Qeyd eləmək lazımdır ki, ölkə əhalisinin maddi və sosial tələbatlarının tam gücü ilə qarşılanması dövlətin sosial siyasətinin əsas məqsədini təşkil edir.

Son illər ərzində dövlətin sosial siyasətinin səmərəli və sərfəli surətdə həyata keçirilməsi üçün aşağıdakı bir neçə səbəbi müəyyən etmişik:

Əvvəla, ölkəmiz müstəqilliyini yenicə əldə edib. Uzun müddət keçmiş Sovet quruluşunun təsiri altında yaşayan respublikamızda bütün sahələrdə olduğu kimi sosial sferada da asılılıq və boşluqlar meydana çıxmışdı. Müstəqilliyi qazandıqdan sonra isə mövcud problemlər dərhal müəyyən olunmuş və bu istiqamətdə hələ də tədbirlər həyata keçirilməkdədir.

İkincisi, beynəlxalq və regional inteqrasiya. Heç şübhəsiz, dünya dövlətlərinin təcrübələrindən bəhrələnmək, dünya birliyinə və Avropa dəyərlərinə uyğunlaşmaq bu istiqamətdə ən mühüm addımlardan hesab olunmalıdır. Çünki sosial və iqtisadi baxımdan zəif inkişaf edən, öhdəliklərini yerinə yetirə bilməyən ölkələrdə investisiya potensialı zəifləyər, turizm geridə qalar və miqrasiya məsələlərində problemlər ortaya çıxa bilər.

Üçüncüsü, müasir dövrdə dünyada gedən müxtəlif proseslər. Bunlara iqtisadi böhranları, regional münaqişələri, inqilabları, dövlət çevrilişlərini misal göstərə bilərik. Müşahidə etsək görərik ki, göstərilmiş problemlərin hamısının kökündə məhz sosial böhranlar dayanır və ya sonda sosial böhranlara çevrilir.

Qeyd olunmuş məsələlərin vaxtında icra olunması isə maliyyə sisteminin necə təşkil olunmasından və maliyyə siyasətinin necə icra olunmasından bilavasitə asılıdır. Maliyyə sistemi ölkə iqtisadiyyatının "qan damar" sistemi hesab olunmaqla, iqtisadi və sosial proseslərin tənzimlənməsi istiqamətində mühüm rola malikdir. Çünki iqtisadi və sosial inkişafı səciyyələndirən şərtlərin əsasında müəyyən olunmuş sahələr üzrə göstəricilərin mövcud vəziyyəti və bu sahələrdə həyata keçirilən islahatlar dayanır ki, bu islahatların aparılması ən əsası maliyyə resurslarının hesabına baş verir. Bu resurslar isə maliyyə sisteminə daxil olan fərqli qaynaqlardan həyata keçirilir. Maliyyə sistemi özü isə maliyyə münasibətləri əsasında möhkəm bir şəkildə təşkil olunur ki, bu münasibətlər sistemə daxil olan həlqələr arasında, dövlətlə insanlar və təşkilatlar arasında, vətəndaşlar və müəssisələrlə maliyyə orqanları arasında və s. şəkildə baş verə bilər.

Fərqli formalarda təzahür etməsinə baxmayaraq, maliyyə münasibətləri ümumi əlamətlərə malikdir. Bu əlamətlər onunla xarakterizə olunur ki, onların hamısı milli gəlirin və ümumidaxili məhsulun bölgüsünü həyata keçirməklə, pul vəsaiti fondlarının yaradılmasında və istifadəsində iştirak edir, bölgü prosesinin tənzimlənməsinə və nəzarətinə xidmət edir, hamısı əsasən pul formasında olur [3, s 78]. Maliyyə münasibətləri dövlətlə vətəndaşlar, dövlətlə müəssisə və

təşkilatlar, müəssisə və təşkilatlarla əhali arasında yaranır. Yəni dövlət sahib olduğu resursları müəyyən vasitələrlə insanlar və təşkilatlar arasında bölüşdürür, müəssisə və təşkilatların fəaliyyətindən əldə edilmiş vəsaitlərin müəyyən qismini büdcəyə toplayır, sonra onu ödəmələr və maaşlar şəklində yenidən təsərrüfat subyektlərinə və insanlara paylayır.

Araşdırmalar göstərir ki, dünyada baş verən iqtisadi böhranların demək olar ki, hamısının əsasında maliyyə münasibətlərindən yaranan və bir-biri ilə zənzirvari surətdə bağlı olan proseslər təşkil edir. Ona görə də maliyyə sistemini düzgün idarə etmək səmərəli maliyyə siyasətinin aparılması ilə mümkündür ki, burada ən vacib rolu dövlət oynayır. Əgər dövlət iqtisadiyyata bu və ya digər yollarla müdaxilə etməzsə, bunun sonu böhranla nəticələnəcəkdir.

Professor Saleh Məmmədov göstərir ki, bazar iqtisadiyyatı şəraitində maliyyə idarəçiliyi bir sıra yollarla təkmilləşdirilməlidir, bunlar aşağıdakılardır:

1. Qanunvericilik aktlarına uyğun olaraq tənzimlənmə. Bu aktlar maliyyə idarəolunmasının əsasını təşkil etməlidir və bütün subyektlər qəbul olunmuş qanunlar qarşısında məsuliyyət daşımalıdır;

2. Bu qanunlar hazırlanarkən ölkənin daxili inkişaf qanunauyğunluqları nəzərə alınmalıdır. Maliyyə orqanları müstəqil olmaqla, əksər məsələləri müstəqil həll etməlidirlər.

3. Maliyyəni idarə edən orqanların strukturuna yenidən baxılmalı, bazar iqtisadiyyatına uyğun olaraq yeni struktur vahidləri müəyyən edilməlidir. Ən önəmlisi, bərabər tabeçilik məsələsi ortadan qalxmalı, təşkilatlar müstəqil olmalıdır. [6, s 54-57]. Maliyyə sisteminin iqtisadi tənzimləmənin əsas aləti olması fikrini əsas tutaraq eyni zamanda, qeyd edə bilərik ki, dövlətin əsas strukturlarını təşkil edən orqanlar müəyyən tənzimedici alətləri və iqtisadi tədbirləri vasitəsilə hər zaman maliyyə və onunla bağlı məsələləri nəzarətdə saxlamalı, meydana çıxacaq istənilən mənfi hallara qarşı dərhal lazımi tədbirlər görməlidir. Ölkəmizdə maliyyənin idarə olunması ilə bağlı bütün məsələlər Milli Məclis, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Vergilər Nazirliyi və orqanları tərəfindən nəzarətdə saxlanılır. Qanunvericiliklə müəyyən edilmiş qaydada bu orqanların həyata keçirdiyi tədbirlərin əsas məqsədi düzgün maliyyə siyasəti formalaşdırmaq və maliyyə imkanlarından səmərəli istifadə olunması qaydalarını müəyyənləşdirməkdir.

Respublikamızın maliyyə sistemi özündə bir sıra altsistemləri birləşdirməklə, dövlət büdcəsi, büdcədənkənar dövlət fondları, sığorta maliyyəsi, təsərrüfat subyektlərinin maliyyəsi, banklar və digər kredit orqanlarının maliyyəsi, habelə fiziki şəxslərin maliyyəsini əhatə edir. Bu həlqələrin hər biri birbaşa və ya dolayı yolla dövlətin məqsədli plan və proqramlarının maliyyələşməsinə və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

Ümumi şəkildə göstərmək olar ki, bütün maliyyə xidmətlərini həyata keçirən orqanlar və həlqələr bu və ya digər formada sosial layihələrin resurs təminatında böyük rol oynayırlar. Misal üçün, dövlət büdcəsi, büdcədənkənar fondlar, banklar və kredit təşkilatları, böyük və kiçik müəssisələr müxtəlif formada dövlətin sosial siyasətinin həyata keçirilməsinə öz töhvələrini verirlər. Tutaq ki, banklar bu proseslərdə birbaşa iştirak eləmir. Lakin onlar lazım olan halda müəyyən sahələrin və təsərrüfat subyektlərinin sərfəli maliyyə resursları ilə təminatı baxımından iqtisadi və sosial proseslərdə fəal iştirak edirlər. Elə dünya təcrübəsinə nəzər saldıqda şahid ola bilərik ki, düzgün bank sisteminin və bank siyasətinin formalaşdığı ölkələrdə yüksək sosial inkişaf mövcuddur. Ölkəmizdə bu sahə üzrə xeyli problemlər olmasına baxmayaraq, hesab olunur ki, gələcəkdə bank sistemi müəyyən alətlər vasitəsilə sosial problemlərin həll edilməsində üzərinə düşən vəzifələrin öhdəsindən gələ biləcəkdir.

Məlum olduğu kimi təhsil sistemi sosial sahənin əsas hissələrindən biridir və dünya təcrübəsində bu sahəyə dövlət orqanları ilə yanaşı banklar da təhsil krediti vasitəsilə böyük dəstək göstərirlər. Təhsil krediti ölkəmizdə zəif inkişaf edib və xeyli sayda az bankın maraq dairəsindədir. Əslində onlarda kortəbii sürətdə və yüksək faizlərlə bu sahədə o qədər də yaxından iştirak eləmirlər. Ona görə ki bu sahədə lazımi baza və təcrübə yoxdur. Hal-hazırda "təhsil kreditləri haqqında" qanunun qəbulu üçün Azərbaycan Respublikasının Milli Məclisində müzakirələr gedir və qanunun qəbulu üçün xeyli təkidlər mövcuddur. Təhsil kreditlərinin verilməsi qanun şəklində qorunarsa və təkmilləşərsə yüksək nəticələr verəcəkdir. Qanunun hazırlanmasında xarici ölkələrin, xüsusən də inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilmişdir. Təhsil kreditləri aztəminatlı əhali üçün

keyfiyyətli təhsil imkanlarını genişləndirib təhsilə dövlət dəstəyini gücləndirər. Bu həm də bankların biznes maraqları və kadr təminatı baxımından xeyli önəm daşıyır. Təhsil kreditləri bir növ insan kapitalına sərmayədir. Onun üçün də nəinki dövlət, eyni zamanda kommersiya təşkilatları və banklar bu sahədə maliyyə dəstəyi göstərməlidir (Qanun layihəsi millət vəkili Əli Məsimov tərəfindən hazırlanmışdır – E.İ).

Yaxud da müəssisələrin sosial fəaliyyətdə olan roluna nəzər salsaq görərik ki, onlar büdcə gəlirlərinin formalaşmasında, iqtisadiyyatın müəyyən əmtəə və xidmətlər üzrə ixtisaslaşmasında, əmək bazarında məşğulluğun təmin olunmasında əvəzsiz xidmətlərə malikdirlər.

Dövlətin sosial siyasətinin səmərəli icrasında dövlət büdcəsinin və büdcədənkənar fondların rolunu qeyd etmək xüsusi olaraq yerinə düşər. Çünki dövlət büdcəsi birbaşa dövlətin sosial siyasətini həyata keçirən əsas maliyyə vasitəsidir. Hər il təsdiq olunan dövlət büdcəsində sosial layihələrlə bağlı olan bütün hər şey onun tərkibində öz əksini tapır.

Sosial siyasətin əsas subyekti elə dövlətin özüdür. Dövlət bir növ əsas güc sahibidir. İstənilən prosesə və obyektə birbaşa və dolayı yollarla təsir göstərə bilir. Bu yöndə isə pul resurslarının mərkəzləşmiş qaydada toplanması və lazımi istiqamətlərə yönləndirilməsi bilavasitə dövlətin ixtiyarındadır. Dövlət cəmləşmiş pul vəsaitlərini büdcədə toplamaqla həyata keçirdiyi siyasət vasitəsilə sosial-iqtisadi proseslərin tənzimlənməsində onlardan istifadə edir. Sosial siyasətin həyata keçirilməsi və əhalinin sosial təminatının daha da gücləndirilməsi bilavasitə dövlətin öz marağındadır. Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində sosial təminatla bağlı olan məsələlər ətraflı surətdə öz əksini tapmışdır (1).

Aşağıda tərtib olunan cədvəldə 2017 və 2018-ci illər üçün dövlət büdcəsindən sosial məsələlərin həlli üçün ayırmalar təfsilatı ilə öz əksini tapmışdır:

Sosialyönlü xərclərin əsas istiqamətləri

Kateqoriya	**İllər üzrə (mln.manatla)**	
	2017	**2018**
Əməyin ödənişi	4077,0	4237,0
Ərzaq, dərman və sarğı ləvazimatlarının alınması	541,2	556,7
Təqaüdlər və sosial müavinətlər	2067,8	2211,2
Elm	118,5	128,1
Təhsil	1733,4	2001,5
Səhiyyə	745,4	740,7
Sosial müdafiə və sosial təminat	2053,1	2197,2
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	282,6	304,3
Cəmi	11619,0	12376,7

Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Məlumatlardan göründüyü cəmi sosial yönlü xərclərdə vəsaitlərin ümumi miqdarı 2017-ci illə müqayisədə 2018-ci ildə daha artıq nəzərdə tutulmuşdur (təxminən 757 milyon manat və ya 6%). Bu onunla əlaqəlidir ki, dövlət büdcəsinin ümumi həcmi 2018-ci ildə daha artıq nəzərdə tutulmuşdur. Cədvələ daha dərindən fikir versək görərik ki, bütün göstəricilərdə artım müşahidə olunmaqdadır (səhiyyədən başqa) və əgər iqtisadi sağlamlaşdırma tədbirləri davam edərsə, bu tendensiyanın önümüzdəki illərdə də davam etməsi planlaşdırılır.

Əməyin ödənişi üzrə büdcə ayırmalarında 2018-ci il üçün ondan əvvəlki illə müqayisədə 160 mln.manat və ya 3%, ərzaq, dərman və sarğı ləvazimatlarının alınması üçün 15,5 mln. manat və ya 2%, təqaüdlər və sosial müavinətlər üçün 143 mln. manat və ya 6%, elm xərcləri üçün 9,6 mln.manat və ya 7%, təhsil xərcləri 268,1 mln. manat və ya 13%, sosial müdafiə və sosial təminat xərcləri 144,1

mln.manat və ya 6%, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət üçün isə 21,7 mln.manat və ya 7 % artım nəzərdə tutulmuşdur. Əvvəlki illə müqayisədə dövlət büdcəsində səhiyyə üçün xərclər 4,7 mln.manat və ya 0,6% az nəzərdə tutulmuşdur.

Dövlətin sosial siyasətinin maliyyə təminatının düzgün müəyyən olunmasında büdcədənkənar fondlar da ən az dövlət büdcəsi qədər əhəmiyyətə malikdir. Ölkəmizdə bir sıra büdcədənkənar fondlar mövcuddur ki, sosial məqsədlərin idarə olunmasında onların ən mühümləri Dövlət Sosial Müdafiə Fondu (DSMF), Məşğulluq və Əlillərin Sosial Müdafiə Fondu və Dövlət Neft Fondu hesab olunur.

Büdcədənkənar fondların əsas vəzifəsi regionlarda sahibkarlıq mühitini formalaşdırmaq, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, onların sağlamlığının qorunması, işsizlərə sosial müavinətlərin verilməsi və digər sosial xidmətlərin göstərilməsindən ibarətdir.

Yuxarıda qeyd olunan maliyyə fondları hesabına sosial təminat sisteminin idarə olunması, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, məşğulluq imkanlarının artırılması, iqtisadi inkişaf istiqamətində vacib layihələrin maliyyələşdirilməsi, neft gəlirlərinin dövlət büdcəsinə yönəldilməsi və bu gəlirlərin əhali arasında bölüşdürülməsi, qaçqın və məcburi köçkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması, kadr islahatlarının aparılması, xüsusən də respublika gənclərinin xarici ölkələrdə təhsil alması və s. kimi mühüm işlərin görülməsi əsas diqqət mərkəzindədir.

Beləliklə, bütün bu qeyd olunan maliyyə alətləri hər biri öz növbəsində dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi istiqamətində əvəzsiz maliyyə qaynaqları hesab olunurlar. İnsanların sosial tələbatlarının vaxtında ödənilməsi dövlətin sosial siyasətinin əsas funksiyası kimi maddi resurslardan bilavasitə asılıdır. Əgər ölkədə sağlam maliyyə sistemi formalaşarsa, mövcud problemlər vaxtında həll olunarsa, bütün sahalərdə şəffaf maliyyə təminatı öz təşəkkülünü taparsa bu özlüyündə dövlətin bazar münasibətləri şəraitində hərtərəfli siyasətini və bu siyasətin həyata keçməsi istiqamətində tədbirləri dəstəkləyəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, Qanun, 2009, 72 s
2. Azərbaycan Respublikasının 2018-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Bakı, 2016, 56s.
3. Ataşov B., Novruzov N., İbrahimov E. Maliyyə Nəzəriyyəsi, Bakı, Kooperasiya, 2014, 648 s.
4. Ələkbərov Ə.Ə. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu, Bakı, Elm, 2005, 352 s.
5. Nuriyev Ə. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları, Bakı, Avropa, 2013, 422 s.
6. Sadiqov M.M, Məmmədov S.M. Maliyyə, Gəncə, ADAU, 2010, 568 s.

ABSTRACT

Eltun İbrahimov

THE ROLE OF FINANCIAL SYSTEM TO IMPLEMENT EFFECIENT SOCIAL POLICY

As an indispensable part of economic system, financial system has been very important to adjust every country`s economic proceedings in all historical ages. From what points if we look at these issues, it is very hard to find any area where the processes going on and the reforms carried out here are possible without financial aids. As it is well known, the government arranges plans and programs for different areas of the country and implements its state policy on the basis of its defined strategy in the global and regional context due to these plans and programs. The ultimate result of all the implemented policies is to form up the strategic power of the state and to gain the best quality of the population's socio-economic needs. It should be strongly emphasized that if we look at the world countries experiences we can see that a well-organized financial system and rational financial policy stands behind the economic and social policies of all developed countries. Because looking through

the budget system, bank system, tax-insurance system of these both financially and socially well developed countries we may witness the highest growth indicators here. From this point this article deals with the role of financial system, its subsystems and financial policy, their mutual relationships in the comprehensive and proper implementation of the government's social policy.

РЕЗЮМЕ

Елтун Ибрагимов

РОЛЬ ФИНАНСОВОЙ СИСТЕМЫ В ЭФЕКТИВНОМ ОСУЩЕСТВЛЕНИИ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ ГОСУДАРСТВА

Финансовая система, являясь незаменимой частью экономической системы, играла большую роль в управлении экономики на всех уровнях исторического развития. Не зависимо от того с какой стороны смотреть, нельзя найти такую область в которой идущие процессы и проводимые реформы обошлись бы без финансового обеспечения. Как известно, государство создает планы и программы для различных областей в жизни страны и проводит государственную политику на основе определенной стратегии в глобальном и региональном контексте соответственно этим планам-программам. Конечная цель проведения любой политики является формирование стратегической силы государства и качественное в хорошем смысле этого слова обеспечение социально-экономических потребностей населения. Особо следует отметить что, видя опыт мировых стран, у всех развитых стран за экономической и социальной политикой стоит правильно организованная финансовая система и осуществляемая финансовая политика. Так как эти страны являются впереди всех со стороны финансов или с социальной точки зрения они имеют высокие показатели в банковской системе, страховой-налоговой системы. С этой точки зрения, в статье говорится о роли финансовой системы, ее отдельных ответвлений и взаимосвязях финансовой политики в правильном осуществлении всесторонней социальной политики государства.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

FAMİL HƏSƏNOV
Naxçıvan MR Vergilər Nazirliyi

UOT: 330

REGİONLARIN İNKİŞAF DİNAMİKASINDA VERGİLƏRİN ROLU

Açar sözlər-*regionların inkişafı, əlverişli investisiya mühiti, vergilərin əhəmiyyəti, vergi güzəştləri.*

Key words: the development of the regions, suitable investment environment, tax policy, the significance of the taxes, tax concessions.

Ключевые слова: *развитие регионов, плодотворная инвестиционная среда, налоговая политика, значение налогов, налоговые скидки*

Regionların dayanıqlı və dinamik inkişafının təmin edilməsi dövlət tərəfindən həyata keçirilən balanslaşdırılmış iqtisadi siyasətdən biri başa asılıdır. Ölkəmizin regionlarında dayanıqlı sosial-iqtisadi inkişafı təmin edən istehsal infrastrukturunun yaradılması və investisiya mühiti müasir dövrdə olduqca əhəmiyyətlidir. Bu baxımdan regionlarda istehsal infrastruktur sisteminin mükəmməlliyinə və inkişafının investisiya təminatlığına təsir edən amillər müəyyən olunmalı və bu sferada daha əlverişli şəraitin formalaşdırması yolları göstərilməlidir. Regional inkişafın təşkili, genişləndirilməsi və istehsal infrastrukturunun təkmilləşdirilməsi istiqamətində yerli resurslara əsaslanan, xarici bazarlara çıxışı olan rəqabətqabiliyyətli yeni istehsal strukturlarının qurulması da ən vacib şərtlərdəndir.

Məlum olduğu kimi, kimi ölkəmizin İqtisadi rayonları potensialına, təbii sərvətlərinin miqyasına və çeşidinə, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənirlər. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonlarımızı fərqləndirən amillər aşağıdakılardır:

1.İqtisadi-coğrafi mövqeyi;
2.təbii şəraiti və ehtiyatları;
3.əhalinin məskunlaşma səviyyəsi;
4.regionun sahə və ərazi quruluşu;
5. bazisi, inkişaf xüsusiyyətləri.

Son dövrlərdən etibarən ölkəmizin regional dinamik inkişafının tənzimlənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2009-2013)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (20014-2018)" və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələlərnin başlanğıcını qoymuşdur. Bundan əlavə qeyri-neft sektorunun davamlı inkişafı yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan vermiş, sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynamışdır. Ölkədə iqtisadiyyatın diversifikasiyasına və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə nail olmaq məqsədi ilə regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq edilmişdir. Kənd təsərrüfatına dövlət qayğısının və bu sahəyə birbaşa subsidiyaların artırılması, regionlarda emal müəssisələrinin yaradılmasına investisiyaların cəlb edilməsi, qeyri-neft, qeyri-xammal sənaye sahələrinin, turizmin inkişafının təmin edilməsi 2014-2018-ci illərdə qarşıda duran prioritet istiqamətlər hesab olunur [2]. Regional

inkişafın vergi tənzimlənməsi məqsədilə vergi sisteminin təkmilləşdirilməsi istiqamətində qarşıdakı illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [6, 7]: vergi dərəcələrinin optimallaşdırılması; sahibkarlığın təşviqinə yönəlmiş vergi-gömrük siyasətinin həyata keçirilməsi; kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin müddətinin uzadılması; sahibkarlara göstərilən vergi xidmətinin yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi üçün kompyuter terminallarının və özəl vergi məsləhəti xidmətinin yaradılması və s.

Azərbaycan Respublikasında son illərdə aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində ölkənin iqtisadi inkişafı ilə yanaşı büdcə sistemi də inkişaf etmiş və təkmilləşmişdir. Bazar münasibətləri şəraitində regional iqtisadiyyatın tənzimlənməsində dövlətin vergi sisteminin optimal siyasət altında nizamlanmasına böyük ehtiyac vardır. Qeyd etmək lazımdır ki, respublikamızın müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sferalarında olduğu kimi vergi sistemində də qanuna müvafiq addımlar atılmış, qanunverici, icraedici və s. orqanlar yaradılmışdır. Hər bir sahədə olduğu kimi vergi sisteminin təkmilləşdirilməsi sahəsində də bir çox tədbirlər görülmüşdür. Bu tədbirlər vergi qanunvericiliyinin yaradılması, vergi sisteminin struktur tərkibinin yaradılması və onun təkmilləşdirilməsi ilə bağlı olan tədbirlərdir. Müasir inkişaf mərhələsində regional siyasət və idarəetmə məsələləri bütün demokratik ölkələrdə olduğu kimi Azərbaycanda da öz aktuallığı ilə fərqlənir. Hazırkı mərhələdə ölkə iqtisadiyyatının daha da inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin yerinə yetirilməsi regionların inkişafının sürətləndirilməsini, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun artırılmasını, bu istiqamətdə dövlət qayğısının genişləndirilməsini və ən əsası regional inkişafın vergi tənzimlənməsi məsələləri regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasını tələb edir. Bu baxımdan qeyd etmək lazımdır ki, regionların maliyyə vəziyyətinin yaxşılaşdırılması və sahibkarlığın regional inkişafının sürətləndirilməsi bu gün xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir. Məhz sadalanan vəzifələrin həyata keçirilməsi istiqamətində mühüm sənəd olan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı regional iqtisadiyyatın və sahibkarlığın daha intensiv inkişafına münbit şərait yaratmışdır. Bu isə regionlarda vergi ödənişlərinin ümumi daxilolmalardakı payının artmasına müsbət təsir göstərmişdir [5,s 7].

Regional inkişafda vergi tənzimlənməsinin rolu Vergilərin təsərrüfat fəaliyyətinə tənzimləyici təsiri çoxcəhətlidir. Vergi tənzimləməsinin mahiyyəti təkrar istehsal proseslərinə istənilən müdaxilənin iqtisadi baxımdan məqsədyönlü və əsaslandırılmış olmasından ibarətdir. Vergi dərəcəsinin seçilməsi və təyini vergi tənzimlənməsinin xüsusi diqqət tələb edən metodudur. Vergi dərəcəsi vergi bazası ilə birlikdə təsərrüfat subyektinin büdcəyə ödəyəcəyi məbləği müəyyən edən əsas amildir. Vergi dərəcəsinin optimal səviyyəsi elə olmalıdır ki, həm təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının, ödəmə qabiliyyətinin və mənfəətliliyinin, həm də dövlətin fiskal maraqlarının təmin olunmasına şərait yaratsın. Praktikada vergi tənzimləməsi əsasən vergi güzəştləri və vergi sanksiyaları vasitəsilə həyata keçirilir. Bu üsulların qarşılıqlı və mütənasib formada tətbiqi vergi siyasətinin nəticəliliyinə ümid verir. Vergi güzəştləri sisteminə aşağıdakıları aid etmək olar: avans ödəmələrin ləğvi; ödənişin müraciət əsasında təxirə salınması; ayrı-ayrı vergi ödəyicilərinin vergilərədən azad edilməsi; vergi dərəcəsinin azaldılması və s. Dövlətin vergi siyasəti belə şərtlərin bərabərləşdirilməsində vergi güzəştləri ilə bərabər, möcud iqtisadi potensialdan müstəqil şəkildə istifadə etmək imkanlarının yaradılmasından da istifadə edə bilər. Vergi güzəştləri sistemi vergi sanksiyaları ilə qarşılıqlı surətdə əlaqəlidir. Vergi sanksiyalarına maliyyə (cərimələr, peniyalar, verginin ödənilməmiş hissəsinin ödənilməsi və s.) və inzibati sanksiyalar aid edilir. Vergi sanksiyalarının tərkibi vergi pozuntusunun növündən asılıdır. Maliyyə sanksiyaları təsərrüfat subyektlərinə, inzibati sanksiyalar isə təsərrüfat subyektinin məsul şəxslərinə tətbiq olunur. Vergi tənzimlənməsinin güzəştlər və sanksiyalar vasitəsilə tətbiqinə zərurət sosialiqtisadi və siyasi-ictimai dəyişikliklərdən qaynaqlanır. Məhz vergi tənzimlənməsi üzrə məcmu tədbirlər bu dəyişikliklərin nəzərə alınması və onlara müvafiq reaksiyanın verilməsini təmin edir. Vergi tənzimlənməsinin məqsədi dövlətin büdcə-vergi sahəsindəki maraqları ilə bərabər, vergi ödəyicilərinin də maraqlarının təmin olunmasından və ölkədə ümumi rifahın yüksəldilməsi üçün zəruri şəraitin yaradılmasından ibarətdir.

Vergi tənzimləməsi sahibkarların və əhalinin iqtisadi fəallığını stimullaşdırmalıdır. Bu vəzifə vergi dərəcələrinin təyin olunması vasitəsilə həllini tapır. Vergi daxilolmaları dövlət xərclərinin ödənilməsi üçün kifayət qədər olmadıqda büdcə kəsiri yaranır ki, bu da öz növbəsində inflyasiyaya səbəb olur. Nəticədə pulun alıcılıq qabiliyyəti azalır, əhalinin və təsərrüfat subyektlərinin nəğd pul vəsaitləri qiymətini itirir. Əgər büdcə kəsirinin maliyyələşdirilməsi zamanı mobilizə edilmiş vəsaitlər səmərəli istifadə olunarsa və dövriyyə zamanı iqtisadi artıma səbəb olarsa, onda inflyasiya prosesləri qısamüddətli olur. Əks halda isə, büdcə kəsirinin maliyyələşdirilməsi iqtisadi disbalansın yaranmasına və inflyasiya proseslərinin güclənməsinə gətirir. Vergi tənzimlənməsində vergi dərəcələri ilə bərabər vergi güzəştləri sistemindən də istifadə olunur. Güzəştlər cəmiyyət üçün zəruri olan aşağıdakı fəaliyyət növlərini stimullaşdırır [4, s 6], sosial sahələrə investisiyalar; təbiətin qorunması və xeyriyyəçilik tədbirlərinə qoyuluşlar; yeni məhsulların istehsalı və s. Vergi güzəştləri iqtisadi baxımdan əsaslandırılmış hədlər daxilində reallaşdırılmalıdır. Laffer təliminə görə sahibkarların və əhalinin gəlirlərinin büdcəyə ödənilən hissəsi 30%-dən çox olmamalıdır. Əgər vergi yükü 40-50% səviyyəsində olarsa, onda sahibkarların və əhalinin investisiya fəallığı azalır. Nəticədə həm dövriyyənin, həm də mənfəətin azalması baş verir ki, bu da sonda vergi bazasının və vergi daxilolmalarının azalmasına gətirir.

Fikrimizcə, vergi tənzimlənməsi dövlətin büdcənin formalaşması və istifadə olunması üzrə kompleks idarəetmə tədbirləri ilə əlaqələndirilməlidir. Ərazilərə və iqtisadiyyatın əsas sahələrinə verilən güzəştlər iqtisadi inkişafa və əhalinin maddi rifahının yaxşılaşmasına təkan verir.

Respublikamızda son zamanlar regionlar üzrə sosial-iqtisadi problemlərin həlli istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilməsi regional inkişafda uğurlu nəticələrin reallaşmasına səbəb olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçıları vergidən azad edilmiş, Bakı şəhəri istisna olmaqla regionlar üzrə sadələşdirilmiş sistem üzrə 2% vergi dərəcəsi müəyyən edilmiş (VM. maddə:220), Nazirlər Kabineti tərəfindən ölkəyə idxal olunan bir sıra mal və avadanlıqların ƏDV və gömrük rüsumundan azad olunmasına dair qəbul edilən qərar (25 yanvar 2011-ci il tarixli, 17 nömrəli) qeyri-neft sektorunun inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə, eyni zamanda təsərrüfat və müəssisələrdə dövriyyə vəsaitinə qənaət edərək texnoloji yönümlü investisiyaların təşviq edilməsinə, rəqabətə davamlı məhsul istehsalına keçməyə, regionlarda formalaşmış kənd təsərrüfatı məhsulları emalı və istehsalını stimullaşdırmaqla regionların inkişafına, qeyri-neft sektorunda ixracın genişlənməsinə əlverişli şərait yaratmışdır [1].

Regionların dinamik inkişafının təmin olunmasında vergi və vergitutmanın səmərəliliyini nəzərdən keçirərkən aşağıdakı istiqamətlərə xüsusilə diqqət yetirilməlidir: 1. Regionların inkişafının təmin olunması zamanı kənd təsərrüfatı məhsulları istehsalçılarının vergidən azad olunmasının, regionlarda sadələşdirilmiş sistem üzrə aşağı faiz dərəcəsinin tətbiqinin davam etdirilməsi,

2. Regionlarda yerli xammal və təbii sərvətlərə əsaslanan emal fəaliyyətini həyata keşirən hüquqi şəxslərin mənfəət vergisini və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər fiziki şəxslərin gəlir vergisini ödəməkdən azad edilməsi,

3. Aqrar sektora ayrılan vəsaitlərin həcmi müəyyənləşdirilən zaman məhsulun strateji əhəmiyyət daşıması nəzərə alınmalı, strateji məhsul yetişdirib onun emalının həyata keçirilməsini stimulaşdırmaq məqsədilə fermerlərə vergi güzəştlərinin tətbiqi istiqamətində qanunvericilik bazası təkmilləşdirilməlidir. Vergi-büdcə sisteminin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülsə də bu sahədə müəyyən problemlər mövcuddur. Bu problemləri həll etmək üçün dövlət bir sıra iqtisadi qanunlar qəbul etməklə regional inkişafa daha effektli zəmin yaratmalıdır. Dövlət büdcəsinin tənzimlənməsi və büdcə kəsirinin aradan qaldırılması üçün vahid büdcə-vergi siyasətinin aparılmasına böyük ehtiyac vardır.

Hesab edirik ki, vahid büdcə-vergi siyasətində inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaqla yanaşı, milli, regional prinsiplər də diqqətdən kənarda qalmamalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: 2018,
2. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2009-2013),

Bakı, 2009. (2014-2018) Bakı-2014,
3. .Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimənməsi. Bakı: "Nasi", 2002, 447 s.
4. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: "Elm", 2005, 468 s.
5. Mahmudova İ.M., Mahmudov M.M. "Region iqtisadiyyatının tənzimlənməsi", Bakı 2001, 430 s.
6. Məmmədov F.Ə. və başqaları. Vergilər və vergitutma. Bakı: 2010, 512 s.
7. Nuriyev Ə.X. "Regional idarəetmənin əsasları", Bakı: 2007, 428 s. 80 P.Rzayev. Regional inkişafın vergi tənzimlənməsi məsələləri
8. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: İqtisadi artım, dinamik inkişaf, Bakı-2008

ABSTRACT

Famil Hasanov

THE ROLE OF TAXES IN DEVELOPMENT DYNAMICS OF THE REGIONS

In the article, the role of taxes is mentioned in the development of Azerbaijan and its separate regions. It is noted that after the President of the state, sir Ilham Aliyev came to power, three state programs that he adopted concerning social-economic development of the regions of the Republic of Azerbaijan and utilization of the taxes as a financial source in the implementation of the goals set in front here play an important role. From this viewpoint, the tax policy pursued by this state is among the series of major priorities.

It is obvious that, roughly 70-80 percent of budget incomes shapes at the expense of funds entered with the tax line. Taking this into consideration, a particular attention is paid to the elimination of tax evasion cases, improvement of tax supervision more.

Generally, a number of suggestions are made by indicating the impact of tax reforms carried out in the republic for the economic development at the end of the article.

РЕЗЮМЕ

Фамиль Гасанов

РОЛЬ НАЛОГОВ В ДИНАМИЧЕСКОМ РАЗВИТИИ РЕГИОНОВ

В статье рассматривается проблема роли налогов в развитии экономики Азербайджана и его отдельных регионов. Отмечается, что с приходом к власти Президента страны господина Ильхама Алиева и принятием им трех Государственных программ по социально-экономическому развитию регионов Азербайджанской Республики и использование налогов как важного финансового источника играет важную роль в выполнении поставленных в них задач.

Известно, что приблизительно 70-80 % доходов бюджета формируется за счет средств, поступающих по линии налогов. Учитывая это, в статье особое внимание уделено на ликвидации отклонений от уплаты налогов, более усовершенствованию налогового контроля.

В закюлчении анализируется влияние на экономическое развитие налоговой политики, проводимой в стране, дается ряд рекомендаций и предложений.

NDU-nun Elmi Şurasının 29 mart 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

MÜNDƏRİCAT

İQTİSADİYYAT

1. **Ağarza Rüstəmov, Nazim Abıyev**. Aqrar sahədə reallaşdırma mexanizmlərinin istehsalkçı tələblərinə uyğun transformasiya strategiyası..... 3
2. **Nazim Əhmədov.** İnsan kapitalının inkişafı dövlət siyasətinin priopitet istiqamətidir..... 10
3. **Dilsuz Qasımov.** Dövlətin aqrar siyasəti: aqro-ərzaq zəncirinin inkişafında dövlətin dəstəyi və özəl sektorun rolu..... 13
4. **Əşrəf Ələkbərov.** Dövlətin sosial siyasəti və onun əsas istiqamətləri..... 17
5. **Теймур Аббасов.** Naxçıvan Muxtar Respublikasinda mövcud olan bazar münasibətlərinin xüsusiyyətləri..... 24
6. **Mehdi Bağırov.**İqtisadi sahələrdə tətbiq olunan biznes-sənədləşmələrin xüsusiyyətləri və təşkili imkanları..... 30
7. **Həvva Adıgözəlova**, **Məftun Abbasov.** İnvestisiya fəaliyyətinin artirilması və ixracatın stimullaşdırılması məsələləri..... 35
8. **Abbasağa Babayev.** İnnovasiya biznesinin mahiyyəti və onunla əlaqəli elmi yanaşmalar..... 42
9. **Məftun Abbasov**. Aqrar sahənin ixracyönümlüyün artırılması istiqamətləri haqqında..... 48
10. **Gülarə Rəhimova, Elşən Məmmədov.** Ekonometrik proqnozlaşdırmada proqnoz keyfiyyətinin qiymətləndirilməsi..... 53
11. **Mədinə Allahverdiyeva.** Qadın sahibkarlığının inkişafında yeni meyillər: problemlər, təşəbbüslər və uğurlar..... 59
12. **Bulqeyis Novruzova.** Maliyyə şəffaflığının təmin edilməsi dayanıqli iqtisadi inkişafın əsas amilidir..... 63
13. **Həsən Abbasov**. Kənd təsərrüfatının iqtisadi vasitələrlə tənzimlənməsinin beynəlxalq təcrübəsi, onun ölkədaxili istifadəsinin planlaşdırılması və proqnozlaşdırılması..... 66
14. **Bəhriyyə Abbasova.** Qlobal iqtisadi problemlər və qlobal maliyyə böhranı..... 74
15. **Samiddin Qasımov**. Ev təsərrüfatlarının təsnifləşdirilməsinin spesifik cəhətləri..... 78
16. **Ülvi Baxışlı.** Beynəlxalq infrasturuktur layihələrinin Azərbaycan iqtisadiyyatında rolu..... 86
17. **İlham Hüseynov, Həvva Adıgözəlova**. Aqrar sahədə investisiya istiqamətlərinin seçilməsi və əsaslandırılması xüsusiyyətləri..... 90
18. **Eyvaz Eyvazov.** Kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində beynəlxalq təcrübədən istifadə..... 96
19. **Nuriyyə İbrahimova.** Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafında sahibkarlıq fəaliyyətinin sürətli inkişaf istiqamətləri..... 104
20. **Şahin Əliyev.** Naxçıvan və İran arasında nəqliyyat əlaqələrinin inkişafı, onun iqtisadi səmərəliliyi..... 107
21. **Səxavət Heydərli.** Azərbaycanda ərzaq bazarının inkişafı və təkmilləşdirilməsi məsələlərinə dair..... 113
22. **Murad Sevdimalıyev**. Xammal ehtiyatları və mineral resursların düzgün istifadəsi ilə Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafına təsir mexanizminin təkmilləşdirilməsi..... 120
23. **İlham Əlizadə.** Heydər Əliyevin neft srtategiyası. "BP" və tərəfdaşları "Şah dəniz" layihəsində..... 125
24. **Mayisə Abbasova.** Naxçıvan Muxtar Respublikasında özəl sahibkarlığa dövlət dəstəyinin rolu..... 131
25. **Araz Əsgərov**. Sənaye parklarında işgüzar fəaliyyətin stimullaşdırılması istiqamətində mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi..... 134
26. **Cavadxan Qasımov.** Naxçıvan Muxtar Respublikası: aqrar sektorda məşğulluq

probleminin həllində yeni mərhələ..... 141
27. **Vüsal Novruzov.** İqtisadi artım şəraitində Romer modeli və onun tətbiqi..... 145
28. **Məhsəti Məmmədova**. Naxçıvan iqtisadiyyatı ən yüksək inkişaf mərhələsində..... 148
29. **Mehriban İmanova, Zekeriya Bingöl.** Azərbaycanda mədəni irs turizm sənayesinin əsas inkişaf xüsusiyyətləri..... 150
30. **Həsən Məmmədov**. Bazar infrastrukturunun mahiyyəti və iqtisadiyyatın davamlı inkişafında rolu..... 155
31. **Ağarza Rüstəmov, Ağadadaş Qafarov.** Azərbaycan Respublikasının iqtisadi rayonlarında kənd təsərrüfatı müəssisələrinin texniki təchizat səviyyəsinin təşkili.. 159
32. **Rəsul Ələkbərov.** Azərbaycan iqtisadiyyatında kiçik müəssisələrin yeri və rolu..... 164
33. **Sədaqət Əhmədova, İkram Cəbrayılov**. Təkrar istehsal prosesinin nəzəri təhlili və region iqtisadiyyatında təzahürləri..... 169
34. **Əbdülhüsüyn Zamanov.** İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalı..... 174
35. **Eltun İbrahımov.** Dövlətin sosial siyasətinin səmərəli icrasında maliyyə sisteminin rolu... 178
36. **Famil Həsənov.** Regionların inkişaf dinamikasında vergilərin rolu…… 183